**TƏRANƏ RƏHİMLİ**

# ƏDƏBİYYAT VƏ TƏNQİDİN YARADICILIQ PROBLEMLƏRİ

(Akademik Kamal Talıbzadənin elmi-nəzəri irsi əsasında)

**Dərs vəsaiti**

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 30 noyabr 2006-ci il tarixli, 866 nömrəli əmri ilə təsdiq edilmişdir.**

**BAKI – «AVROPA» – 2009**

**Elmi redaktoru və**
**ön sözün müəllifi:** **HIMALAY QASIMOV**
*filologiya elmləri doktoru,*
*professor*

**Rəyçilər:** **ABBAS HACIYEV**
*filologiya elmləri doktoru,*
*professor*

**ELMAN QULIYEV**
*filologiya elmləri doktoru,*
*professor*

**TƏYYAR CAVADOV**
*filologiya elmləri doktoru,*
*dosent*

**Təranə Rəhimli. Ədəbiyyat və tənqidin yaradıcılıq problemləri.** Bakı, «Avropa», 2009, 252 səh.

*Görkəmli tənqidçi və ədəbiyyatşünas, Əməkdar elm xadimi, akademik Kamal Talıbzadənin elmi-nəzəri irsinin tədqiqinə həsr edilmiş bu kitabda alimin ədəbiyyat və tənqidin müxtəlif yaradıcılıq problemlərinə dair tədqiqatları sistemli şəkildə araşdırılmışdır. Onun milli ədəbiyyatın tarixi və nəzəri məsələlərinin, rus ədəbiyyatı ilə əlaqələrinin, milli estetik fikrin inkişaf tarixinin öyrənilməsi baxımından dəyərli fundamental monoqrafiyaları, məqalələri Azərbaycan ədəbiyyatının əsas inkişaf meylləri və istiqamətləri kontekstində tədqiq edilmişdir.*

*Kitab universitetlərin filologiya fakültələrinin tələbələri, magistrlər, aspirantlar, ədəbiyyatşünas alimlər üçün nəzərdə tutulmuşdur.*

# *ÖN SÖZ*

*Müasir dövrdə Azərbaycan ədəbiyyatşünaslığının müxtəlif problemlərinin çağdaş nəzəri düşüncə müstəvisində araşdırılması elmi-metodoloji baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu cəhətdən XX əsrin ikinci yarısında milli ədəbiyyatşünaslığımızı çoxşaxəli tədqiqatları ilə zənginləşdirən akademik Kamal Talıbzadənin elmi yaradıcılığına müraciət edilməsi tamamilə təbii və qanunauyğundur.*

*Akademik Kamal Talıbzadənin elmi-nəzəri irsinin təhlilini sərgiləyən «Ədəbiyyat və tənqidin yaradıcılıq problemləri» adlı tədqiqat əsəri görkəmli ədəbiyyatşünasın yarım əsrdən artıq böyük bir dövrü əhatə edən elmi fəaliyyətinə həsr olunmuşdur. Təranə Rəhimli tədqiqatında K.Talıb-zadənin elmi yaradıcılığını ədəbiyyat və tənqidin çeşidli problemləri fonunda, çağdaş ədəbiyyatşünaslıq təfəkkürü ilə araşdırmışdır. Böyük alimin həyat yolunun və yara-dıcılığının inkişaf mərhələlərinin diqqətlə öyrənilməsi, onun tədqiq etdiyi məsələlərə dərindən bələdlik, görkəmli ədə-biyyatşünasın elmi nailiyyətlərinə və yaradıcı şəxsiyyətinə həssas tədqiqatçı münasibəti T.Rəhimlinin fərqli konseptual mövqeyini aşkara çıxarır.*

*Tədqiqatçının yüksək elmi-nəzəri hazırlığı K.Talıbzadənin yaradıcılıq irsini müasir Azərbaycan ədəbiyyatşünaslığının başlıca inkişaf meylləri və istiqamətləri fonunda dəyərləndirmək imkanı vermişdir. Araşdırmada alimin XX əsrin 50-ci illərinin sovet ideoloji düşüncə axarında gerçəkləşən tədqiqatlarından başlayaraq milli müstəqilliyimizin ilk onilliyində – 90-cı illərdə qələmə aldığı məqalələrinə, yaxud yeni əlavələr etdiyi, təkmilləşdirdiyi monoqrafiyalarına müəllifin məxsusi baxış bucağı vardır.*

*K.Talıbzadənin həyat və yaradıcılığı ilə bağlı zəngin faktik materiallar, sənədlər, çoxsaylı elmi dəlillər, müla-hizələr müəllifə tədqiqatını kifayət qədər dərinləşdirmək və genişləndirmək imkanı vermişdir.*

*«Ədəbiyyat və tənqidin yaradıcılıq problemləri» adlı tədqiqatın strukturu onun problematikasını mükəmməl şəkildə əhatə edən giriş, üç fəsil və nəticədən ibarətdir. Tədqiqatın «Kamal Talıbzadə yaradıcılığında ədəbi şəx-siyyətlər və problemlər» adlı birinci fəslinin «Akademik K.Talıbzadənin həyatının və elmi fəaliyyətinin əsas inkişaf mərhələləri», «Abbas Səhhət» monoqrafiyası» yarımbaş-lıqlarında tədqiqatçının altmış illik elmi yaradıcılığının əsas uğurlarına münasibət bildirilir, ilk fundamental araşdırması analitik təhlil süzgəcindən keçirilir. T.Rəhimli «Abbas Səhhət» monoqrafiyasını 40-50-ci illər Azərbaycan ədəbiyyatşünaslığının klassik romantizmə ideya-estetik münasibətini müəyyənləşdirən dəyərli bir tədqiqat əsəri kimi səciyyələndirir. Burada K.Talıbzadənin XX əsr ədəbi hərəkatının mühüm bir qolunu təşkil edən romantizm cərəyanına və onun görkəmli nümayəndələrinə münasibəti, «Abbas Səhhət» monoqrafiyasının yazıldığı tarixi-ictimai şərait, əsərin milli ədəbiyyatşünaslıqda romantizmə dair yeni meyar və prinsiplərin hazırlanması prosesində rolu və s. məsələlər haqda tutarlı elmi mülahizələr yürüdülür.*

*«Ədəbi əlaqələrin yeni ideya estetik konsepsiya zəmi-nində öyrənilməsi» adlı ikinci fəsildə «Problemin qoyuluşu, nəzəri əsasları», «Qorki və Azərbaycan» monoqrafiyası, onun milli ədəbiyyatşünaslığın tarixində yeri» yarım-başlıqlarında K.Talıbzadənin Azərbaycan-rus ədəbi əla-qələrinə dair tədqiqat əsərindən bəhs olunur. T.Rəhimli belə qənaətə gəlir ki, görkəmli ədəbiyyatşünas bu sahədə müntəzəm olaraq tədqiqatlar aparmasa da bir monoqrafiyası ilə ədəbi əlaqələr elminə daxil ola bilmişdir.*

*Məlum olduğu kimi, «Qorki və Azərbaycan» monoqrafiyası milli ədəbiyyatşünaslıqda ədəbi əlaqələrin tarixinin, inkişaf yollarının, nəticələrinin öyrənilməsi istiqamətində mühüm və əhəmiyyətli tədqiqatlardan biri kimi diqqət mərkəzində olmuşdur. M.Qorkinin Azərbaycan ədəbiyyatına, bədii fikrinə təsirinin deyil, bütövlükdə Qorkinin milli ədəbiyyatımızla əlaqələrinin öyrənildiyi bu tədqiqat əsərinin təhlili xüsusi maraq doğurur. T.Rəhimli K.Talıbzadənin ədəbi təsiri birtərəfli izah etməməklə ədəbiyyatımızın mənafeyini qoruduğunu isbat etməyə çalışır.*

*Tədqiqatın «Ədəbi tənqidin tarixinin və nəzəriyyəsiinin tədqiqi» adlı fəsli məzmun mündəricəsi, elmi tutumu ilə daha dolğun təsir bağışlayır. Fəslin «Azərbaycan ədəbi tənqidinin tarixi konsepsiyası; onun inkişaf istiqamətləri», «Yeni dövr Azərbaycan ədəbiyyatı» yarımbaşlıqlarında K.Talıbzadənin tənqid və tənqid tarixinə dair əsərləri milli tənqidşünaslığın inkişafı çevrəsində araşdırılır.*

*T.Rəhimli burada sovet ideoloji düşüncə müstəvisində yer alan fikir və mülahizələrə çağdaş təfəkkür işığında yanaşır, təhlil etdiyi məsələlərə fəal tənqidi münasibət bildirir. Burada K.Talıbzadəyə tənqidşünaslığımızın banisi səlahiyyəti qazandıran, tədqiqat məktəbi yaratmaq imkanı verən «Azərbaycan ədəbi tənqidinin tarixi» monoqrafiyasının tədqiqatçının sonrakı kitablarında toplanan məqalələri üçün də zəmin rolu oynadığı vurğulanır.*

*K.Talıbzadənin çağdaş ədəbi proses haqqında konk-ret, aydın təsəvvür yaradan məqalələri də bu fəsildə geniş*

*araşdırmaya cəlb edilir. Tədqiqatçının yeni dövr Azər- baycan ədəbiyyatı, onun görkəmli nümayəndələri S.Vurğun, M.Hüseyn, M.Ibrahimov, I.Əfəndiyev, V.Cəbrayılzadə və başqaları haqqında məqalələrinə, icmallarına, mülahizələrinə yeni gözlə münasibət bildirir. Müəllif alimin bütövlükdə yeni dövr Azərbaycan ədəbiyyatı, onun görkəmli nümayəndələri haqqında təhlil və qənaətlərinin, dərin nəzəri ümumiləşdirmələrinin milli ədəbiyyatımızın ən aktual problemlərinin həllinə kömək etdiyi, onun düzgün inkişaf istiqamətlərini müəyyənləşdirdiyi qənaətinə gəlir.*

*Gənc ədəbiyyatşünas T.Rəhimlinin bu əsəri əhatə etdiyi məsələlərin genişliyinə, elmi-metodoloji dəyərinə, dərin nəzəri ümumiləşdirmə və düzgün nəticələrinə, bitkin məzmun mündəricəsinə görə mükəmməl tədqiqat əsəri təsiri bağışlayır.*

***Himalay Qasımov,***
***professor***

## MÜƏLLIFDƏN

Böyük insan, ali şəxsiyyət haqqında söz demək böyük məsuliyyət və böyük fəxarətdir. Əlimə qələm alıb onun barəsində düşündüklərimi ağ kağıza köçürdüyüm anda gözlərim önündə «Böyük» sözünün böyüklüyünə yaraşdığı akademik Kamal Talıbzadənin əzəmətli siması canlanır: Müəllimlər müəllimi, neçə-neçə ziyalı nəslin ustadı, əməkdar elm xadimi, Azərbaycan Dövlət Mükafatı laureatı, «Şöhrət» ordenli, ədəbiyyatşünaslıq elminin nüfuzlu nümayəndəsi, yaradıcı gəncliyin himayədarı və nəhayət, BÖYÜK INSAN akademik Kamal Talıbzadə.

Akademik Kamal Abdulla Şaiq oğlu Talıbzadə böyük bir nəslin, təfəkkürünün ziyası ilə həmişə millətin öndəri olmuş şəxsiyyətlərin layiqli yadigarı idi. Onun ulu babası Süleyman Talıbzadə dövrünün tanınmış ziyalılarından, din alimlərindən olub. Babası Axund Mustafa Talıbzadə (Süleyman Talıbzadənin oğlu – T.R.) Zaqafqaziya Şeyxülislamının müavini, Qafqaz vilayətinin baş qazisi vəzifələrində çalışmış, çox mükəmməl şəriət dərsliyi yazmış, dini və maarifçilik fəaliyyəti ilə dövrünün qabaqcıl simalarından biri kimi tanınmışdır. K.Talıbzadənin əmisi Axund Yusif Ziya Talıbzadə dövrünün görkəmli ziyalılarından olmuş, Hacı Zeynalabdin Tagıyevlə, Nəriman Nərimanovla dostluq əlaqələri saxlamışdır. O, yüksək dini təhsil almış, eyni zamanda dünyəvi biliklərə də yiyələnmiş, türkçü, islamçı bir millətpərvər vətəndaş, publisist, tərcüməçi, maarifçi, şair, dramaturq, hərbçi və siyasi xadim

kimi XX əsrin əvvəllərində məşhur bir şəxsiyyət olmuşdur. K.Talıbzadənin atası – adı hər bir azərbaycanlıya doğma olan Abdulla Şaiq XX əsr Azərbaycan ədəbiyyatının mühüm ədəbi şəxsiyyətlərindən biri, böyük bir ziyalılar ordusunun müəllimi, milli romantizmin görkəmli nümayəndəsi, ana dilimizdə məktəbin banilərindən biri, maarifçi ziyalı, şair, dramaturq, nasir, publisist və ictimai xadim idi.

Akademik Kamal Talıbzadə belə şərəfli tarixə malik bir nəslin övladıdır. Bu nəslin nümayəndələri müxtəlif dövrlərdə, illərdə yaşayıb yaratsalar da eyni əqidənin, amal və məsləkin yolçusu olublar. Təfəkkürlərinin ziyasını, könüllərinin məhəbbətini, mənəvi güc və qüdrətini səfərbər edib ömürlərini bütünlükdə xalqın, millətin tərəqqisi, azadlığı, maariflənməsi işinə həsr ediblər və öz səadətlərini bunda görüblər. «Yüksəlmək, həqiqi bəxtiyarlığa çatmaq istəyirsənsə özünü deyil, başqalarını yaşatmağa çalış! Zira ki, həqiqi bəxtiyarlar cəmiyyət üçün yaşayanlardır…» Bu sətirləri ötən yüzilliyin əvvəllərində Abdulla Şaiq yazmışdı. Lakin Talıbzadələrin həyat və fəaliyyət yönümünü özündə ehtiva edən bu kəlmələr sanki A.Şaiqin mənsub olduğu nəslin həm keçmişinə, həm də gələcəyinə ünvanlanıb. Akademik Kamal Talıbzadə babadan nəvəyə gəlib çatan və hər yeni nəslin bir qədər də artırdığı bu müqəddəs «varidat»ın – xalq üçün yaşamaq eşqinin, fikir, əqidə varisliyinin şərəfli daşıyıcısı idi.

Görkəmli milli-romantik ədib Abdulla Şaiqin ailəsində dünyaya göz açan K.Talıbzadə sözün müqəddəs tutulduğu, sənət məbədgahı olan bir ocaqda böyüyüb. Həyat, sənət haqqında təsəvvürləri də, ədəbi-tənqidi görüşləri də atasının

dünyaya baxışının və nəzəri irsinin təsirilə formalaşıb. Buna görə də K.Talıbzadə bütün elmi fəaliyyəti boyu hansı problemdən, hansı mövzuda yazırsa-yazsın həmişə A.Şaiq ruhundan qopub gələn milli-mənəvi dəyərlərə, ən başlıcası türkçülüyə sədaqətini ifadə edib.

Elm cığırında ilk addımını inamla atan – uzun müddət totalitar rejimin yasaqlarına məruz qalan romantizm mövzusuna tədqiqatçıların ehtiyatla yanaşdıqları bir dönəmdə «Abbas Səhhət» monoqrafiyasını yazan K.Talıbzadə öz məsləki yolunda daim qətiyyətlə irəliləyib. O, ədəbi əlaqələri həmişə birtərəfli izah edən, onu rus ədəbiyyatının milli ədəbiyyatlara təsiri istiqamətində öyrənən nəzəri konsepsiyalara qarşı çıxıb özünün yeni konsepsiyasını irəli sürdü. «Qorki və Azərbaycan» monoqrafiyasında bu problemə türkçülük mövqeyindən münasibət bildirib ədəbi əlaqələrin qarşılıqlı təsir və inkişaf prosesi olduğunu dərin məntiqi dəlillərlə əsaslandırdı.

K.Talıbzadə Azərbaycan ədəbiyyatşünaslığının bir çox fundamental tədqiqat vəzifələrinin öhdəsindən uğurla gəlib. Onun çoxsaylı mötəbər tədqiqatlarının zirvəsində isə «Azərbaycan ədəbi tənqidinin tarixi» monoqrafiyası durur. Milli ədəbi-estetik fikrimizin Xətib Təbrizidən Seyid Hüseynə qədərki böyük bir inkişaf tarixini tədqiq edən alimin uzun müddətli gərgin elmi axtarışlarının bəhrəsi olan bu qiymətli tədqiqat əsəri müəllifini bütün Şərq-türk filologiyasında tənqidşünaslıq məktəbinin banisi kimi şöhrətləndirdi. Türkiyə, Qazaxıstan, Tatarıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Dağıstan, Litva, Gürcüstan və digər respublikaların nəzəri-

estetik fikrinin görkəmli tədqiqatçıları alimin yaratdığı tənqidşünaslıq məktəbi əsasında öz elmi məktəblərini yaratdıqlarını qeyd edirlər. Keçmiş sovet məkanının ən nüfuzlu alimləri Q.Sisişvili, R.Berdibayev, T.Kəkişev, R.Musulmanqulov, A.Haytmetov, U.Coldasbayov, Y.Sultanov və b. milli tənqid tariximizə həsr olunmuş əsər haqqında rəylərində K.Talıbzadənin öz üzərinə böyük bir şöbənin zəhmətini götürdüyünü və bu vəzifənin öhdəsindən şərəflə gəldiyini vurğulayırlar.

K.Talıbzadənin milli ədəbiyyatşünaslığın ən aktual problemlərinə həsr olunmuş 400-dən artıq məqaləsi onun «Tənqidimiz haqqında qeydlər», «Ədəbi irs və varislər», «Sənətkarın şəxsiyyəti», «Tənqid və tənqidçilər» kitablarında toplanıb. Bu kitabların hər birində böyük türk mənəviyyatımızın, milli şüurumuzun, təfəkkürümüzün dolğun əksini tapdığını müşahidə etmək olar.

Tənqidşünaslığımızın banisi, professional tənqidçi, elm təşkilatçısı, mətnşünas, pedaqoq kimi sağlığında klassik səviyyəsinə yüksələn K.Talıbzadənin elmi fəaliyyəti və şəxsiyyəti haqqında 3 monoqrafiya, 200-dən artıq məqalə yazılıb. Onun əsərlərinin elmi məziyyətləri haqqında Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslıq elminin görkəmli simaları – S.Vurğun, M.Hüseyn, M.Arif, Ə.Şərif, Ə.Sultanlı, C.Xəndan və b. dəyərli fikirlər söyləyiblər. O, elmi xidmətlərinə görə ən yüksək fəxri adlara, titullara, orden və mükafatlara layiq görülüb. Lakin ilbəil artan şan-şöhrəti, elmi adları, vəzifələri ilə birlikdə təvazökarlığı, sadəliyi, özünə qarşı tələbkarlığı da günbəgün artıb. Beləcə, alilikdən xəbər verən

sadəliyi, saflığı alimliyi, müdrikliyi ilə birləşərək böyük Kamal Talıbzadə şəxsiyyətini yaratmışdı.

O, A.Şaiqdən söz açanda ilk növbədə onun son dərəcə sadə təbiətli bir insan olmasını və sadəliyi yüksək qiymətləndirdiyini vurğulayardı. Atasının ruhundakı sadəliyi, saflığı bütünlüklə mənimsəyən K.Talıbzadə elə bu cəhəti ilə də gənc tədqiqatçıları bir ahənrüba kimi özünə cəlb edirdi. Gənclər onu MEA-nın Nizami adına Ədəbiyyat Institutunda, A.Şaiqin Mənzil Muzeyində axtarıb tapa bilmədikdə xüsusi bir ərklə alimin evinə gələr, lazımi tövsiyyələr alar, onun mənəvi dəstəyini görərdilər.

K.Talıbzadənin çoxcəhətli, zəngin elmi yaradıcılığı namizədlik dissertasiyamın tədqiqat obyekti olub. A.Şaiqin Mənzil Muzeyində Kamal müəllimin şəxsi arxivindəki sənədlərlə işlədiyim vaxtlar duyğularıma hakim kəsilmiş bir hiss mənə namizədlik dissertasiyamı yazıb tamamlamağa imkan vermirdi. Kamal Talıbzadə böyüklüyü, bu böyüklükdən doğan məsuliyyət hişşi ilə yanaşı alimin həyatı, yaradıcılığı ilə bağlı fakt və sənədlərin təsəvvürəgəlməz zənginliyi məndə bu qənaəti yaratmışdı ki, Kamal Talıbzadə fenomenindən bir dissertasiya çərçivəsində söz açmaq qeyri-mümkündür. Namizədlik dissertasiyamın müdafiəsindən sonra illər ötüb keçsə də bu gün yenə həmin fkirdəyəm ki, K.Talıbzadənin elmi yaradıcılığının hər bir istiqamətindən, ömrünü həsr etdiyi fəaliyyət sahələrinin hər birindən onlarla dissertasiyalar yazmaq olar və onların heç biri digərinin təkrarı kimi təsir bağışlamaz.

Ömrümün on ilini sıx ünsiyyətdə olduğum, böyük qayğısını gördüyüm bu qüdrətli insanla təmasda olmaq təməli müqəddəs amallara söykənən bir məktəb keçməkdir. Tədqiqatçılıq, ziyalılıq, vətəndaşlıq və insanlıq məktəbi. K.Talıbzadə təfəkkürünün ziyası, əqidə və məsləkinin işığı ilə ömrü nurlanan bu məktəbin yetirmələri ustadlarından yüksək milli-mənəvi dəyərləri, ən ali şəxsi keyfiyyətləri əxz ediblər. O, yetirmələrinə sözə ehtiyatla yanaşmağı, layiq olanı söz zirvəsinə qaldırmağı öyrədib. Biz Kamal müəllimdən sadəliklə, təvazökarlıqla, xeyirxahlıqla zinətlənməyi öyrənmişik. Ondan sənədlərlə xüsusi səliqə ilə davranmaq, ən kiçik sənədə belə tarixin bir parçası kimi baxmaq vərdişini mənimsəmişik.

Kamal Talıbzadə insanlara həssas münasibəti, qayğıkeşliyi ilə də nadir insan idi. O, aspirantlarına, yetirmələrinə təkcə tədqiqat işiylə bağlı himayədarlıq etmirdi, onların bütün problemləri ilə maraqlanır, müdrikcəsinə xeyirxah məsləhətlər verirdi. Kamal müəllim həm də biz gənclər üçün sanki müsbət enerji donoru idi. Onunla hər görüşdən sonra daxili gücümüzün, yazıb-yaratmaq həvəsimizin artdığını, qəlbimizin nurlandığını, böyüdüyünü hiss edirdik. Alimi şəxsən tanıdığım ilk vaxtlardan – 1996-cı ilin soyuq yanvar günlərindən onun vəfatına qədərki uzunmüddətli müşahidələrimə əsasən bu qənaətdəyəm ki, bütün yetirmələri K.Talıbzadədən elmi bilgilər, tədqiqat üsulları və s. öyrənməklə yanaşı mükəmməl insanlıq dərsi alıblar.

O, yetirmələrinin bütün nailiyyətləri ilə ciddi maraqlanardı. 1996-cı ildə dövrü mətbuatda dərc olunmuş şeirlərimi oxuduqdan sonra ona bədii yaradıcılıqla məşğul

olduğumu bildirmədiyim üçün məni məzəmmət etmişdi. Sonra isə: «Bilirsən Rəfiqəylə (Həyat yoldaşı Rəfiqə xanım-T.R.) mən hansı şerini bəyənmişik? «Nə var bu dünyada, gəl çıxaq gedək»». Mənə bağışladığı kitablara yazdığı avtoqraflarda da bu şerə işarə edərdi: «Gəl bu dünyadan çıxıb getmə sən». Bu məqamda hələ Kamal müəllimin sağlığında məni kövrəldən bir hadisəni xatırladım.

Bir dəfə Kamal müəllim ustadım Hüseyn Arifin vəfatı münasibətilə yazdığım məqalə və şeiri (bu yazıları özü məndən istəmişdi.) oxudu. Xeyli kövrəldi. Hüseyn Ariflə bağlı xatirələrini danışdı. Həmin gün biz ayrılanda: «Təranə, mənimçün də Arifə yazdığın kimi bir şeir yazarsan. Mən öləndə…Yaxşı?» -dedi. Bu xahiş məni elə kövrəltdi ki, göz yaşlarımı saxlaya bilmədim. Çünki, Kamal müəllimin vəfatı haqda düşünmək belə mənə ölümün özü qədər amansız görünürdü. Bu gün bu ölümü qəbul edə bilmədiyim kimi.

Bir vaxtlar atası Abdulla Şaiq vətən fədaisi böyük Mustafa Kamal Atatürkün şəninə böyük oğlunun adını Kamal qoymuşdu. O, isə böyüyüb bu adın etimadını elm fədaisi olmaqla, mənalı həyatının böyük hissəsini milli ədəbiyyatşünaslığın tərəqqisinə həsr etməklə doğrultdu. Yaşadığı 83 illik ömrün 60 ilini öz müqəddəs amalına xidmət etdi, Azərbaycan ədəbiyyatşünaslığına ümumsovet, ümumtürk nüfuzu qazandıran əsərlər ərsəyə gətirdi. Səhhətinin imkan verməməsinə baxmayaraq elmi və elmi təşkilatçılıq fəaliyyətini həyatının son günlərinədək davam etdirən alim Nizami adına Ədəbiyyat Institutunda hazırlanan 6 cildlik Azərbaycan ədəbiyyatı tarixinin əsas müəlliflərindən və Baş Redaksiya

Şurasının üzvlərindən biri kimi bu məsuliyyətli işi böyük məmnunluqla icra edirdi. Hətta xəstə halı ilə, vəfatından bir gün əvvəl də milli ədəbiyyatşünaslığın bu mühüm vəzifəsi ilə məşğul olmuşdu.

2006-cı ilin qarlı qış günlərindən birində – yanvarın 21-də Kamal Talıbzadə bütün qəlbiylə, ruhuyla bağlı olduğu Azərbaycan torpağına tapşırıldı. Minlərin, milyonların sevimlisi olan bu böyük insan qəlblərdə yaşayan xatirəsi, yaddaşlardan silinməz həlim xasiyyəti, əzəmətli siması və qiymətli elmi-nəzəri irsi ilə ölümsüzlük zirvəsini fəth etdi. Bu məqamda bir neçə il öncə K.Talıbzadənin də iştirak etdiyi elmi yığıncaqlardan birində tanınmış ədəbiyyatşünas alim Vaqif Yusiflinin çıxışından bir cümləni xatırladım: «Bu gün Kamal Talıbzadə yeni əsərlər yazmasa da onun yetirmələri yazır». Danılmaz həqiqətdir ki, görkəmli alimin Nizaməddin Şəmsizadə, Vaqif Yusifli, Şamil Vəliyev və b. istedadlı tədqiqatçıların timsalında onlarla yetirmələri K.Talıbzadənin tədqiqat məktəbinin ənənələrini davam etdirəcək, ustadlarının xatirəsini təkcə könüllərində deyil, zaman-zaman əsərlərində də yaşadacaqlar.

Sən demə ziyalılıq, müdriklik, saflıq, xeyirxahlıq və digər insana məxsus olan bütün ali keyfiyyətlər torpağa səpilən toxum kimidir, əkdinsə göyərəcək. Və onun məhsulundan xalq illərlə deyil, qərinələrlə, əsrlərlə bəhrələnəcək. Bəli, K.Talıbzadənin ulu babası Süleyman Talıbzadədən başlanan elm, bilik ziyasının şöləsi bu gün onun ocağında böyüyən neçənci nəslin qəlbini, ömrünü nurlandırıb. Əsrlərdən keçib gələn bu şölənin, işığın istisi, odu isə nəinki azalmayıb, əksinə

Talıbzadələrin kökə, soya bağlılığı, onun məsləkinə sədaqəti sayəsində şəfəqini daha da artırıb, xalqının gələcəyinə nur saçan əbədi bir məşələ çevrilib. Bu məşəli əllərində deyil, qəlbində gəzdirən, ulu türk dünyasının öndəri Mustafa Kamal Atatürkün adını daşıyan, böyük nəslin layiqli yadigarı akademik Kamal Talıbzadə Azərbaycan-türk elminin öndərlərindən biri olmuşdur. K.Talıbzadəyə həsr etdiyim bu kiçik əsər isə həmin məşəlin alovundan qopan, yəni təsirindən yaranan bir qığılcım, bir od zərrəsidir. Hesab edirəm ki, bu böyük şəxsiyyətin, qüdrətli alimin bir insan ömründə yaratdıqlarını öyrənməyə, tədqiq etməyə hələ neçə-neçə ömürlər həsr olunacaq, cild-cild kitablar yazılacaq.

# GIRIŞ

Azərbaycan ədəbiyyatının çağdaş dövrünü, onun konkret ədəbi şəxsiyyətlərinin yaradıcılığını yeni təfəkkür işığında araşdırmaq, onları günün tələbləri baxımından dəyərləndirmək müasir ədəbiyyatşünaslığın mühüm tədqi-qat istiqamətlərindən biri kimi diqqət mərkəzindədir. Bu cəhətdən 55 ildən artıq bir dövrü əhatə edən məhsuldar elmi fəaliyyətini milli ədəbiyyatşünaslığın ən vacib problem-lərinin tədqiqinə həsr edən akademik Kamal Talıbzadənin ədəbiyyatımızın nəzəri-estetik səviyyəsinin yüksəlməsində xidmətlərinin öyrənilməsi xüsusilə diqqətəlayiqdir. Alimin zəngin yaradıcılıq irsinin tədqiqi həm də XX əsrin müxtəlif onilliklərində ədəbiyyatşünaslığın başlıca tədqiqat istiqa-mətlərinin, meyllərinin öyrənilməsi cəhətdən faydalı olub böyük elmi aktuallıq və əhəmiyyət kəsb edir. Bu gün ciddi tədqiqinə ehtiyac duyulan bu çoxcəhətli yaradıcılıq irsi özünəməxsus üslub, maraqlı mülahizə və fikirlər, orijinal elmi qənaətlər, məntiqi nəticələr, bəzən kəskin ittiham və hökmlərlə zəngindir.

Öz alim şəxsiyyətində ədəbiyyat tarixçisi və tən-qidçisini, mətnşünas və nəzəriyyəçini, istedadlı publisist və səriştəli elm təşkilatçısını, pedaqoq və maarifçini birləşdirən K.Talıbzadənin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığı tarixində mühüm bir mərhələni təşkil edir. Müəllimləri və müasirləri M.Arif, M.Rəfili, H.Araslı, F.Qasımzadə, Ə.Sul-tanlı, C.Xəndan, M.Quluzadə, Ə.Mirəhmədov və başqaları kimi K.Talıbzadə də elmi yaradıcılığında ədəbiyyatımızın inkişafına, klassik irslə ideya-bədii əlaqə məsələlərinə xüsusi əhəmiyyət vermişdir. O,

yalnız ədəbi-bədii inkişafın xüsu-siyyətlərini öyrənməklə kifayətlənməmiş, eyni zamanda ayrı-ayrı nəzəri-estetik problemlərin təhlili və təbliğində fərqlənmiş, orijinal elmi mülahizə və qənaətləri ilə ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. Müasir ədəbiyyat tarixçiliyi və ədəbiyyatşünaslıq irsimizin öyrənilməsi sahə-sində bu günkü nailiyyətlərimiz bilavasitə görkəmli alimin elmi və elmi təşkilatçılıq xidmətləri ilə bağlıdır. XX əsr Azərbaycan bədii fikrinin öyrənilməsi yönümündə mötəbər tədqiqatların müəllifi olan K.Talıbzadə milli ədəbi tən-qidimizin bütöv bir mərhələsinin ilk elmi tarixinin yara-dıcısıdır. Həmişə elmin fundamental vəzifələrinin həllində yaxından iştirak edən, bir ədəbiyyatşünas və tənqidçi kimi mühüm ədəbiyyatşünaslıq vəzifələrinin həyata keçiril-məsində xidmətləri ilə seçilən alimin zəngin elmi fəaliy-yəti ədəbiyyatşünaslığın müxtəlif sahələrini əhatə edir. Lakin onun elmi yaradıcılığında üç problemin – XX əsr Azərbaycan romantizmi, Azərbaycan – rus ədəbi əlaqələri, milli estetik fikrin inkişaf tarixinin öyrənilməsi və tədqiqi xüsusilə fərqlənir. Bu üç problem K.Talıbzadə tədqiqat-larının daimi predmeti kimi alimin ədəbiyyatşünaslıq elminə töhfə etdiyi dəyərli fundamental əsərlərin əsas mövzusu olmuşdur.

Onun XX əsrin görkəmli sənətkarı Abbas Səhhətə həsr etdiyi monoqrafiya həm mühüm ədəbi şəxsiyyətlərdən birinin həyat və yaradıcılığının ilk dəfə geniş tədqiqata cəlb edilməsi, həm də klassik romantizmə o dövrkü ədəbiy-yatşünaslığın ideya və estetik münasibətinin müəyyənləş-məsində əhəmiyyətli rol oynamışdır. Onu da qeyd etmək lazımdır ki,

ədəbiyyatşünaslığımızın inkişafında əvəzsiz xidmətləri olan alim məhz bu tədqiqat əsəri ilə elm aləminə qədəm qoymuş, bir tənqidçi və ədəbiyyatşünas kimi püxtələşdikdən sonra isə gənclik illərində qələmə aldığı «Abbas Səhhət» monoqrafiyası üzərində yenidən işləyərək onun təkmilləşdirilmiş nəşrinə müvəffəq ola bilmişdir. Zəngin faktik materiallar əsasında yazılan monoqrafiyada K.Talıbzadə milli romantizmin təşəkkülü və inkişafında Abbas Səhhət yaradıcılığının rolunu aydınlaşdırmış, şairin romantik lirikasını XX əsr ədəbi prosesinin qabaqcıl meylləri ilə vəhdətdə təhlil etmişdir. O, monoqrafiyada klassik Azərbaycan ədəbiyyatının, eləcə də digər xalqların romantik ədəbiyyatının A.Səhhət yaradıcılığı timsalında milli romantizmin inkişafına təsirini də göstərmişdir. Azərbaycan romantizminin sonrakı tədqiqi üçün səmə-rəli nəzəri və metodoloji bünövrə olan bu fundamental tədqiqat əsəri milli romantizmşünaslığın ilk nümunələ-rindən biri kimi yeni dövr ədəbiyyatşünaslığımızda özü-nəməxsus yer tutur.

K.Talıbzadənin Azərbaycan-rus ədəbi əlaqələrinə həsr etdiyi «Qorki və Azərbaycan» monoqrafiyası isə onu ədəbi əlaqələr sahəsinin görkəmli mütəxəssislərindən biri kimi şöhrətləndirmişdir. Milli filologiyamızın inkişafında bö-yük əhəmiyyəti olan əsərin ümdə elmi məziyyətlərindən biri burada ədəbi əlaqə və təsirin birtərəfli izah olunmaması, problemin milli ədəbiyyatların qarşılıqlı əlaqə və təsiri kontekstində tədqiq edilməsi idi.

Öz ədəbi-elmi axtarışlarının on ilini klassik ədəbi-estetik fikrimizin tarixi haqqında monumental tədqiqata həsr edən

K.Talıbzadənin mühüm elmi xidmətlərinin zirvəsində «Azərbaycan ədəbi tənqidinin tarixi» (1984) monoqrafiyası durur. X1 əsrin nadir elmi təfəkkür sahib-lərindən olan dahi Azərbaycan filoloqu Xətib Təbrizidən başlayıb, XX əsrin görkəmli tənqidçisi Seyid Hüseynə qədərki çoxəsrlik ədəbi estetik fikir tariximizi özündə əks etdirən «Azərbaycan ədəbi tənqidinin tarixi» monoqrafiyası novator əsər kimi ədəbiyyatşünaslıq elmimizin ilk və bütöv tarixi mənzərəsini yaratdı. Tədqiqatçı bu qiymətli elmi əsəri ilə milli tənqid tarixinin monoqrafik planda ilk funda-mental tədqiqinin müəllifi kimi nəinki Azərbaycanda, bütün türkdilli filologiyada tənqidşünaslıq elminin və məktəbinin banisi kimi tanınmışdır. Milli ədəbi tənqidimizin 900 illik böyük bir tarixi inkişaf yolunu işıqlandıran bu monoqrafiya dövrün görkəmli sənət və elm xadimləri tərəfindən yüksək qiymətləndirilmiş, müəllifinə ümümittifaq səviyyədə yüksək nüfuz qazandırmışdır. «Azərbaycan ədəbi tənqidinin tarixi» monoqrafiyasından ali təhsil müəssisələrinin filologiya fakültələrində tənqid tarixinin tədrisinə dair anoloqu olmayan, yeganə dərslik kimi istifadəsi bu əsərin elmi-təcrübi cəhətdən də əvəzsizliyi, mühümlüyü faktını bir daha təsdiq edir.

Elmi fəaliyyətini ədəbiyyatşünaslığın ən aktual prob-lemlərinin öyrənilməsinə və tədqiqinə həsr edən alimin bu fundamental monoqrafiyalarından başqa onlarla məqalə və oçerklərində, məruzələrində öz əksini tapan mülahizə və qənaətləri milli ədəbiyyatşünaslığın inkişafını şərtləndir-mişdir. Alimin çağdaş Azərbaycan ədəbiyyatının bir sıra vacib problemlərini işıqlandıran məqalələri, tədqiqatları bu

cəhətdən təqdirəlayiqdir. Həmin əsərlərində ədəbiyyat nəzəriyyəsinin, tənqidin ən mühüm məsələlərini işıqlan-dıran, dövrün görkəmli yazıçı, ədəbiyyatşünas və tənqidçi-lərinin yaradıcılığını tədqiq və təhlilə cəlb edən tədqiqatçı müasir ədəbiyyat, çağdaş ədəbi proses haqqında konkret, aydın təsəvvür yaratmışdır. Onun hər hansı ədəbi hadisə və ya əsəri təhlil edərkən gəldiyi nəticələr, dərin nəzəri ümumi-ləşdirmələr milli ədəbiyyatımızın ən mühüm məsələlərinin həllinə kömək edib, bədii sənətin və elmin düzgün inkişaf istiqamətlərini müəyyənləşdirmişdir.

Akademik K.Talıbzadənin ədəbiyyat tarixçisi və mətnşünas kimi gördüyü işlər də elmi fəaliyyətinin ayrılmaz bir hissəsini təşkil edir. Onun səmərəli xidmətləri mətn-şünaslıq elmimizin qiymətli bir tarixi mərhələsini yaratmış-dır. Azərbaycan ədəbiyyatı klassiklərinin ədəbi irsinin tərtibi və nəşr edilməsində, onlara geniş müqəddimələr, izahlar və şərhlər yazılmasında, üç cildlik Azərbaycan ədə-biyyatı tarixinin işıq üzü görməsində tədqiqatçının müəllif və təşkilatçı kimi əvəzsiz əməyi olmuşdur. O, milli ədəbiyyat tariximizin 1960-cı ildə nəşr edilmiş ikinci cildinin əsas müəlliflərindən və redaktorlarından biri idi. Kamal Talıb-zadə əsil elm fədaisi kimi ömrünün son illərində də bu sahədə fəaliyyətini yorulmadan davam etdirir, Azərbaycan MEA-nın Nizami adına Ədəbiyyat Institutunda hazırlanan altı cildlik «Azərbaycan ədəbiyyatı tarixi» üzərində səylə işləyirdi.

K.Talıbzadə həm də görkəmli elm təşkilatçısı idi. O, respublika səviyyəsində hazırlanan mötəbər elmi tədbirlərin, konfrans və müşavirələrin, yubileylərin, simpoziumların təşkil

edilməsi, keçirilməsi prosesində yaxından iştirak etmiş, onların təşəbbüskarı və əsas icraçısı olmuşdur.

Görkəmli alim öz çoxcəhətli yaradıcılığının ayrılmaz hissəsi olan bu sahələrin hər birində yorulmaz fəaliyyəti ilə milli ədəbiyyatşünaslığımızın inkişafında mühüm rol oynamış, bir ədəbiyyatşünas və tənqidçi, mətnşünas və elm təşkilatçısı kimi üzərinə düşən böyük missiyanı şərəflə yerinə yetirmişdir. Bu baxımdan K.Talıbzadə yaradıcılığı misilsiz bir elmi məktəb və qiymətli mənbədir. Bu mənbəni hərtərəfli araşdırmaq, alimin çoxcəhətli yaradıcılığının spesifik xüsusiyyətlərini öyrənmək müasir ədəbiyyatşünas-lığın başlıca vəzifələrindən biridir.

K.Talıbzadənin elmi yaradıcılığının öyrənilməsi və tədqiqi tarixi alimin əsərlərinin nəşr edildiyi dövrdən başlanır. O, elmi fəaliyyətə başladığı ilk vaxtlardan əsərləri ilə dövrün görkəmli tənqidçi, ədəbiyyatşünas və sənət-karlarının diqqətini cəlb etmişdir. Alimin çoxcəhətli yaradıcılığının hər bir uğuru ədəbi mühitdə əks-səda do-ğurmuşdur. Onun çoxsaylı əsərləri və ömür yolu haqqında iki yüzdən artıq məqalə, iki monoqrafiya yazılıb nəşr edil-mişdir. Həmin məqalələrin böyük əksəriyyətini K.Talıb-zadənin əsərləri, kitabları barədə yazılan resenziyalar, bir qismini isə onun həyat yolu, elmi yaradıcılıq uğurları və ədəbiyyatşünaslıq fəaliyyətinə həsr olunmuş publisistik yazılar təşkil edir.

Alimin ilk əsəri olan «Abbas Səhhət» monoqrafi-yasının nəşr edildiyi vaxtdan, yəni 1955-ci ildən bu günədək onun yaradıcılığının müxtəlif sahələri bir çox görkəmli sənətkarların və ədəbiyyatşünas alimlərin (S.Vurğun, M.Hüseyn,

M.Ibrahimov, M.Cəlal, M.Arif, Ə.Sultanlı, C.Xəndan, Ə.Şərif, Ə.Mirəhmədov, Y.Qarayev, Ş.Qurba-nov, B.Nəbiyev, A.Hacıyev, Ş.Salmanov, N.Şəmsizadə, V.Yusifli və b.) əsərlərinin tədqiqat obyekti olmuşdur. Həmin tədqiqatlarda alimin zəngin elmi yaradıcılıq irsi ciddi təhlil edilmiş, bu əsasda dəyərli fikir və mülahizələr söylənmişdir. K.Talıbzadənin çoxcəhətli elmi yaradıcılığının hər bir sahəsi haqqında nəinki Azərbaycanda, eləcə də ölkəmizin hüdudlarından kənarda görkəmli ədəbiyyat-şünaslar (B.Piradov, Ə.Cəfəroğlu, Y.Akpinar, L.Dımşits, X.Haytmetov, R.Berdibayev, A.Sisişvili, S.Tabarev, Y.Sul-tanov, S.Şükürov, M.Yunusov və b.) dəyərli əsərlər yazıb dərc etdirmişlər. Bu tədqiqatların böyük əksəriyyəti dövrün vulqar sosioloji tələblərindən doğan yanlış təfərrüatlardan, ideoloji qüsurlardan xali olmasa da tədqiqatçının elmi yaradıcılığı haqqında müəyyən təsəvvür yaratmaq, onun əsərlərinin ədəbiyyatşünaslığın inkişafında rolunu aydınlaş-dırmaq baxımından əhəmiyyətlidir.

K.Talıbzadə yaradıcılığının tədqiqi tarixinə həmçinin istedadlı ədəbiyyatşünaslar V.Osmanlı, A.Zamanov, H.Isra-filov, Ə.Məmmədov, Ş.Alışanov, K.Əliyev, A.Məmmədov, A. Səfiyev, Ş.Vəliyev, K.Tarıverdiyeva, G.Əlibəyova, R.Mirzəyev, R.Şıxəliyeva və başqalarının tədqiqatları da-xildir. Ş.Salmanovun «Akademik Kamal Talıbzadə» (1998), N.Şəmsizadənin «Türk təfəkkürü məcrasında» (1998) mo-noqrafiyaları isə alimin çoxcəhətli elmi yaradıcılığının daha geniş və təfərrüatlı təhlil edilməsi baxımından samballı nümunələrdir.

Ş.Salmanovun əsərində görkəmli tədqiqatçının zəngin elmi fəaliyyətinin mühüm istiqamətləri tədqiq obyektinə çevrilmişdir. Burada onun yarım əsrdən artıq davam edən elmi xidmətləri diqqətlə araşdırılmış, ədəbiyyatımızın tarixi və nəzəri məsələlərinin, başqa ədəbiyyatlarla yaradıcılıq əlaqələrinin öyrənilməsi istiqamətində gərgin axtarışları, monoqrafiyalarının tədqiqat problematikası, ideya-metodo-loji səviyyəsi, milli ədəbi prosesə təsiri öz əksini tapmışdır. Ş.Salmanovun əsərinin təhlil mərkəzində K.Talıbzadənin milli romantizmin inkişaf istiqamətləri kontekstində araşdırması, ədəbi ələqələr probleminə həsr etdiyi monoqra-fiyası, milli tənqid tarixinə dair fundamental tədqiqatı durur. Ədəbiyyatşünas alim əsərində haqlı olaraq K.Talıb-zadənin elmi yaradıcılığının zirvəsi sayılan «Azərbaycan ədəbi tənqidinin tarixi» monoqrafiyasının təhlilinə daha geniş yer vermişdir. Burada tədqiqatçının ömür yolu, mətnşünaslıq fəaliyyəti, elmi təşkilatçılığı haqqında da yığ-cam məlumat öz əksini tapmışdır.

«Türk təfəkkürü məcrasında» monoqrafiyasında isə ədəbiyyatşünas N. Şəmsizadə akademik Kamal Talıb-zadənin zəngin elmi yaradıcılığına dair material və sənədlər əsasında alimin tənqidçi mövqeyi, həyatı, mühiti və şəxsiyyəti haqqında müfəssəl təsəvvür yaradır. Ş.Salma-novun kitabında tədqiqatçının elmi fəaliyyətinə geniş yer verilirsə, «Türk təfəkkürü məcrasında» monoqrafiyasında onun alim-vətəndaş şəxsiyyəti ön plana çəkilir. Tədqiqatda K.Talıbzadənin türkçülük zəminində yazılmış fundamen-tal əsərləri problematikasına görə araşdırılır, alimin tən-qidşünaslıq

elminin banisi kimi ədəbi-tarixi, elmi-nəzəri xidmətlərindən bəhs olunur. Burada K.Talıbzadə cəfakeş alim fəaliyyəti ilə, obyektivliyi və prinsipiallığı, milli ideal-lara sədaqəti ilə «sağlığında klassik rütbəsinə yüksəlmiş nadir şəxsiyyətlərdən biri» kimi dəyərləndirilir.[1]

K.Talıbzadənin elmi yaradıcılığının öyrənilməsi sahəsində bu iki monoqrafiya təhlil tərzi, alimin bir vaxt «marksist ruhda yazıldığı», «marksist nəticələri ilə diqqəti cəlb etdiyi» üçün yüksək dəyərləndirilən tədqiqatlarının yeni təfəkkür işığında araşdırılması, obyektiv şəkildə tədqiq olunub real qiymətləndirilməsi baxımından xüsusi əhəmiy-yət kəsb edir.

Bizim tədqiqatda isə görkəmli alimin həyatının və elmi fəaliyyətinin əsas inkişaf mərhələləri geniş şəkildə tədqiq edilmiş, onun elmi təfəkkürünün pillə-pillə yüksəlişi prosesi diqqətlə izlənmişdir.

Elmi araşdırmalarımızın mərkəzində XX əsrin ədəbi şəxsiyyətləri və problemləri mövzusu fonunda alimin «Abbas Səhhət», ədəbi əlaqələrin yeni ideya-estetik kon-sepsiya zəminində öyrənilməsi baxımından «Qorki və Azərbaycan», ədəbi tənqidin tarixi və nəzəriyyəsinin tədqiqi cəhətdən «Azərbaycan ədəbi tənqidinin tarixi» monoq-rafiyaları, yeni dövr ədəbiyyatına dair onlarla məqalələri, məruzə və çıxışları durur. Bu mənbələr milli ədəbiy-yatşünaslığın inkişaf istiqamətləri kontekstində tədqiq və təhlil olunur.

Tədqiqatın əsas məqsədi K.Talıbzadənin elmi yaradıcılığını bütün parametrləri ilə araşdırmaq, onun monoq-

---

[1] Şəmsizadə N. Türk təfəkkürü məcrasında, Bakı, Təhsil, 1998, s.31.

rafiyalarında, məqalə və oçerklərində, məruzələrində öz əksini tapan elmi fikir və mülahizələrini təhlil etmək, alimin şəxsiyyəti və elmi yaradıcılığı haqqında sistemli şəkildə, bütöv təsəvvür yaratmaqla onun Azərbaycan ədəbiyyat-şünaslığının inkişafında rolunu müəyyənləşdirməkdir. Bu məqsədin realizəsi üçün tədqiqatın qarşısında duran bir sıra vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– akademik K.Talıbzadənin həyatının və elmi fəaliyyətinin əsas inkişaf mərhələlərinin tədqiqi.

– alimin yaradıcılığında ədəbi şəxsiyyətlər və problemlər mövzusu; milli romantizmşünaslığın inkişa-fında K.Talıbzadənin xidmətlərinin öyrənilməsi. Onun ilk tədqiqat əsəri olan «Abbas Səhhət» monoqrafiyasının milli romantizmin əsas inkişaf istiqamətləri kontekstində təh-lili əsasında ümumiləşdirmələr aparılması.

– K.Talıbzadənin tədqiqatlarında ədəbi əlaqələr probleminin həlli, onun nəzəri əsaslarının müəyyənləş-dirilməsi, Azərbaycan-rus ədəbi əlaqələrinə həsr olun-muş «Qorki və Azərbaycan» monoqrafiyasını geniş təhlil etməklə onun ədəbi tənqidin hansı norma və prinsipləri daxilində öz həllini tapdığını aydınlaşdırmaq.

– tədqiqatçının yaradıcılığında Azərbaycan ədəbi tənqidinin tarixi konsepsiyası, onun inkişaf istiqamətləri-nin araşdırılıb üzə çıxarılması, məsələnin elmi şəkildə izahı; alimin tənqid tarixinə dair fundamental monoqrafiyasının təhlili.

– yeni dövr Azərbaycan ədəbiyyatının ən aktual yaradıcılıq problemlərinin həllində Kamal Talıbzadənin elmi xidmətlərini araşdırmaq, onun çağdaş ədəbiyyatımızın

görkəmli yazıçı, ədəbiyyatşünas və tənqidçiləri, eləcə də onların əsərləri haqqında mülahizə və qənaətlərini konret material əsasında nəzərdən keçirmək, alimin bu möv-zuda tədqiqatlarının təhlili əsasında ümumiləşdirmələr aparmaq.

Tədqiqatın metodoloji əsasını müasir Azərbaycan ədəbiyyatşünaslığın elmi-nəzəri müddəaları təşkil edir. Bununla yanaşı tədqiqatda tarixi-müqayisəli təhlil meto-dundan da istifadə edilmişdir. Bu metoddan istifadə ədəbi faktları müasir elmi-nəzəri tələblər səviyyəsində araşdır-mağa və düzgün məntiqi nəticələrə gəlməyə imkan vermiş-dir. Tədqiqat işində həmçinin Azərbaycan ədəbiyyatşü-naslıq elminin əldə etdIyi nailiyyətlər, elmi-nəzəri düsturlar əsas götürülmüşdür.

Ümumiləşdirmələrin yeniliyi müstəqillik, demokratiya şəraitində aparılan tədqiq və təhlillərdə ədəbiyyatşünaslığın bir çox problemlərinə elmi-nəzəri cəhətdən daha dəqiq mövqelərdən yanaşma təşəbbüsü ilə şərtlənir. Burada bir sıra elmi faktların, mülahizələrin yeni aspektdən araşdı-rılmasına səy göstərilmiş, yeri gəldikdə onlara tənqidi münasibət də bildirilmişdir. Tədqiqatda ilk dəfə olaraq K.Talıbzadə yaradıcılığı ilə bağlı bütün materiallar bütöv-lükdə araşdırılmış və təhlilə cəlb edilmişdir. Alimin həyatı və elmi fəaliyyətinə həsr edilmiş dəyərli tədqiqat əsərləri sırasında Ş.Salmanovun «Akademik Kamal Talıbzadə» N.Şəmsizadənin «Türk təfəkkürü məcrasında» monoq-rafiyaları da ilk dəfə bütünlükdə nəzərdən keçirilmiş, tədqiq və

təhlillərdə onlara istinad edilmişdir. Görkəmli ədəbiyyatşünas və tənqidçinin yaradıcılığına dair faktlar, sənədlər sistemli şəkildə öyrənilmiş, onlar milli ədəbiyyatşünaslığın təşəkkülü və inkişafı kontekstində araşdırılmışdır.

# I FƏSIL
# K.TALIBZADƏ YARADICILIĞINDA ƏDƏBI ŞƏXSIYYƏTLƏR VƏ PROBLEMLƏR

## *1.1. Akademik K.Talıbzadənin həyatının və elmi fəaliyyətinin əsas inkişaf mərhələləri*

Mənəvi-psixoloji və ictimai-siyasi təbəddülatlarla zən-gin olan XX əsr tənqid və ədəbiyyatşünaslığın inkişafında mühüm bir mərhələdir. Azərbaycan ədəbiyyatının təraq-qisində bu dövrün tənqid və ədəbiyyatşünaslığı mühüm rol oynamış, milli ədəbiyyatın tarixini, keçdiyi mərhələləri, ənənə və qanunauyğunluqları öyrənməklə bilavasitə onun inkişafına təsir göstərmək kimi vacib bir missiyanı yerinə yetirmişdir. Ötən əsrin 50-ci illərindən daha şaxəli təkamülə yön alan, orijinal tədqiqatlarla zənginləşən Azərbaycan ədəbiyyatşünaslığının, ədəbi tənqidinin bütövlükdə XX yüzillikdəki nəhəng nailiyyətləri böyük ədəbiyyatşünaslar, tənqidçilər nəslinin adı ilə bağlıdır. Ilk milli ədəbiyyat tarixinin yaradıcısı Firidun bəy Köçərlidən başlayaraq ciddi elmi axtarışlara istiqamət alan bu nəslin fəaliyyəti son dərəcə qiymətli və əhəmiyyətli olmuşdur. Bu istiqa-mətdə 20-30-cu illər ədəbiyyatşünaslığının tədqiqat səyləri xüsusilə böyük mahiyyət daşıyır. S.Mümtaz, Ə.Abid, S.Hüseyn, A.Şaiq, H.Zeynallı, Ə.Nazim, M.Quliyev, M.K.Ələkbərli, A.Musaxanlı, B.Çobanzadə, bir qədər sonra isə M.Arif, M.Rəfili, Ə.Sultanlı, H.Araslı, F.Qasımzadə, C.Xəndan, Mir Cəlal, M.Cəfər, C.Cəfərov və başqaları kimi istedadlı ədəbiyyatşünasların böyük bir nəsli F.Köçər-lidən

başlanan yolu ləyaqətlə davam etdirmiş, ədəbiyya-tımızın tarixi və milli varlığını meydana çıxarıb dəyər-ləndirmişlər. Müasir milli ədəbiyyatşünaslığımız, onun metodologiyası və nəzəriyyəsi həmin nəsillərin yaratdığı təməl-məktəb üzərində dayaq tapıb yüksəlmişdir. Aka-demik Kamal Talıbzadənin ədəbi tənqid və ədəbiyyatşü-naslıq sahəsində yarım əsrdən artıq davam edən səmə- rəli elmi fəaliyyəti bu məktəbin təcrübə və ənənələrini yaşatmış, daha da inkişaf etdirmişdir.

Kamal Talıbzadənin ədəbiyyatşünaslığa gəlməsi mü-haribədən sonrakı dövrə, 40-cı illərin ortalarına təsadüf edir. Bu ədəbiyyatşünaslığımızda sosioloji ehkamların tüğ-yan etdiyi, ədəbi fikrin, tənqidin totalitar rejim çərçivəsində sıxıldığı, bütün elm və incəsənət sahələrində olduğu kimi ədəbiyyatımız üçün də mürəkkəb və ziddiyyətli yaşantılar dövrü idi. «Lakin eyni zamanda o, həm də tənqidimizin, ədəbiyyat elmimizin çox əhəmiyyətli bir çağıdır. Belə ki, sonralar ədəbiyyatşünaslığın yeni tədqiqat istiqamətlərinə doğru hərəkəti məhz bu dövrdə ədəbiyyatşünaslığa gəlmiş tənqidçi və ədəbiyyatşünasların fəaliyyəti ilə əhəmiyyətli dərəcədə bağlıdır.»[1] Ədəbiyyatşünaslığa bu illərdə gələn yeni və istedadlı qüvvələr – Əziz Mirəhmədov, Kamran Məmmədov, Əhəd Hüseynov, Pənah Xəlilov, Həbib Baba-yev, Mirəli Seyidov, Nazim Axundov və başqaları ədəbiyyat elmimizin gələcək taleyini müəyyənləşdirdi. Bu ədəbi nəs-li təmsil edən böyük ədəbiyyatşünaslar sırasında görkəmli simalardan biri akademik Kamal Talıbzadədir.

---

[1] Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998, s.8.

Kamal Talıbzadə 1923-cü ildə avqust ayının 14-də Bakıda, XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, islampərəst və türkçü, milli-romantik ədib və maarifçi Abdulla Şaiqin ailəsində dünyaya göz açmışdır. Böyük ədibin ocağında kök bağlayan bu körpə istedad H.Cavid, S.Vurğun, M.Hüseyn və başqaları kimi görkəmli sənətkarların hikmət dolu söhbətlərinin işığından nur almış, zəngin bir mühitdə püxtələşib söz aləminin incəliklərinə bələd olmuşdur. O, bu evdə şeir, sənətlə bağlı neçə-neçə ədəbi müzakirələrin şahidi olub, maraqlı diskussiyaları dinləyib. K.Talıbzadə tənqid, ədəbiyyatşünaslıq elmi haq-qında ilk söhbətləri də atası Abdulla Şaiqin dilindən eşidib. Qeyd etmək lazımdır ki, Azərbaycanda romantizm ədəbi hərəkatının meydana çıxmasında və inkişafında, ideya-estetik prinsiplərinin təbliğində müstəsna rolu olan, böyük ziyalılar nəslinin müəllimi sayılan A.Şaiq həm də tənqidçi və ədəbiyyatşünas olmuşdur. M.F.Axundov, H.Ca-vid haqqinda məqalələri, ədəbiyyatımızın tarixinə dair tədqiqatları, ədəbiyyat nəzəriyyəsi kitabı onun tənqidçilik və ədəbiyyatşünaslıq fəaliyyəti haqqında aydın təsəvvür yaradır. A.Şaiqin ədəbiyyat dərnəklərinin rəhbəri kimi xidmətləri də son dərəcə səmərəli olmuş, onun sənət görüş-ləri XX əsrin əvvəllərində yaranan milli ədəbiyyatın inki-şafına öz əhəmiyyətli təsirini göstərmişdir. A.Şaiqin elmi-nəzəri irsi ilə tanışlıq göstərir ki, o, 20-30-cu illərin mü-rəkkəb ədəbi mühitində ən az səhv edən ədəbiyyatcılardan biri olub. Akademik Kamal Talıbzadənin həyat və yara-dıcılıq yolunun cığırı məhz atasının bədii və nəzəri-tən-qidi irsindən

başlayır. Çünki, onun ədəbi-tənqidi görüşləri A.Şaiqin nəzəri irsinin bilavasitə təsiri ilə formalaşmışdır. K.Talıbzadə atası haqqında böyük ehtiramla qələmə aldığı «Həmişə yadımda olan insan» xatirəsində yazır: «O, mənim xəyalımda, düşüncəmdə elə bil indi də canlıdır, elə bil o mənimlə hər gün danışır, məsləhətləşir, yol göstərir, nəsihət verir… Atam məni tənqidə, ədəbiyyatşünaslığa sövq edən şəxsiyyət kimi də əvəzsiz və unudulmazdır. Ədəbiyyat aləminə, elminə gəlməyimlə maraqlananlar tez-tez belə sual verirlər – atamın bu prosesdə rolu olubmu, olubsa necə və nə dərəcədə olub? Və mən onlara həmişə cavab vermişəm:
müstəsna, həm də əsas rolu olubdur.»[1]

1930-cu ildə 14 saylı (indiki 132 saylı) orta məktəbə daxil olan, bu məktəbdə təhsilini başa vurduğu 1940-cı elədək bir çox elm sahələrinə maraq göstərən K.Ta-lıbzadənin ədəbiyyata bağlılığı, sevgisi isə sonsuz idi. Onun ilk müəllimi, həmişə adını hörmətlə, minnətdarlıq hissi ilə andığı məşhur qəzəl şairi Məşədi Azər Buzovnalı bütün şagirdləri kimi balaca Kamala da hələ ibtidai sinifdə oxuduğu vaxtlardan ədəbiyyata vurğunluq hissini aşıla-mışdı. Sonralar ədəbiyyata bağlanmasının əsas səbəblə-rindən danışarkən K.Talıbzadə orta məktəbdə təhsil aldığı illəri xoş təəssüratlarla xatırlayırdı: «kiçik yaşlarından dəqiq elmlərə böyük marağım vardı. Riyaziyyatdan, fizikadan həmişə beş alardım. Evimizdə bir metr hün-dürlüyündə buruq maketi düzəldib ora işıq da çəkmiş- dim. 1935-ci ildə atamın yanına «Kommunist» qəzetinin müxbiri gəldi. Həmin maketə

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, 1 c., 1991 s.13-23.,

maraqla tamaşa etdi və 56 gün sonra mənim imzamla qəzetdə «Mən mühəndis olacağam» sərlövhəli məqalə dərc edildi. Bəlkə doğrudan da mühəndis olacaqdım. Ancaq 6-cı sinifdə ədəbiyyat müəllimim Ismayıl Əhmədov mənə «Ölülər» əsəri haqqında məruzə tapşırdı. Evə gəlib atamla bu əsərin qayəsi, Isgəndər obrazının mahiyyəti barədə xeyli söhbət etdim. Gözəl bir məruzə hazırladım və həmin məruzə də mənim sonraki həyat yolumu müəyyənləşdirdi.» [1] Beləliklə də, o, orta məktəbi bitirdiyi il Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsinə daxil oldu. Tələbəlik illərindən ədəbiyyatşünaslıq elminin cazibəsinə düşən K.Talıbzadə ilk tədqiqatları üzərində işləməyə başladı. Romantizm mövzusunda yazdığı kurs işi də tələbəlik illərinin ilk qələm təcrübələrindən idi. «Füzuli şeirinin Azərbaycan romantiklərində əks-sədası» adlı bu kurs işini yazarkən romantizm mövzusuna marağı artan K.Talıbzadə çox keçmədən həmin mövzuya bir də qayıtdı. Universitetdə təhsilini vaxtından əvvəl başa çatdıran K.Talıbzadənin 1945-ci ilin yazında diplom işini müdafiə etməsi üçün birdəfəlik Dövlət Imtahan Komissiyası təşkil olundu və o, bu komissiyada «XX əsr Azərbaycan romantizmi və M.Hadi» mövzusunda diplom işini müvəffəqiyyətlə müdafiə etdi. K.Talıbzadənin vax-tından əvvəl diplom işi müdafiə etməsi isə Azərbaycan KP Mərkəzi Komitəsinin fərdi rəsmi təqdimatı ilə onun Moskva Ali Diplomatiya Məktəbinə göndərilməsi ilə əla-qədar idi. Qəbul imtahanları verərək komissiyanın qərarı ilə həmin ali

[1] Bayramov Ə. Ot kökü üstə bitər, «Xalq qəzeti» 1999, 5 iyun.

məktəbin Iran şöbəsinə daxil olan K.Ta-lıbzadənin burada təhsil alması baş tutmamışdır. Abdulla Şaiq vaxtı ilə ailəsiylə birlikdə altı il Iranda yaşadığı üçün oğlunun diplomatiya məktəbində oxumasina icazə verilmir. K.Talıbzadə sonralar bu faktı belə mənalandırırdı: «…işin belə nəticələnməsi məni gələcəkdə rus diplomatları ilə ça-lışmaq əzabından, xətasından xilas etdi, həyatımın başqa istiqamətdə, arzuladığım yöndə davamına səbəb oldu, yoxsa allah bilir başım nələr çəkəcəkdi».[1]

Beləliklə, o, həmin vaxt Nizami adına Ədəbiyyat Insti-tutunun direktoru işləyən görkəmli tənqidçi Məmməd Arii-fin tövsiyyəsi ilə sənədlərini aspiranturaya verib qəbul edilir. Elə o vaxtdan, 1945-ci ilin payızından institutda kiçik elmi işçi vəzifəsinə işə götürülərək ömürlük elmi fəaliyyətini, ədəbiyyatşünas taleyini bu mötəbər elm oca-ğına bağlayır. Aspiranturada təhsil aldığı illərdə gənc tədqiqatçı professor Mir Cəlalın elmi rəhbərliyi altında «A.Səhhətin həyatı və yaradıcılığı» mövzusunda nami-zədlik dissertasiyası üzərində işləyir. 1949-cu ildə isə onu müvəffəqiyyətlə müdafiə edir. K.Talıbzadənin bu ilk funda-mental tədqiqat əsərini görkəmli sənət və elm xadimləri – S.Vurğun, M.Hüseyn, Mir Cəlal, C.Xəndan. Ə.Sultanlı və başqaları elmdə əhəmiyyətli yenilik kimi dəyərləndir-mişdilər. 1955-ci ildə Azərbaycan, 1963-cü ildə rus dilində «Abbas Səhhət» adı ilə monoqrafiya halında nəşr olunan bu qiymətli tədqiqat əsəriylə K.Talıbzadə ədəbiyyatşünas-lıq elminə vəsiqə aldı. Qeyd etmək lazımdır ki,

---

[1] Şəmsizadə N. Türk təfəkkürü məcrasında, Bakı, Təhsil, 1998, s.26.

tədqiqat-çının ədəbiyyatşünaslıq və tənqidçilik fəaliyyəti Ədəbiyyat Institutu ilə sıx surətdə bağlı olmuş, o bu elm ocağında müxtəlif vəzifələrdə işlədiyi illərdə milli ədəbiyyatşünas- lığın mühüm istiqamətlərində səmərəli xidmətlər göstər-mişdir.

K.Talıbzadə namizədlik dissertasiyası müdafiə etdiyi vaxtdan, yəni 1949-cu ildən institutun baş elmi işçisi vəzifə-sinə təyin olunur, eyni zamanda Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında (1950-1952-ci illərdə) müəllim işləyir. Çalışdığı kollektivin yüksək rəğbətini qazanan alim 1952-ci ildən Nizami adına Ədə-biyyat Institutunun XIX-XX əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri vəzifəsinə layiq görülür. Bu şöbəyə rəhbərlik etdiyi illər ərzində K.Talıbzadə yeni bir elmi istiqamətdə, ədəbi əlaqələr yönümündə «Qorki və Azər-baycan» mövzusunda monoqrafiya üzərində işləyir. 1959- cu ildə tamamlanıb nəşr olunan bu monoqrafiya elmi ictimaiyyətin böyük marağına səbəb olur. Əsər 1970-ci ildə rus dilində nəşri ilə oxucu auditoriyasını daha da geniş-ləndirərək türk, rus, gürcü və digər xalqların görkəmli alimləri Ə.Cəfəroğlu, L.Dımşits, B.Piradov və başqaları tərəfindən yüksək qiymətləndirilmişdi.

«Qorki və Azərbaycan» monoqrafiyası müəllifinə ədəbi mühitdə böyük nüfuz qazandırıb onun gələcək elmi nailiyyətləri üçün körpü rolunu oynadı. 1960-cı ildə K.Talıbzadəyə etimad göstərib Nizami adına Ədəbiyyat Institutunda elmi işlər üzrə direktor müavini vəzifəsinə irəli çəkdilər. Bu vəzifədə işlədiyi iyirmi ildən artıq müd- dət ərzində o, institutun elmi işləri, elmi tədqiqat planla-rının

müəyyənləşdirilməsi və icrası kimi mürəkkəb bir prosesə böyük məharətlə rəhbərlik etmişdir. Qeyd etmək lazımdır ki, Ədəbiyyat Institutunun Elmlər Akademiyası sistemində Ədəbiyyat və Dil Institutu kimi fəaliyyət gös-tərdiyi vaxtlarda institutun direktoru vəzifəsinə dilçi alim təyin edilirdisə, elmi işlər üzrə müavin ədəbiyyatçı olurdu, yaxud əksinə. Bu illərdə direktor müavini işləyən Kamal Talıbzadə ədəbiyyatşünaslığın bir sıra vacib problemlərinin tədqiqi ilə yanaşı həm də ədəbiyyatşünaslığa rəhbərlik et-mişdir. Həmin vaxtlarda yorulmaz tədqiqatçı «Abbas Səh-hət», «Qorki və Azərbaycan» monoqrafiyaları kimi mötə-bər elmi əsərlərin, həmçinin XX əsr ədəbiyyatının tarixinə və nəzəri məsələlərinə dair samballı məqalələrin müəllifi kimi tanınırdı. Alimin bu qiymətli tədqiqatları 60- cı illərdə ədəbiyyatşünaslığın qarşısında duran mühüm vəzifələrdən birinin yerinə yetirilməsində – üçcildlik «Azərbaycan ədə-biyyatı tarixi»nin XIX-XX əsrlər (əsrin əvvəl-lərinə qədərki dövr) ədəbiyyatına dair ikinci cildinin yazılmasında və nəşrə hazırlanmasında mühüm rol oynadı. Bu cildin əsas müəl-liflərindən və redaktorlarından biri K.Talıbzadə idi.

60-cı illərdə K.Talıbzadənin çoxşaxəli elmi yaradıcı- lığı həm də ədəbiyyatşünaslığın daha bir vacib sahəsinin tədqiqi ilə zənginləşdi. Milli tənqidin tarixini yaratmaq istiqamətində alimin uzun illər apardığı araşdırmalar bu mövzuda ilk fundamental tədqiqatın nəşrinə imkan verdi. Ədəbi-elmi axtarışlarının on ilini klassik ədəbi-estetik fikrin tarixi haqqında monumental tədqiqata həsr edən K.Talıbzadə 1965-ci ildə «XX əsr Azərbaycan ədəbi tənqidi» mövzusunda

doktorluq dissertasiyasını müdafiə etdi. Əsər 1966-cı ildə monoqrafiya halında nəşr edildi. Alim həmkarlarının yüksək rəylə qarşıladığı bu monoq-rafiya K.Talıbzadənin özünün də tədqiqatları içərisində xüsusi münasibət bəslədiyi bir əsər idi. O, monoqrafiya barədə müsahibələrindən birində yazırdı: Bu kitab mənə təkcə ona görə əziz deyil ki, doktorluq dissertasiyamla əlaqədardır. Bir də ona görə mənim üçün doğma və qiy-mətlidir ki, o, hələ tələbəlik dövründən başladığım tənqidi fikir sahəsində 25 ilə yaxın apardığım tədqiqatlara bir növ yekun vurdu, təsdiq etdi ki, mən öz axtarışlarımda və ədəbiyyatşünaslığımda tutduğum yeni istiqamətdə yanıl-mamışam. Bu elə bir elmi sahədir ki, onu gələcəkdə də davam etdirmək mümkündür. Elə belə də oldu. Bundan sonra yazılarımın, kitablarımın əksəriyyəti bu mövzuya həsr olunmuşdur.»[1]

«XX əsr Azərbaycan ədəbi tənqidi» monoqrafiyasının yazılmasına qədər isə alim «Ədəbi tənqidə diqqəti artıraq» (1954), «Tənqidçi və ədəbiyyatşünasların yeni nəsli» (1955), «Mübariz tənqidin gözəl nümunələri» (1959), «Tənqidimiz haqqinda qeydlər» (1963) və s. məqalələrini yazıb dərc etdirmişdi. Ədəbi tənqidin müxtəlif məsələlərini əhatə edən, məzmunca rəngarəng olan bu məqalələr 1967-ci ildə «Tənqidimiz haqqinda qeydlər» kitabında toplanıb nəşr edildi. K.Talıbzadənin həmin məqalələrində ədəbiyyatşü-naslığın bu mühüm sahəsinə həssas tədqiqatçı münasibə- tini görürük. Burada ədəbi tənqidin qarşısında duran problemlərdən,

---

[1] Talıbzadə K. Tənqid və tənqidçilər, Bakı, Yazıçı, 1989, s.147-148

tənqidin və tənqidçinin başlıca vəzifələ-rindən bəhs edən müəllif müasir Azərbaycan tənqidçisini belə görmək istəyirdi: «Tənqidçi nadir istedada, gözəlliyi, sənəti duya bilən estetik hisslərə, ədəbiyyatı sevən böyük bir qəlbə malik olmalıdır. Bütün bunlarla yanaşı, həqiqi tənqidçi dövrünün ən irəlidə gedən, geniş dünyagörüşə sahib bir adamı olmalı, dövrün hakim görüşlərini izah və inkişaf etdirməyi bacarmalıdır. Ancaq bu halda o, ədəbiyyata doğru istiqamət verər, tənqidi həqiqi nəzəri yüksəkliyə qaldıra bilər… Orada ki cəsarət yoxdur, orada həqiqi ədəbi tənqid də yoxdur.»[1]

«Tənqidimiz haqqında qeydlər» kitabından sonra K.Talıbzadənin Azərbaycan ədəbiyyatının aktual problemlərindən bəhs edən 400-dən artıq məqaləsi «Ədəbi irs və varislər» (1974), «Sənətkarın şəxsiyyəti» (1978), «Tənqid və tənqidçilər» (1989), «Seçilmiş əsərləri» (iki cilddə: 1991; 1994) kitablarında toplanmışdır. «Ədəbi irs və varislər», «Sənətkarın şəxsiyyəti» kitabları alimin 70-ci illərdəki ədəbi tənqidi görüşlərini özündə əks etdirirdi. Bu illərin tənqi- dini əvvəlki dövr və illərə nisbətən daha mükəmməl və daha məhsuldar hesab edən tədqiqatçı 70-ci illərdə tən- qidin mürəkkəb şəkil aldığını, çətin vəzifələri icra etməyə başladığını göstərirdi: «Bu günkü bədii tənqid ədəbi prosesə güclü ideya-estetik təsir göstərir, əldə edilən nailiyyətləri möhkəmlətməyin, inkişaf etdirməyin elmi-nəzəri əsaslarını yaradır, başqa sözlə, sovet adamının fikri, mənəvi təkmil-ləşməsində bədii

---

[1] Talıbzadə K. Tənqidimiz haqqında qeydlər, Bakı, Gənclik, 1967, s.21.

ədəbiyyatla yanaşı məfkurəvi tərbiyə işi aparır.»[1] Həmin illərdə K.Talıbzadə tənqidin bir sıra mühüm vəzifələrinin icrasında, həmçinin «Ədəbi tənqid» toplusunun tərtibi və nəşrə hazırlanması işində yaxından iştirak edirdi.

Görkəmli tədqiqatçının elmi yaradıcılığında 80-ci illər də əhəmiyyətli bir mərhələ kimi diqqəti cəlb edir. «Abbas Səhhət», «XX əsr Azərbaycan ədəbi tənqidi (1905-1917-ci illər)» monoqrafiyalarının təkmilləşdirilmiş yeni nüsxələri məhz bu illərdə işıq üzü görmüşdür. K.Talıbzadənin milli ədəbi-estetik fikrin tarixinə dair tədqiqatının əsaslı şəkildə işlənib təkmilləşdirilmiş yeni nüsxəsinin – «Azərbaycan ədəbi tənqidinin tarixi» monoqrafiyasının nəşri (1984) ədəbi ictimaiyyətdə xüsusilə böyük maraq doğurdu. Əsər nəinki Azərbaycan, keçmiş SSRI xalqları, eləcə də xarici ölkələrin ədəbiyyatşünasları tərəfindən yüksək qiymət-ləndirilib 1986-cı ildə daha böyük diqqətə – Respublika Dövlət Mükafatına layiq görüldü. Milli tənqid tarixi və onun müasir mərhələsinin əhatəli şərhini verən «Tənqid və tənqidçilər» (1989) kitabı isə K.Talıbzadənin 80-ci illərdəki araşdırmalarının bitkin bir nəticəsi kimi meyda- na çıxdı. Burada «Tənqid etüdləri» başlığı altında top- lanan yazılar istisna olmaqla bütün məqalələr ədəbi tən-qidin nəzəri-estetik problemlərinə həsr olunmuşdur.

80-ci illər həm də K.Talıbzadənin səmərəli elmi fəaliyyətinin ən mötəbər fəxri adlar, yüksək titullar, ali mükafatlarla dəyərləndirilməsi baxımından əlamətdar idi. 1980-ci

---

[1] Talıbzadə K. Ədəbi irs və varislər, Bakı, Azərnəşr, 1974, s.9.

ildə tədqiqatçı Azərbaycan EA-nın müxbir üzvü, 1989-cu ildə isə akademiyanın həqiqi üzvü seçilmişdir. Alimin tənqid tarixinə dair məşhur monoqrafiyasına dövlət mükafatı verilməsi də bu illərə (1986) təsadüf edirdi. Qeyd etmək lazımdır ki, bu ali məqamlara qədər də K.Talıbzadənin yaradıcılığı, elmi təşkilatçılığı layiqincə qiymətləndirilmiş-dir. O, yüksək vəzifələrə təyin olunmuş, fəxri adlara layiq görülmüşdü. «Bilik» Cəmiyyəti 1968, 1985-ci illərdə, Azərbaycan Elmlər Akademiyası 1993-cü ildə alimi fəxri fərmanlarla təltif etmiş, onun nəşr olunan əsərləri beş dəfə Rəyasət Heyətinin qərarı ilə mükafatlandırılmışdır. K.Talıbzadə 1970-ci ildə «Fədakar əməyə görə», 1984-cü ildə SSRI-nin, 1987-ci ildə Azərbaycanın «Əmək veteranı» medalları ilə təltif edilmiş, «Əməkdar elm xadimi» (1982), «Qabaqcıl maarif xadimi» (1983) fəxri adlarını almışdı. Azərbaycan Jurnalistlər Ittifaqı isə 1998-ci ildə tədqiqat-çıya «Qızıl Qələm» mükafatını və «Kamaliyyə» diplomunu təqdim etmişdir.

Əldə etdiyi böyük uğurlar, elmi nailiyyətlər alimin yeni axtarışlarına yol açmış, onlarla tədqiqatlarını çağdaş təfəkkürün işığında araşdırmasına səbəb olmuşdur. Gös-tərilən cəhətdən tədqiqatçının ikicildlik «Seçilmiş əsər-ləri»nin nəşri xüsusilə diqqətəlayiqdir. K.Talıbzadənin iki-cildliyi sosioloji ehkamların yıxıldığı, yazılı tarixə milli özünüdərk mövqeyindən yanaşıldığı bir vaxtda işıq üzü görmüşdür. Buraya tədqiqatçının əsasən müasir ədəbiyyat haqqında məqalələrinin bir qismi, A.Səhhətə həsr olunmuş monoqrafiyası və milli ədəbi tənqidin tarixinə dair bir sıra

tədqiqatları daxil idi. Ikicildlik haqqında ilk rəyi ona yaz-mış olduğu «Tarixə güvənən düşüncə» adlı müqəddimədə söyləyən ədəbiyyatşünas Nizaməddin Şəmsizadə yazırdı: «Kamal Talıbzadəni ikicildlik seçilmiş əsərlərin müəllifi kimi təqdim etmək çətindir. Onun irsi və fəaliyyətinin möhtəşəmliyi müqabilində ikicildlik çox cılız görünür.»[1] Buna baxmayaraq alimin «Seçilmiş əsərləri» haqqında respublika dövrü mətbuatında dərc olunmuş rəylərdə ikicildlik K.Talıbzadə yaradıcılığının seçimli yekunu kimi yüksək dəyərləndirilmişdir. Tanınmış ədəbiyyatşünas alim Şamil Salmanov qeyd edirdi ki, «K.Talıbzadənin külliyyatı ədəbiyyatşünaslığın, ədəbi tənqidin yalnız çətin, mürəkkəb siyasi-ideoloji kontekstini əks etdirmir, həm də milli ədəbiyyatşünaslığın öz predmetinə, öz vəzifəsinə sədaqətini də, inkişafının əsas istiqamətinin düzgün olmasını da, milli ədəbiyyatın ideya zənginliyi, tarixi-milli xüsusiyyətlərinin dəyərini açmaq və izah etmək əzmini də, onun analitik imkanlarının tükənməzliyini də meydana çıxarır.»[2]

Kitabları və elmi fəaliyyəti haqqında Beynəlxalq, keç-miş SSRI və respublika mətbuatında 200-dən artıq məqalə, həyat və yaradıcılığından bəhs edən iki monoqrafiya çap olunmuş, onlarla əsərin, dərslik və müntəxabatların redak-toru K.Talıbzadənin elmi və elmi-təşkilati yönümdə xid-mətləri yalnız bunlarla məhdudlaşmır. O, Moskvada Bey-nəlxalq

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s. 6.
[2] Salmanov Ş. Tənqidin və tədqiqatın birliyi, «Azərbaycan» qəzeti, 1993, 13 avqust.

miqyaslı nəşrlər olan «Müxtəsər ədəbiyyat ensik-lopediyası», «Müxtəsər sovet ensiklopediyası», «Teatr en-siklopediyası», «Dünya ədəbiyyatı tarixi», eləcə də Bakıda «Azərbaycan sovet ensiklopediyası» səhifələrində milli ədə-biyyatımızla bağlı çoxsaylı oçerklər dərc etdirmiş, xarici ölkələrdə keçirilən simpozium, konqres, konfrans, yubiley və sessiyalarda respublikamızın elmi ictimaiyyətini ləya-qətlə təmsil etmişdir. Görkəmli alim 1968-ci ildə «Hin-distanda Aylıq Dostluq Günləri»ndə Azərbaycan nüma-yəndə heyətinin başçısı kimi 10-a qədər şəhərdə (Dehli, Bombey, Kəlküttə, Puna və s.) ali məktəb tələbələri üçün «Azərbaycan-hind ədəbi əlaqələri», «Azərbaycan ədəbiyyatı tarixi» mövzularında mühazirələr oxumuşdur. Eləcə də Italiyanın Neapol Şərqşünaslıq Institutunda, Roma, Milan, Florensiya, Pompey təhsil müəssisələrində onun Azər-baycan ədəbiyyatı tarixinə dair mühazirələri maraqla qar-şılanmışdır (1977). K.Talıbzadə bunlardan başqa 1960-cı ildə Şərqşünasların Beynəlxalq Ümumdünya Konqresində, 1986-cı ildə Hindistanın Puna Universitetində, 1990-cı ildə Türkiyənin Kayseri şəhərində keçirilən Birinci Millət-lərarası Böyük Azərbaycan Konqresində, 1991-ci ildə Nizami Gəncəviyə həsr olunmuş Beynəlxalq Tehran Konqresində, N.Gəncəvinin Təbriz Universitetində keçi-rilən 850 illik yubiley tədbirində, 1995-ci ildə Füzulinin 500 illik yubileyi münasibətilə keçirilən Tehran konfransında və bir çox başqa nüfuzlu elmi toplantılarda konseptual elmi məruzələrlə çıxış etmişdir. Alimin «XX əsrin əv-vəllərində Azərbaycan ədəbi tənqidinin əsas cərəyanları (1900-1920)» (Kayseri, 1990), «Nizaminin ədəbi təlimi»

(Təbriz, 1992), «XX əsrin əvvəllərində Azərbaycan ədəbi fikri və Füzuli» (Tehran, 1995) mövzusunda məruzələri də bu qəbildəndir.

Tədqiqatçı həmçinin Bolqarıstanın Sofiya şəhərində türk dilində nəşr olunan mətbuat orqanları ilə 1968-ci il- dən başlayaraq yaratdığı əlaqəni illərlə davam etdirmişdir. Nizami adına Ədəbiyyat Institutundakı elmi fəaliyyəti, ali məktəblərdə mühazirələri, xarici ölkələrə elmi-mədəni səfərlərindən başqa K.Talıbzadə akademiyadan kənarda da elmi, elmi-kütləvi və təşkilati işlərlə məşğul olmuşdur. O, 1954-cü ildən 2006-cı ilədək Azərbaycan Yazıçılar Birli-yinin Idarə Heyətinin, 1965-ci ildən 1976-cı ilə qədər Rəyasət Heyətinin, 1997-ci ildən 2006-cı ilədək Ağsaqqallar Şurasının üzvü olmuşdur. 1957-1975-ci illərdə isə Yazıçılar Birliyində tənqid və ədəbiyyatşünaslıq bölməsinə rəhbər-lik etmişdir. K.Talıbzadə həmin illərdə M.Füzuli, M.Ə.Sa-bir, C.Məmmədquluzadə, M.Qorki, S.S.Axundov, A.Səh-hət, S.Vurğun, M.Ibrahimov, C.Cabbarlı, M.Arif kimi görkəmli sənətkar və alimlərin yubileylərini təşkil edən komissiyaların sədri, sədr müavini və üzvü kimi də səmə- rəli fəaliyyət göstərmişdir. Görkəmli alim bu yubileylərdə tənqid və ədəbiyyatşünaslığımız üçün qiymətli olan «S.Vurğunun ədəbi-tənqidi görüşləri» (1966), ««Molla Nəs-rəddin» jurnalının ədəbi mövqeyi» (1967), «N.Nərimanov və XX əsr Azərbaycan tənqidi» (1972), «A.Səhhətin naməlum satiraları» (1972), S.Vurğun haqqında «Sənət-karın şəxsiyyəti» (1976), «M.Ibrahimovun ədəbi görüş-lərində ədəbi irs problemi» (1981), M.Arif haqqında «Görkəmli tənqidçi, ictimai xadim»

(1984) Mirzə Ibra-himov haqqında «Yazıçı-vətəndaş» (1991), «Füzuli XX əsr Azərbaycan ədəbi tənqidində» (1996), «Repressiyanın A.Şaiq ailəsinin üzvlərinə qarşı yönəldilməsi halları» (1997) mövzusunda nəzəri məruzələrlə çıxış etmişdir. K.Talıb-zadənin müxtəlif ünvanlarda keçirilən onlarla simpozium, elmi sessiya, konfrans və yubiley tədbirlərində nəzəri məruzələri, giriş sözləri geniş ədəbi və elmi ictimaiyyətin diqqətini cəlb etmişdir. Tədqiqatçı həmin məruzələrində milli ədəbiyyatşünaslığın ən aktual məsələlərinə toxunmuş, ayrı-ayrı problemləri günün tələbləri səviyyəsində araş-dırmışdır.

Alimin ədəbiyyatşünaslığın sırf nəzəri məsələlərinin həlli istiqamətində məruzələri də dövrün ədəbi-elmi mən-zərəsini işıqlandırmaq baxımından böyük əhəmiyyət kəsb edir. Onun «XX əsr Azərbaycan tənqidində realizm» (1969), «Azərbaycan sovet tənqidi və ədəbiyyatşünaslığı son beş ildə» (1971), «Azərbaycan ədəbiyyatşünaslığında Şərq rea-lizmi problemləri» (1972), «Azərbaycan sovet ədəbiyyat-şünaslığının inkişaf mərhələləri» (1977), «L.N.Tolstoy və XX əsrin əvvəllərində Azərbaycan ədəbi fikri» (1978), «Azərbaycan ədəbi tənqidi fikri türk mühacirəti mətbua-tında» (1991), «Müasir Azərbaycan-türk ədəbiyyatşünas-lığında milli özünüdərk və totalitarizmin inkarı» (1992) və s. mövzularda qiymətli məruzələri layiqincə dəyərlən-dirilmiş, müxtəlif elmi toplantıların təşkilat komitələrinin fəxri diplomları ilə mükafatlandırılmışdır.

K.Talıbzadə «Azərbaycan» jurnalının redaksiya he-yətinin, 1971-1980-cı illərdə «Azərbaycan Kommunisti»

jurnalının redaksiya heyətinin üzvü, Azərbaycan EA «Xəbərləri»nin (Ədəbiyyat, Dil və Incəsənət seriyası) baş redaktorunun müavini kimi ədəbi-elmi əsərlərin işıq üzü görməsində bilavasitə iştirak etmişdir.

Elmi-kütləvi tədbirlərin təşkili baxımından alimin «Kitabi Dədə Qorqud» dastanının 1300 illik yubileyində Dövlət Yubiley Komissiyasının və Füzuli adına Beynəlxalq Mükafatlar Komissiyasının işində fəal iştirakı da təqdirəlayiqdir. K.Talıbzadənin A.Şaiqin ev muzeyinin təşkili yönümündə, həmçinin YUNESKO-nun nəzdində Beynəl-xalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsinin üz-vü kimi xidmətləri də son dərəcə faydalı olmuşdur.

Azərbaycan Alimlər Ittifaqının ləyaqətli üzvü olan K.Talıbzadə müntəzəm olaraq elmi kadr hazırlığı işi ilə də məşğul olmuşdur. Respublikamızda və onun hüdud-larından kənarda elmlər namizədləri və doktorların yetiş-məsində görkəmli alimin xidmətləri əvəzsizdir. Elmi rəhbəri olduğu onlarla aspirantların və dissertantların bir qismi bu gün elmlər doktoru, professordurlar. Onlarla tədqiqatçının rəsmi opponenti və elmi məsləhətçisi olan K.Talıbzadə gənc nəslə daim yaxından köməklik etmiş, onların elmi yara-dıcılıq yolunda düzgün istiqamət almasında mühüm rol oynamışdır. Görkəmli alim «Bilik» Cəmiyyətinin xətti ilə də səmərəli elmi təşkilatçılıq fəaliyyəti göstərmiş, uzun müd-dət bu cəmiyyətin respublika və Bakı şəhər bölmələrində ədəbiyyat və incəsənət üzrə metodik şuralara rəhbərlik etmiş, elmi biliklərin kütləviləşdirilməsi işində mühüm xidmətlər göstərmişdir.

K.Talıbzadənin pedaqoji sahədə gördüyü işlər də onun əmək fəaliyyətinin ayrılmaz bir hissəsidir. O, müxtəlif illər-də Azərbaycan Dövlət Universiteti (indiki BDU), Azər-baycan Dövlət Pedaqoji Institutu (indiki ADPU), Ali Ictimai-Siyasi Kollec, «Azərbaycan» Universiteti və digər tədris müəssisələrində müəllim kimi çalışmışdır. Pedaqoji işə 1950-ci ildə ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müəllimi kimi başlayan K.Talıbzadə sonralar API-nin Azərbaycan ədəbiyyatı kafedrasının professoru (1984-1986), «Azərbaycan» Universitetinin «Fəxri professoru» (1998), Ali Ictimai-Siyasi Kollecin filologiya kafedrasının müdiri (1998) kimi fəaliyyətini davam etdirmişdir. Onun mühazi-rələr oxuduğu neçə-neçə tələbə nəsli ustad alim-pedaqoqdan elmin sirlərini öyrənməklə yanaşı, insanlıq dərsi də almışlar. K.Talıbzadə bütün yetirmələrinin yaddaşında böyük alim, əvəzsiz müəllim, həssas insan və kamil şəxsiyyət kimi qalmışdır.

O, həm də təhsil problemlərinin çözülməsi yönümündə müxtəlif kütləvi tədbirlərdə dəyərli pedaqoq sözü ilə çıxış etmişdir. Təsadüfi deyil ki, 1996-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Ali Ekspert Komissiyasının Konfransında K.Talıbzadənin «Özəl təhsil sistemində tələbələrin mənəvi tərbiyəsinin bəzi problem-ləri» mövzusunda məruzəsi pedaqoji mühitdə maraqla qarşılanmış, xüsusi əks-səda doğurmuşdur.

K.Talıbzadənin elmə, ədəbiyyata, pedaqoji işə sonsuz məhəbbəti, əvəzsiz xidməti diqqətdən kənarda qalmamışdır. O, ömrünün son günlərinədək zəhmətinin bəhrəsini gör-müş, dövlət tərəfindən layiqincə mükafatlandırılmışdır. 1998-ci ildə

Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı ilə alimin 75 illik yubiley tədbiri dövlət səviyyəsində təntənəli surətdə qeyd olunmuş, həmin qə-rarda qaldırılan vəsatətə əsasən K.Talıbzadə Azərbaycan ədəbiyyatşünaslığının inkişafındakı xidmətlərinə görə 1998-ci ilin avqustunda dövlət tərəfindən ən yüksək ödüllə – «Şöhrət ordeni» ilə təltif edilmişdir. Belə xoş məramlı gün-lərdə ədəbiyyatşünas həmkarları və sənət dostları Şamil Salmanovun, Nizaməddin Şəmsizadənin görkəmli tədqi-qatçının həyatı və elmi fəaliyyəti haqqında kitablarının işıq üzü görməsi xüsusilə əlamətdar hadisələr idi. Bu kitablar Ş.Salmanovun «Akademik Kamal Talıbzadə», N.Şəm-sizadənin «Türk təfəkkürü məcrasında» adlı monoqra-fiyaları idi.

Fədakar alim həyatının son günlərinədək, yəni 19 yanvar 2006-cı ilədək elmi yaradıcılığını və elmi-təşkilat-çılıq fəaliyyətini davam etdirmiş, respublikanın elmi-ictimai həyatının fəal iştirakçısı olmuşdur. O, Nizami adına Ədə-biyyat Insitutunun elmi məsləhətçisi, institutun elmi şurasının və onun nəzdindəki Birləşdirilmiş Dissertasiya Şurasının sədri kimi fəaliyyət göstərmiş, dissertasiyaların yüksək səviyyədə müdafiəsini təşkil etmişdir. Yorulmaz alim Ədəbiyyyat Institutunda ikicildlik ədəbi tənqid və ədəbiyyatşünaslıq müntəxabatını nəşrə hazırlayan qrupa rəhbərlik etmiş, altıcildlik «Azərbaycan ədəbiyyatı tari- xi»-nin 4-cü cildinin məsul redaktoru kimi əvəzsiz işlər görmüşdür. K.Talıbzadə bu fundamental işin – «Azər-baycan ədəbiyyatı tarixi»nin əsas müəlliflərindən biri və Baş Redaksiya Şurasının üzvü idi. Görkəmli ədəbiyyat-şünas, akademik Bəkir Nəbiyev böyük

alimin vəfatı mü-nasibətilə 27 yanvar 2006-cı ildə «Xalq qəzeti»ndə dərc etdirdiyi «Yaxşıların yaxşısı» adlı məqaləsində yazır: «Möhtərəm Rəfiqə xanım (K.Talıbzadənin ömür-gün yoldaşı – T.R.) şəhadət verir ki, dünyasını dəyişməzdən bircə gün əvvəl Kamal müəllim yenə də ədəbiyyat tarixi- nin müvafiq fəsilləri ilə məşğul imiş ki, qarşısındakı qov- luq elə o vəziyyətdə alimin yazı masasının üstündə qal-maqdadır.»

Müasirlərinin klassik ədəbiyyatşünaslar nəslinin «sonuncu mogikanı», ədəbiyyatşünaslıq elminin «patriarxı» hesab etdiyi akademik Kamal Talıbzadənin orijinal tən-qidi, nəzəri mülahizələrlə, dərin məntiqi nəticələrlə, bəzən kəskin ittiham və hökmlərlə zəngin olan qiymətli elmi-nəzəri irsi isə məhz K.Talıbzadə məsuliyyəti və dəqiqliyi ilə araşdırılmağa layiqdir.

### *1.2. «Abbas Səhhət» monoqrafiyası*

XX əsrin əvvəllərində fəaliyyət göstərən sənətkarla- rın həyat və yaradıcılıqlarının monoqrafik planda tədqiqi 40-cı illərin başlanğıcından 50-ci illərin ortalarına qədərki dövrdə milli ədəbiyyatşünaslığın mühüm vəzifələrindən biri olmuşdur. Həmin mərhələnin tədqiqində ilk növbədə realizm cərəyanına mənsub olan yazıçıların (M.Ə.Sabir, C.Məmmədquluzadə, N.Nərimanov və b.) ədəbi irsinin öyrənilməsinə xüsusi diqqət yetirilirdi. Bu sovet ədəbiyyatşünaslığında realizmin sosialist ideyalarının yeganə ifadəçisi olan ədəbi metod və cərəyan kimi yüksək qiy-mətləndirilməsi ilə bağlı idi. Həqiqəti yalnız realizmin möv-zusu kimi təqdim edən həmin qiymətləndirmə meyarına görə romantizm ikinci

dərəcəli ədəbi metod hesab olu-nur, burjua cəmiyyətinin «məhsulu» kimi pislənirdi. Bu ədəbi cərəyanın görkəmli nümayəndələri «mürtəce», «mü-hafizəkar», «pantürkist», «panislamist» adlandırılırdı. Ro-mantizmin belə qeyri-obyektiv anılması təbii olaraq uzun illər bu cərəyanın ədəbi prosesdəki mövqeyinin düzgün qiymətləndirilməsinə, ona obyektiv münasibət bildirilmə-sinə mane olmuşdur. M.Hadi, A.Səhhət, A.Şaiq, H.Cavid kimi böyük sənətkarların yaradıcılıqlarının 40-cı illərin sonuna qədər öyrənilməməsi də romantizmə həmin ögey münasibətin nəticəsi idi. Müharibədən sonrakı bir çox rəsmi qərarların təsiri ilə romantizmin üzərində onun bur-jua bədii hadisəsi olması möhürü bu ədəbi cərəyanı ədəbiyyat tarixinin mütərəqqi qanunauyğunluğu kimi düşünməyə və izah etməyə mane olmuşdur. Bu təşəbbüsdə olan tədqiqatçılar da ehtiyatlı fikir və mülahizələr söy- ləyir, romantizmin həqiqi tarixi qiymətini verməkdən çəkinirdilər. Tədqiqatçıların romantizm mövzusuna eh-tiyatla yanaşdıqları belə bir dövrdə K.Talıbzadə ilk mo-noqrafik tədqiqatını XX əsr Azərbaycan romantizminin görkəmli nümayəndəsi Abbas Səhhətə həsr etmişdir. Onu da qeyd etmək lazımdır ki, bu mərhələnin tədqiqatlarında digər romantik sənətkarlara nisbətən M.Hadi və A.Səh- hət daha çox tənqid olunur, onları «xırda burjua şairi» adlandırırdılar. Romantik sənətkarların «xırda burjua sin-finə mənsubiyyətdə» təqsirləndirildiyi, «30-cu illərdən gələn «Daloy Şiller», yəni rədd olsun romantizm şüarının və onun müəllifi A.Fadeyevin ədəbi hakimiyyət diktatoru olduğu…,

Əziz Mirəhmədovun M.Hadi haqqında yazdığı namizədlik dissertasiyasının ləğv edildiyi»[1] bir vaxtda Rusiya istib-dadına qarşı çıxış edən M.Hadi, A.Səhhət kimi sənət-karlardan əsər yazmaq həqiqətən də böyük cəsarət tələb edirdi. Lakin K.Talıbzadə hələ tələbəlik illərində romantizm mövzusunda tədqiqatlar aparmış, «Füzuli şeirinin Azər-baycan romantiklərində əks sədası» (1943) adlı kurs işi və «XX əsr Azərbaycan romantizmi və M. Hadi» (1945) möv-zusunda diplom işini müdafiə etmişdir. Romantizmə ögey münasibətin tüğyan etdiyi həmin dövrə məxsus yanlış- lıqlar, saxta metodoloji baxış təbii olaraq tələbə-filoloqun bu ilk tədqiqatlarına da təsirsiz qalmamışdı. Lakin bu əsərlər tarixi, ədəbi faktı ilk dəfə tədqiqata cəlb etmək, adları yasaq elan edilmiş ədəbi şəxsiyyətlərin yaradıcılığına diqqəti yönəltmək baxımından böyük əhəmiyyət kəsb edirdi.

K.Talıbzadənin romantizmdə qazandığı təcrübə son-ralar onun Abbas Səhhət mövzusu üzərində işləməsinə, bu tədqiqatı uğurla başa çatdırmasına zəmin yaratdı. Tədqiqatçı bu haqda yazırdı: «1945-ci ilin payızında as-piranturaya daxil olanda Nizami adına Ədəbiyyat Ins-titutunun sabiq direktoru, böyük ədəbiyyatçılar nəslinin ustadı Məmməd Arif dissertasiya mövzusu kimi Abbas Səhhətin həyat və yaradıcılığını götürməyi mənə məsləhət gördu. Sevimli müəllimim elə bil ürəyimdən xəbər verdi. Axı, hələ tələbə ikən diplom işimi «Məhəmməd Hadi və Azərbaycan romantizmi» mövzusunda yazmışdım. Səhhət də XX əsrin romantiklərindən

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1.,

idi, yeni romantizm mək-təbinin ən görkəmli nümayəndələrindən biri idi. Odur ki, dərhal razılıq verdim. Həvəslə işə girişdim, aylarla ar-xivlərdən çıxmadım, illərlə inqilabaqədərki mətbuatın səhifələrini vərəqlədim, şairin hər yeni əsərini tapdığım gün mənim üçün yeni bir bayrama çevrildi… sevinclərimi adətən mövzumla çox maraqlanan atam Abdulla Şaiqlə bölüşürdüm…» [1] Qeyd etmək lazımdır ki, K.Talıbzadə A.Səhhətin dövrü, mühiti, həyatı, ədəbi-ictimai prosesdəki mövqeyi, yaradıcılıq yolu haqqında ilk məlumatı atası Abdulla Şaiqdən almış, onun milli romantik şairə həsr etdiyi oçerklərini diqqətlə oxumuşdu. Əsərin yazıldığı vaxt Səhhəti şəxsən tanıyanlardan bir çoxu sağ idi, tədqiqat- çı onlarla görüşüb şairin dövrü və mühiti, şəxsiyyəti, hə- yatı haqqında təsəvvürlərini bir qədər də genişləndirmiş- di. Xüsusi qeyd olunmalıdır ki, tədqiqatçının atası Ab- dulla Şaiq, Səhhətin şagirdləri olmuş Əmin Əfəndiyev və həkim Ismayıl Həqqi Veysovun söylədikləri xatirələr müəl-lifə daha dəyərli faktlar vermişdir. K.Talıbzadə zəngin faktik materiallar əsasında yazdığı əsəri üç il ərzində ta-mamlayıb 1949-cu ildə namizədlik dissertasiyasını müvəf-fəqiyyətlə müdafiə etdi. Əsər üzərində işlədiyi illərdə K.Ta-lıbzadə dövri mətbuatda dərc olunan «Görkəmli şair və müəllim» (1948), «A.Səhhətin yaradıcılıq yolu» (1949), «A.Səhhətin rus ədəbiyyatı tərcümələri haqqında» (1949), «Ostrovski və A.Səhhət»

---

1991, s.7.

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s.185.

(1948), «Rus ədəbiyyatı və A.Səh-hət» (1948) məqalələrində, yazıb nəşr etdirdiyi «Abbas Səhhət» (1948) adlı broşürada və A.Səhhətin bircildlik «Əsərlər»inə (1950) yazdığı müqəddimədə milli-romantik şairin yaradıcılığı haqqında müəyyən təsəvvür yaradırdı. Monoqrafiyada isə Səhhət poeziyası daha dərindən və hərtərəfli tədqiqə cəlb edilir, problem romantizm fonun- da nəzərdən keçirilirdi. Tədqiqatçı burada A. Səhhətin poe-ziyasını diqqətlə təhlil edir, milli romantik şairin misra- lara hopmuş mənəviyyatını, yaradıcılıq təkamülünü, onun ədəbi fəaliyyətinin dövrün ictimai-sosial gerçəkliyi ilə əla-qəsini dolğun şəkildə əks etdirirdi. Bütün bunlar monoq-rafiyanın müvəffəqiyyətini təmin edən ümdə elmi məziy-yətlərdən idi.

Bu tədqiqat əsəri «Abbas Səhhət» adı ilə monoqrafiya halında ilk dəfə 1955-ci ildə, ikinci dəfə 1963-cü ildə (rus dilində), üçüncü dəfə isə 1986-cı ildə nəşr edilmişdir. Monoqrafiyanın ilk nəşrindən 31 il keçəndən sonra onun yeni, təkmilləşdirilmiş nəşrini hazırlayan K.Talıbzadə əsərə tamamilə yeni gözlə baxmaq, vaxtilə əldə edilmiş, lakin tədqiqata cəlb olunmamış külli miqdarda material, kitabın ilk nəşrindən sonrakı illərdə toplanan məlumatlar da daxil olmaqla onu yenidən işləmək zərurəti yarandığını qeyd edirdi. Bu zərurətdən irəli gələn tələblə monoqrafiya üzə-rində işləyən alim həmin illəri belə xatırlayırdı: «Kitabın 1955-ci il nəşri ilk qələm təcrübəm idi, ən əziz kitab-larımdan, vaxtilə yüksək qiymətləndirilən əsərlərimdən idi, gəncliyimin ən dəyərli xatirəsi idi. Odur ki, ona ta- mam etinasız yanaşmaq, ondan heç faydalanmamaq ol-mazdı. Onun bu gün ibtidai səslənən,

hətta qeyri-dəqiq görünən bütün fikirlərinin, cümlələrinin üzərindən qələm çəkmək, onlardan tamam uzaqlaşmaq, 40-cı illər ədəbiy-yatşünaslığının bütün ideya əlamətlərindən imtina etmək çətin idi. Onlarda müəyyən elmi mərhələnin möhürü, toxunulmazlığı var idi. Buna görə çalışdım ki, köhnə təd-qiqatdan bəzi hisslər, düşüncələr, hətta səhifələr, sətirlər – bu gün nə qədər paradoksal görünsə də gəncliyin ehti- rası, xatirəsi kimi yeni əsərdə də özünə yer tapsın. Bunsuz vaxtilə görülən iş öz ilkinliyini, o zamankı təzə-tərliyini itirə bilərdi.»[1] Müəllifin əsərin ilk nəşrinə belə həssas münasibəti olduqca təbii və qanunauyğundur. Həqiqətən də 40-50-ci illərdə marksizm metodologiyasının təsiri al-tında yaradıcılığa başlayan gənc tədqiqatçı K.Talıbzadə monoqrafiyanın 1955-ci il nəşrində A.Səhhətin görüş- lərinin inqilabla bağlı bəzi məhdud cəhətlərini təqdir et-məklə yanlışlığa yol verirdi. Ədəbiyyatşünas N.Şəmsi- zadə K.Talıbzadəyə həsr etdiyi tədqiqat əsərində bu cə-hətə xüsusi diqqət yetirərək yazır: «H.Cavid, M.Hadi, A.Şaiq, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Ağayev, Ə.Top-çubaşov, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyli, Ömər Faiq, F.Köçərli kimi müasirləri ilə birlikdə XX əsrin əvvəllərinədək milli intibahın əzablı doğuluşunda yaxından iştirak edən A.Səhhət hələ aydınlaşmamış, «nehrə kimi çalxalanan» inqilab fırtınaları içərisində «şanlı istiqbal»ı qütbi-şimaldan tuli edən «hürriyyət günəşi» timsalında görürdü. Əgər bu böyük Səhhətin tarixi aldanışı idisə, qiymətli kitabında bunu təsdiq etməsi K.Talıbzadənin və ən gənc nəsil

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1.,

də daxil olmaqla yetmiş ildə sovet ideolo-giyasının təsiri ilə yetişmiş tədqiqatçıların aldanışıdır.»[1] Bu aldanış şəxsiyyətə pərəstişin, bağırovçuluğun, durğun-luğun hökm sürdüyü bir vaxtda yazıb-yaradan digər müasirləri kimi K.Talıbzadənin də ədəbi prosesi tam hal- da qiymətləndirməsinə ciddi maneçilik törətmişdir. Həmin təsirin izləri «Abbas Səhhət» monoqrafiyasında ədəbi ha-disələrin əsasən sinfilik mövqeyindən dəyərləndirilməsin- də özünü biruzə verir. Lakin bu kimi natamamlıqlar və zamanın diqtəsi ilə əsərdə yer tutan yanlışlıqlar monoq-rafiyanın elmi dəyərini azaltmır, onun məzmun mün-dəricəsinə, ideya-estetik məziyyətlərinə ciddi xələl gətirmir. «Abbas Səhhət» monoqrafiyası həm XX əsr Azərbaycan ədəbiyyatı tarixinin müəyyən bir mərhələsinin – əsrin əvvəllərində yaranan ədəbiyyatın tədqiqi, digər tərəfdən görkəmli romantik şair A.Səhhətin həyatının və yara-dıcılığının ilk dəfə monoqrafik tədqiqata cəlb edilməsi baxımından olduqca qiymətli bir əsərdir. Ədəbiyyatşünas-lığımızın inkişafında əvəzsiz xidmətləri olan alimin məhz bu əsərlə elm cığırına qədəm qoyduğunu da xatırlasaq «Abbas Səhhət» monoqrafiyası ilə böyük bir yolun başlan-dığını görərik.

Monoqrafiyanın uğurlu tədqiqat əsəri kimi meydana çıxmasını şərtləndirən amillərdən biri də K.Talıbzadənin öz tədqiqat obyektinə dərin hörmət və sonsuz sevgiylə yanaşmasıdır. Müəllifə görə Səhhət – ölümündən keçən onilliklərin unutdura bilmədiyi fədakar bir vətən oğludur.

---

1991, s.186.

[1] Şəmsizadə N. Türk təfəkkürü məcrasında, Bakı, Təhsil, 1998, s.37-38.

Tədqiqatçı əsərin 1986-cı il nəşrinə yazdığı ön sözdə milli-romantik şairə hörmət və məhəbbətini ifadə edən sətir- lərdə Səhhəti sözünü və əməlini, qəlbini və zəkasını xal-qının tərəqqisinə, hərtərəfli inkişafına həsr edən sənətkar kimi təqdir edir. K.Talıbzadə yazır: «Səhhət – bu həqiqi, ehtiraslı bir istedad, böyük vətəndaşlıq ideallarının hə- yata keçirilməsinə həsr olunan bir həyat deməkdir. Səhhət – bu xalq, vətən yolunda çalışmaq arzusu, coşub-daşan, qarşısı alınmayan bir qüvvət, həvəs, energiya deməkdir. Səhhət – insanların azadlığı və qardaşlığı haqqında mah-nı və düşüncədir. Səhhət – mələk kimi nurani, almaz kimi sərt, ana təbiətin özü kimi fitri, təbii, səmimi şəxsiyyət deməkdir. Səhhət – bu, Azərbaycan xalqına, Azərbaycan torpağına tükənməz məhəbbətin rəmzidir»[1] Tədqiqat ob-yektinə məhz belə həssas yanaşmanın nəticəsidir ki, K.Talıbzadə şairin həyatı, yaradıcılığı, ədəbi əlaqələri və tərcüməçilik fəaliyyəti, sənətə baxışından bəhs edən ayrı-ayrı fəsillərdə A. Səhhətin şəxsiyyəti və sənətkarlığı haq-qında dolğun təsəvvür yarada bilmişdir.

Monoqrafiyanın birinci fəsli A.Səhhətin həyatına və tərcümeyi-halına həsr edilmişdir. Qeyd etmək lazımdır ki, şairin həyatına dair özü tərəfindən yazılmış heç bir sənəd əldə olmadığından onun elmi tərcümeyi-halını ilk dəfə K.Talıbzadə yaratmalı olmuşdur. Dərsliklərdə və şairin bədii əsərlərində müqəddimə kimi verilən tərcümeyi-hallar, Respublika Əlyazmalar Fondundan tapılan sənədlər, qə-ləm dostları, tələbələri və qohumlarının şair haqqında xatirələri Səhhətin

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1.,

uşaqlıq illəri, təhsili, Irandakı həyatı, Rusiyaya səyahəti, ictimai-siyasi və ədəbi fəaliyyəti, şəx-siyyəti barədə müəllifə zəngin material vermişdir. Şairin müasirləri Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Fatma xa-nım Orucəliyeva, Əbülqasim Əminzadə, Baba Güləhmə-dov, qohumları Səkinə xanım Abidova, Böyükağa Meh-dizadə, M.Ə.Sabirin oğlu Məmmədsəlim Tahirli, tələ- bələri Əmin Əfəndiyev, Ismayıl Həqqi Veysov, Rəmzi Yüzbaşov, Məmmədəmin Əfəndi və başqalarının söylə-dikləri xatirələr müəllifə daha dəyərli faktlar vermiş, K.Ta- lıbzadə bu zəngin faktiki materiallar əsasında ilk dəfə olaraq A.Səhhətin mükəmməl elmi tərcümeyi-halını yaz-mağa nail olmuşdur. Müəllif burada şairin dövrü və mühiti, təhsili, ədəbi-mədəni görüşləri, pedaqoji və maa-rifçilik fəaliyyəti, səyahətləri, həkimlik etməsi, Mirzə Ələk-bər Sabir, Ağalibəy Naseh, Məhəmməd Tərrah kimi qabaqcıl Şamaxı ziyalıları ilə dostluq əlaqələri haqqında danışır, bütün bunların Səhhətin «bədii sözlə əməlin, sə-nətlə idealın birliyinin rəmzi, sənətkar şəxsiyyətinin tam-lığını nümayiş etdirən parlaq bir nümunə»[1] kimi yetiş-məsində təsirini göstərirdi. Burada milli ədəbiyyatın gör-kəmli bir nümayəndəsinin, öz dövrünün qabaqcıl ziya-lısının, fəal maarif xadiminin, xalq səadəti üçün çalışan həssas bir vətənpərvərin mənalı həyatının sistemli şə-kildə təhlilini görürük. A.Səhhətin tərcümeyi-halında işıq-landırılan bir sıra

---

1991, s.185.

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s.187.

məqamlar – şairin Şamaxının Sarıtor- paq məhəlləsindəki mollaxana dərsindən Məşhəd mədrə-səsi, Tehran darülfununa qədərki təhsil yolu, Şamaxıda müəllimlik etməsi, tədris ocaqlarının yaradılması, kitab-xana və qiraətxanaların açılması yolunda gördüyü işlər, Şamaxı şairlər məclisinə rəhbərlik etməsi, Firidun bəy Köçərli ilə məktublaşması, Mirzə Ələkbər Sabirin ölümünə münasibəti və s. K.Talıbzadəyə monoqrafiyanın sonrakı fəsillərində tədqiqatını, təhlilini bu zəmində davam etdirmək, genişləndirmək və dərinləşdirmək imkanı ver-mişdir. Buna görə də əsərdə Səhhətin poeziyasının, ədəbi yaradıcılığının, tərcüməçilik fəaliyyətinin, sənət görüşləri-nin təhlili birinci fəslin məntiqi davamı kimi dərin təsir bağışlayır, bütövlükdə bu təhlil prosesi şairin tərcümeyi-halı ilə üzvi bir tamlıq təşkil edir. Milli romantizmin təşəkkülü və inkişafında A.Səhhət yaradıcılığının rolunu aydınlaşdırmaq, şairin poeziyasının, nəsr və dram əsər-lərinin, tərcümələrinin, sənətə baxışının romantizmlə bağlı tərəflərini təhlil etmək, klassik Azərbaycan ədəbiyya- tının, eləcə də digər xalqların romantik ədəbiyyatlarının A.Səhhət yaradıcılığı timsalında milli romantizmin inki-şafına təsirini göstərmək – «Abbas Səhhət» monoqra-fiyasının əsas məzmun mündəricəsi bundan ibarətdir.

Səhhət yaradıcılığını romantizm fonunda işıqlandı- ran tədqiqat əsərində şairin yaradıcılığına həsr olunmuş ikinci fəsil xüsusilə diqqətəlayiqdir. Burada müəllif şairin poeziyasını ideya-məzmun cəhətdən geniş təhlil etmiş, milli romantizmin inkişafında A.Səhhət yaradıcılığının mövqeyini müəyyənləşdirmişdir. Qeyd etmək lazımdır ki, K.Talıbzadəyə

qədər bir sıra görkəmli ədəbiyyatçılar – A.Şaiq, M.Arif, M.Quluzadə, Mir Cəlal, C.Xəndan, A.Al-məmmədov və başqaları Səhhət poeziyasına münasibət bildirən əsərlər yazıb nəşr etdirmişdilər. Lakin bu əsər- lərdə A.Səhhətin romantik şair kimi mövqeyi kifayət qədər aydınlaşdırılmayıb, ondan XX əsr Azərbaycan ro-mantizminin banilərindən biri kimi bəhs olunmurdu. K.Ta-lıbzadə isə şairin poeziyasına verdiyi hərtərəfli təhlildə «anadan romantik şair kimi doğulan» A.Səhhətin ədəbi prosesdə fəal iştirakını, yeni dövr romantizminin təşək-külündə və inkişafında əhəmiyyətli rolunu göstərmiş, bununla da XX əsrin böyük bir sənətkarının mənəvi aləmi – şeir dünyası barədə dolğun təsəvvür yaratmağa müvəffəq ola bilmişdir.

Monoqrafiyada A.Səhhət poeziyası milli ədəbiyyat- da yeniləşmə zərurəti yarandığı bir dövrdə bədii fikrin ideya istiqaməti, təzahür forması, bədii-estetik prinsiplə-rinin müasirləşmə tələbatı zəminində araşdırılır. Roman- tik şairin poeziyasının xüsusiyyətlərini, ideyasını, estetik qayəsini aydınlaşdıran K.Talıbzadənin çoxcəhətli təhlili şairin özünün illərlə axtarışında olduğu «yeni şeir necə olmalıdır?» sualına cavab kimi meydana çıxır. Əsl poe-tik yaradıcılığa məhz bu sualla başlayan A.Səhhət «yeni səpkidə şeirin yaranması yollarında», «vətəndaşların Ira-dəsinə təsir edə biləcək yeni bir söz demək» arzusunda olan novator sənətkar kimi təqdir olunur. Təzə söz demək istəyilə çırpınan şair qəlbini narahat edən suallar haqqında tədqiqatçı yazırdı: «Yeni ədəbiyyat necə olmalıdır? Hansı yaradıcılıq metodları müasir tələblərə cavab verə bilər, ədəbi ənənələrdən necə

istifadə edilməlidir? Bu sualların sayı çox idi və əlinə qələm alan hər yazıçının qarşısında bu suallar bu və ya başqa şəkildə, başqa dərəcədə du-rurdu»[1] Hələ 1905-ci ildə «Həyat» qəzetində «Tazə şeir necə olmalıdır?» məqaləsi ilə epiqonçu şeirə qarşı çıxan A.Səhhətin özünün yazdığı kimi «üsuli-cədid Avropa şairlərinin səbgi və səliqəsi üzrə nəzm olunan» şeirlərinə istinadən K.Talıbzadə belə bir düzgün nəticəyə gəlir: «Bu şeir nümunələri ədəbiyyata yeni, orijinal bir isteda-dın, özü ilə sənətə təravətli məzmun və forma xüsusiy-yətləri gətirməyə can atan bir şairin gəldiyini xəbər ve-rirdi. Həm də bu ədəbi yeniliyin ümumi istiqaməti bir cəhəti də aydın göstərirdi; şairin yaradıcılıq metodu hər şeydən əvvəl, romantizmin ideya-bədii xüsusiyyətləri ilə səs-ləşir»[2] Bu xüsusiyyətlər şairin «yeni səpkidə» yazdığı şeirlər əsasında geniş təhlilə cəlb edilir, A.Səhhət poeziyasının özünəməxsusluğu fonunda işıqlandırılırdı.

A.Səhhətin qızğın yaradıcılıq axtarışları dövründə iki müxtəlif ideya cərəyanı yaranmış, realistlərlə romantiklər arasındakı ədəbi mövqe ayrılığını özündə əks etdirən «Molla Nəsrəddin» və «Füyuzat» jurnalları fəaliyyətə baş-lamışdı. Şair «Molla Nəsrəddin»çiləri, onların ən görkəmli nümayəndəsi olan M.Ə.Sabiri nə qədər yüksək qiymət-ləndirsə də bu jurnalın əməkdaşı olmamışdır. K.Talıb- zadə bunun əsas səbəbini Səhhətin anadan romantik şair kimi doğulmasında,

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s.238.
[2] Yenə orada, s. 241.

jurnalın satirik yolunun ona tuş gəlməməsində görürdü, sonralar şairin satirik janra müra-ciətinin uğursuz nəticələnməsini də məhz bu amillə əla-qələndirirdi. Müəllif «Molla Nəsrəddin»dən fərqli olaraq Səhhəti «Füyuzat»la, onun redaktoru Ə.Hüseynzadə ilə əlaqələndirən bağların daha qüvvətli və dərin olduğunu göstərirdi. Qeyd etmək lazımdır ki, əsərin 1955-ci il nəşrin-də K.Talıbzadə Səhhətin Əlibəy Hüseynzadə və onun «Fü-yuzat» jurnalı ilə yaxınlıq etmədiyini, şairin bu ədibə rəğ- bət göstərmədiyini yazırdı. Bunun səbəbini isə belə izah edirdi: «Ə.Hüseynzadə müasir Azərbaycan mədəniyyətini osmanlılaşdırmaq yolu ilə inkişaf etdirməyin tərəfdarı idi, bir növ təqlidçilik yolunu tutmağı təklif edirdi. Səh-hət isə sözün əsl mənasında milli təfəkkürə malik şair idi».[1] Əlbəttə, bu fikir həmin dövrdə ədəbiyyatda sinfi münasibətin təzahürü ilə bağlı olub, marksist-leninçi ideo-logiyanın təsiri ilə yaranmışdı. Bir cəhəti də xatırladaq ki, 50-60-cı illərdə elm tərəfindən bir növ rədd edilmiş, adları belə yasaq elan olunan şəxsiyyətlərdən Ə.Hüseyn-zadə, Ə.Ağayev, Ə.Topçubaşov, M.Hadi və başqaları haq-qında ilk dəfə bəhs edən tədqiqatçılardan biri K.Talıb-zadə olmuşdur. Lakin həmin şəxsiyyətlər, o cümlədən Ə.Hüseynzadə haqqında bəhs edərkən tədqiqatçı təbii olaraq marksist mövqedə dayanırdı. Sonralar o, monoq-rafiyalarında və bir sıra məqalələrində bu cəhətə diqqəti yönəldərək özünəməxsus səmimiyyətlə mənsub olduğu ədəbi nəslin həmin dövrdə obyektiv qiymətləndirmə im-kanlarının

---

[1] Talıbzadə K. Abbas Səhhət, Bakı, Azərb. SSR EA nəşr.,1955, s.177.

məhdud olduğunu, bir vaxt yazılanlara yeni gözlə baxmaq zərurəti yarandığını etiraf edirdi. Tədqiqatçı bu zərurətdən doğan məsuliyyətlə əsərlərində, məqalə və məruzələrində Ə.Hüseynzadə irsinə yeni aspektdə, yeni bir tərzdə yanaşmış, onun ədəbi mövqeyini düzgün müəyyən-ləşdirməyə çalışmışdır. K.Talıbzadə «Molla Nəsrəddin» və C.Məmmədquluzadə məktəbini yeni dövr Azərbaycanı-nın ictimai, siyasi, fəlsəfi və ədəbi fikrinin bir zirvəsi hesab edirsə, «Füyuzat» və Ə.Hüseynzadə məktəbini də ikinci eyni miqyaslı zirvə kimi qiymətləndirir. Eyni kök-lü, eyni yaşda, eyni ucalıq və əzəmətdə olan, ancaq qa-mətləri, görkəmləri ilə bir-birindən fərqlənən, yanaşı da-yanmış bu qoşa nəhəng dağın – bu iki fikir zirvəsinin xalqın milli intibahında əvəzsiz xidmətlərini göstərir. K.Talıbzadə Ə.Hüseynzadənin türkçülük, islamçılıq ideyasının əsas qayəsini də obyektiv şəkildə araşdırıb üzə çıxarır. O, göstərir ki, «Ə.Hüseynzadə Azərbaycanı ümumtürk dün-yasından ayırmadan öyrənməyin tərəfdarı idi. Onun türk-çülük ideyasının mərkəzində duran qayələrdən biri də məhz bu idi və həqiqətən də Azərbaycan xalqının tari-xini, mədəniyyətini belə kompleks halda öyrənmək daha elmi, daha obyektiv bir yol idi.» [1]

Müəllif belə bir qənaətə gəlir ki, XX əsr Azərbayca-nını, onun mədəniyyətini və ədəbiyyatını dərk etmək üçün mütləq Əlibəy Hüseynzadəni dərk etmək lazımdır. Çünki, Azərbaycanı bütünlükdə – onun keçmişini və bu gününü dərindən, hərtərəfli

---

[1] Talıbzadə K. Abbas Səhhət, Bakı, Azərb. SSR EA nəşr.,1955, s.38.

öyrənmək üçün Əlibəy irsi çox müasir səslənən misilsiz bir xəzinədir. Tədqiqatçının bu qənaəti «Abbas Səhhət» monoqrafiyasının təkmilləşdirilmiş nəş-rində Ə.Hüseynzadə və «Füyuzat» jurnalı ilə bağlı fikir-lərdəki yeni elmi-nəzəri baxış, yeni istiqamətdə təhlil üsulunda da özünü göstərir. Burada A.Səhhətin Ə.Hü-seynzadəyə bütün Azərbaycan romantiklərinin «dahiyeyi-əzim»i, «yeni romantizmin ilhamçısı və ideya rəhbəri» kimi dərin rəğbəti təqdir olunur, şairin bir şəxsiyyət, sə-nətkar kimi təşəkkülündə «Füyuzat» məktəbinin əhəmiy-yətli rolu aydınlaşdırılırdı. Bununla yanaşı A.Səhhətlə jurnal və onun redaktoru arasında müəyyən fikir ayrılıq- ları olduğu, Ə.Hüseynzadənin müasir Azərbaycan mədə-niyyətini qeydsiz, şərtsiz osmanlılaşdırmaq siyasəti ilə şairin razılaşa bilməməsi faktları da K.Talıbzadənin nəzə-rindən yayınmamışdır. Tədqiqatçı bu haqda yazır: «…ədəbi prosesin öz gedişində elə hadisələr baş vermişdi ki, bunlar A.Səhhəti istər-istəməz Ə.Hüseynzadədən uzaqlaşdırmış-dı. Ə.Hüseynzadə hələ «Həyat» qəzetinin redaktoru oldu- ğu zaman Səhhətin həmin qəzetdə çap etdirdiyi şeirini o qədər də obyektiv olmayan tənqidlə qarşılamışdı… Ay-dındır ki, ilk dəfə yeni ədəbi proqram ilə mətbuat alə- minə çıxan bir şair üçün bu xoşagəlməz bir münasibət idi.»[1] Lakin bütün bunlara baxmayaraq müəllif A.Səhhə- tin romantik şair kimi yetişməsində jurnalın və onun redaktoru Ə.Hüseynzadənin rolunu azaltmır, əksinə «Fü-yuzat» məktəbini onun sənətkar taleyinin təməli, bünöv- rəsi kimi

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1.,

qiymətləndirir. Milli təfəkkürə malik şairin eyni zamanda türk ədəbiyyatına, onun Ə.Hamid, N.Kamal, T.Fikrət kimi görkəmli nümayəndələrinə qarşı dərin marağı və münasibətindən də monoqrafiyada xüsusi ola- raq bəhs edilmişdir. K.Talıbzadə A.Səhhətin əsas sənət qayəsini isə onun mənsub olduğu xalqın, millətin tərəq- qisi yolunda çalışması, «insan üçün mərifət və ibrət dərsi hüsula gətirməyən» şeirə qarşı millətin tərbiyəsinə təsir edə biləcək əsil sənət nümunələri yaratmaq uğrunda mübarizəsi ilə izah edir və aydınlaşdırır.

A.Səhhət yaradıcılığının təhlilində diqqətəlayiq cəhət- lərdən biri də şairin əsərlərinin ideya və məzmun, bədii obraz tərəflərinin, lirik qəhrəmanının aydınlaşdırılması ilə yanaşı bu əsərlərin forma və üslubu, romantik spesifi-kası ilə bağlı tərəflərin də geniş tədqiq edilməsidir. Bu baxımdan monoqrafiyada şairin lirikasının təhlili xüsusi maraq doğurur. Burada xalqın, vətənin taleyi ilə bağlı düşüncələr, azadlıq, maarif və elmə çağırış, gələcək xoş günlərə ümid, millətini mənəvi kamilliyin zirvəsində gör-mək arzusu A.Səhhət lirikasının əsas xüsusiyyətləri kimi səciyyələndirilir. Romantik şairin dinə baxışı da onun dün-yagörüşünün mühüm bir sahəsi kimi poeziyasının bir sıra problemlərinin həlli ilə sıx əlaqədə göstərilmişdir. K.Talıbzadə bəzi şeirlərində fikirlərini Qurani-Kərimdən gətirdiyi misallarla əsaslandırmasına, ümumiyyətlə, dinə müraciətinə görə A.Səhhəti panislamist adlandırmağın əleyhinə çıxır, bunu

---

1991, s.245.

şairin ədəbi görüşlərinə vulqar, yanlış münasibətin nəticəsi kimi qiymətləndirərək yazır: «Məsə-lənin bu şəkildə qoyuluşu dinə müraciətin əsl yaradıcılıq səbəblərinin aşkarlanmasına, araşdırılmasına da imkan vermir. Səhhətin bu görüşlərini panislamizmin təsiri kimi deyil, bilavasitə islam dininin özünün təsiri kimi izah etmək lazımdır.[1]» Islam dininin romantik sənətkarın ideo-logiyası ilə bağlı cəhətlərini göstərərkən müəllif belə bir düzgün nəticəyə gəlirdi ki, A.Səhhətin şeirlərində din hər şeydən əvvəl romantik sənətin icrası vasitəsi rolunu ifa etmişdir.

K.Talıbzadə Səhhət lirikasının təhlilində şairin poe-ziyasının əsas mövzusu olan vətən mövzusuna xüsusi həssaslıqla yanaşmışdır. Tədqiqatçıya görə vətənin taleyi, mövcud vəziyyəti romantik şairin lirik qəhrəmanını daim düşündürən problemdir, onun kədərinin, bəzən də ümid-sizliyinin səbəbidir, arzu və xəyallarının məzmunudur. Bu lirik qəhrəman bir tərəfdən üz-üzə durduğu «biçarə», «dərdinə dərman tapmayan» vətənə baxıb ah-fəğan edir- sə, digər tərəfdən gələcəyin xoş xəyalı ilə ruhlanıb nikbinləşir. Bu qəhrəman «ən uca məhəbbət – vətən mə-həbbətidir» ideyasını təsdiq edir. K.Talıbzadə şairin lirik qəhrəmanının bu vətənpərvərliyini həm də ümumbəşəri məzmuna malik, bütün dünya xalqlarına qarşı məhəbbət oyadan, bütün insanları vətən sevgisinə səsləyən huma- nist bir duyğu kimi təqdir edir. Tədqiqatçı bu fikir və mülahizələri Səhhətin vətən haqqında

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s.250.

yazdığı konkret şeirlərin təhlili əsasında izah edir və aydınlaşdırır.

XX əsrin digər romantik şairləri kimi A.Səhhət poeziyası üçün də kədər motivi səciyyəvi olmuşdur. K.Ta-lıbzadə bu kədər və pərişanlığın əsas səbəbini, məzmu- nunu şairin «Sınıq saz» adlı ilk şeirlər kitabını təhlil etməklə göstərir. O, romantik şairin lirikasındakı qüssə- nin, fəryad və şikayətlərin, inilti və sızıltıların ictimai məzmunlu olduğunu düzgün əsaslandıra bilir. A.Səhhət kədərinin mahiyyətini izah edərkən müəllif «Tərcümeyi-halım…» şeirində şairin lirik qəhrəmanından xüsusi bəhs edir, bu qəhrəmanın vətəndaş kədərinə diqqəti yönəldir. Bu lirik qəhrəman şairdir və başqa romantik şairlər – Puşkin, Lermontov, Cavid kimi Səhhətin də romantik şair obrazı Peyğəmbər simasında çıxış edir. K.Talıbzadə mü-şahidə edir ki, əsərdə hər iki obraz – Şair də, Peyğəmbər də ən yüksək varlıq kimi təqdim edilir, talecə oxşar və yaxın məqamlarda təsvir olunurlar. Onlar öz ali arzularını həyata keçirmək yolunda müqavimətə rast gəldikdə isə ruhən sıxılır, əvvəlki mübarizlik əzmini kədər və pəri-şanlıq əvəz edir.

Şairin kədərinə həssaslıqla yanaşan tədqiqatçı bu kədərin ictimai mahiyyət daşıdığını, XX əsr Azərbaycan romantizminə xas vətəndaşlıq kədəri olduğunu göstərir. Müəllifə görə bu elə «kədər ideyası» idi ki, XX əsrin heç bir həqiqi vətəndaşını ondan ayrı təsəvvür etmək olmazdı. Lakin Səhhətin lirik qəhrəmanı nə qədər qüssə və tənhalıq içərisində olsa belə, gələcəyə ümidini itirmir, qaranlıqlar içində «işıq, sevinc axtarışından əl çəkmir». Bu cəhətdən M.Ə.Sabirin

ölümünə həsr edilmiş şeirdəki kədər motivinin «Az çəkər heykəl yaparlar namına» ümidli bir sonluqla nəticələnməsi də təbii təsir oyadır. A.Səhhət romantiz- minə xas olan bu xüsusiyyət şairin «Yuxu», «Aləmi-is-lama» şeirlərinin təhlilində də öz əksini tapır. Şairin kədərinin ideya-estetik mahiyyəti belədir. Monoqrafiyada bu cəhət Səhhət romantizminin güclü bir tərəfi kimi izah edilir, gələcəyə inam bu romantizmin özəyi, əsası kimi qiymətləndirilir.

XX əsr Azərbaycan romantizmi mürəkkəb ictimai-siyasi mühitdə, inqilabi proseslər içərisində təşəkkül etmişdir. Bu proseslər təbii olaraq romantizmin ideyasına, məzmununa, poetik fəlsəfi mahiyyətinə və strukturuna cid-di təsir göstərmişdir. K.Talıbzadə yazır ki, Azərbaycanın başqa romantik sənətkarları kimi A.Səhhət də Birinci Dün-ya Müharibəsini qəzəblə qarşılamışdır. Lakin müharibə romantik sənətkarın nifrət və qəzəbini ifadə etməsinə şərait yaratmış, onun yaradıcı fəallığını artırmışdı. Tədqiqatçı müharibə illərində yaradıcılığının məhsuldar dövrünü yaşa-yan A.Səhhətin bir sıra əsərlərinə diqqət yetirir, «Şair», «Naseh», «Sabir», «Bəyani-hal», «Şərarə» kimi şeirlərin təhlili əsasında şairin romantik qəhrəmanının yeni ədə-biyyat uğrundakı mübarizəsinin dolğun mənzərəsini can-landırır.

K.Talıbzadə şairin poeziyasının ən yüksək zirvəsi he-sab olunan «Şair, Şeir pərisi və Şəhərli» poemasını xüsusilə geniş təhlil edir. Müəllifə görə Səhhətin romantik şair qəhrəmanı bu əsərdə daha dolğun, bitkin təcəssümünü tapmışdır. K.Talıbzadə yazır ki, bu poema milli ədəbiy-yatda həm məzmun və üslubu, həm də quruluşu eti-barilə yeni bir

əsər, yeni bir bədii hadisə idi. Tənqidçilər poemanı dünya ədəbiyyatının bu tipli əsərləri ilə müqayisə etmiş, bəzən də əsərin rus şairi N.A.Nekrasovun «Şair və Vətəndaş» poemasının təsirilə yazıldığını güman etmişlər. Rus şairləri K.Simonov və V.Luqovskoy poemadan bəhs edərkən onun Nekrasovun əsərinə «gözəl bir şairanə ca-vab» olduğunu yazırdılar. K.Talıbzadə də əsərin təhlilində A. Səhhətin dünya ədəbiyyatı və rus klassikləri ilə sıx əlaqələrinə xüsusi diqqət yetirir, bu poemanın A.De Müs-senin «Mayıs gecəsi», N.A.Nekrasovun «Şair və Vətəndaş» poemaları ilə ideya, məzmun və forma yaxınlığını, digər səsləşən cəhətlərini göstərir.

Monoqrafiyanın 1955-ci il nəşrində K.Talıbzadə «Şair, Şeir pərisi və Şəhərli» poemasının təhlilində H.Tuman-yanın «Şair və Rübab» əsərinin təsirindən də danışır. Zənnimizcə, tədqiqatçı burada heç bir əsas olmadan Səhhətin H.Tumanyandan təsirlənməsi, ondan iqtibas et-məsi barədə bəhs edirdi. O, yazırdı: «Ən maraqlısı budur ki, Səhhət «Şair və Rübab»ın son hissəsi ilə, yəni şairin gəldiyi son nəticə ilə razılaşmış, bunun əvəzinə Nekraso- vun «Şair və Vətəndaş» şeirinin təsirilə yazdığı Şair və Şəhərlinin müsahibəsi səhnəsini yaratmışdır.»[1] K.Talıb- zadə burada Səhhətin H.Tumanyanın gəldiyi nəticə ilə razılaşdığı halda nəyə görə onu N.A.Nekrasovun fikri ilə əvəz etdiyinin elmi izahını vermir. Əsərin 1986-cı il, 1991-ci il nəşrlərində K.Talıbzadə

---

[1] Talıbzadə K. Abbas Səhhət, Bakı, Azərb. SSR EA nəşr.,1955, s.96.

poemanın təhlilində H.Tumanyanın təsirilə bağlı məqamları bütünlükdə ixtisar etmişdir.

O, əsərdə bədii həllini tapan məsələlərin A.Səhhətin romantik qəhrəmanına yaxın olduğunu, ümumiyyətlə poemanın şairin poetik dünyası ilə əlaqələrini müəyyənləşdirir, əsərdəki Şair obrazında Səhhətin ideya axtarışla-rını göstərir. K.Talıbzadəyə görə Səhhət poemasındakı Şair obrazı xalq mənafeyi yolunda canını fəda etməyə hazır olan, lakin əlləri bir yana çatmayanda ümidsizliyə düçar olan, ziddiyyətli hallar keçirən bir vətəndaşdır, «o bir növ Səhhətin özüdür» ki, yaşadığı dövrün, zəmanənin böyük həqiqətini ifadə edir.[1] K.Talıbzadə doğru olaraq qeyd edir ki, bütün bunlara baxmayaraq əsərin əsas məf-kurəsi Şair surətində öz əksini tapa bilməmişdir. Müəllif poemada çox mühüm yer tutan ideal bir qəhrəmanı – Şəhərli obrazını daha diqqətlə təhlil edir, şairin qarşısına qoyduğu əsas ideyanı məhz bu surət vasitəsilə ifadə et- diyini göstərir. Tədqiqatçının qənaəti belədir ki, bu mü-kəmməl obraz «şairin real vəziyyətini yox, romantik qəhrəmanın ideallarını özündə əks etdirir.»[2] K.Talıbza-dənin təhlilində Şəhərli surəti sənətin ictimai mübarizədə rolunu qiymətləndirməyi bacaran, onu həyatın qabaqcıl meyllərinə xidmət etməyə çağıran həqiqi bir vətəndaş kimi səciyyələndirilir.

Tədqiqatçı poemanın təhlilində belə bir düzgün elmi qənaətə gəlir ki, bu romantik şairin heç bir əsərini onun

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s. 314.
[2] Yenə orada, s. 315.

yaradıcılığının ümumi kontekstindən kənarda təsəvvür etmək mümkün deyil, onlar ümumi məfkurə istiqaməti, poetik ruhu, forması, bədii ifadə tərzi və üslubu ilə bir qələmin, eyni istedadın, eyni vətəndaşlıq ilhamının bəhrə-ləridir. Tədqiqatçı «Şair, Şeir pərisi və Şəhərli» poemasını da A.Səhhətin dünyagörüşündəki bu məfkurəvi yüksəlişin nəticəsi hesab edir və göstərir ki, möhkəm bir kompo-zisiyaya, maraqlı, rəvan süjetə, aydın ideyaya malik olan əsər şairin orijinal yaradıcılığının ən qüdrətli nümunə-lərindən biri hesab olunur. Müəllif poemada şairin böyük poetik istedadının daha dolğun təzahürünü görür, əsərin bədii dəyəri etibarilə Səhhət yaradıcılığında xüsusi yer tutduğunu, nəhayət, milli şeirimizin nadir klassik nümu-nələri sırasında durduğunu göstərir və əsaslandırır.

Əsasən romantik sənətkar kimi tanıdığımız A.Səhhət həm də bir sıra realist əsərlərin müəllifidir. K.Talıbzadə monoqrafiyasında şairin realist səpkidə yazdığı əsərləri diqqətlə araşdırmış, onların təhlilinə xüsusilə geniş yer vermişdir. Müəllif burada romantik yazıçının realist əsəri də romantik kimi yazdığını, bu realizmin romantik sə-nətə məxsus keyfiyyətlərlə birləşdiyini, qovuşduğunu gös-tərir. Tədqiqatçı A.Səhhət realizminin təhlilində də bu xüsusiyyətləri diqqət mərkəzində saxlayır, Səhhətin realist əsərlərinin, pyes, poema və satiralarının üslubundakı bu ikilik – həm realizm, həm də romantizmə xas olan keyfiyyətlər hər iki ədəbi metod və cərəyanın ideya əla-qələrinin, birliyinin təzahürü kimi mənalandırılır və əsas-landırılır. Şairin «Əhmədin qeyrəti» poeması da realizmin A.Səhhət romantizminə təsiri, onda

əmələ gətirdiyi ideya-estetik məziyyətləri özündə əks etdirən əsərlərdən biri kimi təhlilə cəlb edilir. Fəhlə sinfinin azadlıq uğrunda mübarizəsi mövzusunda yazılmış bu poemanın ideya və məzmununa, quruluşuna, obrazlar aləminə diqqət yetirən tədqiqatçı əsərin qəhrəmanı Əhməd surətini daha dəqiq xarakterizə edir, poemanın əsas məfkurəsinin məhz bu obrazda öz əksini tapdığını göstərir. Əsərin başlanğıcında Cənubi Azərbaycandan Bakıya pənah gətirən, «Qara şə-hər»in müəssisələrindən birində çalışan Əhməd ağır gün-güzəran keçirən minlərlə fəhlələrdən biridirsə, sonralar o vətəni müdafiə üçün silaha sarınan, öz hüququ və azadlığı uğrunda fəal mübarizə aparan, özündə qalib gəlmək inamı hiss edən bir qəhrəmandır. K.Talıbzadə məhz bu cəhətlərinə görə A.Səhhətin fəhlə obrazını M.Ə.Sabirin fəhlə surətləri ilə müqayisə edir, onların yaxınlığını, oxşar xüsusiyyətlərini aydınlaşdırır. O, doğru olaraq müşahidə edir ki, Səhhətin fəhləsi M.Ə.Sabirin «A başı bəlalı fəhlə», «Bakı fəhlələrinə» şeirlərindəki «iddialı», «araya soxulan», «bəy, xanla çulğalaşan», «hüquq üstə ədavət edən» fəh-lənin oxşarıdır və o şairin bir sıra romantik qəhrəmanları kimi taleyin hökmünə boyun əymir, əksinə, öz xilasını mübarizə aparmaqda görür. Müəllif C.Məmmədqulu- zadənin Bakıda çalışan iranlı fəhlələrin acınacaqlı həya- tına dair yazdığı məqalə və felyetonlarla, M.Ə.Sabirin Bakı fəhləsinə aid mübariz ruhlu şeirlərilə A.Səhhətin «Əhmə- din qeyrəti» poeması arasında sıx mövzu və məfkurə, ideya və qayə yaxınlığı olduğunu göstərir. Bu poema K.Ta-lıbzadənin təhlilində Səhhət yaradıcılığında ciddi bir yeni-lik, irəliyə doğru bir addım,

şairin romantik qəhrəmanı-nın real, konkret həyatla əlaqəsini əks etdirən bir əsər kimi dəyərləndirilir. Tədqiqatçı belə bir düzgün məntiqi nə- ticəyə gəlir ki, həm romantizmə, həm realizmə aid keyfiy-yətləriylə yanaşı «Əhmədin qeyrəti» əsasən romantik poe-madır. Çünki, «burada həyat faktının realist tipikləşdir- mə manerasından daha çox hadisənin tərənnümü, şairin əhvalata güclü ideya müdaxiləsi hakimdir, …bu da maa-rifçi romantizmin ən səciyyəvi xüsusiyyətlərindəndir.»[1]

K.Talıbzadənin şairin satirik şeirləri haqqında müla-hizələri də xüsusi maraq doğurur. A.Səhhətin «Kəlniyyət» jurnalında dərc olunmuş satira və taziyanələrinin səciy- yəvi xüsusiyyətlərindən bəhs edərkən tədqiqatçı şairin bu realist janra münasibətinin də geniş şərhini verir. O, Səhhətin satiralar yazmasının təsadüfi yaradıcılıq həvəsi olmadığını, şairin poeziyasının təbii, üzvi bir ideya-estetik keyfiyyəti kimi üzə çıxması fikrini təsdiq edir və əsaslandırır. Öz ədəbi baxışlarında satirik ədəbiyyatın müasir mövqeyini yüksək dəyərləndirən Səhhətin satira janrına müraciəti həm milli realizmin özünəməxsusluq- ları, tənqidi realizmin, xüsusən satirik ədəbiyyatın böyük nailiyyətlərilə, həm də şairin elmi-nəzəri qənaətləri, onun yaradıcılığının daxili xüsusiyyətləri və qanunauyğunluğu ilə əlaqələndirilir. Müəllif göstərir ki, şairin satirik yaradı-cılığında Sabir poeziyasının güclü təsiri hiss olunur, bu cəhət satira üçün mövzu seçmək üsulunda, forma xüsu-siyyətlərində daha aydın şəkildə nəzərə çarpır. Lakin tədqiqatçı A.Səhhətin satiralarının «öz şeiriyyəti, mövzu- ya

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1.,

münasibətindəki aydınlığı və konkretliyi, tiplərin sər-rast, bütöv surətini yarada bilmək bacarığı baxımından Sabir poeziyası səviyyəsinə yüksələ bilmədiyini» yazır.[1] O, Səhhətin romantik şair olmasını bunun başlıca səbəbi kimi göstərərək şairin satiralarının da romantiksayağı realist əsərlər kimi təsir oyatdığını təbii və qanunauyğun hesab edir. K.Talıbzadə Səhhət satirasının səciyyəvi xüsusiyyətlərindən bəhs edərkən burada müəllif ideyasının, məqsədinin birbaşa, tendensiyalı şəkildə elan edilməsini, müsbət idealın bilavasitə tərənnümünə geniş yer verilmə- sini də şairin romantik metodunun təsirilə əlaqələndirir. Tədqiqatçı Səhhətin realizmini romantikləşdirən ünsürləri onun bütün əsərlərində romantik şair olaraq qalması faktı ilə izah edir və bunu əsaslandırırdı.

Romantizmin A.Səhhət yaradıcılığına belə nüfuzedici təsiri onun dram əsərlərinin təhlilində də K.Talıbzadənin diqqət mərkəzindədir. Müəllif bu baxımdan şairin «Neft fontanı» və «Yoxsulluq eyib deyil» pyeslərinə nəzəri cəlb edir, Səhhət dramlarının bədii məziyyətlərini məhz bu əsərlərin ideya və məzmununu, obrazlarının psixologiya- sını izah etməklə aydınlaşdırır. Burada «Neft fontanı» pyesinin təhlilinə nisbətən yığcam yer verilmiş, əsərdəki bəzi surətlərin sxematikliyi, naturalist səhnələr tipikləş-mənin zəif əlaməti kimi səciyyələndirilmişdir. K.Talıbza-dənin qənaətinə görə, əsərin mahir bir realist sənətkarın qələmindən çıxmadığı, başqa

---

1991, s.277.

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s.299.

sözlə, «romantikin yazdığı realist əsər olduğu» burada aydın hiss olunur.[1]

Abbas Səhhət qabaqcıl rus və Avropa mədəniyyətinə müsbət münasibət bəsləmiş, lakin ədəbi fəaliyyətində bu mədəniyyəti idealizə etməmiş, onu məhz milli zəmində inkişaf etdirməyin tərəfdarı olmuşdur. Romantik sənət-karın A.N.Ostrovskinin «Yoxsulluq eyib deyil» kome-diyasından iqtibas olan eyniadlı pyesinin təhlili də bu istiqamətdə aparılır. Müəllif burada XX əsr Azərbay-canındakı burjua-mülkədar əxlaqının tənqidi məsələlərini, eyni zamanda əsərin obrazlar aləmini rus yazıçısının pyesindəki surətlərlə, ictimai münaqişə və ziddiyyətlərlə müqayisə edir, eyniadlı dramların oxşar və fərqli xüsu-siyyətlərini araşdırıb üzə çıxarır. O, göstərir ki, «Səhhət sərbəst hərəkət edərək, iqtibasla yaratdığı surətlərə yeni keyfiyyətlər əlavə etmiş, nəticədə əsərin quruluşu, janrı da dəyişmiş, komediya yerinə ciddi bir dram əsəri meydana çıxmışdır.»[2] Tədqiqatçının qənaətinə görə bu realist əsər-dəki surətlər Səhhətin romantik qəhrəmanları kimi dərin təsir oyada bilmir.

A.Səhhətin bədii nəsrinin təhlili də onun romantiz-minin ideya və üslub xüsusiyyətləri zəminində aparılmış- dır. Tədqiqatçı burada əsasən şair kimi tanınan Səhhətin yaradıcılığının son illərində epik janra müraciət etməsinin səbəbini aydınlaşdırır. K.Talıbzadə belə hesab edir ki, şair XX əsrin mürəkkəb ictimai-siyasi həyatını geniş bir şə- kildə əks

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s. 278.
[2] Yenə orada, s. 281.

etdirmək üçün daha böyük imkanlara malik olan epik janra, bədii nəsr sahəsinə keçmək zərurətini duymuşdur. Səhhətin bədii nəsrindən əldə olan nümunələri nəzərdən keçirərkən tədqiqatçı belə bir mühüm cəhətə diqqəti yönəldir ki, bütün Azərbaycan romantikləri kimi Səhhətin də bədii düşüncələrini müharibə mövzusu məş-ğul etmiş, «Müharibə və insan taleyi!» problemi onun hekayələrinin əsas ideyasına, qayəsinə çevrilmişdir. Müəllif humanist şairin müharibəyə münasibətini onun Birinci Dünya Müharibəsinin nəticələrini dolğun şəkildə əks etdirən «Bədbəxt ailə» və «Qaragünlü Həlimə» heka-yələrinin təhlili əsasında izah edir, həm mövzu, həm də məzmun mündəricəsinə görə bu hekayələri yeni əsr ro-mantik nəsrinin dəyərli nümunələri kimi qiymətləndirir. Burada Səhhətin «Cərrahlıq» adlı realist hekayəsi də təh- lil olunur, rus yazıçısı A.P.Çexovun eyniadlı novellasına bənzətmə olaraq yazılmış yumoristik ruhlu əsərin ideya və məzmunu, obrazlar aləmi nəzərdən keçirilir. Bu hekayənin bədii kamillik baxımından o qədər də fərqlənmədiyi, bu- rada mükalimə yaratmaq üsulunun, tipikləşdirmənin ib-tidai şəkildə olduğu, obrazların zəif və sönük təsir bağış-ladığı göstərilir. Müəllifin qənaətinə görə, Səhhətin lirik-romantik şeirlərinə xas olan səmimiyyət, hiss və həyəcan, yüksək sənətkarlıq onun nəsr əsərlərində kifayət qədər özünə yer tapa bilməmişdir.

Məlumdur ki, təbiət təsvirləri, doğma vətənin ürək açan mənzərələri A.Səhhətin zəngin yaradıcılığında əhə-miyyətli yerlərdən birini tutmuş, şairin peyzaj lirikası onu Azərbaycan ədəbiyyatında mahir bir təbiət tərən-nümçüsü kimi tanıtmış və şöhrətləndirmişdir. Səhhət hətta özünün nəzəri

məqalələrində belə şeirdə təbiət mənzə-rələrinin verilməsini təbliğ etmişdir. Bu baxımdan mo-noqrafiyada A.Səhhətin təbiətə həsr olunmuş şeirlərinin  də onun lirikasının mühüm, ayrılmaz tərkib hissəsi kimi xüsusi təhlilə cəlb olunması diqqətəlayiqdir. K.Talıbzadə hələ yaradıcılığının ilk axtarışları dövründə bu ruhda şeir-lər yazan və tərcümələr edən Səhhətin şair «mən»i ilə təbiətin bir vəhdət təşkil etdiyini göstərir, onun poezi- yasının bu istiqamətdə inkişafını diqqətlə izləyir. Tədqi-qatçı Səhhətin peyzaj lirikasının gözəl nümunələrindən sayılan «Yay səhəri», «Yay gecəsi», «Qış», «Əkinçi nəğ-məsi» şeirlərinin təhlili əsasında konkret ümumiləşdir-  mələr aparır. Şairin lirik qəhrəmanı ilk vaxtlar daha çox öz daxili aləmi ilə məşğul idisə, təbiətə bilavasitə müraciət edə bilmirdisə, sonralar o, təbiətlə, ictimai həyatla qovuşur, bu iki aləmin vahid ahəngini özündə əks etdirir. Müəllif bu cəhəti Səhhətin dünyagörüşündəki, sənətə baxışındakı təkamüllə əlaqələndirir, bunu konkret əsərlərin, şeirlərin təhlili əsasında ətraflı izah edir. Səhhətin ilk təbiət təs-virlərində sentimentalizm əlamətləri görünürdüsə, bu mə-nəvi təkamüldən sonra şairin təbiətə münasibətində, onu təsvir üsulunda da bir yeniləşmə özünü biruzə verir. K.Talıbzadə bu yeniləşməni «romantik Səhhətə realist Səhhətin güclü təsiri» kimi izah edir.[1] Çünki, şair daha təbiətə rəmzi mənalar verməyə səy göstərmir, bunun əksinə indi o, təbiətin özünü, onun zənginliyini və müasir ger-çəkliklə əlaqəsini olduğu kimi, real təsvir etməyə çalışır. Tədqiqatçı burada A.Səhhətin XX əsr Azərbaycan ədəbiy-

---

.[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1.,

yatında təbiət təsvirləri yaratmaq sahəsində yeganə və rəqibsiz bir sənətkar olduğunu təsdiq etməklə yanaşı bu müvəffəqiyyəti təmin edən səbəbləri, ümumiyyətlə, şairin təbiətə fəal münasibətlərinin səbəblərini araşdırıb üzə çıxarır. O, yazır: «Səhhətin peyzaj lirikasının forma-laşmasında milli şeirin ənənəsinin, eləcə də onun yaxşı tanış olduğu Avropa və rus romantik poeziyasının təsirlərini nəzərdən qaçırmaq olmaz. Xüsusən Puşkin və Lermontovun romantik lirikasının əsrarəngiz ruhu Səh- həti daima təsirləndirmiş, onu öz nüfuz dairəsində sax-lamışdır.»[1] Burada təbiətə güclü meyl həm də XX əsr Azərbaycan romantizminin ideyalar aləmi, mövzular sis-temi, fəlsəfi-psixoloji əsasları ilə əlaqəli bir problem kimi diqqətlə nəzərdən keçirilirdi. Müəllif sonda belə bir düz-gün məntiqi nəticəyə gəlir ki, təbiət şairin peyzaj lirika-sında vətənin, vətənpərvərliyin rəmzidir, Səhhətin «təbiət aləmi» onun «vətən aləmi»dir.

«Abbas Səhhət» monoqrafiyasında şairin lirikasının təhlili XX əsrdə milli ədəbi prosesin başlıca meylləri, ideya istiqaməti ilə vəhdətdə aparılmış, şairin poeziyası A.Şaiq, H.Cavid lirikası, eləcə də M.Ə.Sabir poeziyası ilə əlaqədə tədqiq edilmişdir. Əsərin təkmilləşdirilmiş nəş-rində tədqiqatın bu məziyyəti daha aydın şəkildə nəzərə çarpır.

XX əsrin ilk onilliklərində Azərbaycanda uşaq ədə-biyyatı yaradıcılığı da qüvvətlənmiş, M.Ə.Sabir, S.S.Axun-dov, A.Şaiq kimi dövrün fəal maarif xadimləri uşaqlar üçün

---

1991, s. 317.

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s. 320.

bədii əsərlər yazıb nəşr etdirmişdilər. Həmin dövrdə A.Səhhət də uşaq ədəbiyyatı müəlliflərindən biri kimi şöhrətlənmiş, bu sahədə böyük yaradıcılıq uğurları qazan-mışdı. Bu baxımdan K.Talıbzadə Səhhətin poetik dilinin zənginliyini, canlılığını, səlisliyini özündə əks etdirən, xalq yaradıcılığı ilə dərindən bağlı olan sadə, oynaq və duzlu uşaq şeirlərini qruplaşdıraraq onun yaradıcılığının ay-rılmaz bir sahəsi kimi təhlilə cəlb edir. Monoqrafiyada şairin uşaq şeirləri onun həm bədii, həm də pedaqoji fəaliyyətini tamamlayan tərəflərdən biri kimi səciyyələndirilir. Şəhhətin kiçik yaşlı məktəblilər üçün yazdığı şeirlərin daha çox yayıldığını göstərən müəllif bu əsərlə- rin təhlilinə xüsusilə geniş yer vermişdir. Tədqiqatçı bu şeirlərin bir sıra xarakterik xüsusiyyətlərindən bəhs edər-kən buradakı tərbiyə məsələlərini şairin həm az-yaşlı uşaqlar üçün yazdığı kiçik həcmli lirik şeirlərinin, şərqi-lərinin, həm də məktəbyaşlı uşaqlar və gənclər üçün nəzərdə tutduğu təmsillərinin, alleqoriyalarının, eləcə də sırf tər-biyəvi şeirlərinin təhlili əsasında izah edir və aydınlaşdırır. Burada «Oğru və anası», «Iki uşaq», şeirlərinin, «Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi» pyesinin təhlil edildiyi məqamlar A.Səhhətin uşaq şeirlərinin ideyasını və qayəsini daha dəqiq açıqlayır. K.Talıbzadə vətən möv-zusunu Səhhətin uşaq ədəbiyyatı yaradıcılığının da əsas mövzusu kimi göstərir, vətən məhəbbətinin tərənnümünü şairin bütövlükdə poetik yaradıcılığının başlıca yönümü kimi əsaslandırır.

Şairin uşaqlar üçün yazdığı «Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi» pyesinin təhlili onun maarifçilik ideyalarının dolğun şərhi cəhətdən xüsusilə təqdirəla- yiqdir.

Milli dramaturgiyanın tarixində ilk uşaq əsərlə-rindən biri sayılan bu pyesin ideya-məzmun, bədii-obraz tərəflərini araşdırarkən tədqiqatçı eyni zamanda bu əsərin dil sadəliyi, fikir aydınlığı və bir sıra bədii məziyyətlərini də aydınlaşdırmışdır.

A.Səhhətin təmsil janrına müraciətinin də uğurla nəticələndiyini qeyd edən K.Talıbzadə bu əsərlərin müvəffəqiyyətini şairin uşaq ədəbiyyatının spesifikasına yaxşı bələd olması, nəhayət, Səhhətin sənətkarlıq gücü və qüdrəti ilə izah edir. Monoqrafiyada şairin uşaqlar üçün yazdığı lirik şeirlərin, səhnə əsərləri və təmsillərin təlim-tərbiyə işində əhəmiyyətli rolu, gənc nəslin estetik zövqünün formalaşmasına, Azərbaycan uşaq ədəbiyyatının inkişafına təsiri yüksək qiymətləndirilir.

Tədqiqat əsərinin şairin ədəbi əlaqələri və tərcümə-çilik fəaliyyətinə həsr olunan fəslində A.Səhhət roman-tizminin təhlili başlıca mövzu, əsas problematika kimi diqqət mərkəzindədir. Milli ədəbiyyatın inkişafında ədəbi əlaqələrin rolunu yüksək dəyərləndirən A.Səhhət Avropa və rus ədəbiyyatına, Türkiyə ədəbiyyatına yaxından bələd olub, bu ədəbiyyatların qabaqcıl təcrübələrini öyrənmə- yin, yaradıcılıqla əxz etməyin tərəfdarı idi. K.Talıbzadə Səhhətin türk ədəbiyyatı ilə əlaqələri barədə nisbətən geniş bəhs etməklə şairin romantik bədii dünyagörüşünün təşəkkülündə bu əlaqələrin əhəmiyyətli rolunu aydın-laşdırır. O, XX əsr Azərbaycan romantiklərinin türk ədə-biyyatının Əbdülhəqq Hamid, Mahmudəkrəm Rəcaizadə, Namiq Kamal, Tofiq Fikrət kimi görkəmli şairlərindən təsirləndiyini, Səhhətin də öz

dərsliklərində, dərslərində onların əsərlərinə geniş yer verdiyini göstərir. Müəllif yazır ki, qabaqcıl türk şairlərinin, xüsusilə Əbdülhəqq Hamidin Türkiyənin müstəbid sultanlarına, mühafizəkar rejiminə qarşı apardıqları üsyankar sənət mübarizəsi bü- tün Azərbaycan romantikləri üçün, o cümlədən Səhhət üçün münasib yaradıcılıq məktəbi idi, «Onlar bu ədəbi məktəbin təcrübəsindən vaxtaşırı bəhrələnirdilər.»[1] Hətta Sabir zarafatla Səhhətə «Əbdülhəqq Hamid» deyə müra- ciət etmişdir. Tədqiqatçı türk ədəbiyyatının Qərb ro-mantizminə, xüsusilə Fransız romantik ədəbiyatına bələd olmaq üçün də əsaslı bir məxəz kimi romantikləri cəlb etdiyini yazır. Şairin fransız ədəbiyyatına marağını da bununla əlaqələndirən K.Talıbzadə Fransa sentimenta-listləri və romantiklərinin Səhhət romantizminin ədəbi qida mənbələrindən biri olduğunu göstərir. Müəllif «üsuli-cədid üzrə Avropa şairlərinin səbki və səliqəsi üzrə nəzmin» A.Səhhət şeirlərində təşəkkülünü Lafonte, Sülli Prudom, Jan Ramo kimi fransız şairlərinin təsiri ilə əlaqələndirir, bunu şairin konkret əsərlərindən gətirilən nümunələrlə izah edir və əsaslandırır. Burada şairin fransız ədəbiyyatı ilə yaradıcılıq təması, ünsiyyəti, ümumiyyətlə bu ədəbiy-yatın Səhhətin romantik üslubunun, romantik poetikası- nın müəyyənləşməsində rolu aydınlaşdırılır. K.Talıbzadə milli ədəbiyatda poetik tərcüməni yeni bir mərhələyə qaldıran Səhhətin rus, gürcü və Avropa ədəbiyyatının görkəmli nümayəndələrindən etdiyi tərcümələri onun dünyagörüşündə, xüsusilə estetik görüşlərndə əmələ

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1.,

gələn böyük inkişafla bağlayır. Səhhət yaradıcılığının romantik istiqamət almasında, onun ideya, sənətkarlıq baxımından təşəkkülündə rus ədəbiyyatının təsiri daha dərin və miqyaslı olduğundan müəllif məsələnin bu tərəfini düzgün olaraq geniş və hərtərəfli işıqlandırmışdır. XX əsrin əv-vəllərində Azərbaycan-rus ədəbi əlaqələri yeni bir istiqamət almış, son dərəcə dərinləşmiş, bu qarşılıqlı təsirin nəti-cəsində milli ədəbiyyatımız öz yaradıcılıq üfüqlərini bir qədər də genişləndirmişdir. Rus ədəbiyyatından yaradıcı şəkildə öyrənən, onun qabaqcıl ideyalarını milli ədəbiy-yatda əks etdirən görkəmli sənətkarlardan biri də A.Səhhət olmuşdur. Hətta, 50-ci illərin tədqiqatlarında Səhhətin milli ədəbiyyatımızın tarixində ilk dəfə olaraq rus ədəbiyyatının həqiqi poetik tərcüməsini verməsi faktı vurğulanırdı.[1] Lakin bu dövrdə şairin rus ədəbiyyatından tərcümələrindən bəhs edən müəlliflər onun yalnız tərcümə prinsiplərini izah etməklə qənaətlənmişdilər. K.Talıbzadə isə monoq-rafiyasında bu prinsipləri bir qədər konkret və dolğun şərh etməklə yanaşı rus ədəbiyyatından edilən tərcümələrin Səhhət yaradıcılığına ideya-bədii təsiri məsələsini də geniş işıqlandırmışdır. Vaxtilə görkəmli tənqidçi M.Arifin Səh- hət poeziyası ilə rus ədəbiyyatı nümunələri arasında ilk ideya müqayisəsi haqqında yığcam şəkildə deyilmiş mü-lahizə və fikirlərini K.Talıbzadə daha da inkişaf etdirir, bu ədəbi təsirlənmənin Səhhət yaradıcılığında əhəmiyyətli rolunu aydınlaşdırırdı.

---

1991, s. 330.

[1] İsmayılov Y. «Ədəbi irs və varislər», Azərbaycan EA Xəbərləri, Ədəbiyyat, Dil və İncəsənət seriyası, 1975, № 2, 124-126.

Tədqiqatçı şairin rus ədəbiyyatı haqqında yüksək fikirlərinin, onun böyük yaradıcılıq məktəbi olması barədə qənaətinin təsadüfi olmadığını qeyd edirdi: «XX əsr ədəbiyyatının bir çox görkəmli, maarifçi ədəbi simaları kimi A.Səhhət də Azərbaycanda ictimai fikri daha yüksək bir mərhələyə qaldırmaq, Azərbaycan poeziyasına doğru, müa-sir bir istiqamət vermək işində rus ədəbiyyatının əhə-miyyətini çox yaxşı başa düşmüşdür.»[1] K.Talıbzadə belə bir tezis irəli sürür ki, «Təzə şeir necə olmalıdır!» sualının düzgün cavabını müəyyənləşdirməkdə Səhhətin rus ədə-biyyatı ilə əlaqələrinin mühüm rolu olmuşdur. Cünki, bu ədəbi əlaqələr şairin ədəbi zövqündə, sənətə baxışında əsaslı dönüş yaratmış, onun ədəbi həyata daha miqyaslı münasibətinə yol açmışdır. K. Talıbzadə həmin ədəbi əlaqələrin öyrənilməsini XX əsr Azərbaycan poeziyası ilə rus ədəbiyyatının əlaqələrinin məzmununu, səciyyəsini ay-dınlaşdırmaq və bu qarşılıqlı proses haqqında geniş təsəvvür əldə etmək baxımından da olduqca əhəmiyyətli hesab edir, bu məqsədlə tədqiqatını bir qədər də geniş-ləndirir və dərinləşdirirdi. Müəllif A.Səhhətin rus ədəbiy-yatından tərcümələrinin romantik şairin ideya-bədii tə-kamülünü şərtləndirdiyini, bütövlükdə milli ədəbiyyatın yaradıcılıq əlaqələrinin hüdudlarını genişləndirməklə onun inkişafını səciyyələndirdiyini göstərir. Bu cəhətdən Səhhə-tin Lermontov ilə yaradıcılıq əlaqələrinin təhlil edildiyi məqamlar xüsusilə diqqətəlayiqdir. K.Talıbzadə Səhhət və Lermontov poeziyalarının ümumi, müştərək tipoloji səciyyə daşıyan oxşar

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1.,

xüsusiyyətlərini, mənəvi bağlılığını, ideya-estetik yaxınlığını dolğun şəkildə şərh edir, bunu ayrı-ayrı motivlər, ideyalar və obrazların təhlili ilə əsaslandırır. Müəl-lif düzgün müşahidə edir ki, hər iki şairin romantik qəh-rəmanlarının əsas ideyası, başlıca qayəsi – azadlıqdır. O, şairin Lermontovun məşhur «Mtsıri» poemasını tərcümə etməsini də Səhhətin bu başlıca sənət qayəsi ilə, fikri, mənəvi ehtiyacları ilə əlaqələndirir, onun azadlıq ideya-larıyla bağlı öz şəxsi fikirlərini rus şairinin misraları ilə bildirmək istədiyini yazır.

K.Talıbzadə A.Səhhətlə Lermontovun yaradıcılıq əlaqələrini «həm ədəbi təsir, həm tipoloji təhlil planında bir sənətkarın digərindən öz ruhuna, məqsədinə, ideala-rına, sənətkarlıq tələblərinə uyğun olaraq öyrənməsinin, təsirlənməsinin geniş panoramını əks etdirən gözəl ədəbi nümunə və fakt» kimi mənalandırır.[1] Lakin eyni zamanda, Lermontov ənənələrinin milli romantik sənətkarın yara-dıcılığında müxtəlif şəkildə təzahüründən bəhs edərkən tədqiqatçı şairin görüşlərinin rus yazıçısı ilə fərqli cəhətlərini də açıb göstərir. Yeri gəldikdə Səhhətin Lermontov ilə daxili yaradıcılıq mübahisəsinə, ona etirazını ifadə edən motivlərə xüsusi olaraq diqqəti cəlb edir. Bu cəhətdən hər iki şairin öz romantik qəhrəmanlarına münasibətlərinin təhlili diqqətəlayiqdir. Müəllif burada göstərir ki, əgər Lermontov romantik qəhrəmanının şəxsi taleyinə biga-nədirsə, əgər onu cəmiyyətdən ayırıb tənhalığa düçar edirsə, etirazını da bu yolla

---

1991, s. 333.

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s. 339.

bildirməyə səsləyirsə, bundan fərqli olaraq Səhhət öz qəhrəmanını cəmiyyətdəki keçilməz maneələrin qarşısından əsla çəkilməməyə, mübarizə yolu ilə xəyalları gerçəkləşdirməyə çağırır. Bu iki sənətkarın romantik qəhrəmanlarının dünyagörüşündə, mənəvi-psixoloji aləmində nəzərə çarpan belə ciddi fərqi tədqiqatçı bir tərəfdən zamanla əlaqələndirirsə, digər tərəfdən bunu Səhhətin və Lermontovun öz fərdi şəxsi keyfiyyətləri ilə izah edir.

K.Talıbzadə hər iki böyük sənətkarın yaradıcılıq-larının ümumi və fərqli cəhətlərini müəyyənləşdirərkən belə bir məntiqi nəticəyə gəlir ki, M.Y.Lermontovu A.Səhhətə yaxınlaşdıran başlıca ideya-estetik amillərdən biri rus şairinin «zülmə nifrət hissi ilə üzvi surətdə birləşmiş vətəndaşlıq kədəri»dir.[1] Monoqrafiyada bu ideya doğma-lığı milli romantik şairin Lermontovla əlaqələrinin əsas tərəflərindən biri kimi səciyyələndirilir, konkret bədii nümunələrin təhlili ilə əsaslandırılır.

A.Səhhətin rus satirik ədəbiyyatından tərcümələrin-dən söhbət açarkən tədqiqatçı şairin Krılov, Qoqol, Sal-tıkov-Şedrin və Çexovun əsərlərini ana dilinə çevirdiyini, bu tərcümə prosesində onun satirik təsvir priyomlarına yiyələndiyini, satira və yumorun bədii ədəbiyyatdakı rolu-nu, mövqeyini daha dərindən dərk etdiyini göstərir. Şairin Azərbaycan ədəbiyyatında təmsil janrının gözəl yara-dıcılarından biri səviyyəsinə yüksəlməsində, onun roman- tik poeziyasının realistik cəhətlərlə zənginləşməsində Krı- lov

sənətkarlığının təsiri nisbətən ətraflı işıqlandırılmışdır. Tədqiqatçı Krılovun sırf milli koloritə malik olan, xalq yumoru ilə, xalq dilində yazılan, bu cəhətdən də çətin tərcümə olunan təmsillərinin «öhdəsindən gəlməklə» Səh-hətin əsl sənətkarlıq istedadı nümayiş etdirdiyini, orijinalı mənaca doğru ifadə edən, poetik cəhətdən güclü bədii tərcümələr yaratdığını qeyd edir.

K.Talıbzadə A.Səhhətin tərcümələrini Krılovun təm-sillərini Azərbaycan dilinə çevirən bir sıra müəlliflərin tərcümələri ilə qarşılaşdırır, orijinaldakı ümumi satirik ruhu saxlaya bildiyi üçün məhz A.Səhhətə üstünlük verir. Müəllif bütün bu xüsusiyyətlərinə görə şairin Krılovun «ən usta tərcüməçi»lərindən biri kimi şöhrətləndiyini, rus şairindən yaradıcı şəkildə öyrənməklə, əxz etməklə Səh-hətin özünün də təmsil yaradıcılığının formalaşdığını və inkişaf etdiyini göstərir, bu fikri konkret mülahizələrlə əsaslandırır.

K.Talıbzadə Səhhətin rus ədəbiyyatından ana dilinə çevirdiyi peyzajları da onun tərcümə fəaliyyətinin mühüm tərkib hissəsi kimi diqqətlə təhlil edir, şairin peyzaj lirikasının təşəkkülündə bunun əhəmiyyətli rolunu aydın-laşdırır. Tədqiqatçı Səhhətin daha çox rus ədəbiyyatının mahir peyzaj müəllifləri Koltsov və Nikitin yaradıcılıq-larına müraciət etdiyini göstərir, şairin tərcümələrini, ayrı-ayrı şeirlərini mövzu baxımından geniş və hərtərəfli təhlilə cəlb edir.

Müəllif hər iki şairin peyzaj lirikasının oxşar xüsu-siyyətlərə malik olduğunu, eyni ideya-estetik konsepsiya ilə bağlılığını aydınlaşdırmaqla bu yaradıcılıq yaxınlığının

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1.,

köklərini, əsaslarını müəyyənləşdirib üzə çıxarır. K.Talıb-zadə belə bir nəticəyə gəlir ki, «Səhhət poeziyasında obyektiv romantik istiqamət üstünlük təşkil edir və üslubi xüsusiyyət onun peyzajları üçün daha səciyyəvidir, elə bu xüsusiyyətləri ilə də o, Koltsov və Nikitinə çox yaxındır.»[1] Müəllif şairin romantik metodla yazılmış əsərləri daha müvəffəqiyyətlə tərcümə etdiyini, bu tərcümələrin mənaca orijinala yaxın olub, dolğun poetik nümunələr kimi təsir oyatdığını yazır. Realist əsərlərin tərcüməsində isə Səh- hətin tamamilə başqa bir yaradıcılıq yolu keçdiyini, iqtibas və təbdillərə müraciət etdiyini göstərən tədqiqatçı bu əsərlərin romantik tərcümələr qədər uğurlu olmadığını, şairin qüdrətli tərcüməçiliyini, sənətkar «mən»ini ifadə edə bilmədiyini nəzərə çatdırır. Tədqiqatçı doğru və inandırıcı şəkildə sübut edir ki, Səhhətin tərcümə etdiyi realist əsərlərdə onun romantik aləmi üçün zəruri olan doğma-lıq, əsas «ideya-estetik qida» kifayət qədər deyildir. Burada Səhhətin romantik tərcümələri onun yaradıcılıq metodu-nun yeni ideya-bədii keyfiyyətlərlə zənginləşməsində başlıca amil rolunda çıxış edən əsas mənbələrdən, məxəzlərdən biri kimi qiymətləndirilir. K.Talıbzadə bu tərcümələri həm də o zamankı sxolastik-formalist şeir qalıqlarına, epiqon-çuluğa qarşı qüvvətli mübarizə vasitəsi hesab edir, bir çox milli şairlərin tərcüməçi kimi yetişməsində bu əsərlərin əhəmiyyətli təsirini yüksək dəyərləndirirdi.

---

1991, s. 336.

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s. 343.

Beləliklə, mükəmməl bədii tərcümələrinə görə hələ sağlığında «ikinci Jukovski», əsrin əvvəllərində «türklərin Lermontovu» adlandırılan Səhhət monoqrafiyada tərcü- mə ədəbiyyatının banilərindən biri kimi təqdir olunur, onun tərcüməçilik fəaliyyətinin ümumi ədəbi-mədəni mənası izah edilir, mahiyyət və məğzi aydınlaşdırılır.

K.Talıbzadə monoqrafiyada A.Səhhətin yaradıcılıq irsini təhlil edərkən eyni zamanda şairin görüşlərindən, sənətkarlığından bəhs etmiş, bu cəhətə monoqrafiyanın bütün fəsillərində diqqət yetirmişdir. Lakin müəllif bu-nunla kifayətlənməmiş, Səhhətin sənətə baxışının, sənət-karlığının xüsusi olaraq təhlilə cəlb edilməsini tədqiqat vəzifəsi baxımından zəruri hesab edərək monoqrafiyasını şairin «Sənətə baxışı. Sənətkarlığı» fəsli ilə başa çatdırmışdır. Bu fəsildə Səhhətin sənət baxışları hərtərəfli işıqlandırılıb, onun yaradıcılığının başlıca prinsiplərinin dolğun nəticəsi, yekunu kimi düzgün izah edilir və qiymətləndirilir. K.Talıbzadə göstərir ki, milli romantik şairin tənqidçilik fəaliyyəti – ədəbi fikir mübarizələrində fəal iştirakı, yeni poeziyanın prinsiplərini ehtirasla müdafiə etməsi onun yaradıcılığını, bütövlükdə sənətkar simasını tamamlayan tərəflərdən biridir. Müəllif Səhhətin tənqidə dərin münasibətinin əsas səbəbini isə dövrün ədəbi pro-sesinin tənqidi təfəkkürə meylli olmasında görürdü. Çünki, həmin dövrdə ədəbi ictimaiyyətin yekdil rəyi belə idi ki, ədəbi tənqidsiz müasir ədəbiyyatın inkişafı qeyri-müm-kündür. «odur ki, ədəbi tənqidə, fikirlər döyüşünə, mübahisə və

müzakirəyə geniş meydan verilməlidir.[1] Təd-qiqatçı ədəbiyyatın belə bir tələb irəli sürdüyü vaxtda tənqidin iki müxtəlif ədəbi mövqedən çıxış edərək realist və romantik tənqid qollarına ayrıldığını qeyd edir, bu cə-hətdən Səhhətin sənətə baxışlarının təhlilini də XX əsr ədəbi prosesinin bahlıca meylləri ilə vəhdətdə aparır.

Müəllif şairin ədəbi-nəzəri görüşlərini dolğun şəkildə şərh etmək, onun zəif və güclü tərəflərini müəyyənləşdirə bilmək üçün Səhhətin elmi-tənqidi fikirlərinin təşəkkülü prosesini diqqətlə izləmişdir. Şairin ədəbiyyatın nəzəri məsələlərinə müraciət etməsinin səbəblərini araşdırarkən tədqiqatçı göstərir ki, bu, Səhhətin müasir poeziyanın bir çox zəif cəhətlərini müşahidə etməsi və həmin cəhətlərin aradan qaldırılması, başqa sözlə, «ədəbiyyatımızın islahı» məqsədilə bağlı idi. Milli ədəbiyyatda M.Ə.Sabir, A.Şaiq, M.Hadi, H.Cavid kimi böyük şairlərin qüdrətli sənət əsərləri ilə yanaşı poeziyada epiqonçu, sxolastik nəzmin mövqeyinin də güclü olduğu bir vaxtda Səhhət şeirə yeni ruh, yeni məzmun gətirmək haqqında düşünür, «insan üçün mərifət və ibrət dərsi hüsulə gətirməyən şeirin yolu ilə getmək mümkün deyil» tezisini irəli sürürdü. K.Talıbzadənin gəldiyi qənaətə görə A.Səhhəti düşündü- rən «Təzə şeir necə olmalıdır?» problemini müasir ədəbi prosesin özü, poeziyanın yenilik axtarışları yaratmışdı. Bu axtarışlar A.Səhhətin də sənətə münasibətində, poetik baxışlarında öz əksini tapmış, çağdaş milli ədəbiyyatin ədəbi-nəzəri məsələləri romantik şairi ciddi şəkildə məşğul etmişdir.

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1.,

Müəllif şairin epiqonçuluğa, sxolastik poeziya qalıqlarına qarşı mübarizəsindən bəhs edərkən bir mühüm cəhəti də göstərir ki, Səhhət epiqonçu şeiri klassik şeir ilə eyniləşdirmirdi. Əksinə, klassik Azərbaycan və Şərq ədəbiyyatına müsbət münasibət onun bədii yaradıcılığında ol-duğu kimi ədəbi görüşləri üçün də üstün cəhətlərdən biri olmuş, şair klassik ədəbiyyata bir irs kimi, xalqın mədəniyyət tarixinin mühüm və əhəmiyyətli bir sahəsi kimi baxmışdır. Lakin tədqiqatçı onu da müşahidə edir ki, Səhhət yeri gəldikdə klassik ədəbiyyatın bəzi məhdud tərəflərini göstərməkdən də çəkinməmişdir. Səhhəti ədə-biyyatın ictimai məzmunca zəifləməsi, formalizmə meyl göstərməsi narahat etmiş, o, kəskin tənqidi çıxışlarında həmin məsələlərə toxunmuşdur. K.Talıbzadə təhlilində bu cəhəti aydınlaşdırır, şairin sxolastik şeirə mənfi mü-nasibətinin səbəblərini yeni dövr ədəbiyyatının konteks-tində izah edirdi. O, belə münasibəti müasir poeziyanın irəli sürdüyü bir sıra tələblərin yaratdığını göstərir və əsaslandırır.

Tədqiqatçı vaxtilə Axundov tərəfindən tənqid olunan epiqonçu poeziyaya qarşı mübarizənin yeni tarixi və ədəbi şəraitdə Səhhət tərəfindən davam etdirildiyini qeyd edir. Bu mübarizədə Səhhəti öz sənət konsepsiyasının güclü tə-rəfi olan «Təzə şeir necə olmalıdır?» probleminin düşün-dürməsi və onun həlli yollarında axtarışları tədqiqatçının diqqət mərkəzindədir. K.Talıbzadə Səhhətin yeni şeirin ideya-estetik prinsiplərini əsaslandırarkən bir tərəfli tezislə çıxış etdiyini,

---

1991, s.369.

yəni poeziyada hissi başlanğıca – «hissiyyati-təbiiyyə»yə üstünlük verdiyini göstərir, eyni zamanda bu estetik tezisdə «romantik şeirin ilkin prinsirlərinin» ifadə olunduğunu təsdiq edir. Milli romantik şairin bu qənaəti – onun şeirdə hissi başlanğıcı əsas hesab etməsi mütaliə etdiyi türk və fransız romantiklərinin təsiri ilə əlaqələndirilir. Müəllif A.Səhhətin «təzə şeir» haqqında mülahizələrinin realizm əleyhinə çevrilmədiyini, burada realist ədəbiyyatın mühüm prinsiplərinə də yer verildiyini sübut edir.

Səhhətin sənət görüşlərini izah edərkən tədqiqatçı onun Nasehə yazdığı mənzum məktubundakı «köhnə şeir»lə mübahisəsini, xüsusilə M.Ə.Sabirə həsr etdiyi məqa-lə və şeirlərindəki fikirlərini daha diqqətlə təhlil etmiş, bunları şairin sənət baxışlarının ümdə məramını ifadə edən nümunələr kimi qiymətləndirmişdir. K.Talıbzadə belə qənaətə gəlir ki, «Səhhət inqilabdan əvvəl Sabir yaradıcı-lığına ən doğru qiymət verən, onun yaradıcılığının təhlili və tədqiqilə xüsusi məşğul olan müəlliflərdəndir. Onun Sabir haqqında məqalələri elmiliyi, dərinliyi, əhatə dərəcəsilə, faktik dəqiqliyi və dürüstlüyü ilə inqilaba qədər eyni mövzuda yazılan məqalələrdən seçilir.»[1]

M.Ə.Sabir şeirini «ədəbiyyatımızda inqilab» adlan-dıran Səhhətin bütövlükdə romantik tənqidin böyük satira ustasını novator sənətkar kimi qəbul etməsini, yüksək qiymətləndirməsini tədqiqatçı olduqca təbii və qanunauy-ğun hesab edir. Çünki, romantik tənqidin təmsilçiləri kimi realist tənqidin nümayəndələri, o cümlədən Sabir də epiqonçu şeirin

əleyhinə çıxış edirdi və bu cəhət hər iki tənqidi istiqaməti vahid bir məqsəd ətrafında birləşdirirdi. Tədqiqatçı Sabirin ədəbiyyata yeni məzmun, yeni ruh gətirməsini, onun yaratdığı böyük sənət məktəbinin ədəbi prosesə güclü təsirini də Səhhəti realist şairlə bağlayan mühüm səbəblərdən biri kimi göstərir və bunu dəlillərlə əsaslandırır.

Monoqrafiyada Səhhətin realizm və satira haqqında fikirləri onun sənət görüşlərinin çox mühüm və qüvvətli bir tərəfi olaraq əsaslandırılır, romantik şairin realizmə müsbət münasibətini şərtləndirən amillərdən bəhs olu- nur. K.Talıbzadə burada Səhhətin «Şair ayinəsidir döv-ranın» tezisinin ədəbi fikrin tarixi təcrübəsindən, yaradıcılıq mübarizələrindən, eyni zamanda real həyatın ehtiyac və tələblərindən doğan nəticə, son qənaət olduğunu sübut edir. K.Talıbzadə Səhhətin realist ədəbiyyat haqqında yük-sək rəyini «ədəbi inkişafın özü ilə, Azərbaycan realizmi- nin öz daxili xüsusiyyətlərilə, XX əsrdə yüksək inkişaf nöqtəsinə çatmış tənqidi realizmin, xüsusən satirik ədə-biyyatın M.Ə.Sabir və C.Məmmədquluzadə kimi nüma-yəndələrinin əldə etdiyi böyük ədəbi qələbələrlə» əlaqə-ləndirir.[2] Müəllif təhlilində belə bir düzgün nəticəyə gəlir ki, Səhhət öz sənət görüşlərində XX əsrin əvvəllərində yeni tarixi inkişaf mərhələsinə qədəm qoyan milli tən-qidin ən mühüm

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s. 376.

[2] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s. 379.

problemlərini əhatə edə bilmlş, çağdaş ədəbiyyatın bir çox nəzəri məsələlərini işıqlandırmışdır.

Monoqrafiyada A.Səhhət yaradıcılığını geniş, hərtə-rəfli tədqiq etməyə çalışan və buna nail olan K.Talıbza-dənin öz tədqiqatını milli romantik şairin sənət görüşlə-rinin təhlili ilə tamamlaması əsərin ümdə elmi məziy-yətlərindən hesab olunmalıdır.

Beləliklə, XX əsr romantik ədəbiyyatının görkəmli nümayəndəsi A.Səhhət haqqında monoqrafiya həm mühüm ədəbi şəxsiyyətlərdən birinin dünyagörüşü, mühiti, bədii-fikri aləmi haqqında aydın təsəvvür yaradılması, həm də ədəbiyyat tariximizin vacib və əhəmiyyətli bir mərhələ- sinin işıqlandırılması baxımından qiymətli bir elmi mə-xəzdir. K.Talıbzadənin «Abbas Səhhət» monoqrafiyası yal-nız fakt, material və mənbə zənginliyi cəhətdən deyil, həm də romantik şairin yaradıcılığına verilən təhlilin ardı-cıllığı və sistemliliyi, konkretliyi və məzmunluluğu ilə, geniş elmi təhlillərdə Səhhətin poetik təkamülünün aydın göstərilməsi ilə diqqəti cəlb edir. Əsərin 1986, 1991-ci illər nəşrlərində müəllif ona bir sıra əhəmiyyətli əlavələr etməklə, xüsusilə şairin şəxsiyyəti barədə ayrıca bəhs etməklə monoqrafiyanın qeyd olunan məziyyətlərini son dərəcə qüvvətləndirməyə müvəffəq olmuşdur.

Əsərin yazıldığı dövrdən başlayaraq onun haqqında ədəbi ictimaiyyətdə yüksək rəy yaranmış, dövrün görkəmli ədəbiyyatcıları nüfuzlu mətbuat səhifələrində, mötəbər elmi tədbirlərdə monoqrafiya barədə müsbət fikirlərini bildir-mişlər. Böyük sənətkarlar və ədəbiyyatşünas alimlər tərə-findən

söylənən bu rəylərdə «Abbas Səhhət» monoq-rafiyasının elmdə mühüm yenilik yaratdığı, əsərin Azər-baycan ədəbiyyatı tarixinə əvəzsiz töhfə olduğu qeyd edilirdi. Əsər hələ 1949-cu ildə namizədlik dissertasiyası kimi müdafiə olunarkən burada çıxış edən görkəmli xalq şairi, Səməd Vurğun deyirdi: «Kamal Talıbzadənin «Abbas Səhhətin həyat və yaradıcılığı» adlı əsəri həqiqətə istinad edildiyi üçün elmdə daxili bir parlaqlıq əmələ gətirmişdir. O, Səhhət haqqında bir sıra məlum olmayan sənəd və faktları üzə çıxara bilmişdir. Kamalın bu əsəri bizi çox sevindirir… Abbas Səhhətin əsərləri bizim şeirimizin ən gözəl incilərindən biri olduğuna görə Talıbzadə Kamalın da bu əsərini biz alqışlayır və onun gözəl bir tədqiqat əsəri olduğunu qeyd edirik.»[1] Görkəmli ədib və tənqidçi, xalq yazıçısı Mehdi Hüseynin rəyi də bu fikrin məntiqi davamı kimi səslənirdi: «Əsərin dili səlisdir ki, bu da dissertasi- yaya xüsusi bir parlaqlıq verir. O, ədəbi hadisələrə çox ayıq və tənqidi yanaşa bilmişdir. Müəllif mövzu seçməkdə də müvəffəq ola bilmişdir. Dissertasiyanın istedadlı bir tənqidçinin əlindən çıxdığına insan inanır. Müəllif əsərdə mütəqabil əlaqələri də düzgün verə bilmişdir».[2] Əsərin elmi yeniliyini yüksək qiymətləndirən, onun ədəbiyyatşünaslığa bəlli olmayan yeni sənədlər, arxiv materialları əsasında yazıldığını qeyd edən görkəmli ədəbiyyatşünas, professor Cəfər Xəndan göstərirdi ki, «Səhhət haqqındakı tədqiqat-larda sənətkarın yaradıcılığı bu vaxta qədər bir tərəfdən izah edildiyi halda dissertant bunu hərtərəfli

---

[1] K. Talıbzadənin şəxsi arxivi, S.Vurğunun müdafiədəki çıxışının mətni, 1949.
[2] Yenə orada, M.Hüseynin müdafiədəki çıxışının mətni, 1949.

şərh etmiş, şairin nəsri, şeiri, publisistikası, dramları, elmi-tənqidi məqalələri, tərcümələri, estetik görüşləri və s. haqqında ətraflı məlumat verməyə calışmışdır.»[1]

Lakin qeyd etmək lazımdır ki, bu rəylərdəki qiymətləndirmə romantizmə məhdud, birtərəfli münasibətin formalaşdığı 40-cı illər ədəbiyyatşünaslığının meyarlarına əsaslanırdı. Həmin marksist-leninçi meyarlara görə A.Səhhətin dünyagörüşü, üslubu ziddiyyətli hesab olunur, şairin «arzusu ilə bacarığı bir-birini tamamlaya bilmirdi». Bu cəhəti əsər haqqında yazılan bütün rəylərdə aydın şəkildə görmək mümkündür. Əgər S. Vurğun klassiklərə mark-sizm-leninizm mövqeyindən yanaşıldığı üçün əsəri ədə-biyyatşünaslığımızda sevindirici hadisə hesab edirdisə, M.Hüseyn «marksizm metodologiyasının sözdə deyil, işdə özünü göstərməsi»ni monoqrafiyanın mühüm elmi mə-ziyyəti kimi qiymətləndirirdi. Professor Əli Sultanlı da həmin mövqedən çıxış edərək tədqiqat əsərinin «öz real elmi və düzgün marksist nəticələri və ümumiləşdirmələri ilə» diqqəti cəlb etdiyini yazır, bunu müəllifin Mərkəzi Komi-tənin məfkurə və incəsənət haqqındakı tarixi qərarını düzgün dərk etməsi və ondan faydalı nəticələr çıxarması ilə əlaqələndirirdi.[2]

Belə qiymətləndirmə üsulu dövrün tələblərinə, sovet tənqidi və estetikasının birtərəfli konsepsiyasına müvafiq idi, məhz bu qiymətləndirmənin sayəsində romantik sənətkar olan

---

1 K.Talıbzadənin şəxsi arxivi, C.Xəndanın dissertasiya haqqında rəyi, 1949.
2 K.Talıbzadənin şəxsi arxivi, Ə.Sultanlının müdafiədəki opponent çıxışının mətni, 1949.

Abbas Səhhətin həyatı və yaradıcılığı haq-qında yazılmış əsər ədəbi həyata vəsiqə aldı, nəinki Səh-hət yaradıcılığına, bütövlükdə Azərbaycan romantizminə bəraət qazandırdı. Ədəbiyyatşünas, professor N.Şəmsizadə K.Talıbzadəyə həsr etdiyi tədqiqat əsərində doğru olaraq göstərirdi ki, «o dövrdə A.Səhhət haqqında yazılmış əsəri ürəklə, hərtərəfli qiymətləndirmək asan iş deyil, cəsarət tələb edən məsələ idi. Ona görə ki, həm 40-50, həm də 60-70-ci illərin meyarlarında marksizm qlafı labüd zərurətə çevrilmişdir»[1] Bu qlaf uzun müddət ədəbiyyatşünaslıqda yanlış təfərrüatların baş alıb getməsinə yol açmış, o cümlədən «Abbas Səhhət» monoqrafiyasının da düzgün mövqedən qiymətləndirilməsinə, onun elmi dəyəri haq-qında obyektiv fikir və mülahizələrin yaranmasına mane olmuşdur.

Nəhayət, əsərin ilk dəfə nəşr edildlyl vaxtdan 40 il ötəndən sonra akademik K.Talıbzadə haqqında yazılmış tədqiqat əsərlərində «Abbas Səhhət» monoqrafiyası öz real, obyektiv qiymətini aldı. Görkəmli tədqiqatcıya həsr etdiyi əsərində tanınmış ədəbiyyatşünas alim, professor. Şamil Salmanov K.Talıbzadənin monoqrafiyasını «həm materialı, həm də tədqiqat ideyası və quruluşu cəhətdən yeni əsər» hesab edir, belə bir elmi qənaətə gəlirdi ki, «bu tipli digər əsərlərlə birlikdə «Abbas Səhhət» əsəri də milli ədəbiy-yatşünaslıqda monoqrafik tədqiqat janrının mövqeyinin möhkəmləndirilməsində mühüm rol oynadı. Onun mühüm tədqiqat istiqaməti və ideyaları XX əsr romantizminin,

---

[1] Şəmsizadə N.Türk təfəkkürü məcrasında, Bakı, Təhsil, 1998, s. 37.

romantik poeziyasının və bədii görüşlər sisteminin son-rakı tədqiqi üçün səmərəli nəzəri və metodoloji bünövrə oldu.»[1]

Əsəri milli romantizmşünaslığın ilk nümunələrindən biri kimi yüksək dəyərləndirən ədəbiyyatşünas alim N.Şəm-sizadə yazır: « «Abbas Səhhət» XX əsrin bir şairi haqqın-da yox, zəngin və ziddiyyətli bir epoxa, onu Azərbaycan tarixinin şərəf və ləyaqət timsalına çevirmiş qüdrətli milli şəxsiyyətlər haqqında kitabdır.»[2]

K.Talıbzadənin bu tədqiqatı həmçinin A.Səhhətin pərakəndə halda olan zəndin yaradıcılıq irsinin toplanıb külliyyat halında nəşr edilməsi baxımından da çox əhə-miyyətli olmuşdur. Milli romantik şairin ədəbiyyata məlum olmayan əsərlərini əldə edən tədqiqatçı, o cümlədən, A.Səh-hətin naməlum satiralarını da aşkara çıxarmış ədəbi icti-maiyyətə təqdim etmişdir. Romantik sənətkarın əsərlərini sistemli şəkildə tərtib edib çapa hazırlayan, müqəddimələr yazan tədqiqatçı şairin «Seçilmiş əsərləri» (1950), ikicildlik «Əsərləri»nin (1975-1976) işıq üzü görməsinə nail olmuş, həmçinin Səhhətin «Şeirləri» (1954), «Seçilmiş şeirləri» (1958) kitablarına ön söz yazmışdır.

K.Talıbzadə «Abbas Səhhət» monoqrafiyası ilə 40- 50-ci illərdə milli ədəbiyyatşünaslığın qarşısında duran mühüm tədqiqat vəzifələrindən birini yerinə yetirmişdir. Bu mühüm vəzifə – ədəbiyyat tarixi nöqteyi-nəzərindən diqqətəlayiq,

---

[1] Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998, s. 38.
[2] Şəmsizadə N. Türk təfəkkürü məcrasında, Bakı, Təhsil, 1998, s. 40.

qüdrətli bir ədəbi şəxsiyyətin qiymətli yaradı-cılıq irsinin ilk dəfə əhatəli şəkildə öyrənilməsi, bununla da milli ədəbiyyatın müəyyən bir mərhələsinin elmi-nəzəri kon-tekstdə araşdırılması, diqqətlə təhlil edilməsi ilə şərtlənir. Monoqrafiyada çağdaş elmin tələblərinə müvafiq olaraq ədəbiyyatşünaslığın milli romantizmi tədqiqinin əsasları, metodoloji konsepsiyası aydın şəkildə öz əksini tapmışdır.

Beləliklə, K.Talıbzadənin bu fundamental tədqiqatı – «Abbas Səhhət» monoqrafiyası müasir Azərbaycan ədəbiyyatşünaslığında həm öz mövzusu, problematikası ilə, həm də XX əsr romantik ədəbiyyatımızın görkəmli nümayəndəsi Abbas Səhhətin çoxcəhətli yaradıcılığının spesifik aləmilə tədqiq olunması baxımından dərin təsir oyatmış, elmin bu istiqamətində gələcək tədqiqatlar üçün möhkəm zəmin yaratmışdır.

# II F Ə S I L
# ƏDƏBI ƏLAQƏLƏRIN YENI IDEYA-ESTETIK KONSEPSIYA ZƏMININDƏ ÖYRƏNILMƏSI
## *2.1. Problemin qoyuluşu, nəzəri əsasları*

Bədii fikrin təcrübəsinə, məntiqi qənaətinə görə ədəbi təsir qarşılıqlı proses olub ədəbiyyatın inkişafı üçün stimul yaradır. Azərbaycan ədəbiyyatı da müxtəlif dövrlərdə dünya xalqlarının mədəniyyəti, ədəbiyyatı ilə qarşılıqlı tə-sirdə olmuş, onun qabaqcıl ənənələrindən bəhrələnərək inkişaf etmişdir. Lakin bu əlaqələrin tarixi əsrin 50-ci illərinə qədər çox zəif öyrənilmiş, ciddi tədqiqatların obyekti olmamışdır. Müharibədən sonrakı dövrdə ədəbiyyatşü-naslığın əsas tədqiqat istiqamətlərindən biri milli ədəbiy-yatlar arasında ədəbi əlaqələr problemi, onun tarixi, inkişaf yolları və nəticələrinin öyrənilməsi olmuşdur. Bu baxımdan həmin dövrün tədqiqatlarında rus ədəbiyyatının klassikləri ilə yaradıcılıq əlaqələri ön plana çəkilir, A.S.Puşkin, M.Y.Lermontov, N.V.Qoqol, L.N.Tolstoy, A.P.Çexov, A.N.Ostrovski və başqa görkəmli rus yazıçıları ilə milli ədəbiyyatın əlaqələrinə həsr edilmiş əsərlər ən mühüm təd-qiqatlar hesab olunurdu. Həmin məqsədlə dövrün görkəmli ədəbiyyatşünasları M.Arif, M.Rəfili, M.Cəfər, C.Cəfərov, F.Qasımzadə, H.Əfəndiyev, Ə.Seyidzadə, H.Mehdi, və b. tədqiqatçılar Azərbaycan-rus ədəbi əlaqələrinin müxtəlif problemlərinə dair məqalələr, əsərlər yazıb dərc etdir-mişdilər. Lakin 50-ci illərdə ədəbiyyatşünaslığın bu mühüm sahəsində aparılan bütün

tədqiqatlarda saxta metodoloji təhlillər, yanlış təfərrüatlar aydın şəkildə nəzərə çarpırdı. Həmin dövrün tədqiqatlarında, hətta 70-ci illərə qədər yazılmış məqalə və monoqrafiyaların demək olar ki, hamı-sında ədəbi əlaqələr problemi obyektiv mövqedən işıq-landırılmayıb, yanlış metodologiya ilə tədqiq edilirdi. Bu illərdə milli ədəbiyyatlar arasında yaradıcılıq əlaqələri «az qala böyük qardaşın kiçik qardaşa təsiri», yəni, rus ədəbiyyatının SSRI tərkibinə daxil olan digər xalqların ədəbiyyatlarına təsiri kimi birtərəfli izah olunurdu. Ədəbiyyatşünas N.Şəmsizadə məsələyə belə münasibəti həmin vaxtlarda elmin, incəsənətin bütün sahələrində olduğu kimi ədəbiyyatda da rus şovinizminin hakimlik prinsiplərinin ön plana keçməsi ilə əlaqələndirirdi. Tədqiqatçı göstərirdi ki, o dövrün ədəbiyyatşünaslığında «…C.Məmmədqu-luzadədən danışanda N.V.Qoqol təsiri, N.B.Vəzirovdan bəhs olunanda A.Ostrovski təsiri, Ə.Haqverdiyevdən söz düşəndə A.P.Çexov təsiri həlledici sayılıb. Halbuki X1X əsrin rus ədəbiyyatı çoxəsrlik şərq ənənələrindən, o cümlədən Azərbaycan ədəbi-bədii fikrinin yaradıcılıq və poetik təcrübəsindən az bəhrələnməmişdir.»[1]

Bu dövrdə xüsusilə milli ədəbiyyatların M.Qorki və Mayakovski ilə əlaqələrinin öyrənilməsi sovet ədəbiyyatının inkişafı, tarixi və yaradıcılıq problemləri baxımından zə-rurətə çevrilmişdi. Həmişə ədəbiyyatşünaslığın əsas istiqa-mətində tədqiqatçılıq fəaliyyətini davam etdirən K.Talıb-zadə bu zərurətdən doğan maraqla «Qorki və Azərbay- can»

---

[1] Şəmsizadə N, Türk təfəkkürü məcrasında, Bakı, Təhsil, 1998, s. 40-41.

mövzusuna müraciət etmişdir. M.Qorki və ədəbi əlaqələr problemindən yazmasının səbəbini müəllifin özü belə izah edirdi: «M. Qorki mövzusuna qədər də Azərbay-can-rus ədəbi əlaqələrinə dair məqalələr yazmışam. 50-ci illərdə ədəbi əlaqələr ədəbiyyatşünaslığın aktual problemi olaraq ön plana keçmişdi. Ümumiyyətlə, məni rus ədə-biyyatına bağlayan A.Səhhət oldu. A.Səhhət rus ədəbiy-yatından 24 şairin əsərini Azərbaycan dilinə tərcümə və təbdil edib. O cümlədən A.Ostrovskinin «Yoxsulluq eyib deyil» pyesini… M.Qorkinin Rusiyaya için-için sevgisi, bu ölkənin içalatını vətəndaş yanğısı ilə açması məni cəlb etdi, M.Qorki Rusiyanın ən milli, şovinist ədibidir. Xüsusilə onun inqilaba qədərki yaradıcılığı məni onun haqqında yazmağa sövq etdi.»[1] Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda görkəmli rus yazıçısının yaradıcılığına hələ inqilabdan xeyli əvvəl ciddi maraq yaranmış, XX əsrin ilk illərində milli mətbuatın səhifələrində, Bakıda çıxan «Kaspi», «Iqbal», «Qudok» və c. qəzetlərdə M.Qorkinin əsərlərindən nümunələr və yaradıcılığı haqqında məqalələr, mülahizələr çap olunmuşdu. A.Şaiq Qorkinin hekayələrinin ana dilimizə tərcüməsi işiylə məşğul olmuş, bu uğurlu tərümələri «Gülzar» adlı dərsliyində Azərbaycan məktəb-lilərinə ərməğan etmişdi. 1900-1903-cü illərdə «Kaspi» və «Bakinskiye izvestiya» qəzetlərində yazıçının «Fırtına quşu haqqında nəğmə», «Xan və oğlu» və s. hekayələri, «Həyatın dibində» və «Meşşanlar» adlı pyeslərinin məzmunu, həm-çinin əsərləri haqqında məqalələr və rəylər

---

[1] Şəmsizadə N. Türk təfəkkürü məcrasında, Bakı, Təhsil, 1998, s. 42.

dərc edilmişdi. Həmin illərdə görkəmli ədəbiyyatşünas və tənqidçi Firi- dun bəy Köçərli bir sıra məqalələrində M.Qorki yaradı-cılığını yüksək qiymətləndirərək onun adını böyük rus klasssikləri ilə yanaşı çəkir (1909), yazıçının «Vassa Je-leznova» pyesi Bakıda tamaşaya qoyulur (1910), əsərin səhnə təcəssümü haqqında «Kaspi», «Bakinskiye izvestiya» qəzetlərində məqalələr dərc edilir, yazıçının əsərlərindən bir neçəsi Azərbaycan dilinə tərcümə olunurdu (1912-1914). Sovet dövründə isə böyük sənətkarın bədii əsərləri, məqalələri, nitqləri müntəzəm olaraq Azərbaycan dilində çap olunur, pyesləri tamaşaya qoyulur, görkəmli yazıçı və ədəbiyyatşünaslarımız tərəfindən Qorkinin həyatını və yaradıcılıq yolunu işıqlandıran bir çox monoqrafiya və elmi məqalələr yazılırdı. XX əsrin tanınmış yazıçı, tərcüməçi və ədəbiyyatşünaslarından A.Şaiq, Ə.Haqverdiyev, C.Cab-barlı, S.Vurğun, Ə.Cavad, M.Arif, M.Rzaquluzadə, Ə.Şərif, C.Məcnunbəyov, Ə.Məmmədxanlı, Q.Qasımzadə, V.Ha-cıoğlu, C.Rzaquluyev, I.Nəfisi, Ş.Abbasov və başqalarının əsərləri Azərbaycan oxucusunda M.Qorki yaradıcılığı haq-qında dolğun təsəvvür yaradırdı. Əsrin 30-cu illərindən başlayaraq rus yazıçısının həyatı və yaradıcılığı barədə monoqrafiyalar və dövri mətbuatda onlarla məqalələr dərc edilmlşdi. Bunlardan M.Rəfilinin «Maksim Qorki» (1932), M.Arifin «Maksim Qorki faşizm əleyhinə mübari-zədə» (1941), Ə.Qəhrəmanovun «Böyük yazıçı A.M.Qorki» (1946), A.Alməmmədovun «Maksim Qorki və Azərbaycan» (1959) və digər kitablarda işıq üzü görən monoqrafiya və tədqiqatları xüsusi qeyd etmək lazımdır. K.Talıbzadə yazıçıyla bağlı öz

monoqrafiyasını yazarkən bu material-ların hamısını diqqətlə araşdırmış, tədqiqatında onlardan yaradıcı şəkildə bəhrələnmişdi. Tədqiqatçının Azərbaycanla bağlı olan rus yazıcılarından məhz Qorki və onun əsər-lərində Azərbaycan həyatı mövzusunu daha mühüm bədii hadisə hesab etməsi isə heç də təsadüfi deyildi. Rus ədəbiyyatının görkəmli nümayəndələrindən yalnız M.Qor- ki Azərbaycanla sıx-sıx əlaqə saxlamış, dəfələrlə burada olmuş, Azərbaycan, Bakı haqqında bir sıra əsərlər yazmışdı. Tədqiqatçını Qorki mövzusuna cəlb edən ümdə cəhət- lərdən biri də yazıçının proletar ədəbiyyatının banisi olması, inqilabçı yazıçı kimi tanınması ilə bağlı idi.

«Qorki və milli ədəbiyyatlar» mövzusuna qədər də K.Talıbzadənin ədəbi əlaqələrin tədqiqi sahəsində müəyyən təcrübəsi vardı. O, rus ədəbiyyatı ilə yaradıcılıq əlaqələrinə həsr etdiyi «A.N.Ostrovski və Səhhət», «Qoqol və Azər-baycan ədəbiyyatı», «Qoqol realizmi və Azərbaycan ədə-biyyatının klassikləri», «Böyük rus yazıçısı» (L.N.Tolstoy haqqında – T.R.) və s. məqalələrini yazıb dərc etdir- mişdi. K.Talıbzadənin M.Qorkiylə bağlı yeni tədqiqatı isə onun ədəbi əlaqələr tarixinin öyrənilməsi prosesində ciddi fəaliyyətinə səbəb oldu. Tədqiqatçı «Qorki və Azərbaycan» mövzusunu Azərbaycan-rus ədəbi əlaqələrinin konkret sahələrindən biri kimi diqqətlə araşdırmağa başladı. Qeyd etmək lazımdır ki, müharibədən sonrakı dövrdə M.Qorki və SSRI xalqları ədəbiyyatı ədəbiyyatşünaslığın ən aktual mövzularından biri idi. Həmin dövrdə Azərbaycan ədəbiy-yatşünaslığında da bu mühüm mövzuya həsr olunmuş məqalələr yazılmışdı. Bu

tədqiqatlardan M.Arif, H.Əfən-diyev, M.C.Cəfərov, M.Rəfili, M.C.Paşayev, C.Cəfərov, Ə.Mirəhmədov, Ə.Ağayev, H.Orucəli kimi tanınmış ədə-biyyatşünas və tənqidçilərin Qorki haqqında əsərlərini dəyərli nümunələr kimi göstərmək olar. Azərbaycan tən-qidində ilk dəfə bu mövzuya toxunan görkəmli tənqidçi M.Arif «Maksim Qorki və Azərbaycan ədəbiyyatı» (1947), «Azərbaycan ədəbiyyatında Qorki ənənələri» (1949) adlı məqalələrində bu geniş mövzunun mühüm cəhətlərinə diqqət yetirir, milli ədəbiyyatımızın inqilabi ideyalarla zəngin olan yeni inkişaf mərhələsini M.Qorkinin adı ilə bağlayırdı. K.Talıbzadə isə bu mövzunu daha zəngin ədəbi-tarixi sənəd və materiallar əsasında araşdırır, tamamilə yeni istiqamətdə tədqiq edir, orijinal, özünəməxsus bir tərzdə təhlil süzgəcindən keçirirdi. Tanınmış ədəbiyyat-şünas alim professor Ş.Salmanovun qeyd etdiyi kimi, əgər M.Arif bu ədəbi əlaqələrin əsas tərəflərini və formalarını bir «eskiz halında müəyyənləşdirmiş»disə, K.Talıbzadə 50-ci illərdə yazdığı məqalələrində «bu eskizi daha da genişləndirir və tamamlayırdı.[1]» «M. Qorki və Azərbaycan ədəbiyyatı», «Azərbaycan Qorki yaradıcı-lığında», «M. Qorki inqilaba qədərki Azərbaycan mətbua-tında», «M. Qorki sosialist realizminin bəzi məsələləri haqqında», «Bir daha Qorki ənənələri haqqında» və s. məqalələrində tədqi-qatçının mövzunu daha geniş və əhatəli araşdırmaq cəhdi aydın şəkildə nəzərə çarpırdı. 50-ci illərin sonunda K.Talıb-zadə «Qorki və Azərbaycan» monoqrafiyasını tamamlayıb nəşr

---

[1] Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998, s. 44.

etdirdi. Əsər 1959-cu ildə Azərbaycan, 1970-ci ildə isə rus dilində işıq üzü gördü. Qeyd etmək lazımdır ki, M.Qorki və milli ədəbiyyatlar problemi nəinki 50-ci illərdə, eləcə də sonrakı onilliklərdə – 70-80-ci illərin tədqiqat-larında ədəbiyyatşünaslığın ən aktual, ən mühüm mövzu-larından biri kimi ciddi surətdə öyrənilirdi. Bu məsələyə həsr olunmuş konseptual monoqrafiyalar keçmiş SSRI miqyasında tanınır, böyük ədəbi müzakirələrin obyektinə çevrilirdi. Azərbaycan ədəbiyyatşünaslığında da bu möv-zuda iki böyük tədqiqat əsəri yazılmışdı. Həmin əsərlər- dən biri A.Alməmmədovun «Maksim Qorki və Azərbaycan ədəbiyyatı» mövzusunda namizədlik dissertasiyası, digəri isə K.Talıbzadənin haqqında bəhs açdığımız monoqra-fiyasıdır. K.Talıbzadənin tədqiqatında fərqli cəhət budur ki, müəllif o dövrkü hakim ideologiyanın diktəsinə baxma-yaraq yalnız Qorkinin Azərbaycan ədəbiyyatına təsirini izhar etmir, əksinə ədəbi təsirin qarşılıqlı proses olduğunu sübut etməklə milli ədəbiyyatımızın mənafeyini qoruyurdu. Ədəbi əlaqələr elmini ehkamçılıqdan, səthi faktçılıqdan xilas edib yeni elmi məcraya salan bu konseptual mo-noqrafiyada «Azərbaycan Qorki xətrinə deyil, Qorki Azər-baycan naminə araşdırılırdı.»[1]

K.Talıbzadəyə qədər Qorki ilə yaradıcılıq əlaqəsi problemini tədqiq edən müəlliflərin hamısı bu əlaqələrin milli ədəbiyyatlarda inqilabi ideya-yaradıcılıq prinsiplə-rinin, yəni sosialist realizminin təşəkkülü ilə əlaqədar tərəfinə xüsusi diqqət yetirmiş, məsələnin bu istiqamətdə təhlilinə ciddi

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1, s. 9.

əhəmiyyət vermişdilər. Azərbaycan ədəbiy-yatşünasları da tədqiqatlarında problemi bu aspektdə araş-dırmış, buna görə də Qorki və Azərbaycan mövzusunu düzgün metodoloji mövqedən işıqlandıra bilməmişdilər. H.Əfəndiyev bir sıra məqalələrində realizmin yeni, tarixi tipi kimi başa düşülən sosialist realizminin Qorki yaradıcı-lığında təşəkkülündən geniş şəkildə bəhs edirdi. M.Arif isə tədqiqatında tənqidi, satirik xarakter daşıyan inqilaba qədərki milli realizmin yeni dövrdə keyfiyyətcə dəyi-şilməsinə ciddi ehtiyac duyulduğunu, Qorki əsərlərinin bu ehtiyacdan yarandığını qeyd edirdi. Görkəmli tənqidçi burada sosialist realizminin yaranması, onun mahiyyətinin Azərbaycan bədii fikrində necə anlaşılması haqqında ya-zırdı: «Azərbaycan sovet yazıçıları üçün sosialist rea-lizmi sovet gerçəkliyinin yeni, müsbət faktlarını, yeni ictimai münasibətləri, yeni adamları görə və təcəssüm edə bilmək bacarığından ibarət idi. Qorkinin özü öz yara-dıcılığında bu keyfiyyətlərə böyük əhəmiyyət verirdi.»[1] M.Arifdən sonrakı tədqiqatlar da bu metodoloji təlimə əsaslanırdı. K.Talıbzadə isə monoqrafiyasında onu yeni metodoloji təhlili ilə davam etdirərək bu müddəanı daha da genişləndirir, həmçinin Azərbaycan ədəbiyyatında Qorki ilə əlaqələrin romantizmlə bağlı tərəflərinə də xüsusi diqqət yetirirdi.

Görkəmli alim tədqiqatında yalnız Qorkinin Azərbay-can ədəbiyyatına, bədii fikrinə təsirini deyil, bütövlükdə Qorkinin Azərbaycanla, milli ədəbiyyatımızla əlaqələrini öyrənirdi.

---

[1] Arif M. Sənətkar qocalmır, Bakı, Yazıçı, 1980, s. 25.

Əsərin «Qorki və Azərbaycan» adlandırılması da tədqiqatın mövzusundan, problematikasından irəli gəlmişdir. Qorkinin həyat və yaradıcılığının Azərbaycan mətbuatında işıqlandırılması, yazıçının əsərlərində Azər-baycan həyatının təsviri, Qorki əsərlərinin dilimizə tər-cüməsi və yayılması, pyeslərinin milli teatrda səhnə tə-cəssümü, Azərbaycan ədəbiyyatında Qorki ənənələrinin təzahürü və onun yeni yaradıcılıq prinsiplərinin forma-laşmasında rolu monoqrafiyanın əsas mündəricəsini təş-kil edir. Monoqrafiyada bu sahələr Qorkinin Azərbay- canla əlaqəsi fonunda tədqiq olunur, o dövrkü milli ədəbiyyatın məfkurə istiqamətilə, həll etdiyi əsas ictimai problemlərlə Qorki yaradıcılığı arasındakı yaxın və ümumi cəhətlər aydınlaşdırılırdı. Yazıçının Azərbaycan ədəbiyyatı ilə yaradıcılıq ünsiyyətinin dərin qatlarına diqqəti cəlb edən K.Talıbzadə bu əlaqələrin hərtərəfli tədqiqinə nail olur, zəngin material və sənədlərə istinad edərək Qorki və Azərbaycan ədəbiyyatının münasibətləri haqqında ədəbi-tarixi konsepsiyanı daha da genişləndirir və dərinləş- dirirdi. Müəllif mövzuya dair material və sənədləri bütün-lükdə araşdırır, diqqətlə təhlil edir, dövrün Azərbaycan- rus ədəbi əlaqələri haqqında konkret, aydın təsəvvür yaradırdı. Xüsusi qeyd olunmalıdır ki, bu əlaqələrin 20-ci illərdən sonrakı inkişafı da müəllifin tədqiqat istiqamətində başlıca yeri tutur. Tədqiqatçı əsərində XX əsr Azərbaycan ədəbi-nəzəri və ictimai fikrinin geniş bir dövrünü – otuz illik mərhələsini əhatə etmiş, iki müxtəlif epoxanın ədəbi-tarixi kəsişməsində baş verən ziddiyyətli prosesləri diqqətlə araşdırmışdır.

K.Talıbzadənin «Qorki və Azərbaycan» monoqrafiyasında belə bir fikir təməl metodoloji müddəanı təşkil edirdi ki, başqa ədəbiyyatlarla əlaqə, qarşılıqlı mübadilə və hətta təsirlənmə milli ədəbiyyatın zəiflik əlaməti yox, dinamik inkişaf əlamətidir. Yəni milli ədəbiyyat qapalı, yalnız öz çərçivəsində inkişaf edə bilməz, milli ədəbiyyatın gücü onun qeyri-milli ədəbiyyatlarla, inkişaf etmiş ədə-biyyatlarla yaradıcılıq ünsiyyətinin dərinliyində və çox-cəhətliliyindədir. Görkəmli tədqiqatçının Azərbaycan-rus ədəbi əlaqələrinə həsr edilmiş əsərində Qorki yaradıcılığının milli ədəbiyyatımıza təsiri problemi məhz bu şəkildə qoyulur və həll edilirdi.

### *2.2. «Qorki və Azərbaycan» monoqrafiyası, onun milli ədəbiyyatşünaslığın tarixində yeri*

Milli ədəbiyyatşünaslıqda ədəbi əlaqələrin tarixinin, inkişaf yollarının, nəticələrinin öyrənilməsi istiqamətində K.Talıbzadənin «Qorki və Azərbaycan» monoqrafiyası mühüm tədqiqatlardan biri hesab olunur. Bu mövzuda əvvəlki tədqiqatlardan fərqli olaraq müəllifin əsəri külli miqdarda istifadə olunmamış, elmə tanış olmayan zəngin fakt, material və sənədlər əsasında yazılmışdır. Əsas etibarilə XX əsrin əvvəllərinə aid olan bu material və sənədləri araşdırarkən K.Talıbzadə yalnız rus yazıçısının yaradıcılığı, onun milli ədəbiyyatda yaradıcılıq ənənələri haqqında məlumat verməyi deyil, bütövlükdə Qorkini Azərbaycana bağlayan tərəfləri tədqiq etməyi qarşısına məqsəd qoyurdu. O, öz tədqiqatında göstərirdi ki, bu geniş və hərtərəfli mövzu Qorki təsirinin Azərbaycan bədii fikrinə hansı yollarla və necə gəldiyini, onun nəti-cələrini izah etməklə məhdudlaşa bilməz; eyni zamanda burada yazıçını Azərbaycana cəlb edən faktlar, milli mədə-niyyətin ona təsir edən amilləri də diqqətlə araşdırılıb üzə çıxarılmalıdır. Tədqiqatçı Qorkinin Azərbaycan gerçək-liyinə marağını geniş ədəbi-tarixi planda nəzərdən keçirir, monoqrafiyasında bu əlaqələrin bütün tərəflərini işıqlan-dırırdı. Müəllif belə hesab edirdi ki, ədəbi əlaqə ilk növbədə ideya təsirindən başlanır, getdikcə öz çərçivəsini geniş-ləndirir, sənətin formaca inkişafına səbəb olur. O, rus ədəbiyyatı klassiklərinin, eyni zamanda Qorkinin milli bədii fikrə təsirini də həmin aspektdə araşdırır, bu ədə-bi əlaqələrin

keçdiyi inkişaf yoluna nəzər salırdı. Ədəbi təsir, onun hədləri, forma və yolları haqqında müəllifin elmi-nəzəri görüşləri əvvəlcə əsərin «Giriş» bölməsində öz əksini tapır. Tədqiqatçı burada qabaqcıl milli yazıçıları- mızı çoxdan məşğul edən Rusiya-Azərbaycan ədəbi əla-qələrinin öyrənilməsi tarixini, ədəbiyyatşünas və tənqid-çilərimizin bu sahədə fəaliyyətini nəzərdən keçirir, ədəbi təsirin zərurəti, ictimai-estetik əhəmiyyəti barədə yığcam məlumat verir.

M.Qorkinin inqilabdan əvvəlki Azərbaycanla münasibətləri, hər cür ədəbi-mədəni və şəxsi əlaqələri monoqrafiyanın «Qorki inqilaba qədərki Azərbaycan mətbuatında» adlanan ilk fəslində təhlil edilmişdir. Burada yazıçının əsərlərinin milli mətbuatımızda nəşri tarixi, Qorkiyə dair azərbaycanca ilk mənbə və məxəzlər haqqında ayrıca bəhs edilir, rus yazıçısını Bakı ilə bağlayan münasibətlər diqqətlə araşdırılırdı. Azərbaycan mətbuatında Qorki haqqında dərc olunan bütün materiallar ilk dəfə olaraq sistemli şəkildə nəzərdən keçirilir, Qorki yaradıcılığının öyrənilməsində milli mətbuatın əhəmiyyətli rolu müəyyənləşdirilirdi. Lakin XX əsrin əvvəllərində nəşr olunan «Kaspi», «Şərqi-Rus», «Baku», «Bakinskiye izvestiya» kimi qəzetlərin səhifələ-rində Qorki haqqında dərc edilmiş fikir və rəylərin nəzərdən keçirildiyi məqamlarda müəyyən metodoloji qüsurlar nəzərə çarpır. K.Talıbzadə yazırdı: «Burjua mətbuatında çap olunan məqalələrin çoxunda Qorkinin yaradıcılığı təhrif olunur, ona böhtanlar atılır, ədibin inqilabi fikirlərinin yayılmasına hər vasitə ilə maneçilik göstərilirdi. Burjua tənqidi müxtəlif yollarla Qorki yaradıcılığının qüdrətini pərdələməyə, onu fəhlə

sinfindən uzaqlaşdırmağa, burjua-ziyanın bədii məfkurəvi cəbhəsinə yaxınlaşdırmağa can atırdı… Burjua jurnalisti Əhmədbəy Ağayevin Qorki haq-qında yazdığı iki məqaləsi buna yaxşı misaldır.»[1] Bu metodoloji sapıntılar, yanlış təfərrüatlar dövrün sosioloji ideologiyasına uyğun olaraq həm K.Talıbzadənin görüş-lərindəki, həm də 50-ci illər ədəbiyyatşünaslığındakı zid-diyyətlərdən irəli gəlirdi. Həmin ziddiyyətləri görən və K.Talıbzadəyə həsr etdiyi tədqiqat əsərində düzgün qiy-mətləndirməyə çalışan ədəbiyyatşünas N.Şəmsizadə doğru olaraq bu sapıntıları 50-ci illərin sırf marksist-leninçi, vul-qar sosioloji meyarları ilə əlaqələndirir.[2]

K.Talıbzadə təhlilində bu dövrün milli mətbuat və tənqidini iki əks cəbhəyə – burjua və proletar qollarına ayırırdı. Burada türkçülüyü və islamçılığı, milli-mənəvi ideya və dəyərləri təbliğ edən qəzetlər – burjua, Azər-baycanda işğalçı rus-bolşevik siyasəti yeridən, xalqı öz soy-kökündən, bütün milli-mənəvi sərvətlərindən uzaqlaşdır-maq məqsədinə xidmət edən qəzetlər isə – proletar mət-buatı adı altında təhlil olunurdu. Tədqiqatçı göstərirdi ki, bolşevik mətbuatı istisna olmaqla XX əsrin əvvəllərində, yəni 1900-1905-ci illərdə Azərbaycanda demokratik mətbuat olmamışdır. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin – H.Zərdabi, N.Nərimanov, F.Köçərli, N.Vəzirov, C.Məmmədquluzadə kimi

---

[1] Talıbzadə K. Qorki və Azərbaycan, Bakı, Azərb. EA nəşr., 1959, s. 33-34.

[2] Şəmsizadə N. Türk təfəkkürü məcrasında, Bakı, Təhsil, 1998, s. 43-44.

böyük sənətkarların, mədəniyyət xadimlərinin əsərlərinin dərc olunduğu «Kaspi», «Baku», «Bakinskiye izvestiya», «Şərqi-Rus» kimi qəzet- lər haqqında K.Talıbzadə daha kəskin yazırdı: «Bu qəzet-lərin səhifələrində bəzən köhnə mürtəce adət-ənənələri, patriarxal həyat tərzini qamçılayan, dünya xalqlarının mədəni nailiyyətlərini təbliğ edən yazıların çap olunmasına baxmayaraq, bunlar ictimai-siyasi hadisələrə əsasən burjua-mülkədar sinfi cəbhəsindən yanaşır, zülm və istismar, haqsızlıq və zorakılıq quruluşuna bəraət qazandırmağa çalışırdı.»[1] K.Talıbzadənin qənaətinə görə, Azərbaycanda məfkurəvi ixtilafları düzgün həll edən, eyni zamanda M.Qorkinin yaradıcılığını da tamamilə obyektiv qiymət-ləndirən yalnız bolşevik mətbuatıdır; bunun əksinə olaraq burjua mətbuatı isə yazıçını hər addımda nüfuzdan salmağa cəhd göstərir, onun əsərlərinin əsl mahiyyətini xalqdan gizlətməyə çalışır. Lakin haqqında belə kəskin ittihamlar irəli sürülən, yanlış mülahizələr söylənən burjua qəzetləri Ə.Hüseynzadə, Ə.Topçubaşov, Ə.Ağayev (Ağaoğlu) kimi millət fədaisi olan ziyalıların başçılıq etdiyi mətbuat idi. 50-ci illərdə bu görkəmli şəxsiyyətlərin adlarına son də- rəcə ehtiyatla yanaşılır, onların yaradıcılıq irsləri və ədəbi görüşləri «burjua» adı altında nəzərdən keçirilirdi. Məhz bu cəhətdən həmin milli şəxsiyyətlərin, XX əsr Azərbay- can mədəniyyətinin görkəmli mədəniyyət xadimlərinin fəaliyyətləri 50-ci illərin tədqiqatlarında düzgün meto- doloji mövqedən işıqlandırılmamışdır. K.Talıbzadə də tə- bii olaraq tədqiqatında

---

[1] Talıbzadə K. Qorki və Azərbaycan, Bakı, Azərb. EA nəşr., 1959,

həmin meyardan çıxış edir, bir sıra məqalələrində «Həyatın dibində» əsərinin ideyasını islam dini ilə əlaqələndirdiyinə görə Əhmədbəy Ağayevi Qorki yaradıcılığını düzgün qiymətləndirməyən burjua jurnalisti kimi təqdim edirdi. Tədqiqatçı yazırdı: «Əh-mədbəy Ağayev XX əsr rus inqilabi həyatının tərən-nümçüsü Qorkinin yaradıcılığını, görüşlərini islam dinilə bağlarkən burjua rus tənqidinin yolu ilə gedirdi… O za- man məhkum siniflər tərəfindən rəğbətlə qarşılanan «Hə-yatın dibində» pyesinə burjua tənqidçilərinin bu qədər «diqqət» yetirmələri, onun əsl ideya istiqamətini ört-bas- dır etmək üçün canfəşanlıq göstərmələri, qəzet səhifələ- rini müxtəlif cür cəfəngiyyatla doldurmaları səbəbsiz de-yildi. Bunun əsl səbəbi o idi ki, məhkumluq və ətalətə qarşı çevrilmiş olan «Həyatın dibində» pyesi proletariatın ka-pitalizm quruluşuna qarşı apardığı mübarizəyə xidmət edirdi.»[1] K.Talıbzadənin bu qənaəti Ə.Ağayevin «Qorki və müsəlmanlıq» məqaləsinin təhlili əsasında gəldiyi nəticə idi. Lakin 80-ci illərin sonunda tədqiqatçı «Əhməd Ağaoğ-lu və «Rus ədəbiyyatının ümumi səciyyələri» əsəri» adlı məqaləsində bu görkəmli Azərbaycan ziyalısının Qorki-nin «Həyatın dibində» pyesinin əsas ideyasını islam dini ilə bağlamasının səbəblərini daha obyektiv şəkildə izah edirdi. O, göstərirdi ki, «islamda və panislamizdə Əhməd-bəyin ümumi məqsədləri ilə uyğun gələn ideyalar çox idi… Panislamizmin müsəlman torpaqlarının müstəmləkə zül-mündən azad olması, müsəlman xalqlarının birləşərək im-perializmə qarşı mübarizəsi kimi müddəaları

---

s. 24.

Əhmədbəyin siyasi məqsədləri ilə uyğun gəlirdi. Rusiya müsəlmanla- rının taleyinin həllində o, panislamizdən bu mənada da faydalanmaq istəyirdi.»[2]

K.Talıbzadə Ə.Ağaoğlunun bədii əsərlərdə islamın təsirini axtarmasını, o cümlədən «Qorki və müsəlmanlıq», «Qorkinin «Həyatın dibində» pyesində tatar Asan» adlı məqalələrində irəli sürdüyü fikir və mülahizələri, gəldiyi qənaətləri bu milli ideyalarla əlaqələndirirdi. Tədqiqatçı Ə.Ağayevə həsr etdiyi məqaləsində onun bütövlükdə milli ədəbiyyatımızın inkişafı istiqamətində gördüyü işləri yüksək dəyərləndirir, görkəmli tənqidçi və ədəbiyyatşünasın ədəbi-tarixi mövqeyini düzgün müəyyənləşdirirdi.

Zənnimizcə, «Qorki və Azərbaycan» monoqrafiya-sında Stepan Şaumyanın «Sovremennaya jizn» jurnalında dərc olunan «Qorki haqqında» məqaləsinin təhlil edildiyi məqamlar da tədqiqatın metodoloji qüsurunu qabarıq şəkildə göstərir. Burada müəllif S.Şaumyanın məqaləsini Qorki yaradıcılığının həqiqi mənasını geniş kütləyə çat-dıran, onun proletar hərəkatı üçün əhəmiyyətini düzgün qiymətləndirən əsər kimi təqdir edir. Qeyd etmək lazımdır ki, bu qənaəti yaradan dövrün hakim ideoloji təsiri tədqiqatçını özünün də inanmadığı «həqiqəti» deməyə sövq etmişdir. K.Talıbzadənin sonrakı etiraflarından bi-rində oxuyuruq: «yeni nəslin (yəni K.Talıbzadənin mən-sub olduğu nəslin – T.R.) fikrən, mənən şikəst «inkişafı» üçün

---

[1] Talıbzadə K. Qorki və Azərbaycan, Bakı, Azərb. EA nəşr., 1959, s.34-35.
[2] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c. 11, 1994, s. 322.

hər cür şərait – məcburi şərait yaranmışdı; itaət- karlıq, fikri köləlik, həqiqəti demək həsrəti, nəhayət bəzən də özün inanmadığın «həqiqətləri» demək məcburiyyəti və Marksın, Leninin, Stalinin sitatları ilə düşünmək isə beyinlərimizi, mühakimələrimizi kütləşdirmiş, yaradıcı tə-fəkkürü bir növ öldürmüşdü. Bizim nəsil təxminən 40 il belə şəraitdə yazıb-yaratmış və əgər o, öz mənliyini, özü-nəməxsusluqlarını müəyyən dərəcə qoruya bilibsə, şübhə-siz, bu onun istedadı, fədakarlığı, qorxmazlığı, vətəndaş- lığı hesabına baş vermişdir.»[1] Lakin inqilaba qədərki mil- li mətbuatın təhlilində tədqiqatçının bir sıra bu kimi məqamlarla bağlı yol verdiyi yanlışlıqlara baxmayaraq əsərin bu fəsli Qorkinin Azərbaycan ədəbiyyatı və mədə-niyyəti ilə yaradıcılıq əlaqələrinə dair müəllifin gələcək nəzəri nəticələri üçün zəmin hazırlayırdı.

Monoqrafiyanın yüksək elmi məziyyətlərindən biri də ədəbi təsir prosesində təsirin qarşılıqlı olması prinsi- pinə tədqiqatçının ciddi şəkildə diqqət yetirməsində idi. Azərbaycan ədəbiyyatı M.Qorkidən təsirlənməklə yanaşı, rus yazıçısının özü də bu ədəbiyyatdan müəyyən dərəcə- də öyrənmişdi. K.Talıbzadə monoqrafiyanın «Azərbay- can Qorki yaradıcılığında» adlanan ikinci fəslində bu müddəanı geniş şəkildə əsaslandırır. Yazıçının Azərbaycan xalqı, onun adət və ənənələri, şifahi xalq yaradıcılığı, məişət tərzi haqqında fikirlərini burada diqqətlə nəzərdən keçirir, Qorkinin əsərlərində Azərbaycan və Zaqafqaziya həyatı, Şərq

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c. 1,

mövzusunun konkret təzahür və faktları diqqətlə təh-lil edilirdi. Tədqiqatçı rus yazıçısının hələ Tiflisdə yaşa-yarkən Azərbaycana olan marağı və Bakı səfərlərinin təəssüratları nəticəsində yazdığı əsərlərindən söz açır, Qorkinin təsirləndiyi səhnələrə xüsusi nəzər yetirirdi. K.Talıbzadə yazıçının «Xəzər dənizi üzərində yelkənli gəmidə» adlı natamam hekayəsi, «Sovetlər ittifaqında» kitabındakı «Bakı» oçerki, «Qafqaz hadisələri haqqında», «Qafqazda qaçaqlar», «Dəniz kənarında» və «Üzügülər» hekayələrindən gətirilən nümunələrlə Bakı müşahidələ-rinin, Azərbaycan xalqının həyatına, tarixinə, folkloruna, ənənələrinə aid xüsusiyyətlərin Qorki əsərlərinin yaran-masında konkret rolunu müəyyənləşdirirdi.

Qafqaza bir neçə dəfə səfər etmiş M.Qorkinin Azər-baycan təəssüratının müəyyən hissəsi «Qafqazda qaçaqlar» adlı silsilə oçerklərində verilmişdir. K.Talıbzadə Qorkinin bu oçerklərin qəhrəmanlarından biri olan azərbaycanlı Qaçaq Kərəmin fəaliyyəti haqqında dürüst məlumatı olduğunu və oxucuda onun şəxsiyyəti haqqında dəqiq təsəvvür yaratdığını bildirirdi. O, yeni tarixi sənədlərə əsasən Qorkinin oçerkindəki Qara Nəbi obrazının şəx-siyyətini müəyyənləşdirir, yazıçının əsərində quldur kimi təsvir edilmiş Qara Nəbini Qaçaq Nəbi hesab edən təd-qiqatçıların səhvini düzəldirdi. Qorkinin Azərbaycanla bağlı bir sıra hekayələrini təhlil edərkən müəllif yazıçının Bakı- da müşahidə etdiyi canlı əmək səhnələri ilə onun «Ana» romanındakı bütöv bədii təsvirlər arasında

---

1991, s. 3.

uyğunluqlar görürdü. Həmçinin «Meşşanlar», «Düşmənlər» əsərlərinin yazılmasında bu səhnələrin müəyyən dərəcədə rol oyna-dığını, Bakı müşahidələrinin ədibin gələcək yaradıcılığı üçün ciddi həyat materialı verdiyini əsaslandırırdı. K.Talıbzadəni Qorki ilə əlaqələrin məhz bu tərəfi, yazıçının Azərbaycanla çoxcəhətli şəkildə bağlılığı daha çox cəlb edir, alimə tədqiqatını genişləndirmək və dərinləşdirmək imkanı verirdi.

«Qorki Sovet Bakısında» adlandırdığı üçüncü fəsildə isə K.Talıbzadə tədqiqatını daha mühüm istiqamətə yö-nəldərək yazıçının səfər zamanı Bakı Sovetinin plenumunda və Azərbaycan yazıçıları ilə görüşündəki nitqlərinə diqqət yetirmişdir. Milli ədəbiyyatımızda yeni ideya-yaradıcılıq prinsiplərinin təşəkkülündə bu nitqlərin əhəmiyyətini yük-sək qiymətləndirən tədqiqatçı göstərirdi ki, Qorki həmin çıxışlarında sosialist realizminin ən mühüm məsələlərinə toxunub, onları əsaslandırmaqla Azərbaycan ədəbiyyatının yeni istiqamətdə inkişafı üçün zəmin hazırladı.

Zənn edirik ki, müəllif «Azərbaycan Qorki yaradıcılığında» və «Qorki sovet Bakısında» adlanan fəsilləri birləşdirib rus yazıçısının yaradıcılığında Azərbaycan mövzusundan bir yerdə bəhs etsəydi, bu tədqiqatın məqsədini daha dəqiq ehtiva etmiş olardı.

Sonrakı mərhələdə yazıçının Azərbaycanla yaradıcı- lıq əlaqələrinin daha konkret təzahürü olaraq milli mət-buatda M.Qorki əsərlərinin Azərbaycan dilinə tərcüməsi və onların milli mətbuatda dərc edilməsi, bu tərcümələrin ədəbiyyatımıza təsiri, onun inkişafında rolu kimi məsələlər araşdırılırdı. Bu

məqsədlə ilk tərcümələri diqqətlə nəzər- dən keçirən K.Talıbzadə Qorkinin bədii əsərləri və pub- lisist məqalələrinin tərcüməsində Azərbaycan yazıçılarının əvəzsiz xidmətləri haqqında yazırdı: «Çox lazımlı və fay-dalı olan bu işi 1920-ci illərdə artıq müəyyən yaradıcılıq təcrübəsinə malik Ə.Haqverdiyev, Abdulla Şaiq, C.Cab-barlı kimi milli yazıçılar yerinə yetirməyə başladılar. In-qilabdan əvvəl zəif şəkildə başlanan tərcümə işini bu görkəmli ədiblər davam etdirərək Qorkinin bədii əsərlərini Azərbaycan oxucularına çatdırmaqda ilk addımlarını atdılar.»[1] K.Talıbzadə yazıçının «Şahin nəğməsi», «Izergil qarı», «Arxip baba və Lyonka», «Makar Çudra», «Çelkaş», və s. əsərlərinin uğurlu tərcümələrilə yanaşı «Həyatın di-bində» (Əsər o vaxt «Yurdsuz insanlar» adı ilə tərcümə edilmişdi – T.R.) və «Foma Qordeyev» kimi qüsurlu tərcümələrdən də bəhs açırdı. Qorki irsinin nisbətən daha çox tərcümə olunduğu 1928-1930-cu illəri nəzərdən keçi-rərkən tədqiqatçı Ə.Haqverdiyevin Qorki əsərlərinin tərcü-məsi işində iştirakı və rolunu xüsusilə fərqləndirmişdir. K.Talıbzadə görkəmli ədibin tərcümələrinin müvəffəqiy-yətini isə onun proletar yazıçısının yaradıcılığına dərin məhəbbət, rəğbət bəsləməsi, Qorki əsərlərinin mahiyyətini, əsas məğzini doğru dərk etməsi və dəyərləndirməsi ilə izah edirdi. Rus yazıçısının əsərlərinin tərcüməsi sahəsində Ə.Haqverdiyevlə yanaşı A.Şaiq, C.Cabbarlı, S.Vurğun, M.Arif, Ə.Cavad, M.Rzaquluzadə, Ə.Şərif, Ə.Məmməd-xanlı, H.Nəzərli, M.Rəfili, C.Cəfərov,

---

[1] Talıbzadə K. Qorki və Azərbaycan, Bakı, Azərb. SSR EA nəşr., 1959,

I.Nəfisi, C.Məc-nunbəyov və başqa yazıçı, ədəbiyyatşünas və tənqidçilərin xidmətlərini yüksək qiymətləndirən tədqiqatçı Qorki tə-sirinin Azərbaycan ədəbiyyatına məhz bu tərcümələr vasitəsilə gəldiyini, milli yazıçılar tərəfindən sosialist realizmi prinsiplərinin dərki və mənimsənilməsi üçün geniş imkanlar yarandığını xüsusi vurğulayırdı. O, 40-cı illərin tərcümələrini də bu baxımdan faydalı hesab edir, göstərirdi ki, həmin dövrdə milli mətbuatda yazıçının kitablarından başqa onun ədəbiyyatın qarşısında duran vəzifələrdən, məqsəd və məfkurə istiqamətindən, ayrı-ayrı klassik yazıçıların yaradıcılığına həsr olunmuş yüzlərlə məqalə və pamfletləri, məruzə və nitqləri, məktub və tövsiyyələri nəşr olunmuşdur. K.Talıbzadə Azərbaycan oxucularının M.Qorkini tanıması, sevməsi, eləcə də yazı-çının ənənələrinin milli ədəbiyyatda təbliği baxımından bu nümunələri qənaətbəxş hesab edirdi. Tədqiqatçı rus yazıçısının əsərlərinin məfkurəsini, ideya-bədii qayəsini, onun ədəbi-tənqidi görüşlərini, realizmin yeni mərhələsi haqqında mülahizələrini milli yazıçılara çatdırmaq işində tənqidçi və ədəbiyyatşünaslarımızın xidmətlərini də yük- sək dəyərləndirir, Qorki ənənələrinin təbliğində, yayılma-sında onların əhəmiyyətli rolunu göstərirdi. Lakin zənn edirik ki, monoqrafiyada bədii fikrimizin inkişafında Qor- ki tərcümələrinin əhəmiyyəti, onun milli ədəbiyyatımızda realizminin təşəkkülündə rolu kimi mühüm məsələlər ümu-mi mülahizələr halında şərh edilir, Qorkinin Azərbaycan yazıçı və tərcüməçilərinin yaradıcılığına təsiri konkret misallar əsasında

---

s. 112.

izah olunmurdu. Tərcümə vasitəsilə ədəbi təsir, tərcümənin prinsipi və keyfiyyəti kimi vacib məsələlər də monoqrafiyada lazımi səviyyədə öz əksini tapmamışdır. K.Talıbzadə tədqiqatında bu haqda qeyd edir: «Biz burada Qorki əsərlərinin necə tərcümə olun- ması prinsiplərini izah etmək məqsədini izləmirik. Bu şübhəsiz, xüsusi tədqiqat tələb edən bir işdir.»[1] Amma zənn edirik ki, bu cəhətə diqqət yetirilsəydi, tədqiqatın əhəmiyyətini bir qədər də artırardı.

Monoqrafiyada Qorki əsərlərinin Azərbaycan ədəbiy-yatına təsiri baxımından milli tənqidin və ədəbiyyatşü-naslığın nailiyyətləri də ciddi tədqiq edilir, yazıçının ya-radıcılığı haqqında müntəzəm olaraq məqalələr yazıb dərc etdirən M.Rəfili, M.Arif, H.Əfəndiyev, M.Cəfərov, M.Rə-fili, C.Cəfərov, Ə.Mirəhmədov, Ə.Ağayev, H.Orucəli və başqa görkəmli alimlərin xidmətləri yüksək dəyərlən-dirilirdi. Tədqiqatçı Qorkinin ədəbi-tənqidi görüşlərinə həsr olunmuş bu məqalələri yazıçının ideyalarının Azər-baycanda təbliği cəhətdən əhəmiyyətli nümunələr hesab edirdi. K.Talıbzadə milli ədəbiyyatın inkişafında Qorki yaradıcılığının konkret rolunun göstərilməsi, tarixi, ədəbi faktlarla yazıçının ənənələrinin Azərbaycan yazıçıları tərə-findən necə mənimsənildiyinin, inkişaf etdirildiyinin düz-gün elmi şərhi baxımından görkəmli tənqidçi M.Aifin məqalələrini daha yüksək qiymətləndirirdi. 30-cu illərdə və daha sonralar Qorki mövzusundan milli ədəbiyyatşünas- lıq və tənqidin aktual problemlərindən biri kimi bəhs edən müəllif bu mövzuda

---

[1] Talıbzadə K. Qorki və Azərbaycan, Bakı, Azərb. SSR EA nəşr., 1959,

bütün məqalə və kitablara xü-susi diqqət yetirir, buradakı fikir və mülahizələrin əhə-miyyətini müəyyənləşdirirdi.

Yazıçının pyeslərinin milli teatrda tamaşaya qoyul-ması da monoqrafiyada Qorkinin Azərbaycanla yaradı- cılıq əlaqələrinin konkret forması kimi öyrənilmişdir. In-qilaba qədərki Azərbaycan teatrında Qorkinin əsərlərinin rus aktyor truppaları tərəfindən tamaşaya qoyulması, 1925-ci ildə isə ilk dəfə ədibin «Həyatın dibində» pyesinin türk səhnəsinə çıxarılması faktlarından danışan tədqi- qatçı burada milli teatrımızın yazıçının ideyalarının ya-yılmasında təsirli mənbələrdən biri olduğunu göstərir və əsaslandırır. K.Talıbzadə həmin dövrün mətbuat orqan-larına istinad edərək 1925-ci ildə səhnə təcəssümü tapan «Həyatın dibində» pyesinin Azərbaycan dilinə tərcümə- sinin zəifliyi və rejissor səriştəsizliyinə baxmayaraq ta-maşanın müsbət nəticələr verdiyini qeyd edir, onun Azərbaycan teatrının inkişafında ciddi dönüş yaratdığını xüsusi vurğulayırdı.

Tədqiqatçı göstərirdi ki, bu əsərin ikinci dəfə tama-şasının göstərildiyi vaxtdan (1927) 30 ilə yaxın müddət keçdikdən sonra Azərbaycan Dövlət Dram Teatrının səhnəsində Qorkinin «Vassa Jeleznova» pyesinin uğurlu tamaşası dramaturgiya sənətinin inkişafına xüsusilə əhə-miyyətli dərəcədə təsir göstərmiş, L.Bədirbəyli, S.Hacıyeva, M.Davudova, Ə.Ələkbərov və başqa aktyorlara öz sə-nətkarlıqlarını, istedadlarını nümayiş etdirmək imkanı

---

s. 119.

vermişdir.[1] Tədqiqatçı M.Qorki pyeslərinin Azərbaycan teatrında səhnə təcəssümünü həm milli aktyorların də- rin psixoloji surətlər yaratmaq təcrübəsinin təkmilləşdi-rilməsi cəhətdən, həm də yazıçının dramaturgiya ənə-nələrinin yayılması və bu ənənələrin milli yazıçılarımız tərəfindən mənimsənilməsi nöqteyi-nəzərindən yüksək qiy-mətləndirirdi.

Sosialist estetikasının milli ədəbi kontekstdə təşək-külündə Qorki ənənələrinin əhəmiyyətini təqdir edən be-şinci fəsil monoqrafiyanın əsas, mərkəzi mövzusuna həsr olunmuşdur. Qorki idealları ilə XX əsr Azərbaycan yazıçı-larının ümumi ideya mövqeləri arasındakı yaxınlığı ay-dınlaşdıran, rus yazıçısı ilə milli ədəbiyyatımızın qarşı- lıqlı əlaqələrini diqqətlə araşdıran K.Talıbzadə məsələni bu şəkildə qoyurdu: «Qorki ilə XX əsr Azərbaycan ədə-biyyatının qarşılıqlı əlaqələrindən bəhs edərkən birinci növbədə o zamankı Azərbaycan ədəbiyyatının məfkurə istiqamətilə bu ədəbiyyatın həll etdiyi əsas ictimai problemlərlə Qorki yaradıcılığı arasında nə kimi yaxın və doğma bağlar olduğunu meydana çıxarmaq la-zımdır.»[2]

Qorki təsirinin mənbəyini tədqiqatçı təkcə ədibin əsərləri ilə məhdudlaşdırmır, milli yazıçıların gerçəkliyi rea-listcəsinə dərkinin səbəbini həm də ictimai-siyasi və ədəbi mühitin təsiredici rolunda görürdü. O, Qorkidən təsir-lənmənin ideya kontekstindən danışarkən XX əsrdə Azər-baycanda yüksək təşəkkül tapmış realizmin yazıçının yaradıcılığından

---

1 Talıbzadə K. Qorki və Azərbaycan, Bakı, Azərb. SSR EA nəşr., 1959, s. 128.

2 Yenə orada, s.135.

bəhrələnərək inkişaf etdiyini vurğulayır-dı. Ümumiyyətlə, K.Talıbzadəyə qədər «Qorki və Azər-baycan» mövzusunda aparılan tədqiqatların demək olar ki, hamısında problemin yalnız realizmlə əlaqədar tərəf-lərinə xüsusi diqqət yetirilir, Qorki təsiri dedikdə milli ədəbiyyatlarda sosialist realizminin təşəkkülü başa dü-şülürdü. Lakin tədqiqatçı məsələni daha geniş aspektdə həll edərək göstərirdi ki, bu ədəbi təsir heç də bir istiqamətdə baş verməmişdir, XX əsr Azərbaycan ədəbiy-yatında həm tənqidi realistlər, həm də romantik yazıcılar Qorkinin sənətkarlıq xüsusiyyətlərindən, bədii təcrübəsin-dən əhəmiyyətli dərəcədə bəhrələnmiş, onun yaradıcılıq prinsiplərini müxtəlif yöndən mənimsəmişlər. Qorki yara-dıcılığından öyrənmənin bu rəngarəng cəhətləri K.Talıb-zadənin monoqrafiyasında diqqətlə tədqiq edilir, qə-naətbəxş səviyyədə təhlil olunurdu. Müəllifin kitabının qiymətli elmi məziyyəti də milli ədəbiyyatda Qorki təsi- rinin belə əhatəli və təfərrüatlı izah edilməsində idi.

Monoqrafiyanın ən mühüm və geniş nəzəri əhatəli fəsli «Qorki ənənələri və Azərbaycan ədəbiyyatı»dır. Müəl-lif burada Azərbaycan ədəbiyyatında Qorki ənənələrinin hansı şəkildə təcəssüm olunduğunu şərh etməzdən əvvəl bu ədəbiyyatın ideya-bədii imkanlarına bir daha nəzər salır. Həmin dövrdə yeni tarixi inkişaf yoluna qədəm qoyan, özünün intibah və yüksəliş mərhələlərindən birini keçirən milli ədəbiyyat bir tərəfdən klassik irsimizin rea- list ənənələrindən bəhrələnirdisə, digər tərəfdən dünya ədəbiyyatının ədəbi təcrübəsindən öyrənir, eləcə də milli ədəbiyyatlarla əlaqələrin təsirilə yaradıcılıq axtarışlarını davam etdirirdi. Azərbaycan

ədəbiyyatı məhz belə tərəqqi etdiyi bir vaxtda rus ədəbiyyatının, eləcə də dünya bədii fikrinin mütərəqqi cəhətlərini özündə ehtiva edən M.Qor- ki yaradıcılığına təbii olaraq biganə qala bilməzdi, «əks halda bu onun geriliyinə dəlalət edər, onun qarşılıqlı əlaqə-lərinin zəifliyini göstərmiş olardı.»[1] K.Talıbzadə məhz bu cəhətdən dövrün bədii məfkurə zirvəsini təşkil edən Qorki ideyalarının öz istinad nöqtələrindən birini Azərbaycan ədəbiyyatında tapdığını göstərirdi. XX əsr Azərbaycan ədəbiyyatının yeni yaradıcılıq prinsipləri ilə zənginləşmə-sində – realizmin yüksək inkişaf mərhələsinə çatmasında Qorki ənənələrinin əhəmiyyətli rolundan bəhs edən təd-qiqatçı bu haqda görkəmli milli yazıçı və tənqidçilərin məlum fikirlərini tədqiq edir, M.Arif, M.C.Paşayev, H.Əfəndiyev, M.Rəfili, C.Cəfərov, H.Mehdi, C.Cahanbaxş və başqa görkəmli alimlərin fikir və mülahizələrinə xüsusi diqqət yetirirdi. Tədqiqatçı Qorki ənənələrinin demokratik milli ədəbiyyatın inkişafındakı roluna həsr edilmiş həmin məqalələrdə problemin hərtərəfli izah və təhlil edilmədi- yini göstərir, lakin realist yazıçı ilə yaradıcılıq əlaqələri-nin tədqiqi sahəsində bu ilk nümunələrdə bir sıra də-yərli mülahizə və fikirlərin də öz əksini tapdığını xüsusi vurğulayırdı.

Qorki təsirinin milli ədəbiyyatımızda, əsas etibarilə bədii əsərlərin ideya məzmununda, bədii insan konsep-siyasında təzahürünü görən K.Talıbzadə bu müddəanı S.S.Axundovun «Kövkəbi-hürriyyət», «Qonaqlıq», «Qan bulağı», «Qaraca qız»

---

[1] Talıbzadə K. Qorki və Azərbaycan, Bakı, Azərb. SSR EA nəşr., 1959,

əsərlərinin təhlili əsasında daha da konkretləşdirmişdir. Qorkinin təsirilə Azərbaycan yazıçı-sının əsərlərində realizmin yeni üslubi imkanlarla zən-ginləşməsi faktı M.Arif, Ə.Mirəhmədov və C.Xəndanın əsərlərindən elmə məlum idi. K.Talıbzadə bu barədə ədə-biyyatşünaslığın gəldiyi qənaəti tədqiqatında bir qədər də genişləndirir və dəqiqləşdirirdi. O, görkəmli Azərbaycan yazıçısının əsərlərini diqqətlə nəzərdən keçirərək Qorki- dən öyrənmənin xarakteri, yolları və nəticələrini aydınlaş-dırırdı. Bu mənada S.S.Axundovun romantik üslubda yaz-dığı «Kövkəbi-hürriyyət» hekayəsi ilə M.Qorkinin «Izergil qarı» hekayəsinin müqayisəli təhlili xüsusi maraq doğurur. Burada hər iki əsərin ideya və üslub xüsusiyyətləri cə- hətdən yaxınlığı milli ədəbiyyatda Qorki təsirinin başlanğıc istiqaməti kimi izah edilirdi. K.Talıbzadə təhlilində Qorki ənənələrinin təsirini ehkam səviyyəsinə qaldırmır, S.S.Axun-dovun bütün yaradıcılıq uğurlarını rus yazıçısının adı ilə bağlamırdı. Müəllif tədqiqatında qeyd edirdi: «Ideya, üslub və ədəbi üsul yaxınlıqlarını göstərirkən biz heç də bunların ancaq Qorkinin təsirilə yarandığını iddia etmək istəmirik. Bunlar S.S.Axundovun öz yaradıcılığına məxsus keyfiy-yətlərdir. Biz hər iki yazıçının yaradıcılığından gətirdiyimiz ədəbi paralellərdə bir şeyə – onların yaradıcılıqları arasın-dakı ümumi, oxşar, yaxın cəhətləri oxucuya çatdırmaq və beləliklə təsirin hansı nöqtələrdə ola biləcəyini göstərməyə çalışmışıq.»[1] Müəllifin təhlili məhz belə bir məntiqə əsaslanır,

---

s. 137.

[1] Talıbzadə K. Qorki və Azərbaycan, Bakı, Azərb. SSR EA nəşr., 1959, s. 156.

ədəbi təsiri bu yöndən izah edərək Qorkidən öyrənmə prosesinin ümumi mənzərəsini işıqlandırırdı. K.Talıbzadənin gəldiyi qənaətə görə, Qorki yaradıcılığı S.S.Axundovun düşündüyü ideyaları genişləndirib dərin-ləşdirmək, müəyyən həyati problemləri həll etmək, yazıçının bəzi sənətkarlıq xüsusiyyətlərini kamilləşdirmək məqam-larında mühüm rol oynayırdı. Yazıçının hələ inqilaba qə-dərki yaradıcılığında sosialist realizminə məxsus müəy- yən ideya və sənətkarlıq xüsusiyyətlərinin yaranmasında, sonralar, yəni sovet dövründə realist bir yazıçı kimi ye-tişib püxtələşməsində onun öz yaradıcılığının spesifik cə-hətləri ilə yanaşı M.Qorki təsirinin də xüsusi əhəmiyyət kəsb etdiyi qeyd olunurdu.

A.Şaiqin bədii yaradıcılığında da Qorki təsirinin izlə-rini görən tədqiqatçı bu haqda dövrün ədəbiyyatşünas-lığında yaranan fikir və rəyləri nəzərdən keçirirdi. K.Ta-lıbzadə həmin dövrün tədqiqatlarında A. Şaiqin «Qorki sayağı yazan», «Qorki realizmindən qüvvət alan» milli yazıçılardan biri kimi təqdir olunduğunu müşahidə edir, M.Arif, C.Cahanbaxşın məqalələri əsasında yazıçının bir sıra hekayələrində Qorki yaradıcılığı ilə səsləşən cəhətlə-rin nəzərə çarpdığı qənaətinə gəlirdi.

Tədqiqatçının yaradıcılıq üslubuna görə Qorkiyə ya-xın bir yazıçı kimi təhlil etdiyi ədəbi şəxsiyyətlərdən biri də böyük dramaturq C.Cabbarlıdır. Müəllif belə hesab edir ki, C.Cabbarlını Qorki yaradıcılığının zəngin ideyalar Alə-mi, yüksək fəlsəfi vüsəti, inqilabi pafosu və romantikası, onun əsərlərinin son dərəcə atəşin və üsyankar ədəbi qəhrəmanları cəlb etmişdir. K.Talıbzadə Qorkidən təsir-lənmənin hətta gənc yazıçının ilk qələm təcrübələri olan

«Solğun çiçəklər» pyesində, «Səhər vaxtı siyasi bir məhbus» şeirində aydın şəkildə nəzərə çarpdığını göstərir. Tədqiqatçı M.Arifin məqalələrində «Solğun çiçəklər» pye-sinin «Vassa Jeleznova» əsərinin, «Səhər vaxtı siyasi bir məhbus» şeirinin isə «Həyatın dibində» pyesindəki «Məh-bus» mahnısının təsirilə yazıldığı fikrini təhlilində daha da dərinləşdirir. Tədqiqatçı yazıçının sovet dövründə yazılmış əsərlərində də Qorki ənənələrinin böyük yaradıclıq marağı ilə davam etdirilməsindən danışır. Lakin o, bu təhlillərdə Qorki ilə yaradıcılıq əlaqəsini mümkün qədər mütləqləşdir-məməyə, milli ədəbi irsin təsiredici rolunu azaltmamağa çalışırdı. Tədqiqatında bu münasibətlə yazırdı: «C.Cabbarlı yaradıcılığını bir tərəfdən realist ədəbiyyatımızın, xüsusən M.F.Axundov və Sabir yaradıcılığının ənənələrilə zənginləşdirir, digər tərəfdən dünya ədəbiyyatının təcrübəsindən, eləcə də yeni dövrün sənətkarı Qorkidən öyrənir və gündən-günə irəliləyirdi.»[1]

Qorki ilə yaradıcılıq əlaqəsi kontekstində nəzərdən keçirilən digər Azərbaycan yazıçılarının bədii irsinin tədqiqində də bu mühüm cəhəti görmək mümkündür. Tədqi-qatçının Ə.Haqverdiyev, S.Hüseyn, A.Şaiq, A.Səhhət kimi milli yazıçılara münasibətini işıqlandıran səhifələrdə Qor-kinin milli ədəbiyyata təsirindən mübaliğəsiz, real fakt və mülahizələr əsasında söhbət açılır. Burada K.Talıbzadə Ə.Haqverdiyev, C.Məmmədquluzadə və A.Səhhət kimi milli yazıçıların «Qorki təsiri ilə formalaşması» fikri ilə razılaşmır, bu haqda

---

[1] Talıbzadə K. Qorki və Azərbaycan, Bakı, Azərb. SSR EA nəşr., 1959,

M.Rəfilinin tədqiqatındakı yanlış mülahizəni tutarlı dəlillərlə təkzib edirdi.

«Qorki və Azərbaycan» monoqrafiyasının bu elmi məziyyətinə diqqət yetirən ədəbiyyatşünas Ş.Salmanov gös-tərirdi ki, K.Talıbzadə Azərbaycan yazıçılarının əsərlərində və görüşlərində müşahidə etdiyi hər cür yeniliyi, inqilabiliyi, sosial aktuallığı və konseptuallığı dərhal bu ədəbi təsir və əlaqənin təzahürü kimi elan etmirdi; məhz bu cə-hətdən də A.Səhhət, A.Şaiq, C.Cabbarlı, S.Hüseyn, Ə.Haq-verdiyev və başqa görkəmli sənətkarlar və ədəbiyyat xadim-ləri onun tədqiqatında özünəməxsus yaradıcılıq keyfiyyətlə- rini, sənətkar simalarını qoruyub saxlaya bilən yazıçılar kimi dərin təsir bağışlayırdılar.[1]

Müxtəlif yollarla, müxtəlif yazıçı və ədəbiyyatşünas-ların əsərləri ilə XX əsr Azərbaycan ədəbi mühitinə gə-lib çıxan Qorki ənənələri inqilabdan sonrakı dövrdə daha da inkişaf etdirilir, milli ədəbiyyatda başlıca istiqaməti təşkil edirdi. K.Talıbzadə tədqiqatında həmin mərhələnin bədii fikrində Qorki təsirinin yeni tərzdə metodoloji təhlilini verirdi. O, Azərbaycan ədəbiyyatında romantizmin key-fiyyətcə dəyişməsində, yeni imkanlarının aşkar edilməsində Qorki ənənələrinin əhəmiyyətli rolunu konkret müşahidə və müddəalarla aydınlaşdırırdı. Bu baxımdan Qorkinin romantik yaradıcılıq konsepsiyası ilə C.Cabbarlının roman-tik qəhrəmanlarının yaxınlığı, oxşar və ümumi cəhətlərinin təhlili təqdirəlayiqdir. Ideya və üslub xüsusiyyətlərinə gö-rə

---

s. 160.

M.Qorkinin romantik yaradıcılığına daha çox uyğun olan «Aydın», «Oqtay Eloğlu» pyeslərinin «Həyatın dibin-də» və «Meşşanlar» əsərləri ilə müqayisəsi xüsusilə maraq doğurur. Müəllif burada Qorkinin təsirilə formalaşan, realizmə daha möhkəm qovuşmuş romantikanın milli ədəbiyyatımızda inkişaf istiqamətlərini aydınlaşdırır. Onu da qeyd etmək lazımdır ki, K.Talıbzadənin monoqrafi-yasının yazıldığı illərdə keyfiyyətcə dəyişən, yeni inkişaf mərhələsinə qədəm qoyan romantizmə ədəbiyyatşünas- lıqda konkret münasibət formalaşmamışdır. Monoqrafi-yanın mühüm elmi yeniliyi də Qorki ilə yaradıcılıq əla-qələrinin romantizmlə bağlı tərəflərinin diqqətlə tədqiq edilməsində idi. Burada S.Vurğunun şeiriyyəti, milli ədəbi-estetik fikir tarixindəki mövqeyi də romantik yöndən izah olunur, şairin romantizmə münasibətinin Azərbaycan ədəbiyyatının inkişafını şərtləndirməsi vurğulanırdı. S.Vur-ğun yaradıcılığına Qorki təsirini öyrənən tədqiqatçı hər iki sənətkarın ədəbi-estetik görüşlərində və bədii əsər-lərindəki ümumi, oxşar cəhətləri bu əlaqələrin romantizmlə bağlı tərəfi ilə əlaqələndirirdi.

Azərbaycan nəsrinin M.Ibrahimov, M.Hüseyn kimi görkəmli simalarının Qorki irsi ilə yaradıcılıq əlaqələri də monoqrafiyada realistik planda tədqiq olunur. M.Ibra-himovun «Gələcək gün» romanının Qorkinin «Ana» roma-nı ilə yaxınlığına diqqət yetirən K.Talıbzadə milli yazı-çının rus ədibinin yaradıcı təcrübəsindən bəhrələndiyini konkret faktlarla izah və şərh edir. Burada yazıçının «Həyat üçün»,

[1] Salmanov Ş. Akademik Kamal Talıbzad, Bakı, Ozan, 1998, s. 47.

«Madrid» əsərləri, eləcə də «Cənub heka-yələri» Qorki təsiri ilə əlaqələndirilir. Tədqiqatçı təhlilin-də M.Ibrahimovun rus yazıçısının ədəbi təcrübəsinə müra-ciət etməsinin təsadüfi yaradıcılıq hadisəsi olmadığını, milli sənətkarın bütün bədii fəaliyyəti boyu Qorki ənənələrilə əlaqəsini davam etdirdiyini göstərir və əsaslandırır.

Milli yazıçılarımızdan M.Hüseyn də Qorkinin bədii irsini yüksək dəyərləndirən, yaradıcılığında yazıçının qa-baqcıl ədəbi təcrübəsindən səmərəli şəkildə bəhrələnən sənətkarlardan biri kimi təqdir olunur. Bu baxımdan yazı-çının Qorkinin Azərbaycanla yaradıcılıq əlaqələrinə həsr etdiyi «M.Qorkinin yolu», «Maksim Qorki və müasirlik» məqalələri tədqiq edilir, rus yazıçısının Azərbaycan ədə-biyyatına təsiri realist mövqedən işıqlandırılırdı.

Ümumiyyətlə, K.Talıbzadə tədqiqatında Qorkinin Azərbaycanla çoxcəhətli ünsiyyətinin bütün tərəflərini əhatə etmiş, hətta bu əlaqələrin digər sənət sahələrində təza-hürünü də nəzərdən qaçırmamışdır. Teatr və tərcümə yolu ilə bu əlaqələrin inkişafını müşahidə edən müəllif Qorki və Azərbaycan mədəniyyəti arasındakı bağlılığı diqqətlə araşdırmışdır. Qorki əsərlərinin dilimizə tərcümə edilməsi, yazıçı haqqında tənqid və ədəbiyyatşünaslıq əsərlərinin yazılması kimi mühum məsələlər də tədqiqatçının nəzə-rindən yayınmamış, xüsusilə dərindən tədqiq edilmişdir. Lakin zənn edirik ki, monoqrafiyada bir sıra çatışmaz- lıqlar da vardır. Bizcə, əsərin ilk fəsillərindəki tarixi məlumat və faktların çoxluğu müəllifin ümumiləşdirmə səylərinin bəzən müvəffəqiyyətlə nəticələnməsinə mane olmuşdur ki, bu da

monoqrafiyanın nəzərə çarpan qü-surlarından biridir. Fikrimizcə, tədqiqatçı ədəbi təsir haq-qında öz qiymətli nəzəri mülahizələrini ayrı-ayrı səhi- fələrdə səpələnmiş, pərakəndə bir şəkildə ifadə etmişdir. Halbuki onlar ardıcıllıqla və sistemli şəkildə verilsəydi, bu cəhət monoqrafiyanın müsbət məziyyətlərini bir qədər də artırmış olardı. Belə zənn edirik ki, monoqrafiyada T.Şahbazi, Y.V.Çəmənzəminli, S.Hüseyn kimi yazıçıların Qorki ilə ədəbi əlaqələri barədə müəllifin verdiyi məlumat, onların yaradıcılığında M.Qorki ənənələrinin şərhi də qənaətbəxş səviyyədə deyildir. Lakin bütün bunlar əsə-rin elmi-nəzəri səviyyəsinə ciddi xələl gətirmir, Qorki ilə Azərbaycan ədəbiyyatı əlaqələrinin hərtərəfli öyrənilməsi baxımından monoqrafiyanın əhəmiyyətini azaltmır.

K.Talıbzadənin «Qorki və Azərbaycan» monoqra-fiyası özünün yüksək elmi məziyyətlərinə görə ədəbi icti-maiyyət tərəfindən böyük maraqla qarşılanmışdır. Hələ əsərin yazıldığı dövrdə xalq şairi S.Vurğun «Respub-likada ictimai elmlərin inkişafı və vəzifələri» haqqında öz dəyərli məruzəsində ədəbi əlaqələr probleminə müna-sibət bildirərkən K.Talıbzadənin «Qorki və Azərbaycan ədəbiyyatı» mövzusunda monoqrafiya üzərində işlədiyini xüsusi qeyd etmişdir.

Əsərin 1959-cu ildə Azərbaycan, 1970-ci ildə rus dilin-də nəşrləri haqqında nəinki Azərbaycan, eləcə də Gür-cüstan, Rusiya, Orta Asiya və Türkiyə alimlərinin məqalə və rəyləri dərc olunmuşdur. Həmin rəylərdə monoqrafiya Azərbaycan-rus ədəbi-mədəni əlaqələri sahəsində dövrün ən qiymətli fundamental tədqiqatı kimi yüksək dəyər-ləndirilirdi.

Azərbaycanın tanınmış tənqidçilərindən Y.Qa-rayev, G.Əlibəyova, S.Əsədullayev və başqalarının əsər haqqında məqalələrində Qorki və Azərbaycan ədəbiyyatı əlaqələrinin dərin axtarışlar, ideya-estetik konsepsiya kontekstində tədqiq edildiyi vurğulanırdı. G.Əlibəyova yazırdı: «Ədəbi əlaqələr probleminin mexaniki, vulqar şərhinə qarşı çıxan K.Talıbzadə Qorkinin Azərbaycan ədəbiyyatına təsirini, hər şeydən əvvəl, yazıçıların üslub və metod yaxınlığını şərtləndirən amillərlə, ümumi tarixi inkişaf və ictimai görüşlərin uyğunluğu ilə əsaslandırır. Ədəbi müqayisələr apararkən K.Talıbzadə Azərbaycan ya-zıçıları və Qorki yaradıcılığındakı ümumi tendensiyanı açıb göstərməyə çalışır…»[1] G.Əlibəyovanın məqaləsində təd-qiqatçının ədəbi əlaqə məsələsinin şərhində prinsipial mövqeyi təqdir olunurdu. Bu cəhət Y.Qarayevin də diq-qətindən kənarda qalmamışdır. O, qeyd edirdi: «Tədqi-qatçıya görə, təsir ədəbi prosesdən kənarda, nə isə xüsusi, ayrıca bir hadisə deyil, bəlkə yaradıcılığın zəngin və mürəkkəb prosesində təbii mərhələlərdən biridir. Təsir – sənətkarı yaratmır, artıq sənətkar bir yazıçıya dövrün qabaqcıl ideya-estetik tələbləri səviyyəsinə qalxmağa kömək edir.»[2] Monoqrafiyada Qorki ənənələrinin təsirinin bu aspektdə həll edilməsi ədəbiyyatşünas Ş.Salmanovun da diqqətini cəlb etmişdir. Tədqiqatçı əsər haqqında yazırdı: «K.Talıbzadənin monoqrafiyası həm material, ədəbi-tarixi dövrü əhatəsi

---

[1] Алибекова Г. М.Горькиу и Азербауджаn, Вопросы литератиры, 1962, № 2, s. 226.

[2] Qarayev Y. Ədəbi təsir və əlaqə probleminə həsr edilmiş yeni əsər, Azərbaycan, 1960, № 2, s.203.

cəhətdən, həm də XX əsr ədəbi-bədii pro-sesinin bir sıra yeni meyllərinin işıqlandırılması, yaradı- cılıq problemlərinin qoyuluşu və həlli baxımından ədə-biyyatşünaslığın fundamental tədqiqatlarından biri kimi qiymətləndirilə bilər.»[1]

1970-ci ildə əsərin rus dilində nəşri ilə tanışlıqdan sonra rus ədəbiyyatşünası, filologiya elmləri doktoru pro-fessor A.L.Dımşits monoqrafiya haqqında yazdığı əhatəli və maraqlı rəyində əsərin elmi məziyyətlərini yüksək dəyərləndirmişdir. Görkəmli alim qeyd edirdi ki, K.Talıb-zadəyə qədər bir çox ədəbiyyatşünaslar bu mövzuya mü-raciət etmişlər. Lakin inamla demək olar ki, onlardan heç biri mövzunu bu cür geniş və düzgün metodoloji mövqelərdən işıqlandıra bilməmişdir. A.L.Dımşits Qorkinin Azərbaycan ədəbiyyatına təsiri probleminin burada bir yazıcının digər yazıçıya tabe olması aktı kimi yox, səmərəli yaradıcılıq təsiri aktı kimi həll edildiyini göstərirdi. O, belə hesab edirdi ki, K.Talıbzadə Azərbaycan ədəbiyyatı tari-xinə dair materiallarla yanaşı Qorkişünaslığın da mate-riallarından sərbəst şəkildə istifadə etməklə özünü bu sa-hənin əla mütəxəssisi kimi tanıtmışdır.[2] Gürcü alimi B.Pi-radovun monoqrafiya barədə gəldiyi qənaət isə belə idi: «Talıbzadənin işinin qiyməti istifadə olunan materialların yeniliyi və təzəliyindədir. Talıbzadənin «Qorki və Azərbay-can» kitabı böyük maraqla oxunur, və şübhəsiz ki,

---

[1] Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998, s.49.
[2] K.Talıbzadənin şəxsi arxivi, A.L.Dımşitsin rəyinin mətni, 1970.

sovet qorkişünaslığına qiymətli bir töhfədir.»[1] Türkiyəli alim, Azərbaycan ədəbiyyatı mütəxəssisi Ə.Cəfəroğlu əsər haq-qında yazdığı maraqlı və olrijinal fikirlərlərlə, mülahizə- lərlə zəngin olan ilk rəyini 1963-cü ildə «Türk kültürü» dərgisində (№7) dərc etdirmişdir. O, məqaləsində göstə- rirdi ki, Kamal Talıbzadə «Qorki və Azərbaycan» monoq-rafiyasında ədəbi təsir probleminə obyektiv prinsiplər əsa-sında yanaşaraq milli ədəbiyyatın orijinallığını qoruyub saxlamışdır. Görkəmli ədəbiyyatşünas alim sonralar yazdığı başqa bir rəyində – 1972-ci ildə Münhendə nəşr olunan Sovetlər Birliyini Öyrənmə Institutunun dərgisində dərc olunan «Sovetlər Birliyi türkoloji araşdırmalarında rus kültür üstünlüyü davası» məqaləsində isə monoqrafi- yaya belə münasibət bildirirdi: «Kültür üstünlüyü məsələsi kommunist uydurmasından başqa bir məna daşımır… Rusiya sərhədləri içərisindəki xalqların bir növ bulaş- dıqları xəstəlikdir… Qasımzadə adlı bir aydın «Azərbaycan realist tənqidində rus ədəbiyyatı xəzinəsindən qüvvət al-mayan heç bir azəri yazarını təsəvvür etmədiyini və rus kültür tərəflisi olduğunu ifadə edərkən K.Talıbzadə adın- da başqa bir azəri aydını da tam əksinə olaraq öz ana kültürünə sahib çıxmasını tələb etməkdədir. Bu aydın öz görüşündə rus kültür və ədəbiyyatının şişirdilməsini və təsirinin mübaliğəli surətdə çatdırılmasını, yerli ədəbiyyatda buna geniş yer verilməməsini və bu fikrin təməl dəstək- liyini üzərinə

---

[1] Пирадов Б. М.Горькиу в Азербауджапе, Литератирпаə Гризиə, 1973, №1, s. 95-96.

almaqdadır.»[1] Ədəbiyyatşünas N.Şəmsizadə Türkiyəli alimin «Qorki və Azərbaycan» monoqrafiya- sının təhlili nəticəsində gəldiyi bu düzgün elmi qənaəti K.Talıbzadənin «türk təfəkkürü məcrasında araşdırdığı» Azərbaycan-rus ədəbi əlaqələri ilə bağlı tədqiqatına veri- lən ən uğurlu və obyektiv yekun qiyməti kimi yüksək dəyərləndirir.[2]

K.Talıbzadənin ədəbi əlaqələrin tədqiqi sahəsində fəa-liyyəti yalnız «Qorki və Azərbaycan» monoqrafiyası ilə məhdudlaşmır. O, ədəbiyyatşünaslığın bu istiqamətində araşdırmalarını yaradıcılığının sonrakı dövrlərində də da-vam etdirmiş, Azərbaycan-rus ədəbi əlaqələrinə həsr etdiyi bir sıra tədqiqat əsərlərində problemin müxtəlif məsələlə-rini işıqlandırmışdır. Bu baxımdan tədqiqatçının «XX əsr Azərbaycan tənqidi L.N.Tolstoy haqqında» (1960), «Əh-məd Ağaoğlu və onun «Rus ədəbiyyatının səciyyələri» əsə-ri» (1988) və başqa məqalələri xüsusilə təqdirəlayiqdir.

K.Talıbzadə ədəbi əlaqələr probleminin çoxcəhətli məsələlərinin həllində yaxından iştirak etmiş, ədəbiyyat-şünaslığın bu mühüm sahəsini öz orijinal tədqiqatları ilə zənginləşdirmişdir.

---

[1] Cəfəroğlu Ə Sovetlər Birliyi Türkoloji araşdırmalarındakı rus kültür üstünlüyü davası, Sovetlər Birliyini Öyrənmə İnstitutunun Dərgisi, Münhen, 1971, № 66, s. 210.

[2] Şəmsizadə N. Türk təfəkkürü məcrasında, Bakı, Təhsil, 1998, s.45.

# III F Ə S I L
# ƏDƏBI TƏNQIDIN TARIXININ VƏ NƏZƏRIYYƏSININ TƏDQIQI

## *3.1. Azərbaycan ədəbi tənqidinin tarixi konsepsiyası: onun inkişaf istiqamətləri.*

Ədəbiyyatın ayrılmaz tərkib hissəsi, komponenti olan ədəbi tənqid ədəbi hərəkata nəzarət edən, onu yeni ideya-lara doğru istiqamətləndirən və əsas inkişaf xəttini müəy-yənləşdirən nəzəri fikir formasıdır. Görkəmli yazıçı Seyid Hüseyn tənqidsiz yazını, tənqidsiz mətbuatı tərbiyəsiz cocuğa bənzədir, ədəbi tənqidi bədii ədəbiyyatın tərbiyəçisi adlandırırdı. Həqiqətən də ədəbiyyatla eyni vaxtda yaranan tənqid daim onun inkişafına xidmət etmişdir. Təsadüfi deyil ki, hərhansı bir əsərin ədəbi-tarixi prosesdəki mövqeyini müəyyənləşdirərkən mütləq həmin əsər haqqında dövrün tənqidi fikrinin araşdırılması zərurəti yaranır. Tənqiddən xüsusi, əlahiddə bir yaradıcılıq sahəsi kimi bəhs edən ədə-biyyatşünas Şamil Salmanov yazır: «Tənqid sənətkarın yaratdığı sənət əsərini təhlil edir, ideyasını, fəlsəfəsini başa düşməyə, formasını, daxili strukturunu qiymətləndirməyə, izah etməyə çalışır və bununla da öz spesifik vəzifəsini yerinə yetirir: bu da özünə görə bir növ yaradıcılıqdır, sənətdir; – təhlil və izah, dərketmə və dəyərləndirmə sə-nəti.»[1] Lakin 60-

---

[1] Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998, s.52.

cı illərə qədər bu sənətin ədəbi prosesdəki rolu düzgün dəyərləndirilməmiş, tənqidə «ədəbiyyatın ikinci dərəcəli sahəsi» kimi laqeyd münasibət göstərilmişdir. Milli tənqidimizin tarixi, hətta onun varlığı ideyası Azərbaycan ədəbiyyatının elmi tarixinin yazılması və nəşrindən sonra meydana çıxmışdır. 60-cı illərə qədərki ədəbiyyat tarixlə-rində ədəbi tənqidə ədəbiyyatımızın janrları sistemində qətiyyən yer ayrılmamış, ondan milli ədəbi tarixi prosesin komponenti və hadisəsi kimi xüsusi bəhs edilməmişdir. Həmin dövrdə ədəbi ictimaiyyətdə hətta belə bir yanlış qənaət yaranmışdı ki, Azərbaycanda sovet hakimiyyəti illərinə qədər ədəbi tənqid olmamışdır. Bu ögey münasibətin nəticəsidir ki, həmin dövrdə nəşr olunan ədəbiyyat tarix-lərində tənqiddən ədəbiyyatın mühüm bir yaradıcılıq sahəsi kimi danışılmamış, tənqid tarixi bir tədqiqat obyekti kimi diqqətdən kənarda qalmışdır. Bu 20-30-cu illərin qüdrətli qələm sahiblərinin – böyük tənqidçilərinin, ədəbiyyatşünas-larının repressiyaya düçar olması nəticəsində ədəbi tənqiddə hökm sürən ciddi boşluq, daha sonra 40-50-ci illərdə sovet ideologiyasına xidmət edən ehtiyatkar bir tənqidin forma-laşmasından irəli gəlirdi. Tənqidin təsvirçi xarakter daşıdığı bu dövr haqqında müasir ədəbiyyatşünaslıqda belə bir qənaət yaranmışdır ki, ədəbi tənqid marksist-leninçi mövqe-dən çıxış edərək, əsil həqiqətləri ifadə etməkdən çəkinirdi. Ədəbiyyatşünas Nizaməddin Şəmsizadə bu haqda yazırdı: « O (yəni, ədəbi tənqid – T.R.) bədii ədəbiyyatın bəzi cəsa-rətli addımları qarşısında vahimə keçirir, cəmiyyətin işğalçı əxlaqi mövqeyində duraraq, ciddi cəhdlə onun qarşısını almağa çalışırdı. Məsələn, M.Arif kimi

ədəbiyyatı sevən, onun uğrunda çalışan bir adam hətta bir çox mətləblərin aydınlaşdığı 60-cı illərin əvvəllərində S.Əhmədovun cəsa-rətlə yazılmış «Görünməz dalğa» və «Aran» romanları haq-qında «Yazıçının mövqeyi aydın olmalıdır!» adlı məqalə yazıb yazıçının mövqeyini cəmiyyətə uyğun olmamaqda günahlandırırdı. Yaxud, Anarın «Ağ liman» povesti ilə bağlı yazılan məqalələr göstərir ki, 50-ci illərin ehtiyatkar tənqid ənənələri 60-cı illərin ortalarında hələ yaşayırdı.»[1] Məhz belə bir dövrdə K.Talıbzadə tənqidə bir janr kimi müraciət edərək bir-birindən məzmunlu məqalələr yazıb dərc etdirmişdir. «Ədəbi tənqidimizin məsələləri haqqın- da» (1954), «Tənqidçi və ədəbiyyatşünaslarımızın yeni nəsli» (1956), «Tənqid və ədəbiyyatşünaslığımızın vəziyyəti haqqında» (1958), «Tənqidimiz haqqında qeydlər» (1963), «Ədəbiyyatşünaslığımızı müasir elmi-nəzəri problemlərin həllinə doğru istiqamətləndirməli» (1965) və s. məqalələr tədqiqatçının ilk tənqidi yazıları idi. K.Talıbzadənin ədəbi tənqidə necə məsuliyyətlə yanaşması, tənqidi ədəbiyyatın mühüm bir yaradıcılıq sahəsi kimi qiymətləndirməsi onun bu ilk yazılarında özünü büruzə verirdi. O, tənqid tarixini öyrənməyə başladığı ilk illərdə həmçinin M.Qorki, S.Vur-ğun, M.Hüseyn, M.Ibrahimov, Y.Qarayev və başqa yazıçı və tənqidçilərin görüşləri, əsərləri haqqında «Ədəbiyyat və incəsənət», «Kommunist» qəzetlərində məqalələr, resenzi-yalar dərc etdirmişdir. Həmin məqalələrində müəllif 50-60-cı illər tənqidinin tarixini əhatə etməyə çalışmışdır. K.Talıb-zadənin

---

[1] Şəmsizadə N. Türk təfəkkürü məcrasında, Bakı, Təhsil, 1998, s. 48.

bu məqalələri qarşıdakı tənqid tarixinə dair funda-mental tədqiqata bir növ hazırlıq idi. Azərbaycan ədəbi tənqidinin keçdiyi tarixi inkişaf mərhələlərini öyrənmək, onun elmi mənzərəsini yaratmaq yolunda milli ədəbiyyatın bu ilk əsaslı tədqiqatı «XX əsr Azərbaycan ədəbi tənqidi (1905-1917-ci illər)» monoqrafiyası idi. Onu da qeyd etmək lazımdır ki, bu dövrdə M.Arif, M.Cəfər, M.S.Ordubadi, M.Rəfili, F.Qasımzadə, C.Cəfərov, M.Qasımov və başqa görkəmli ədəbi şəxsiyyətlərin milli ədəbi-estetik fikrin ta- rixi inkişaf yolu haqqında məqalə və kitabçaları çap olunmuşdu. Lakin K.Talıbzadə ilk dəfə milli ədəbi-estetik fikrin tarixini yaratmaq məqsədini izləmiş, bununla da 60-cı illərdə milli ədəbiyyatşünaslığımızın qarşısında du- ran mühüm vəzifələrdən birinin həllində əvəzsiz xidmət göstərmişdir.

Qeyd etmək lazımdır ki, 37-ci il repressiyasının böyük ədiblər, tənqidçilər ordusunu cəza düşərgələrinə, sürgünə, məhvə məhkum etdiyi, nəticədə uzun illər ədəbi nəsillər arasında varislik əlaqəsinin pozulduğu bir vaxtda K.Talıb-zadə kimi qayğıkeş ziyalılarımız ədəbiyyatşünaslığın daha məsuliyyətli vəzifələrinin həllində fəal iştirak edirdilər. K.Talıbzadə bu vəzifələrin demək olar ki, ən çətini və məsuliyyətlisini– ədəbi tənqid tariximizin yazılması işini üzərinə götürüb uğurla yerinə yetirmişdir. Belə bir funda-mental ədəbiyyatşünaslıq vəzifəsinin icrası üçün K.Talıb-zadə bu sahədə müəyyən təcrübəyə malik olan müasir rus ədəbiyyatşünaslığından bəhrələnmişdi. Xüsusi qeyd olun-malıdır ki, əsərin yazıldığı və nəşr edildiyi dövrdə keçmiş SSRI-də milli ədəbiyyatların ədəbi tənqid tarixi hələ mey-

danda yox idi. Həmin vaxt yalnız rus ədəbi tənqidinin tarixi yazılmış və nəşr olunmuşdu. Buna görə də K.Talıbzadə öz tədqiqatı üzərində işləyərkən məhz rus ədəbi mənbələrinə istinad etmişdi. 1958-ci ildə nəşr olunan iki cilddən ibarət «Rus tənqidinin tarixi» kitabı, 60-70-ci illərdə rus tənqidinə dair bir sıra monoqrafiyalar, həmçinin V.I.Kuleşovun «Rus tənqidinin tarixi haqqında» əsəri belə nümunələrdən idi. K.Talıbzadə monoqrafiyasını yazmağa başlamazdan əvvəl həm bu tədqiqatlarla, həm də rus tənqidi və Azərbaycan klassik ədəbi-estetik fikri ilə yaxından tanış olmuşdu.

Zəngin sənəd və material, müşahidə və təcrübə əsasın-da yazılan «XX əsr Azərbaycan ədəbi tənqidi (1905-1917-ci illər)» (1966) kitabı o vaxtkı çoxmillətli ədəbi prosesdə bu sahədə ilk tədqiqatlardan biri kimi nəinki Azərbaycan, eləcə də keçmiş SSRI xalqları ədəbiyyatşünaslığında elmin ciddi nailiyyəti kimi dəyərləndirildi. Monoqrafiyanı ilk dəfə təhlil edən və yüksək qiymətləndirənlərdən biri akademik M.Arif əsər haqqında yazırdı: «K.Talıbzadənin «XX əsr Azərbay-can ədəbi tənqidi» əsəri əsrimizin əvvəllərində ədəbiy-yatımızda tənqidi fikrin formalaşmasına həsr edilmişdir. Müəllif konkret tarixi şəraitdə ədəbi tənqidin xüsusi bir sahə kimi inkişafını öyrənib, ədəbi prosesdəki rolunu müəyyənləşdirmişdir. XI əsrdən başlayaraq tək-tək adamlar ədəbi tənqid ilə məşğul olsalar da, XIX əsrədək o, ədəbiyyatımızda zəif yer tutmuşdur. Yalnız M.F.Axun-dovun, H.Zərdabinin və qismən də F.Köçərlinin xidməti sayəsində ədəbi tənqidin inkişafı üçün sağlam bünövrə yaranmışdı. M.F.Axundovun ənənələrinə əsaslanan demok-ratik ədəbi tənqid XX əsrdə xüsusilə

qüvvətlənmişdi. K.Talıbzadə 1905-1917-ci illərin zəngin mətbuatında dərc edilən məqalələrə istinadən bu illərin ədəbi tənqidi haq-qında aydın təsəvvür yarada bilmişdir.»[1] Görkəmli tənqidçi daha sonra monoqrafiyanın materiala düzgün elmi müna-sibəti ilə milli ədəbi tənqidimizin həyatdakı tarixi yerini inandırıcı şəkildə təyin etdiyini, onun bütün nailiyyətlərini Azərbaycanda ədəbi-tənqidi fikrin sonrakı inkişafı ilə əlaqələndirdiyini, əsərin öz tarixiliyi, bütövlüyü və elmi prinsipiallığı ilə fərqləndiyini qeyd edirdi. M. Arif məqa-ləsində bir mühüm cəhəti – inqilaba qədərki dövrdə Azər-baycanda ədəbi tənqidin olmaması haqqında nihilistlə- rin yanlış mülahizələrini K. Talıbzadənin öz qiymətli təd-qiqat əsəri ilə birdəfəlik cavablandırdığını da xüsusi vurğulayırdı.

Milli ədəbi-estetik fikir tariximiz haqqında bu monumental tədqiqata öz ədəbi-elmi axtarışlarının on ilini həsr edən tədqiqatçı həqiqətən də milli tənqidimizin tarixi köklərini üzə çıxarmaqla sovet ideologiyasının təsirindən doğan bir fikri – Azərbaycanda ədəbi tənqidin inqilabdan sonra yaranması fərziyyəsini alt-üst etdi. Sonralar monoqrafiyanın təkmilləşdirilmiş nəşrinə – «Azərbaycan ədəbi tənqidinin tarixi» (1984) kitabına yazdığı «Tənqidimizin tarixi» başlıqlı ön sözdə tanınmış ədəbiy-yatşünas alim Yaşar Qarayev də bu cəhətə xüsusi qiqqət yetirirdi: «Kitab bizim estetik fikrin tarixinə münasibətdə nihilist baxışlara tutarlı elmi cavab kimi səsləndi. Bizim tənqid tarixinin xalqın tarixinə və taleyinə təsiri problemi belə sistemli və ətraflı şəkildə ilk dəfə bu əsərdə araş-

---

[1] Arif M. Sənətkar qocalmır, Bakı, Yazıçı, 1980, s. 41.

dırıldı.»[1] K.Talıbzadə əsəri hələ 1965-ci ildə doktorluq dissertasiyası kimi müdafiə edərkən görkəmli alim Feyzulla Qasımzadə əsər haqqında geniş rəyində yazırdı: «Müəllif bir çox arxiv və kitabxanalarda çalışmış, Respublika Əlyaz-maları Fondunu diqqətlə nəzərdən keçirmiş, XX əsr Azər-baycan mətbuatının yüzə yaxın orqanını dərindən öyrən-mişdir. Illərlə davam edən çox böyük əməyin nəticəsində külli miqdarda tamamilə yeni, ədəbi fikrimizi zənginləşdirən faktlar, sənədlər meydana çıxarılmışdır. Bütün bunların nəticəsində ədəbiyyat tariximiz üçün qaranlıq qalan bir çox məsələlər aydınlaşdırılmışdır.»[2] Monoqrafiyanı ədəbiy-yatşünaslığımızın ciddi nailiyyəti hesab edən Feyzulla Qa-sımzadə rəyində K.Talıbzadəni «ədəbiyyat tariximizin öyrə-nilməsini düzgün təşkil edən» alim və elm təşkilatçısı kimi yüksək qiymətləndirirdi.

Əsər haqqında geniş rəy yazan Əziz Şərif «Qiymətli ədəbi iş» adlı məqaləsində qeyd edirdi ki, sovet filologi-yasının nailiyyəti olan bu fundamental iş nəinki ədəbi-elmi ictimaiyyət, habelə geniş oxucu kütləsi tərəfindən məm-nuniyyətlə qarşılanacaqdır.[3] Ə.Şərif də əsərin türk ədəbiy-yatı ənənələrinin guya yeni ədəbiyyat ücün yararsızlığını elan edən nihilistlərə ciddi cavab, inqilaba qədərki tən-qidimizin tarixi haqqında danılmaz elmi fakt olduğunu vurğulayırdı.

---

1 Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi, Bakı, Maarif, 1984, s. 4.

2 K.Talıbzadənin şəxsi arxivi, F.Qasımzadənin rəyi, 1965.

3 Шариф А. Üеппыу литератирпыу трид, газ. «Баки», 1966, 27 октəбрə.

Yazıçı Mirzə Ibrahimov K.Talıbzadəyə ünvanladığı məktubunda yazırdı: «Bu əsəri oxuyan hər kəs görəcəkdir ki, Mirzə Fətəlidən sonra Azərbaycan xalqının tənqidi fikri necə zəngin və maraqlı bir inkişaf dövrü keçirmişdir, este-tikanın və bədii yaradıcılığın necə vacib, necə böyük məsə-lələrini həll etməyə çalışmışdır; sən çox yaxşı və çox düz- gün etmisən ki, daima elmi tədqiqatı XX əsr Azərbaycan realizminin xüsusiyyətlərini müəyyənləşdirmək istiqamə-tində aparmısan. Antirealist cərəyanları və meylləri araş-dırmağın da tamamilə doğrudur və o dövrdə müxtəlif ədəbi-estetik görüşlərin mübarizəsi haqqında geniş təsəvvür yaradır. Sənin əsərində ən qiymətli cəhət mən onu hesab edirəm ki, ədəbi-bədii fikrimizin müəyyən və maraqlı bir dövründəki inkişafı ardıcıl surətdə, diqqətlə tədqiq olun-muş, sistemləşdirilmişdir. Nəticədə elə zəngin, elə əhəmiy-yətli bir mənzərə yaranmışdır ki, adamın ürəyi qürurla dolur. Abdulla Sur və Seyid Hüseyni isə bizim üçün tama-milə yenidən kəşf etmisən…»[1]

Həqiqətən də XX əsr Azərbaycan tənqidinin F.Köcər-li, S.Hüseyn, A.Sur kimi görkəmli nümayəndələrinin ədəbi-tənqidi proses fonunda, nəzəri-estetik fikrin tarixi təkamülü kontekstində tədqiq olunması diqqəti cəlb edən cəhətlər- dən idi. Bu cəhət Türkiyəli alim, Azərbaycan ədəbiyyatı mütəxəssisi Əhməd Cəfəroğlunun da nəzərindən yayınmamışdır. O, əsər haqqında məqaləsində yazırdı: «Əsərin ikinci hissəsi mərhum Firudun bəy Köçərliyə təhsis edilmişdir. Xatirəsi pək əziz olan bu dəyərli azəri ədəbiyyatçısı haq-qında

---

[1] K.Talıbzadənin şəxsi arxivi, M.İbrahimovun məktubu, 1965.

nə söylənsə azdır. Xatirəsi əziz olduğu qədər əsərləri və görüşləri də cana yaxındır. Eyni şey yazarın əsərində müstəqil yer ayırdığı Seyid Hüseyn haqqında da söylənilə bilər. Əsərdə bu kişini yaşatdığı üçün Talıbzadəyə haq vermək gərəkdir.»[1] Azərbaycan ədəbiyyatşünaslığının bu ciddi nailiyyəti – «XX əsr Azərbaycan ədəbi tənqidi» əsəri keçmiş Sovet Şərqində də ədəbi ictimaiyyət tərəfindən yüksək rəylə qarşılandı. Tacikistan SSR EA-nın müxbir üzvü S.Tabarev K.Ta-lıbzadənin Şərq xalqlarının estetik fikir və tənqid tarixi- nin öyrənilməsi sahəsindəki əvəzsiz xidmətlərini layiqincə dəyərləndirərək yazırdı: «Onun əsərləri nəinki Şərq filo-logiyasının bu az öyrənilmiş problemlərini tədqiq edir, həm də Azərbaycan ədəbiyyatşünaslığında məktəb yaradır ki, onun gələcəkdə inkişaf imkanları da vardır.»[2] Qazaxıstan SSR EA-nın akademiki Y.A.Coldasbəyov əsər haqqında rəyində bu monoqrafiyanı nəinki SSRI-də, eləcə də xarici ölkələrdə yaşayan türkdilli xalqların ədəbiyyatlarında estetik fikri araşdıran ilk fundamental tədqiqat hesab edirdi.[3]

Istanbulda çıxan «Türkiyyat» məcmuəsində monoq-rafiya haqqında dərc olunmuş məqalədə mövzunun türkdilli xalqların ədəbiyyatşünaslığında ilk dəfə araşdırılması gös-tərilir, problemin doğru, zəngin faktik material əsasında işlənməsi, ədəbi fikrin milli ictimai, siyasi, fəlsəfi həyat ilə vəhdətdə işıqlandırılması qeyd olunurdu. Məqalənin müəl-lifi

---

[1] Cəfəroğlu Ə. XX əsr Azərbaycan ədəbi tənqidi (1905-1917), Türkiyyat məcmuəsi, İstanbul, 1972, XY11 c., s. 277.
[2] K.Talıbzadənin şəxsi arxivi, S.Tabarevin rəyi..
[3] Yenə orada, Y.A.Coldasbəyovun rəyi.

Ə.Cəfəroğlu yazırdı: «Əsər türk ədəbiyyatında hənuz ələ alınmamış ən nazik problemlərdən birinə təmas etmək-dədir… Əsərin ən həcmli bölümünü «Azərbaycan ədəbi tənqidinin əsas cərəyanları» mövzusu təşkil etməkdədir. Yazar bu cərəyanların ancaq 1905-1917-ci illər arasında olanlarını nəzərə almışdır…»[1]

Ədəbi-tənqidi fikrimizin çoxəsrlik tarixi inkişaf yolunu işıqlandıran monoqrafiyanın bu şəkildə qiymətləndirilməsi heç də təsadüfi deyildi. Çünki, ilk dəfə məhz bu əsərdə qarşıya qoyulan milli ədəbi və estetik fikrimizin tarixinin yazılması məqsədi uğurla yerinə yetirilmişdi. Monoqrafi-yada Azərbaycan ədəbi tənqidinin tarixi kökləri və istiqa-mətləri xronoloji və nəzəri aspektdə aradırılır, milli ədəbi-estetik fikrin mənşəyi, təşəkkül özünəməxsusluğu, inkişaf mərhələləri zəngin, yeni faktik materiallar əsasında müəy-yənləşdirilirdi. Tədqiqatçı XIX və XX əsrlər tənqidinə daha çox diqqət yetirir, M.F.Axundovun tənqidi irsini, estetik baxışlarını dərindən təhlil edir, ilk dəfə olaraq meydana çıxarılan külli miqdarda yeni və orijinal faktlar əsasında əs- rin əvvəllərindəki tənqidi cərəyanların siyasi, fəlsəfi və estetik mahiyyətlərini açıb göstərirdi. Monoqrafiyada XX əsr tənqidinin hazırlıq mərhələsi olan XIX əsr ədəbi-estetik fikri nisbətən geniş və əhatəli təhlil olunurdu. K.Talıbzadə həmçinin tədqiqatın predmetinə tarixi yanaşaraq qədim mənbələri də diqqətlə araşdırır, qədim və orta əsrlər ədəbi fikrinin inkişaf istiqamətlərini müəyyənləşdirirdi. M.V.Lo-monosov adına MDU-nun professoru, görkəmli

---

[1] Cəfəroğlu Ə. XX əsr Azərbaycan ədəbi tənqidi (1905-1907), Türkiyyat

Azərbay-canşünas alim Əziz Şərif bu cəhətə diqqət yetirərək əsər haqqında rəyində yazırdı: «XX əsr ədəbi tənqidi haqqında danışarkən bu ədəbi janrın əvvəlki tarixini kifayət qədər işıqlandırmamaq onu milli zəmindən, tarixi köklərdən ayır-maq və ədəbi tənqidin Azərbaycanda ilk dəfə XX əsrdə meydana çıxması kimi yalan bir təsəvvür yaratmaq demək olardı.»[1]

Əsərin adından da göründüyü kimi, müəllif əsasən XX əsr ədəbi tənqidinin 1905-1917-ci illər mərhələsi üzərində geniş dayanırdı. Çünki, bu dövr ədəbiyyata tənqidi münasibətin xüsusilə gücləndiyi, ədəbi ictimaiyyətdə «artıq ədəbiyyatı ədəbi tənqidsiz irəli aparmaq mümkün deyil» qənaətinin yarandığı və möhkəmləndiyi bir mərhələni əhatə edirdi. K.Talıbzadə tədqiqatında milli ədəbi-estetik fikri-mizin Azərbaycan ədəbiyyatının sürətli inkişafı müqabilində zəif göründüyü, öz ümumi səviyyəsinə görə bədii ədəbiy-yatdan geridə qaldığı, lakin eyni zamanda ötən əsrlərdə-kindən fərqli müsbət keyfiyyətlərlə zənginləşdiyi bu mər-hələni diqqətlə araşdırır, elmi təhlil süzgəcindən keçirir, dərin nəzəri ümumiləşdirmələr aparırdı. Bir mühüm cəhəti də qeyd etmək lazımdır ki, «XX əsr Azərbaycan ədəbi tənqidi» monoqrafiyasına qədər 1905-1917-ci illərin ədəbi tənqidinin tarixi milli ədəbiyyatşünaslığımıza həsr edilmiş ayrı-ayrı əsərlərdə müəyyən münasibətlə ötəri şərh olunsa da, tam ədəbi proses halında ayrıca tədqiqat obyekti olma-mışdır. Bu

---

məcmuəsi, İstanbul, 1972, XY11 c., s.279.

[1] Шариф А. Beskoe sлово об азербауджanskoy критике, Вопросы литературы, 1966, №11, s.208.

məsuliyyətli işi ilk dəfə K.Talıbzadə öhdəsinə götürmüş və öz fundamental tədqiqatını uğurla başa çat-dırmışdır.

Monoqrafiya iki hissə, üç fəsil və iki oçerkdən ibarət idi. Birinci əsas hissədə üç fəsil verilmişdir: XX əsr Azər-baycan ədəbi tənqidinin tarixi kökləri; XX əsrin əvvəl-lərində ədəbi tənqidin mövqeyi; Azərbaycan ədəbi tənqi-dinin əsas cərəyanları. Ikinci hissədə isə Firudun bəy Kö-çərli və Seyid Hüseynin tənqidi görüşlərindən bəhs edən oçerklər verilmişdir.

Monoqrafiyanın ilk səhifələrində Azərbaycan ədəbiy-yat elminin və ədəbi tənqidinin tarixi inkişaf yoluna nəzər salınır, XX əsr ədəbi tənqidinin tarixi kökləri müəy-yənləşdirilir. Mötəbər mənbələrə istinadən müəllif göstərir ki, orta əsrlərdə Azərbaycan ədəbi fikri əsasən iki istiqa-mətdə inkişaf etmişdir: birinci, X1-XV11 əsrlərin ədiblərinin poetika, estetika, risalələrində və təzkirələrində; ikinci, orta əsrlərin böyük sənətkarlarının bədii əsərlərində. Göstərilən hər iki mənbədə sözün qüdrəti, ədəbi istedad, şeir və elm, etika, estetika, forma və məzmun, sənətin tərbiyəvi əhə-miyyəti, ədəbiyyatın məqsədi, vəzifələri və mahiyyəti kimi məsələlər haqqında son dərəcə dəyərli fikirlər vardır. Klassik irsin bu mütərəqqi ədəbi-estetik görüşləri Azər-baycan ədəbiyyatının ideya-bədii tərəqqisində mühüm rol oynamış, onun yeni yaradıcılıq keyfiyyətləri ilə zəngin-ləşməsinə ciddi təsir göstərmiş, M.F.Axundov, H.Zərdabi, M.Ş.Vazeh kimi sənətkarların tənqidi fikrinin inkişafında əsas, başlıca mənbələrdən biri olmuşdur. X1X əsr Azər-baycan ədəbi tənqidi rus, Şərq və Avropa mütərəqqi estetik fikrindən də müəyyən dərəcədə faydalanır, təkmilləşir və zənginləşirdi. Bu onunla bağlı idi ki,

X1X əsrin əvvəllərində ölkənin həyatında baş verən ictimai-siyasi yenilik – Azər-baycanın Rusiya tərkibinə daxil edilməsi xalqın yalnız iqtisadi, siyasi yöndə inkişafında deyil, onun mədəniy-yətində, eləcə də ədəbiyyatında əsaslı bir dönüş yaratmışdı. Həmin dövrdə Azərbaycanda kapitalist münasibətlərinin meydana gəlməsi yeni ictimai qüvvələrin yaranmasına səbəb olmuş, beləliklə də, ayrı-ayrı fikri cərəyanların təzahür etməsini şərtləndirmişdi. Bu zaman artıq milli ədəbiyyatda realizmə meyl güclənirdi. Belə mürəkkəb bir tarixi şəraitdə X1X əsr Azərbaycanında mütərəqqi ideyaların alovlu təbliğatçısı kimi tanınan görkəmli mütəfəkkir M.F.Axun-dov reaist dramaturgiyanın və nəsrin əsasını qoymuş, həm də realist tənqidin təşəbbüskarı olmuşdur.

M.F.Axundovun tənqidi, ədəbi-estetik görüşləri, onun yaranmasına, formalaşmasına bilavasitə təsir göstərən amillər monoqrafiyada daha geniş və təfərrüatlı şərh edi-lirdi. K.Talıbzadə burada M.F.Axundovun ədəbi konsep-siyasının formalaşmasında mühüm rol oynayan mənbələri müəyyənləşdirir, böyük mütəfəkkirin bir filosof və nəzəriy-yəçi kimi yetişməsini şərtləndirən amilləri aydınlaşdırırdı. O, yazıçının Şərq fəlsəfi və ədəbi fikir tarixini mükəmməl səviyyədə öyrənməsini, bu baxımdan Əla-Zikrihissəlam, Şəbüstəri, Bəhmənyar, Ibn-Sina, Sədi, Nizami, Qəzali, Hafiz, Rumi, Füzuli kimi böyük filosof və yazıçıları təqdir və tənqid etməsini, eləcə də milli ədəbi irsə, xüsusilə Nizami, Xaqani, Füzuli, Vaqif, Bakıxanov, Vazeh və Zakirin gö-rüşlərindəki mütərəqqi fikirlərə müraciətini onun öz ədəbi-estetik görüşlərini inkişaf etdirmək məqsədilə izah edirdi. Digər

tərəfdən rus və Avropa elmindən, ədəbiyyatından, ictimai, iqtisadi və siyasi fikir tarixindən bəhs edən əsərlər, kitablar M.F.Axundovun nəzəri görüşlərinin formalaşma-sında mühüm mənbələrdən biri kimi göstərilir və əsas-landırılır. Tədqiqatçı bu cəhətdən Ç.Dikkens, A.Düma, J.Vern, N.V.Qoqol, V.Q.Belinski, A.V.Markov-Vinoqra-dov, E.Munk və başqalarının ədəbiyyat, tənqid və ədəbiy-yatşünaslığa dair əsərlərini görkəmli yazıçının rus və Av-ropa ədəbi fikrindən yaradıcı şəkildə bəhrələnməsi üçün əsas mənbələr hesab edirdi. K.Talıbzadə düzgün olaraq burada M.F.Axundovun Belinski və Dobrolyubov ilə ədəbi əlaqələrinə xüsusi olaraq diqqəti cəlb etmişdir. Əsərdə Qərb yazıçı, filosof və tarixçiləri Volter, Monteskio, Didro, Şekspir, Bayron, Hüqo, Russo, Renan, Yum və başqaları da Axundovun yaradıcılıqlarını bəyəndiyi, fikirlərini təqdir etdiyi böyük şəxsiyyətlər kimi təqdim olunurlar.

Tədqiqatçı M.F.Axundovun ədəbi-tənqidi görüşlə-rində sənətin ideyalılığı, ədəbiyyatın tərbiyəvi rolu, onun ictimai həyatda mövqeyi kimi məsələlərin mühüm yer tut-duğunu göstərir, bu cəhətdən yazıçının fikirlərinin mate-rialist rus və Avropa filosofları, tənqidçilərinin görüşləri ilə səsləşdiyini qeyd edirdi. Monoqrafiyada böyük mütəfək-kirin müasirləri – X1X əsr Azərbaycan dramaturqu Mir-zağa və Melkum xanın Axundov estetikasına münasibəti də işıqlandırılmışdır.

XIX əsrin sonu, XX əsrin əvvəllərində milli mətbuatın, xüsusilə «Əkinçi», «Kəşkül», «Ziya», «Ziyayi-Qafqaziyyə», «Şərqi-Rus» qəzetlərinin ədəbi tənqidin inkişafında rolu, burada dərc olunan tənqidi məqalələrdə maarifçilərin sxo-lastik

ədəbiyyata qarşı apardıqları mübarizə haqqında monoqrafiyada yığcam elmi təhlil verilmişdir. K.Talıbzadə XX əsrin əvvəllərində yeni siyasi-ictimai şəraitdən doğan zərurətlə ədəbi tənqidin məqsəd və vəzifələrinin də müasir tələblər səviyyəsinə qaldırılmasına ciddi ehtiyac duyul-duğunu qeyd edir, monoqrafiyanın «XX əsrin əvvəllərində ədəbi tənqidin mövqeyi» fəslində bu məsələləri işıqlan-dırırdı. Milli mətbuatda ədəbi tənqidə olan ehtiyac və onun əhəmiyyəti ətrafında gedən qızğın müzakirələrin təhlil olunduğu məqamlarda tədqiqatçının ədəbi tənqidin vəzi-fələrini müəyyənləşdirmək cəhdi daha qabarıq şəkildə nəzərə çarpırdı. K. Talıbzadə bu dövrün qəzet və jurnal səhifələrində «tənqid», «tənqid və biblioqrafiya», «teatr və musiqi» və s. rubrikaların açılmasını, müntəzəm olaraq tənqidi məqalələrin çap edilməsini, Bakı, Gəncə, Şamaxı və Şuşa şəhərlərində ədəbi tənqid ilə məşğul olan dərnək və cəmiyyətlərin təşkil olunmasını tənqidçilik sənətinin ihkişaf etdirilməsində, onun professional bir səviyyəyə yüksəlmə-sində başlıca təkanverici amillərdən hesab edirdi. Müəllif N.Nərimanovun rəhbərliyi altında Bakıda «Nicat» cəmiy-yətinin nəzdində təşkil olunmuş «Tənqid gecələri»nin fəa-liyyətinin xüsusilə seçildiyini vurğulayırdı. Tədqiqatçı həm-çinin «Ədəb yurdu», «Yaşıl qələm» dərnəklərinin, «Ədə-biyyat və sənayeyi-nəfisə cəmiyyəti», «Qızıl Qələm Cəmiy-yəti»nin fəaliyyətində ədəbi tənqidin geniş yer tutduğunu qeyd edirdi.

1905-ci il inqilabından sonra Azərbaycanda milli azad-lıq hərəkatının genişlənməsi, sinfi mübarizənin kəskinləşmə-si ayrı-ayrı ədəbi cərəyanların siyasi istiqamətini müəyyən etmiş,

gərgin məfkurə mübarizəsi başlanmışdı. Bu dövrdə güclənməkdə olan realizm cərəyanı da ayrı-ayrı qruplara bölünürdü: kommunist yazıçılar (Seyid Musəvi); inqilabçı-demokratik yazıçılar (C.Məmmədquluzadə, M.Ə.Sabir, M.Möcüz); maarifçi-demokrat yazıçılar (A.Səhhət, M.Ha-di, F.Köçərli, Y.V.Çəmənzəminli). Azərbaycan ədəbiyya-tında əsas cərəyanlardan olan romantizmin təsnifində də bu cərəyanın bir-birinə zidd iki cəbhəyə – mütərəqqi və mürtəce romantizm kimi qollara ayrıldığını görürük. Bir-birinə zidd mövqedə duran ədəbi cərəyanlar arasında gedən ciddi fikri ixtilaf və məfkurə mübarizəsi tənqid sahəsində də yeni cərəyanlar yaratmışdı: demokratik tənqid; burjua tənqidi; marksist tənqid. Müəllif monoqrafiyanın «Azər-baycan ədəbi tənqidinin əsas cərəyanları (1905-1917-ci illər)» adlanan fəslində kəskin siyasi məfkurəvi müba-rizələrdən yaranmış bu tənqidi cərəyanların yaradıcılıq metodları, həyata, sənətə, klassik irsə və başqa yaradıcılıq məsələlərinə münasibətini təhlil etmişdir. Burada XX əsr Azərbaycan tənqidi üç əsas cərəyanın inkişafı aspektində öyrənilir, «Demokratik tənqid», «Burjua tənqidi» və «Marksist tənqid» cərəyanlarının hər biri ayrı-ayrılıqda tədqiq və təhlil olunurdu. K. Talıbzadə monoqrafiyasını yazdığı vaxt XX əsrin milli ədəbi tənqidinin ən qüvvətli cərəyanı sayılan demokratik tənqidin ideya-estetik prin-siplərinin təhlilinə daha geniş yer vermişdir.

Zəngin sənəd və materiallar əsasında yazılmış «Demok-mokratik tənqid» bölümündə realizm problemi, ədəbiyyatın həyatla əlaqəsi, ictimai vəzifəsi, «köhnə» və «təzə» şeir problemi, klassik ədəbi irsə münasibət, Azərbaycan teatrı və

dramaturgiyasının əlaqələri, ədəbi dil problemi kimi mühüm məsələlər sistemli şəkildə təhlil süzgəcindən keçi-rilirdi. K.Talıbzadənin demokratik tənqidə qarşı güclü marağı isə onun bir bədii metod və ədəbi cərəyan kimi realizmə rəğbətindən irəli gəlirdi. Bu həm də dövrün kommunist ideologiyasından doğan maraqla üst-üstə dü-şürdü. 1947-ci ilin fevralından 1990-cı ilin yanvarına qədər Kommunist Partiyasının üzvü olan K.Talıbzadə təbii ki, o dövrkü hakim ideologiyaya zidd mövqedən çıxış edə bilməzdi. Tədqiqatçı öz materialist baxışlarına uyğun olaraq XX əsrin əvvəllərində fəaliyyət göstərən tənqidi cərəyanların təsnifində marksist metodologiyanın prin-siplərinə ciddi şəkildə riayət etmişdi. Müəllif ədəbi tənqidi onu doğuran tarixi şəraitin ictimai-siyasi və bədii vəzifələri ilə qarşılıqlı əlaqədə nəzərdən keçirir, milli tənqidi məşğul etmiş problemləri, onun daxilində gedən ideya-estetik mü-barizələri açıb göstərirdi. Monoqrafiyanın kitab halında çapı ərəfəsində (1964) yazdığı geniş rəydə Y.Qarayev hər üç tənqidi cərəyanın təhlilinə münasibət bildirərkən «burjua tənqidi» bölümü haqqında yazırdı ki, «bu bölmə tarixən qanunauyğun, spesifik, təbii və obyektiv bir hadisə kimi mövcud olan burjua tənqidinin bədii spesifik və fəlsəfi cəhətdən hərtərəfli təhlili və şərhi deyildir, əvəzində burjua tənqidinin bəlkə yalnız tənqidindən ibarətdir.»[1] «Burjua tənqidi» adı altında isə XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin ən görkəmli nümayəndələri Ə.Hüseynzadə, Ə.Ağayev, Ə.Topçubaşov, C.Hacıbəyli, M.Ə.Rəsulzadə,

---

[1] K.Talıbzadənin şəxsi arxivi, Y.Qarayevin rəyi, 1964.

M.B.Məmmədzadə tənqid olunurdu. Bu böyük milli şəxsiyyətlər həmin dövrdə «milli mənlik şüurunu öldürmək siyasəti yeridən sovet ideologiyasının, başında rus şovinizmi dayanan dövlət maşınının siyasəti» ilə gözdən salınır, fəaliyyətləri şübhə altına alınırdı. Monoqrafiyasını sovet dövlətinin bu işğalçı siyasətinin tələblərinə uyğun yazan K.Talıbzadənin sonrakı etiraflarından birində oxuyuruq: «Yeni şərait – inqilabi ədəbiyyatı, sovet ədəbiyyatını yaratmaq uğrunda gedən mübarizə dövrün yeni ideya-estetik meyarlarını irəli sürdüyü kimi, ədəbi irsə də müna-sibətin meyarlarını müəyyənləşdirməyi bir vəzifə kimi qar-şıya qoyurdu. 20-ci illər Azərbaycan sovet ədəbiyyat-şünaslığının tarixində ilk mərhələ olsa da, çox məhsuldar, məzmunlu, bir neçə daxili qollara ayrılan mərhələdir. Indiyə qədər biz elmimizin bu mürəkkəb, ancaq çox rəngarəng mərhələsini lazımınca dəqiq, hərtərəfli qiymətləndirə, öyrə-nə bilməmişik. Əslində onun təhlilində özümüz ifrat sosio-logizmə qapılmışıq, bu isə əsl elmi həqiqətləri söyləməyə imkan verməmişdir.»[1] Hələ 70-ci illərdə alimin gəldiyi qə-naət belə idi. K.Talıbzadə mənsub olduğu ədəbi nəslin zamanın hökmü ilə uzun müddət əl-qolu bağlanmış vəziyyətdə fəalıyyəti haqqında 1990-cı ildə ürək ağrısı ilə yazırdı: «Mən və mənim nəslim belə şəraitdə yazıb nəşr olunmuşdur, ideologiya və ədəbiyyata dair bir-birinin ardınca çıxan və yerinə yetirilməsi məcburi olan qərarlar dövründə. Və hətta bir dəfə Ingiltərədə çıxan «Sentral Asian Revien» jurnalı məni Mərkəzi Komitənin qərarlarına mü-tilik

---

[1] Talıbzadə K. Sənətkarın şəxsiyyəti, Bakı, Yazıçı, 1978, s.297.

göstərən bir tənqidçi kimi pisləyəndə mən bunu öz ünvanıma bir tərif kimi qəbul etmiş və «Literaturnıy Azerbaydjan» jurnalında həmin müəllifə cavabımda bil-dirmişdim ki, bu ümumi hal partiya qərarları ilə bizim tənqidi fikrimiz arasındakı birlikdən irəli gəlir (1963, № 11-12). Bəli, biz belə yetişir, belə düşünür, belə kütləşə- kütləşə illəri ötürürdük.» [1]

Monoqrafiyanın «Marksist tənqid» bölməsində təd-qiqatçı bədii əsərin marksist metodologiyanın yüksək prinsiplərinə uyğun yazılmasnı onun başlıca məziyyəti kimi qiymətləndirən ədəbi tənqidin təhlilinə yer vermiş-dir. Həmçinin tənqid cərəyanlarının ayrı-ayrılıqda hər birinin təsnifində marksist metodologiyanın sinfilik anla-yışı, vulqar sosioloji və mexaniki münasibət əsas rol oynamışdır. Lakin buna baxmayaraq əsərin nəşrindən sonra yazılan resenziyaların bir qismində «Marksist tən-qid» bölməsində marksist tənqidin bütün məsələlərinin əhatə olunmadığı göstərilir, bu bəhsin mükəmməl işlən-məməsi, müəllifin irəli sürdüyü mülahizələri ötəri şərh etməsi monoqrafiyanın gözə çarpan qüsurları kimi tənqid edilirdi.[2] Əlbəttə, bu baxışlar sistemini marksist-leninçi ideologiyaya sədaqətli olan kommunist təfəkkürü forma-laşdırmışdı.

K.Talıbzadənin özü də marksizm mövqeyini qəbul edən bir ziyalı-vətəndaş kimi düşünür, buna görə də ədəbi-tənqidi cərəyanlara, milli estetik fikrin tarixinə münasibətdə

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s.34.

[2] Əhmədov T. Görkəmli ədəbiyyatşünas alim, «Respublika» qəzeti., 1998, 4 noyabr.

yanlışlıqlara, metodoloji sapıntılara yol verirdi. Lakin bu kimi qüsurlarına baxmayaraq «XX əsr Azərbaycan ədəbi tənqidi» monoqrafiyası tənqid tarixinin yaranması sahə-sində ilk müvəffəqiyyətli addım kimi mühüm əhəmiyyət kəsb edirdi. Litva ədəbiyyatşünası A.Sprindisin rəyində qeyd olunduğu kimi əsər yalnız Moskvada, Sankt-Peterburqda və türk respublikalarında deyil, Baltikyanı ölkələrdə də rəğbətlə qarşılanmışdı. Burada K.Talıbzadənin tənqid konsepsiyasının – üç cərəyan nəzəriyyəsinin 1905-1917-ci illər Litva ədəbi tənqidi materialında da özünü doğrultması faktı xüsusi vurğulanırdı. Özbəkistan EA-nın müxbir üzvü Q.S.Sultanov, filologiya elmləri doktoru, professor A.X.Haytmetov və filologiya elmləri doktoru M.Yunusovun imzaladıqları birgə rəydə də bu fikrin təcəssümünü görürük.[1] Tatarıstanın əməkdar elm xadimi, professor M.M.Haynullin əsər doktorluq dissertasiyası kimi müdafiə olunarkən onun avtoreferatına göndərdiyi geniş və əhatəli rəyində monoqrafiyanı «Azərbaycan ədəbiyyatşünaslıq elminə yeni töhfə» adlandırırdı.[21]

Ümumittifaq səviyyədə ədəbi ictimaiyyət tərəfindən belə yüksək qiymətləndirilən milli tənqidimizin tarixinə dair monoqrafiya 1984-cü ildə «Azərbaycan ədəbi tənqidinin tarixi» adı ilə yenidən nəşr olundu. Monoqrafiyanın bu yeni, təkmilləşdirilmiş nəşri məhz milli tənqidi təfəkkü- rün genezisi, təşəkkülü, formalaşması və tarixi inkişaf mərhələləri

---

[1] K.Talıbzadənin şəxsi arxivi, Q.S.Sultanov, A.X.Haytmetov, M.Yunusovun imzaladıqları birgə rəy.
[2] Yenə orada, M.M.Haynullinin rəyi.

haqqındakı tədqiqata xarakterik özünəməx-susluğun nəzərə alınması ilə başlanması baxımından xüsusi maraq doğurur. Hər hansı bir problemin spesifikliyini aş-karlamaq problemə onun özünün tələb etdiyi məntiqlə, taktika ilə, elmi sistemlə yanaşmaqdan başlayır ki, mo-noqrafiyanın təkmilləşdirilmiş nəşrində də bunlar bir-birini şərtləndirmiş və tamamlamışdır.

Elmi tənqidi fikrin yaranmasına qədər mövcud olan tənqidin spesifik təzahür formasını tapmaq, müəyyənləş-dirmək əsərin «Azərbaycan ədəbi tənqidinin tarixi kökləri» fəslində qarşıya qoyulan əsas məsələdir. Burada müəllif milli tənqidin tarixi kökləri problemini daha dərindən öyrənmiş, bu sahədə tədqiqatını xeyli genişləndirmişdir. Belə dərin araşdırmanın nəticələri tənqidimizin köklərini daha qədimlərə aparıb çıxarmaqla, onun tarixi hüdudları haqqında konkret təsəvvür yaratdı. Bu «ədəbi tənqid və ədəbiyyatşünaslıq Azərbaycanda uzun bir tarixə malik deyildir» deyə tənqidin yaranma tarixini inqilabdan sonrakı dövrə aid edən Ə.Nazim kimi tənqidçilərin nihilist baxış-larını alt-üst etdi.

K.Talıbzadənin geniş, zəngin, spesifik material əsa-sında yazılmış monoqrafiyası çox mühüm bir ədəbiyyat-şünaslıq vəzifəsini yerinə yetirdi, o «milli ədəbi prosesdə tənqidin yeri haqqında, onun tarixi varlğı haqqında birtərəfli, natamam münasibəti aradan qaldırdı; yetkin, inkişaf etmiş ədəbiyyatlarda olduğu kimi, Azərbaycan ədəbiyyatında da estetik və ictimai amil olaraq tənqidin həmişə iştirak etdiyini, onun çox güclü tərəflərindən birini təşkil etdiyini göstərdi.»[1]

---

[1] Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998, s.62.

Əsərin təkmilləşdirilmiş nəşrində nəzərə çarpan uğurlu dəyişikliklərdən biri də məhz kitabın «Azərbaycan ədəbi tənqidinin tarixi kökləri» adlanan birinci hissəsidir. Burada qədim və orta əsrlər tənqidi fikir tariximizin mənzərəsi aydın cizgilərlə təsvir olunur, problem baxımından geniş təhlil edilirdi. Qədim və orta əsrlərin tənqidi, nəzəri-estetik fikri haqqında dolğun təsəvvür yaradan tədqiqatçı Şərq və Azərbaycan ədəbi-estetik irsinin bu tarixi mərhələdə necə zəngin və bütöv bir estetik nəzəriyyəni təşkil etdiyini aydınlaşdırır. Ədəbi fikir tarixinin ilk sənət tarixi qədər qədimliyindən bəhs edən müəllif yazır: «Tənqidi-estetik fikrin ilk ünsürlərini özündə qoruyub saxlayan ən qədim sənət nümunəsi – şifahi xalq yaradıcılığıdır… Folklor nümunələri əsrlərlə onu yaradan və mühafizə edən xal- qın ədəbi fikir süzgəcindən keçə-keçə, dəyişib kamilləşə-kamilləşə, cilalana-cilalana gəlib zəmanəmizə çatmış (bu prosesin özü də xalq təfəkkürünün bədii materiala fəal tənqidi münasibət göstərdiyini təsdiq edir) və bu zaman özünün ilk yaranışının estetik ünsürlərini, ədəbi fikir ça-larlarını da qoruyub saxlamışdır. Buna görə də folklor – tənqidi-estetik fikrin ilk mənbəyi kimi həmişə mütəxəs-sisləri maraqlandırmışdır.» [1] Lakin müəllif milli ədəbi-estetik fikir tarixini təkcə xalq yaradıcılığı ilə məh-dudlaşdırmır, onun əsas mənbələrini sistemli şəkildə araş-dırıb təhlil edir. K.Talıbzadə monoqrafiyasında qədim və orta əsrlərdə ədəbi-nəzəri fikrin üç əsas mənbəyindən bəhs edir: şərhlər, təzkirələr və bədii

---

[1] Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi, Bakı, Maarif,

ədəbiyyat. X1 əsrdə meydana çıxan şərhlərdən Azərbaycan estetik və tənqidi fikrinin ilk janrı kimi bəhs edən tədqiqatçı göstərirdi ki, şərhlər «Azərbaycan ədəbi fikri tarixində tənqid və tən-qidçilik haqqında deyilmiş ilk mülahizələr idi və müəyyən mərhələnin bədii təhlil və tənqid prinsiplərini ifadə edirdi.»[1] Bir janr kimi «tənqid-biblioqrafiya»ya yaxın olan şərhlərin elmi vəzifəsini, ədəbi prosesdəki praktiki rolunu X1 əsr Azərbaycan filoloqu və ədəbiyyat nəzəriyyəçisi Xətib Təbrizinin «Şərh divan Əbi Təmmam» əsərindəki bir epizod daha dəqiq xarakterizə edir. Əbu Təmmamdan nə üçün başa düşülən şeir yazmadığını soruşurlar. Şair cavabın- da: « – Bəs siz nə üçün yazılanı başa düşmürsünüz?» – deyir. Burada oxucu ilə şairin dialoqu üçüncü şəxsin, – şərhçinin varlığına zərurət yaradır. Şərhçi başa düşülən şeir yazıl-ması və yazılan şeirin başa düşülməsi istəyi və tələbi arasındakı ixtilafı nizama salan vasitəçiyə çevrilir, yəni ədəbi proseslə oxucu kütləsi arasında müəyyən ünsiyyət yaradır. Tədqiqatçı şərhi tənqidi fikrin ilk janrı, şərhçiləri ilk tənqidçilər kimi təqdim edir, şərh ilə tənqidin, şərhçi ilə tənqidçinin ümumi, oxşar və fərqli cəhətlərini müəy-yənləşdirir. K.Talıbzadənin elmi konsepsiyası professional realist ədəbi tənqidin təşəkkülünə qədər milli ədəbi-estetik fikrin tarixi təcrübəsinə, onun müasir tənqid məktəbinin formalaşması üçün bir qaynaq, zəmin roluna verilən yeni icmal və qiymət kimi xüsusi maraq doğurur. Müəllif ədəbi tənqid haqqında ilk fikir söyləmiş Azərbaycan

---

1984, s.7.

[1] Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi, Bakı, Maarif, 1984, s.12.

alimləri Xətib Təbrizi, Eyn əl Quzat və Yusif Xoylu kimi şərhçi- lərin yaradıcılıqları əsasında elmi ümumiləşdirmələr apa- rır, yazılı ədəbi-estetik fikrin ilk mərhələsini əsərlərini ərəbcə yazmış bu müəlliflərin adı ilə bağlayırdı. Tənqid və tənqidçi haqqında ilk fikirlərin söyləndiyi bu dövrün ədəbi mənzərəsinin düzgün elmi təhlilini verən tədqiqatçı şərhçilərin yalnız şərh yazmaqla kifayətlənmədiklərini, şərhin funksiyası, onun məqsəd və vəzifələri, predmeti barədə fikir və mülahizələr irəli sürdüklərini, şərhi qram-matik təhlildən çıxarıb ona ədəbi təhlil xarakteri ver-diklərini milli estetik fikrimizin inkişafı zəminində ilk addımlar kimi qiymətləndirir. Xətib Təbrizi, Eyn əl Quzat və Yusif Xoylunun simasında N.Gəncəviyə qədərki milli ədəbi-estetik fikrin uğurlarından danışan tədqiqatçı Nizami dövrünü Şərq ədəbi-estetik fikrinin yüksəliş mərhələsi kimi dəyərləndirirdi. Ədəbi-tənqidi fikrin ancaq poetik əsərlərdə ifadə olunduğu bu dövrdən ədəbi fikrin yeni mərhələsi kimi bəhs edən K.Talıbzadə Nizami və onun müasirləri- nin ədəbi-estetik görüşlərindən danışmaqla nəinki X11 əsrin, bütövlükdə orta əsrlərin milli estetik təlimi haqqın-da konkret məlumat verirdi. Nizaminin ədəbi görüşlərini xüsusilə geniş təhlil edən tədqiqatçı göstərir ki, Nizaminin sənət haqqında fikirlərindən bəhs etmək əslində X11 əsr Azərbaycan və Yaxın Şərq ədəbi fikrinin ümumi isti-qamətindən və əsas məsələlərindən bəhs etmək deməkdir, onun ümumi inkişaf səviyyəsini təyin etmək deməkdir.[1]

---

[1]Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi, Bakı, Maarif, 1984, s.18

K.Talıbzadəyə görə sənətin təsvir obyekti, onun həyata münasibəti, sənətlə ictimai həyat arasındakı əlaqə-nin düzgün əks etdirilməsi, həqiqətin və gerçəkliyin bədii əsərin ən mühüm, başlıca mövzusu kimi başa düşülməsi Nizaminin ədəbi-estetik görüşlərinin əsasını təşkil edir. Ədəbiyyatın gerçəkliyə münasibəti məsələsi isə böyük şairin yaradıcılıq metodlarına yanaşma prinsipini aydınlaşdırmaq imkanı yaratmaq baxımından Nizami estetikasının daha vacib məsələlərindən biri kimi dəyərləndirilirdi. Tədqiqatçı məsələnin elmi şərhində şairin əsərlərindən gətirilən konk-ret nümunələrə istinad edir, təhlilini daha da dərinləşdirir və dəqiqləşdirirdi. K.Talıbzadə təhlilində belə bir düzgün nəticəyə gəlirdi ki, Nizaminin ədəbi-estetik görüşləri onun öz sənətkar taleyinin müəyyənləşməsində əhəmiyyətli rol oynamış, dahi şairə sözün və söz sənətinin qüdrətini artırmaq, təsirini qüvvətləndirmək, şeirin sənətkarlığını yüksəltmək imkanları vermiş, nəhayət, onun böyük ədəbi sima kimi dünya korifeylərindən biri səviyyəsinə yüksəl-məsini şərtləndirən əsas amillərdən olmuşdur.

Monoqrafiyada XIII-XVIII əsrlərdə ədəbi fikrin inkişafından bəhs etdiyi məqamlarda tədqiqatçı bu dövrdə yaranan ədəbiyyatın səciyyəvi xüsusiyyətlərinə diqqəti yönəldir. Orta əsrlərin bu mərhələsində tənqidi fikrin ədəbi prosesə müdaxiləsinin fəallığının qüvvətlənməsini K.Talıbzadə dövrün alimlərinin köhnə ənənədən uzaqlaşıb əsərlərini Azərbaycan dilində yazması və nəticədə ədəbi fikrin təsir dairəsinin genişlənməsi ilə əlaqələndirir. Bu möhtəşəm ədəbi mərhələdə ədəbi-estetik fikrin əsas janrları kimi poetika, risalə

və traktatlardan söz açan alim eyni zamanda təzkirə və bədii əsərlərin də bu janrlarla məvazi yaşayıb, bir-birinə qarşılıqlı təsir göstərərək inkişaf etdiyin-dən danışır. Ədəbiyyatşünas N.Şəmsizadə K.Talıbzadəyə həsr etdiyi tədqiqat əsərində bu janrların sırasında divan-ların «Dibaçə»lərini də göstərir.[1] Belə zənn edirik ki, buraya cüngləri, həmçinin folklorda ustadnamələri də əlavə etmək olar.

Orta əsr mənbələrindəki ədəbi terminlərdən bəhs edərkən tədqiqatçı tənqid termininin «qiymətləndirmək», «fərqləndirmək», «seçmək» mənalarını ifadə edən «nəqd», yaxud «elmi-nəqd» şəklində işləndiyini göstərir. O, Nəsi-rəddin Tusi, Vəhid Təbrizi, Şərəfəddin Rami, Sadiq Bəy Sadiqi, Əssar Təbrizi və başqa görkəmli ədəbiyyatşünas və nəzəriyyəçilərin əsərlərində nəqd tənqidin bir elm sahəsi kimi formalaşdığını mışahidə etməklə dövrün tənqid nəzə-riyyəsinin konkret elmi mənzərəsini yaradır.

Orta əsrlər ədəbi fikrini təhlil edərkən bu dövrün estetik görüşlərində iki əsas üslub – realist («şeiri-sidqi») və romantik («şeiri-kizbi») üslublar haqqında fikirlər də tədqiqatçının diqqətindən yayınmamışdır. Burada varlığı bir-birinə zidd mövqedən əks etdirən bu təsvir üsullarının mahiyyət və məğzi müəyyənləşdirilir, onların əsas xüsu-siyyətləri haqqında bəhs edilir. K.Talıbzadə bu dövrün mütəfəkkirlərinin əsasən «şeiri-kizbi»yə üstünlük verdi- yini, Nəsirəddin Tusinin «Əsasül-iqtibas» əsərində bu iki üslubu qarşılaşdıraraq «kizb»ə üstünlük qazandırdığını, Firdovsi, Nizami, Xaqani kimi ədiblərin «kizb»

---

[1] Şəmsizadə N. Türk təfəkkürü məcrasında, Bakı, Təhsil, 1998, s.68.

üslubunda yazdığını göstərir, «sidqi»nin də Azərbaycan alimləri Şərəfəddin Rami Təbrizi və Əlişah ibn Mehdi kimi tərəf-darları olduğunu nəzərə çatdırırdı. Tədqiqatçı eyni zamanda orta əsrlərin görkəmli mütəfəkkirləri Qurqani və Ibn Sinanın da hər iki yaradıcılıq üsulunun əsas xüsu-siyyətlərinin təhlilində «şeiri sidqi»ni məhdud və birtərəfli üsul kimi qiymətləndirdiklərini, son dərəcə geniş imkan- lara malik «şeiri kizbi»ni təqdir etdiklərini qeyd edirdi.

Nizamidən sonra onun yaradıcılıq ənənələrinin davam etdirilməsi, dahi şairin ədəbi irsinə münasibət bildirilməsi barədə K.Talıbzadə tənqidi fikrin əsas inkişaf tərəflərindən biri kimi danışır. Tədqiqatçı burada əsasən Nizami mək-təbinin layiqli davamçısı XIV əsr şairi Arif Ərdəbilinin görüşlərinə diqqəti cəlb edir. Onun məşhur «Fərhadnamə» əsərində «Xosrov və Şirin» mövzusuna Nizami ilə özünün yanaşma prinsiplərinin, təsvir üsullarının təhlilində şairin ədəbi mövqeyinin daha aydın nəzərə çarpdığını qeyd edən tədqiqatçı yazır: «Arif Ərdəbilinin ədəbi-estetik prinsipləri Nizamiyə münasibət bildirilən məqamlarda müəyyənləşir.»[1] XIV əsr şairi Arif Ərdəbilinin dahi sələfinə danılmaz sevgisi və pərəstişi, vurğunluq və hörməti onun ədəbi görüşlərinin qeydsiz-şərtsiz qəbul edilməsinə gətirib çıxarmır, əksinə, şair eyni mövzuya Nizami ilə özünün fərqli münasibətindən söhbət açır, «Xosrov və Şirin» poemasını fəsil-fəsil təhlil edib, öz ədəbi mövqeyini bildirirdi. K.Talıbzadəyə görə Nizami ilə A.Ərdəbili arasında fikir ayrılığı ilk növbədə mövzu və onun

bədii həlli problemi ilə bağlı olduğun- dan A.Ərdəbilinin məqsədi «Xosrov və Şirin» poema- sının sözün müasir mənasında tənqidi təhlilini verməkdən daha çox özünün ədəbi-nəzəri mövqeyini və prinsiplərini əsaslandırmaqdan ibarət idi. Tədqiqatçı eyni zamanda bu ədəbi-bədii polemikada tənqidi fikrin özünəməxsus təza-hürünü görür, onu milli tənqidi fikrin xarakterik inkişaf xüsusiyyəti kimi mənalandırırdı. K.Talıbzadə Nizaminin sənət görüşlərinin tənqidində bəzən hədsiz subyektivizmə yol verməsinə baxmayaraq A.Ərdəbilinin gerçəkliyi, həyat hadisələrini real şəkildə əks etdirməyə çağırışında öz dövrü üçün mütərəqqi mahiyyət daşıyan rasional cəhətlərin də olduğunu nəzərə çatdırır və bunu təhlilində əsaslandıra bilirdi.

XIII-XVIII əsrlər ədəbi-estetik fikrini tədqiq edərkən müəllif bu möhtəşəm ədəbi mərhələnin tənqidində bir sıra keyfiyyətlərə – ənənəyə münasibət, bədii təsvirdə əqli başlanğıcın roluna əhəmiyyət vermək, xəyali və real tərəf-lərin nisbətini gözləmək və digər məsələlərə xüsusi diqqət yetirir, araşdırmalarını bu istiqamətdə aparırdı. O, Niza-midən sonrakı dövrdə Azərbaycan ədəbi-estetik fikrinin inkişafında I.Nəsimi, M.Füzuli kimi böyük şairlərin xid-mətlərindən danışarkən milli estetik fikrin bu dahi söz ustalarının yaradıcılıqları ilə yeni bir mərhələyə yüksəldiyini qeyd edir, onların görüşləri haqqında nisbətən yığcam məlumat verməklə kifayətlənir.

Orta əsrlərin ədəbi-estetik görüşləri elmi yalnız bədii ədəbiyyatda öz əksini tapan fikir və mülahizələrlə məh-

---

[1] Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi, Bakı, Maarif,

dudlaşmır. Belə ki, bu dövrdə professional ədəbi elm inkişaf edir, ədəbiyyat nəzəriyyəsi məsələlərini əhatə edən poetika risalələri, fəlsəfi traktatlar, şərq ədəbiyyatı tarixini işıqlandıran təzkirələr yazılırdı. Bu elmi-nəzəri əsərlərin Nəsirəddin Tusi, Şərəfəddin Rami, Vəhid Təbrizi, Sam Mirzə, Əssar Təbrizi, Sadiq bəy Sadiqi, Lütfəli bəy Azər kimi müəllifləri K.Talıbzadənin qeyd etdiyi kimi, ədəbiyyat nəzəriyyəsi və ədəbiyyat tarixini yaratmaqla məşğul ol-muşlar. Tədqiqatçı burada nəzəriyyəçi Şərəfəddin Rami- nin «Ənisül-üşşaq» kimi estetik, «Həqayiqül-hədayiq» kimi poetik risalələrini, Vəhid Təbrizinin «Risaleyi-cəmi-müxtəsər» əsərini, Nəsirəddin Tusinin «Əsasül-iqtibas», «Meyarül-əşar» əsərlərini, Əssar Təbrizinin «Əl vafi fi tedadül-qəvafi» («Qafiyələrin sayı haqqında təfsilat») əsərini dövrə aid ən əhəmiyyətli mənbələr, dəyərli nümu-nələr kimi qiymətləndirir. K.Talıbzadə Azərbaycanlı təzki-rəçilərin əsərlərini də diqqətlə təhlil etmişdir. Ədəbi-tarixi fakt baxımından əhəmiyyətli olan təzkirələrdə Şərq və Azərbaycan şairlərinin əsərləri təhlil olunur, yaradıcılıqları qiymətləndirilirdi. Tədqiqatçı bu ədəbi janrın görkəmli yaradıcılarından Sadiq bəy Sadiqi Əfşarın «Məcməül-kəvas», «Təzkirətüş-şüəra», «Risalə dər babi-əşari-Feyzi» əsərlərindən, Sam Mirzə Səfəvinin «Töhfətül-Sami» təz-kirəsindən, Lütfəli bəy Azər Bəydilinin «Atəşgədə» adlı zəngin təzkirəsindən daha uğurlu nümunələr kimi bəhs edir.

Müəllif qədim və orta əsrlər ədəbi-estetik fikri haq-qında mülahizələrini ümumiləşdirdikdən sonra ədəbi tənqi-din yeni

---

1984, s.25.

dövrünə – XIX əsr mərhələsinə diqqət yetirir. K.Talıbzadə bu mərhələnin tənqidi fikrinin təhlilinə daha geniş yer verir, XIX əsrdə tənqidin Azərbaycan ədə-biyyatında xüsusi, müstəqil bir sahə kimi təşəkkülündən danışır. Bu dövrdə tənqid özünün tarixi kökləri və mənbələri əsasında formalaşıb, ədəbiyyatın inkişafında başlıca ictimai və estetik amilə çevrilirdi. Tədqiqatçı XIX əsr tənqidini onun əsas ideya-estetik məzmununa görə maarifçi-realist tənqid kimi təqdim edir, bu tənqid kon-sepsiyasının yaranmasından və inkişaf istiqamətlərindən söz açır. Ədəbiyyatşünas Ş.Salmanov monoqrafiyada X1X əsr ədəbi tənqidinə həsr olunmuş bölmənin nəzəri nəticələri, elmi ümumiləşdirmələri haqqında qeyd edir ki, «müasir ədəbiyyatşünaslığımızın 60-70-ci illərdə milli realizmin mərhələ və tip təsnifi sahəsində işləyib hazırladığı kon-sepsiyaya əsaslanan bu elmi ümumiləşdirmə monoqra-fiyada bütün XIX əsr tənqidinin, o cümlədən daha çox M.F.Axundovun tənqidi irsinin, onun estetik baxışlarının geniş təhlili ilə müfəssəl və əhatəli şəkildə təsbit olunur.»[1] K.Talıbzadənin qənaətinə görə, dövrün ədəbiyyatşünas-lığını yaradan Mirzə Əbdül Kərim Irəvani, Əbdürrəzaqbəy Xoylu, Məhəmmədhəsən xan Etimadüssəltənə, Bəhmən Mirzə kimi müəlliflərin əsərlərində müxtəlif ədəbiyyat məsələlərinə toxu-nulsa da onlar orta əsrlər tənqidinin çərçivəsində fəaliyyət göstərir, yeni əsrin tələblərinə tam cavab vera bilmirdilər. Yeni dövrün ədəbi fikrinin ilk əlamətlərini Azərbaycan maarifçiləri A.Bakıxanov, M.Ş.Va-zeh və Z.Şirvaninin əsərlərində görən

---

[1] Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998, s.67.

tədqiqatçı realizmə bu ilk meylləri diqqətlə araşdırır, həmin görkəmli şəx-siyyətlərin yaradıcılığı əsasında XIX əsrin əvvəllərində formalaşmağa başlayan yeni ədəbi fikrin mənzərəsini işıqlandırırdı. Burada yeni dövrün ilk mütəfəkkirlərindən biri A. Bakıxanov, zəngin ədəbi mülahizələri ilə diqqəti cəlb edən M.Ş.Vazeh, görkəmli maarifçilərdən olan Z.Şir-vani kimi ədiblərin görüşləri təhlil süzgəcindən keçirilir, ədəbi fikrin inkişafında konkret rolu müəyyənləşdiri- lirdi. K.Talıbzadə təhlilində Zeynalabdin Şirvanini Axun-dov maarifçiliyinə keçid dövrünün bir çox xüsusiyyətlərini ədəbi görüşlərində əks etdirən bir alim kimi daha yüksək dəyərləndirirdi.

Müəllif müstəqil janr kimi yaranmağa başlayan ədəbi tənqidin yetkin təzahürünü isə M.F.Axundovun görüşləri əsasında izah etməklə, eyni zamanda realizmin nəzəri məsələlərini üzə çıxarıb elmi cəhətdən ümumiləşdirirdi. O, maarifçi-realist tənqid konsepsiyasının yaranmasında M.F.Axundovun əvəzsiz xidmətlərindən, böyük mütəfək-kirin yaratdığı tənqid məktəbinin maarifçi-realist ədəbiyyat uğrunda mübarizəsindən geniş planda bəhs edir, bu kimi mühüm ədəbiyyatşünaslıq məsələlərinin uğurlu həllinə nail olurdu. Onu da qeyd edək ki, K.Talıbzadəyə qədər də M.F.Axundovun ədəbi-tənqidi görüşləri tədqiq edilmiş, bu mövzuda bir sıra əsərlər yazılmışdı. Bunlardan M.Arif, F.Qasımzadə, M.Cəfər, C.Cəfərov, M.M.Qasımov, M.Rə-fili, Ş.Mirzəyeva, N.Məmmədov və başqa tanınmış tədqi-qatçıların əsərlərini dəyərli nümunələr kimi göstərmək olar. Bu əsərlərdə M.F.Axundovun estetik görüşləri nəzərdən keçirilir, XIX əsrin

böyük mütəfəkkirinin ədəbi-tənqid haqqında fikir və mülahizələri araşdırılır, təhlil edilirdi. Axundov tənqidinə həsr olunmuş həmin əsərlər sırasında görkəmli tənqidçi M.Cəfərin fundamental tədqiqatı – «M.F.Axundovun ədəbi-tənqidi görüşləri» monoqrafiyası (1950) xüsusilə diqqəti cəlb edirdi. Burada Axundovun görüşləri milli tənqidin təşəkkülü, ədəbiyyatşünaslıq prob-lemlərinin həlli zəminində öyrənilmiş, onun estetikasının bir sıra məsələləri diqqətlə araşdırılmışdı. Ümumiyyətlə, K.Ta-lıbzadəyə qədər Axundovun ədəbi görüşlərindən bəhs edən müəlliflər, alimin özünün qeyd etdiyi kimi, yazıçının yalnız məşhur ədəbi-tənqidi əsərlərini, bəzi məktublarını, məlum fəlsəfi traktatını nəzərdə tutduqlarına görə böyük mütə-fəkkirin sənətə baxışını tam şəkildə öyrənib, onun bütün tərəflərini işıqlandıra bilməmişdilər. K.Talıbzadə isə yazıçının bilavasitə ədəbiyyat məsələlərinə həsr olunmuş əsərlərindən başqa bir sıra mühüm mənbələri – müasirlərinə yazdığı və ona yazılmış məktubları, tarixi, siyasi-ictimai, fəlsəfi məqalələrini, ədibin öz bədii əsərlərini, kitabxana-sındakı külli miqdarda bədii, elmi-nəzəri kitabları və digər materialları araşdırmaqla Axundovun estetik görüşləri haqqında bütöv təsəvvür yaradır, bu görüşlərdən profes-sional milli tənqidin inkişafında başlanğıc mərhələ kimi söhbət açır, onun milli estetik təfəkkürün tarixində, tən-qidin tərəqqisində rolunu yüksək qiymətləndirirdi. Müəllif Axundovun ədəbi-tənqidi görüşlərindən söz açmazdan əvvəl onun ictimai və fəlsəfi dünyagörüşündən bəhs edir ki, monoqrafiyada yazıçının tənqidi məhz bu görüşlərlə əlaqəli şəkildə araşdırılır, onun ədəbiyyata, sənətin predmet və vəzifələrinə

münasibəti də bu aspektdə öyrənilirdi. Təd-qiqatçı qeyd edir ki, siyasi görüşləri ilə fransız və rus maarifçilərinə, fəlsəfi baxışları ilə Budda, Əbdürrəhman Cami, Şeyx Mahmud Şəbüstəri kimi Şərq, Ksenefon, Petrark, Volter kimi Qərb filosoflarına yaxın olan Axundov estetikanın problemlərini də bu mövqedən izah edirdi. Bu maarifçi, elmi-fəlsəfi baxışları yazıçını Yaxın Şərqdə ədəbi fikrin yeni mərhələyə yüksəlməsi üçün mühüm xidmətlər göstərməyə – maarifçi realist ədəbi tənqidin təməlini yaratmağa sövq etdi.

Monoqrafiyada Axundovun tənqidi irsinin, estetik təfəkkürünün təhlilində K.Talıbzadə əhatəli tədqiqat apar-mış, bu irsin bütün konseptual xarakterli məsələlərini işüqlandıra bilmişdir. Müəllifin xüsusi diqqət yetirdiyi ədəbi-tarixi əhəmiyyətli məsələləri isə qısa şəkildə Axun-dovun tənqidinin mənbələri, söykəndiyi ədəbi-tarixi ənənə, əsaslandığı material, bu tənqidin mövzusu, predmeti, prob-lemləri, əsas estetik kateqoriyaları kimi xülasə etmək olar.

M.F.Axundovun ədəbi konsepsiyasının formalaşma-sında mühüm mənbələrdən danışarkən K.Talıbzadə Şərqin yetirməsi olan böyük yazıçı və tənqidçinin estetik təfək-kürünün təşəkkülündə məhz Şərq estetik fikrinin nailiy-yətlərindən xüsusi bəhs edir, ədibin milli ədəbi irsimizə – Nizami, Xaqani, Nəsimi, Füzuli, Əssar, Vaqif, Bakıxanov, Vazeh və Zakirin görüşlərinə mühüm qaynaqlar kimi istinad etdiyini bildirir. Burada Şərq mənbələri ilə yanaşı rus və Avropa elmi, fəlsəfi və ədəbi fikrinə dair məxəzləri araşdırıb onlardan yaradıcı şəkildə bəhrələnməsi Axun-dovun görüşlərinin formalaşmasına təkan verən amillərdən biri kimi qiymətləndirilir. Yazıçının

ideya mənbələrindən, rus ədəbi fikri ilə əlaqələrindən danışarkən müəllif onun görkəmli rus tənqidçiləri N.A.Dobrolyubov və V.Q.Be-linskiyə münasibəti haqqında xüsusi bəhs edir, Axundovun ilk dəfə ədəbiyyata münasibət bildirdiyi Puşkinin ölümünə həsr olunmuş poemada rus klassiklərinin mövqelərini düzgün qiymətləndirməsini də onun rus ədəbiyyatı və tənqidiylə yaxından tanışlığı ilə izah edirdi. Axundov tənqidinin yarandığı dövrün spesifikasına toxunan K.Talıbzadə bu mərhələdə Azərbaycanda epiqonçu ədəbiy-yatın, mərsiyyə şeirinin davam etdiyini, realizmin təzəcə təşəkkül tapdığını, Vaqif, Zakir, Şakir kimi realist meylli şairlərin ədəbi mövqeyinin hələ izah olunmadığını yazır-dı. Axundovun realist ədəbi tənqidi belə bir dövrdə formalaşır, epiqonçu ədəbiyyata qarşı çıxmaqla yanaşı, realizmin təşəkkülü uğrunda mübarizə aparırdı; böyük mütəfəkkir «realist ənənələrin əhəmiyyətini, faydasını ay-dınlaşdırır və bu ənənələri yeni məzmunda inkişaf etdirmək zərurətini göstərirdi.»[1]

K.Talıbzadə monoqrafiyasında Axundovun görüşlə-rini tədqiq edərkən problemin bu cəhətinə xüsusi diqqət yetirir, onun realist konsepsiyasını aydınlaşdırmağa çalışır, yazıçının görüşlərində və bədii əsərlərində realizmin təza-hürünü göstərirdi. Həqiqətən də Axundov tənqidinin və estetikasının başlıca problemi olan realizm onun sənət nəzəriyyəsinin əsasını təşkil edir. Yazıçının fikrincə sənət əsərində «xilafi-vaqe», yəni real həyata zidd bir şey, anti-realizm olmamalıdır, bunun

---

[1] Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998, s.70.

əvəzində sənətdə «mütabiqi-hal» təzahür etməlidir. Onun ədəbi anlayışında realizm termini kimi «mütabiqi-hal», «müvafiqi-övza», «kəma hüva həqqəhu» ifadələri işləndiyini qeyd edən K.Talıbzadə Axundovun realist sənət haqqında fikirlərini məhz bu terminlər vasitəsilə müasirlərinə çatdırdığını bildirir. K.Talıbzadəyə görə Axundovun tənqidi onun sənət nəzəriy-yəsinin ifadə formasıdır ki, onun da mərkəzində duran əsas problem realizmdir. Yazıçı bu metodun ayrı-ayrı prinsiplərini vahid bir konsepsiya əsasında şərh edir, öz realist nəzəriyyəsində maarifçi realizm mövqeyində dayanır, bu məsələnin həlli uğrunda ardıcıl mübarizə aparırdı. Gerçəkliyi sənətin əsas təsvir obyekti hesab edən Axun-dova görə hərhansı bir təsvir ağlın tələblərinə uyğun olmalıdır. O, məhz bu tezisdən çıxış edərək realizmin prinsiplərini müəyyənləşdirməyə çalışırdı. K.Talıbzadə təd-qiqatında bu cəhətə xüsusi diqqət yetirmişdir. Müəllif monoqrafiyada Axundov tənqidinin bütün məsələlərini onun realizm nəzəriyyəsi əhatəsində araşdırır; burada yalnız realizmin tipiklik, həyatilik, ideyalılıq, bədii satira kimi əsas məsələlərini öyrənmir, həm də ədəbiyyat və incəsənətdə forma və məzmun, onların qarşılıqlı əlaqəsi, Azərbaycan və Şərq ədəbiyyatının görkəmli klassikləri haqqında fikirləri kimi sənətin ümumi nəzəri məsələ-lərini də realizm aspektində izah edirdi. Tədqiqatçı Axun-dov tənqidinin M.Füzuliyə münasibəti ilə bağlı məqamları da diqqətlə tədqiq edir, bu haqda deyilmiş fikir və müla-hizələri dəlillər əsasında dəqiqləşdirirdi. «Füzuli şair deyil və xəyalatında əsla təsir yoxdur» deyə böyük ədəbi şəxsiyyəti Şərq klassiklərinin

cərgəsindən ədalətsizliklə ayırmasında K.Talıbzadə Axundovun haqsızlığını qeyd edirsə, digər tərəfdən dahi şairə münasibətdə Axundova şərti bəraət qazandıran bəzi obyektiv-tarixi məqamları açıqlayır. O, Axundovun ilk növbədə realizmi əsaslandırmaq, onun milli ədəbi prosesdə mövqeyini möhkəmləndirmək üçün bu üsuldan istifadə etdiyini, romantizmin şöhrətini, nüfuzunu qırmaq, romantik ədəbiyyatın möhkəm kök salmış estetik müddəalarına qarşı çıxmaq üçün Füzuliyə kəskin müna-sibət bildirdiyini qeyd edir. Tədqiqatçı bu münasibətin əslində Füzulinin özündən çox onun poeziyasının təsiri ilə yaranan epiqonçu nəzmə aid olduğunu göstərməkdə və əsaslan-dırmaqda tamamilə obyektiv və düzgün mövqe tuturdu. Axundovun M.Füzuliyə münasibətinin roman-tizmlə əlaqələndirildiyi məqamlarda isə müəllifin gəldiyi nəticə bir qədər mübahisəli təsir yaradır. Zənn edirik ki, Axundov kimi böyük mütəfəkkir milli ədəbi prosesdə realizmin mövqeyini möhkəmləndirmək xətrinə də olsa Füzuli kimi dahi sənətkarı təkcə romantik şair olduğuna görə inkar etməzdi. Doğrudur, yeni məktəb yaradan Axun-dov realizmi əsaslandırmaq üçün özündən əvvəlki məktəbin – həm də əsrlərlə davam edən romantizmin təsirinə qarşı mübarizə aparmışdı, lakin, Füzulinin şöhrətini heçə endir-məyi bu ədəbi mübarizə üsullarından, yollarından biri kimi seçməmişdi. Ona görə ki, Axundov kimi böyük yazıçı-tənqidçi «romantik poeziyanın məziyyəti və ləyaqətini başa düşməmiş deyildi: bunu onun yaradıcılığını bəyəndiyi, təqdir etdiyi romantik

şairlərə münasibəti də yaxşı gös-tərir.»[1] Bədii yaradıcılıqlarında romantik metodla sıx bağlı xüsusiyyətlər nəzərə çarpan Şərq, rus, eləcə də Avropa ədəbiyyatının bir sıra ğörkəmli yazıçıları Axundovun əsər-lərində misilsiz söz inciləri yaradan sənətkarlar kimi dönə-dönə təqdir olunurdu. Əsərlərində romantik üslubi çalarlar aydın şəkildə özünü birüzə verən Nizami, Hafiz, Fir-dovsi və Şekspir «xilafi-təbiətü adət» yazdıqlarına, yəni romantizmə meylli olduqlarına baxmayaraq Axundov bu böyük sənətkarlara müsbət münasibət bəsləmişdir. Görün-düyü kimi, Axundovu Füzuli yaradıcılığının romantik tərəfi deyil, digər xüsusiyyətləri təmin etmirdi. Bu xüsusiyyət-lərdən ən üzdə görünəni isə ədəbiyyatşünas Ş.Salmanovun qeyd etdiyi kimi, Axundovun daha çox poeziyada məzmun və forma münasibətləri barədə görüşləridir ki, yazıçı Füzuli poeziyasının məhz məzmun tərəfinə qane ola bilməmiş, bu cəhət onu dahi şairi nəzm ustası adlandırmağa sövq etmişdir.[1] Füzuli yaradıcılığına Axundovun birtərəfli müna-sibəti tənqid tariximizin mürəkkəb problemlərindən biri kimi K.Talıbzadənin təhlillərində düzgün əksini tapmışdır.

K.Talıbzadəni Axundovun realist ədəbiyyatın tənqidi istiqaməti haqqında nəzəri görüşləri ciddi şəkildə maraq-landırmış, onun M.P.Vaqif və Q.Zakir kimi şairlərin yara-dıcılıqlarına münasibətini də bu prinsip baxımından tədqiqə cəlb etmişdi. Axundov M.P.Vaqifin real həyat və təbiət hadisələrini ədəbiyyata gətirməkdə, milli ədəbiyyatımızda

---

[1] Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998, s.71.

realizmin gələcək inkişafı üçün möhkəm zəmin yaratmaqda əvəzsiz rolunu təqdir edir, Q.Zakirin öz yaradıcılığında bu realizmi bir qədər də qüvvətləndirdiyini, onun tənqidi istiqamət almasında mühüm xidmətlər göstərdiyini vurğu-layır və bunu yüksək dəyərləndirir. Axundovun istər şeirə, dram və roman janrlarına münasibətinin, istərsə də «Kəmalüddövlə məktubları» və bir sıra tənqidi əsərləri-nin təhlilində müəllif ədibin maarifçi realist mövqeyini ön plana çəkir, onun tənqidi görüşlərini bu aspektdə izah edirdi. Axundovdan sonra onun zəngin irsi milli ədəbi-estetik fikrin gələcək inkişaf perspektivlərini müəyyənləş-dirmişdir. Bu mühüm ədəbiyyatşünaslıq hadisəsinə diqqəti yönəldən K.Talıbzadə Axundovun özündən sonrakı estetik təsirindən monoqrafiyada XIX əsr tənqidinə aid fəslin «M.F.Axundovun tənqid məktəbinin maarifçi-realist ədə-biyyat uğrunda mübarizəsi» bölməsində geniş şəkildə bəhs edir. Mətbuatın yoxluğunun, nəşriyyat işlərinin son dərəcə zəif olmasının Axundov tənqidinin geniş yayılmasına mane-çilik törətdiyini, nəticədə ədəbi fikrin inkişafını ləngitdiyini qeyd edən tədqiqatçı bu amillərin onun tənqidinin əsas müddəalarının realist ədəbiyyatın inkişafındakı roluna təsir göstərə bilmədiyini yazır. Çünki, yazıçının müasirlərinə yazdığı məktublar, öz əsərlərinə yazdığı müqəddimələr, şəxsi tanışlıqlar, bilavasitə bədii əsərlərinin özü onun realist tənqid konsepsiyasının yayılmasına səbəb olmuş, mütərəqqi ideyaları şüurlara yol tapmışdı. Monoqrafiyada əsasən bu real təsirin sonrakı ədəbi inkişafda

---

[1] Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998, s.72.

təzahüründən danışılır, Axundov tənqidinin milli estetik fikir tarixində konkret rolu müəyyənləşdirilir.

M.F.Axundovun fəaliyyətindən sonrakı mərhələdə bədii yaradıcılıq nümunələri yalnız ictimai rəydən sonra ədəbi həyata vəsiqə alırdı. Bu mərhələdə H.Zərdabi, N.Vəzi-rov, Q.Kəngərli, S.Ə.Şirvani, Əhsənül Qəvaid, Z.Marağayi, M.Talıbov, H.Qaradaği və hətta, N.Nərimanov, F.Köçərli, M.T.Sidqi və başqaları kimi görkəmli söz ustaları məşhur sələflərinin tənqid ənənələrini davam, bir çox məsələlərdə isə inkişaf etdirirdilər. Lakin bu şəxsiyyətlər X1X əsrin 80-90-cı illərindəki fəaliyyətləri dövründə ədəbi konseptuallıq və fəlsəfi ardıcıllıq baxımından Axundov səviyyəsinə yüksələ bilməmişdilər. M.F.Axundovdan sonra ədəbi tənqidin əha-tə etdiyi məsələləri, onun istiqamətini, nəzəri axtarışlarını aydın göstərən H.Zərdabinin redaktoru olduğu ilk milli mətbuat orqanı «Əkinçi» (1875-1877) qəzeti idi. «Əkin-çi»nin maarifçilik görüşləri uğrunda mübarizəsini təhlil edərkən K.Talıbzadə burada söz sənəti, ədəbiyyat qarşı-sında qoyulan tələblərin, realizm haqqında irəli sürülən fikir və mülahizələrin Axundovun tənqid konsepsiyasına əsaslandığını göstərir. Tədqiqatçı «Əkinçi»nin realist ədə-biyyatın ideya-bədii prinsiplərini müdafiə etmək, onun gələcək inkişafı üçün zəmin yaratmaq, öz dövründə ədəbi ictimaiyyətə düzcün istiqamət göstərmək baxımından əhə-miyyətli rolunu yüksək dəyərləndirirdi. Qəzetin tutduğu düzgün istiqamətin özündən sonrakı mətbuatın inkişafına, onun ədəbi yolunun müəyyənləşməsinə də ciddi təsir gös-tərdiyi burada xüsusi vurğulanırdı. «Əkinçi»dən sonra döv-rün «Ziya» (davamçısı

«Ziyayi-Qafqaziyyə» (1879-1884), «Kəşkül» (1883-1891), «Kaspi» (1831-1919), «Kavkaz», (1846-1918), «Şərqi-Rus» (1903) kimi milli mətbuat orqan-larının səhifələrində maarifçi-realist ideyaları ilə çıxış edən qabaqcıl maarifçilərin, eləcə də əsrin ikinci yarısında fəa-liyyət göstərən ədəbi məclislərin təzə meyllərə istiqamət-lənməsini tədqiqatçı ədəbi mübarizələrin yeni ədəbiyyatın xeyrinə həllində zəmin rolunu göstərir və təhlili ilə əsas-landırırdı.

Monoqrafiyanın XIX əsrə aid fəslində K.Talıbzadə Axundovun realist ənənələrinin dərki, qiymətləndirilməsi, onun tənqidi irsinin qorunub saxlanması, tənqid məktə-binin davam etdirilməsi kimi məsələlərə aydınlıq gətir-məklə, eyni zamanda XX əsr Azərbaycan ədəbi tənqidinin hansı özül üzərində yüksəlməsi haqqında da konkret elmi təsəvvür yaratmağa müvəffəq ola bilmişdir. Tədqiqatçı XX əsrin əvvəllərini Axundovdan sonrakı dövrlərdə milli tən-qidin ən yüksük və zəngin inkişaf mərhələsi kimi səciy-yələndirir, 1900-1920-ci illərin tənqidi mənzərəsini diqqətlə araşdırırdı. Bu mürəkkəb ədəbi mərhələnin təhlilində müa-sir ədəbiyyatşünaslığın tarixilik prinsipinə əsaslanaraq müəllif ədəbi tənqidi onu doğuran tarixi şəraitin ictimai və bədii vəzifələri ilə, xalqın siyasi şüurunun inkişafı llə, milli özünüdərk hərəkatının yüksəlişi ilə qarşılıqlı əlaqədə nəzərdən keçirir, milli tənqidi məşğul etmiş problemləri, onun daxilində gedən ideya-estetik mübarizələri açıb göstərirdi. Həmin dövrdə milli ədəbi tənqid mürəkkəb yaradıcılıq məsələlərinin həlli ilə məşğul olur, dövrün ideya-estetik axtarışlarında iştirak edirdi. Monoqrafiyanın əsas tədqiqat

mövzusu olan bu fəsilə K.Talıbzadə daha geniş yer ayırmışdır. Çünki, qədim və orta əsrlər, eləcə də X1X əsr ədəbi fikrini öyrənmədən dövrün ədəbi tənqidi mən-zərəsi haqqında bütöv elmi təsəvvür yaratmaq mümkün olmadığı kimi, tənqid tarixinin 1900-1920-ci illər adı al-tında böyük bir mərhələsini tədqiq etmədən də tənqidin XX əsr Azərbaycan ədəbiyyatında mövqeyini müəyyən-ləşdirmək qeyri-mümkün idi. Bü cəhətdən K.Talıbzadə qarşısına qoyduğu tədqiqat vəzifələrinin uğurlu elmi-nəzəri həllinə nail ola bilmişdir. Özülü M.F.Axundov tərəfindən qoyulan professional milli ədəbi tənqidin bu yüksəliş mərhələsini şərtləndirən ictimai-tarixi amillər tədqiqatçını ciddi şəkildə düşündürmüş, Axundovun tarixi xidmətlə-rindən də bu aspektdə söz açmışdır. Ilk dəfə «kritika» – «tənqid» terminini Azərbaycan ədəbiyyatına gətirən, ədəbi tənqidin əsas məqsəd və vəzifələri haqqında prinsiplər irəli sürən və bu prinsipləri estetik görüşlərində formalaşdıran Axundov olduqca mükəmməl bir tənqid nəzəriyyəsi ya-ratmışdı. K.Talıbzadə tədqiqatında belə bir düzgün qənaətə gəlirdi ki, bu tənqid nəzəriyyəsi, onun özünüdərki milli ədəbiyyatımızda XX əsrin əvvəllərində tamamilə yeni mərhələyə qədəm qoymuşdu və bu dövrün ədəbi-ictimai fikri məhz M.F.Axundovu ilk Azərbaycan tənqidçisi kimi tanıyır, ona rəğbət bəsləyirdi.

Beləliklə, ədəbi tənqid öz inkişafının yeni və mürəkkəb bir mərhələsinə – milli intibah, inqilab və təbəddülatlar dövrü olan XX əsrə Axundovun realist tənqidi ənənələri ilə gəlmişdi. K.Talıbzadə monoqrafiyasında zəngin fakt və materiallara, mühüm ədəbi hadisələrə, qaynaqlara istinad edərək bu dövrdə

tənqidin ədəbi prosesdəki mövqeyini müəyyənləşdirir, onun əsas cərəyanlarının ideya-estetik təsnifatını verirdi.

XX əsrin əvvəllərində tənqidi fikir özünün intibah dövrünə qədəm qoymuş, cəmiyyət gerçəkliyin bütün sahələrinə, eləcə də ədəbiyyata tənqidi münasibət bəsləməyə başlamışdı. K.Talıbzadə V.Q.Belinskinin öz dövrü haq-qında yazdıqlarını haqlı olaraq milli ədəbiyyatımızın bu dövrünə şamil edirdi. Belinski yazmışdı: «Təhlil və tədqiqat zəmanəmizin ruhunu təşkil edir. Indi hər şeyi, tənqidin özünü də tənqid etmək lazımdır. Zəmanəmiz qeyd-şərtsiz heç nəyi qəbul etmir, avtoritetlərə inanmır, əfsanələri rədd edir… Zəmanəmiz etiqad istəyir, həqiqət aclığı çəkir.[1]» Tədqiqatçı Belinskinin bu fikrinin məntiqi davamı kimi dövrün görkəmli ədəbi şəxsiyyətlərindən biri olan Ə.Hü-seynzadənin məşhur sözlərini yada salır: «Alati-mübarizə-mizdən biri də intiqaddır. Nəyi intiqad? (Intiqad, yəni tənqid – T. R.) Hər şeyi! Istər o şey yaxşı, istər fəna olsun. Hər şeyin yaxşılığını, ya fənalığını ancaq intiqad sayəsində meydana qoymaq olar.»[2] Göründüyü kimi, yeni əsrin əvvəllərində gerçəkliyə tənqidi münasibət dövrün əsas ruhunu, başlıca qayəsini təşkil edirdi. K.Talıbzadənin yazdığı kimi, ədəbi ictimaiyyətdə belə bir ümumi fikir yaranmışdı ki, ədəbiyyat ədəbi tənqidsiz inkişaf edə bilməz, buna görə də ədəbi tənqidə, polemika və müzakirələrə geniş meydan verilməlidir. Müəllif bu barədə

---

[1] Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi, Bakı, Maarif, 1984, s.104.

[2] Hüseynzadə Ə.B. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar, Seçilmiş məqalələr, Bakı, Azərnəşr, 1996, s. 175.

dövrün görkəmli ədəbi simalarının – A.Sur, Y.V.Çəmənzəminli, S.Hüseyn kimi yazıçılarin fikirləri ilə mülahizələrini daha da də-qiqləşdirirdi. Həmin dövrdə yaranan ideya-siyasi məsləkli mətbuat orqanları, ədəbi-bədii təşkilatlar öz fəaliyyətləri ilə milli ədəbi tənqidimizin inkişafına təkan verir, onu yeni məcraya salırdı. Həmçinin professional milli tən-qidçilərin, publisistlərin fəaliyyəti nəticəsində tənqid özü-nün təşəkkül istiqamətini tapmışdı. K.Talıbzadə həmin mərhələnin yaradıcıları olan S.Hüseyn, F.Köçərli, A.Sur, Ə.Ağayev kimi tənqidlə məşğul olan görkəmli şəxsiyyətlərin fəaliyyətini, ədəbi-estetik görüşlərini təhlil edir, onların sənətə baxışında ümumi və oxşar cəhətlərə xüsusi diq- qət yetirirdi. Tədqiqatçı bu dövrdə Azərbaycanda ədəbi tənqidlə məşğul olan dərnək və cəmiyyətlərin fəaliyyətini də milli estetik fikrimizin inkişafı baxımından qənaətbəxş hesab edirdi.

Monoqrafiyanın XX əsr ədəbi tənqidinə həsr olun-muş fəsli milli estetik fikir tariximizin dərindən və geniş miqyasda tədqiqi baxımından xüsusilə diqqətəlayiqdir.

Məlumdur ki, XX əsrin əvvəllərində realizmin key-fiyyətcə dəyişməsi və zənginləşməsi, həmçinin romantizmin ədəbi-estetik cərəyan kimi təşəkkülü, formalaşması, eləcə də inqilabi proseslərin bədii fikirdə təcəssümü milli ədə-biyyatda müxtəlif cərəyanların yaranmasına və inkişafına səbəb olmuşdu. K.Talıbzadə elmi ümumiləşdirmələr nəti-cəsində realist, romantik, mühafizəkar-romantik tənqid cərəyanlarını müəyyənləşdirir, bu aspektdə ideya-nəzəri təhlillər aparırdı. Müəllif burada elmin qarşısında duran bir sıra mühüm tədqiqat vəzifələrini yerinə yetirmişdir. Həmin vəzifələrin sırasına XX

əsrin əvvəllərində yaranan tənqidi cərəyanların – romantizm və realizmin ğeniş və hərtərəfli tədqiqi, onların ideya-yaradıcılıq prinsiplərinin müəyyənləşdirilməsi, əsas mahiyyət və məğzinin aydınlaş-dırılması daxil idi. Əsərdə realist və romantik ədəbi tənqidin fəaliyyətinə belə geniş yer ayrılması, onların ideya-estetik təsnifi monoqrafiyanın mühüm metodoloji məziyyətlərindən sayılır. Çünki, ədəbi tənqidin bu cərə-yanları bütövlükdə onun inkişafında ən güclü istiqaməti təşkil edir, tənqiddə gedən ideya-estetik mübarizələr daha çox bu cərəyanların fəaliyyətində öz təzahürünü tapırdı.

K.Talıbzadə milli ədəbi tənqidin inkişafında əsas istiqaməti təşkil edən həmin tənqidi cərəyanların məşğul olduğu ən aktual problemlərə diqqəti yönəldir, tənqid cərəyanlarının ideya təsnifini verərkən realist və romantik tənqidin daxili meyllərini də xüsusi nəzərdən keçirirdi. Tədqiqatçı realist tənqidi təhlil edərkən onun iki əsas şaxəyə – maarifçi və tənqidi realizmi təmsil edən isti-qamətlərə ayrıldığını göstərir, onların ümumi və fərqli cəhətlərindən bəhs edirdi. Eləcə də romantik tənqidi izah edərkən müəllif onun mütərəqqi və mühafizəkar tənqid adlı istiqamətlərindən danışır, M.Hadi, A.Səhhət, H.Cavid, A.Şaiq kimi görkəmli sənətkarların mütərəqqi romantik tənqid cərəyanına mənsub olduğunu nəzərə çatdırırdı.

Monoqrafiyada realizm cərəyanı XX əsr Azərbaycan tənqidinin ən qüvvətli və əhatəli bir şaxəsi kimi daha geniş tədqiq olunur. Tədqiqatçı burada tənqidi realizm konsepsiyasına istinad edən cərəyanın ideya və problema-tikasını hərtərəfli təhlilə cəlb edir, burada daha dəqiq və

konkret elmi ümumiləşdirmələr aparır. Bu tənqid cərəyanı əsərdə «tənqidi realist estetika», «realist demokratik tənqid» istilahları ilə də ifadə olunur. Tənqidin bu aparıcı cərəyanından müəllifin geniş bəhs açmasının mühüm səbəbi isə «Molla Nəsrəddin» ideyalarından bəhrələnən, onun ədəbi məfkurəsini ifadə edən, inqilabi demokratik dün-yagörüşün formalaşdırdığı tənqidi realizmin ədəbiyyatın vəzifələrinə qabaqcıl münasibəti ilə seçilməsi idi. K.Ta-lıbzadə təbii ki, bu böyük ədəbi hadisəni tədqiqatında qiymətləndirməyə bilməzdi. Buna görə də o, konkret elmi nəticələrə əsaslanaraq tənqidi realizmi əsrin inqilabi, demokratik estetik proqramının, yetkin realist yaradıcılıq prinsiplərinin ifadəçisi kimi yüksək dəyərləndirir.

XX əsr ədəbi tənqidi fəaliyyətində olduqca mürək- kəb yaradıcılıq vəzifələrini həyata keçirmişdir. Istər realist, istərsə də romantik tənqidin fəaliyyətini işıqlandıran səhi-fələrdə bu vəzifələrin monoqrafiyanın əsas tədqiqat möv-zusunu təşkil etməsi təqdirəlayiqdir. Həmin ümdə vəzifələr – realizm nəzəriyyəsini, bu sahədə Axundov ənənələrini inkişaf etdirmək, tənqidin realizm konsepsiyasını işləyib hazırlamaq və romantizmin prinsiplərini elmi cəhətdən əsaslandırmaqdan ibarət idi.

K.Talıbzadə bu dövrdə tənqidin digər vəzifəsindən – milli ədəbiyyatın tarixini yaratmaq sahəsindəki fəaliy-yətindən də xüsusi bəhs açır, F.Köçərli, A.Sur, S.Hüseyn (Kazımoğlu), Y.V.Çəmənzəminli və başqa ədəbiyyatşünas-ların bu ideyanı həyata keçirmək yolunda xidmətlərini geniş tədqiq edir. Qeyd etmək lazımdır ki, Azərbaycan ədəbiyyatının tarixini

yaratmaq kimi mürəkkəb ədəbiy-yatşünaslıq vəzifəsinin həlli bilavasitə ədəbi-mədəni irsin öyrənilməsi, milli ədəbiyyatın ənənələrinin araşdırılması və dəyərləndirilməsi ilə bağlı idi. XX əsr ədəbi tənqidi də məhz bu məsələlərə ciddi diqqət yetirirdi. K.Talıbzadə monoqra-fiyada bu problemin təhlilinə xüsusi əhəmiyyət vermiş, yalnız ayrıca bölmədə deyil, tənqidin metodoloji xarakterli kateqoriyalarının izahında da ondan bəhs etmişdir. Müəllif tənqidin ədəbi-tarixi görüşlərini həm milli bədii sərvət- lərin, həm də dünya ədəbiyyatının, rus ədəbiyyatının dərki kontekstində izah edirdi. K.Talıbzadə göstərirdi ki, milli ədəbi tənqid öz çərçivəsində inkişaf edə bilməz, o dünya ədəbiyyatının təcrübə və ənənələrini əxz etməklə öz görüş dairəsini genişləndirir, müasir ədəbi prosesə yüksək estetik meyarla yanaşa bilir.

XX əsr Azərbaycan ədəbi tənqidinin ideya-estetik meyllərinin, mübarizə yolunun işıqlandırılması baxımından monoqrafiyanın burjua tənqidinə həsr olunmuş «Müha-fizəkar-romantik tənqid» bölməsi xüsusilə maraq doğurur. Burada əsrin tənqidinin burjua qolu, onun ideyası, qayəsi, siyasi və fəlsəfi mövqeyi təhlilə cəlb edilmişdir. Müəllif burjua tənqidinin görkəmli nümayəndələri Ə.Hüseynzadə, Ə.Ağayev (Ə.Ağaoğlu) və Ə.Topçubaşovun görüşlərini, ədəbi-ictimai prosesdəki mövqelərini diqqətlə nəzərdən keçirir, onların fəaliyyətini tarixilik prinsipi baxımından qiymətləndirir. Tədqiqatçının zəngin fakt və materiallara əsaslanan təhlilləri dərin nəzəri ümumiləşdirmələrlə nə-ticələnir.

Burjua tənqidinin spesifikasından bəhs edərkən K.Talıbzadə burjua nihilizmini, onun müasir milli ədə-biyyata

ögey münasibətini, nailiyyətlərə etinasızlığını, sə-nətin ictimai təsirini qiymətləndirə bilməməsini bu tənqidi cərəyanın başlıca xüsusiyyətləri kimi izah edirdi. Qeyd etmək lazımdır ki, məsələnin bu şəkildə elmi həlli sovet ideologiyasına, onun vulqar materialist baxışlarına, Mark-sist-leninçi mövqeyinə uyğun gəlirdi. Bu cəhətə diqqət yetirən Türkiyəli ədəbiyyatşünas alim Əhməd Cəfəroğlu əsərin hələ 1966-cı il nəşri haqqında yazırdı: «Əsərin başlıbaşına bir bölümünü «Burjua tənqidi» adını daşıyan qismi təşkil etməkdədir. Burada Kamal Talıbzadə artıq köhnəlmiş və ortadan qalxmış deyəcəyim bir fikri yenidən canlandırmaqdadır. Yazarın anlatmaq istədiyi bəzi Azər-baycan yazarlarının və tənqidçilərinin «burjua sinfi» lehinə çalışmalarında olduğunu göstərməkdir. Buraya Ağaoğlu Əhməd, Əli bəy Hüseynzadə, Əli Mərdan Topçubaşov girməkdədir. Halbuki, mənim bunlardan çox yaxından tanıdığım Əli bəy Hüseynzadə demokrat fikirli insanların adeta başçısı durumundaydı. Azərbaycan kültürünə xid-mətləri bərəkətli olan bu üç aydını Talıbzadə, zənnimcə, zamanaya uymaq surətilə yanlış bir klassifikasiyona tab tutmuşdur. Bu, əlbəttə, görüş ayrılığı toxumundan irəli gəlmişdir.»[1] Əsərin ilk nəşrindəki burjua tənqidi, onun görkəmli nümayəndələri haqqında həmin mülahizələr mo-noqrafiyanın təkmilləşdirilmiş nəşrində (1984) də olduğu kimi qalmışdır. Ədəbi tənqidimizin bu hadisəsinin yeni aspektdə tədqiqinə olan ciddi ehtiyacı sonrakı məqalələrində K.Talıbzadə həll etməyə nail olmuşdur. Qeyd

---

[1] Cəfəroğlu Ə. XX əsr Azərbaycan ədəbi tənqidi (1905-1917), Türkiyyat

olunmalıdır ki, haqqında bəhs olunan «Burjua tənqidi» bölməsi monoqrafiyanın təkmilləşdirilmiş nəşrində (1984) «Mühafizəkar-romantik tənqid» adı altında səciyyələn-dirilirdi. Lakin zənn edirik ki, bu ad təhlil olunan ədəbi hadisənin mahiyyətini özündə ehtiva etmir.

Ş.Salmanov K.Talıbzadəyə həsr etdiyi tədqiqatında düzgün olaraq göstərir ki, «Mühafizəkar-romantik tənqid» anlayışı bu ədəbi hadisənin ziddiyyətlərini, dialektik mahiyyətini nəinki dərk etməyə, görməyə bir o qədər əsaslı şəkildə kömək etmir; hətta əksinə, buna müəyyən dərəcədə mane olur və bu cəhətdən də haqqında bəhs edilən tənqid hadisəsinin məhz burjua romantik tənqid əlaməti altında təhlil edilməsi daha düzgün və daha obyektiv təd-qiqat prinsipi olardı.[1]

XX əsrin əvvəlləri daha bir ədəbi hadisə – «marksist tənqid» cərəyanının yaranması ilə əlamətdar idi. Azərbay-canda 20-ci illərdən sonra əsas tənqid cərəyanı olan bu ədəbi tənqid barəsində K.Talıbzadə əsərin ilk nəşrində «Marksist tənqid» adı altında bəhs açırdı. Monoqrafiyanın yeni, təkmilləşdirilmiş nəşrində isə düzgün olaraq həmin bölmə «Ilk Azərbaycan marksistləri ədəbiyyat haqqında» adlandırılmışdı. Tədqiqatçı ədəbiyyatda marksist görüş- lərin inkişafına xidmət edən bu cərəyanın Azərbaycanda 1905-ci il inqilabından sonra yarandığını qeyd edir. O, vacib ədəbi məsələlərin həllində marksist tənqidin realist tənqid prinsiplərinə yaxınlaşdığını göstərir, onun müasir ədəbiyyat məsələlərinə

---

məcmuəsi, 1972, XY1 c., s.280.

daha çox diqqət yetirməsini, proletar ədəbiyyatını qiymətləndirməkdə düzgün mövqeyini isə bu tənqidi cərəyanı fərqləndirən mühüm cəhətlərdən hesab edirdi. Azərbaycanda ədəbi fikrin yeni mərhələyə daxil olmasını, marksist tənqidin tarixən qanunauyğun olan və milli ədəbi inkişafın obyektiv məntiqi yekunu kimi yaranmasını şərh edən «Ilk Azərbaycan marksistləri ədə-biyyat haqqında» bölməsi ədəbi-ictimai fikrimizin tarixinin öyrənilməsi baxımından da son dərəcə əhəmiyyətli idi. Lakin qeyd etmək lazımdır ki, burjua tənqidinə və marksist tənqidə həsr olunmuş bölmələrin hər ikisi sırf marksist ruhda yazılmış, K.Talıbzadə burada «dövrün həqiqəti»ni demək məcburiyyəti qarşısında qalmışdır. Tədqiqatçıların bir çoxu əsəri qiymətləndirərkən bu cəhəti qeyd etmiş, lakin bu cəhətə görə monoqrafiyanı «gözdən salmaq, müəllifinə qara yaxmaq»la əsərin əhəmiyyətini azaltmağın da yanlış yol olduğunu göstərmişlər.[2]

«Azərbaycan ədəbi tənqidinin tarixi» monoqrafiyası mühüm ədəbiyyatşünaslıq məsələlərini həll edir, geniş bir problemi işıqlandırırdı. Tarixilik, tədqiqat ideyasının əha-təliliyi, nəzəri ümumiləşdirmələrin dərinliyi, milli tənqidin inkişaf mərhələlərinin rus və Avropa ədəbi fikri ilə əlaqə- də izlənməsi tədqiqatın mühüm elmi məziyyətləri kimi qiymətləndirilmişdir. Tədqiqatçı burada tənqidin, esteti-kanın, ədəbiyyat nəzəriyyəsinin hər dövrün qabaqcıl bədii təcrübəsi və elmi-nəzəri fikri səviyyəsində dayana- raq

---

[1] Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998, s.81.
[2] Yusifli V. Həmişə yadımda olan tənqidçi, Azərbaycan, 1993, № 9-10, s.128.

ədəbiyyatın inkişafına, onun mühüm vəzifələrinin həyata keçirilməsinə fəal təsir göstərə bilən əsl yaradı-cılıq amili olduğunu əsaslandıra bilir. Milli tənqidin tarixi varlığını meydana çıxaran monoqrafiya yetkin bir estetik fikir tarixini əhatə edir, onu sistemli şəkildə izləyirdi. K.Talıbzadə bu əsəri ilə tənqidimizin tarixini yaratmaq kimi məsuliyyətli və şərəfli bir missiyanı yerinə yetirdi; eyni zamanda tənqid tarixinin elmi konsepsiyasını işləyib hazırlamaqla tənqidin Azərbaycan ədəbiyyatının çox güclü, ayrılmaz bir tərkib hissəsi olduğunu təsdiq etdi. Milli ədəbiyyatşünaslıqda tənqid tarixi ilə bağlı bu ilk fun-damental tədqiqatın əsas uğuru müəllifinə tənqidşünaslı-ğımızın banisi səlahiyyətini qazandırmasında idi. Elmi-nəzəri və estetik fikir tariximizdə fundamental hadisə olan monoqrafiya dövrün görkəmli alimlərinin diqqətini cəlb etmişdir. Əsər hələ 1965-ci ildə doktorluq dissertasi-yası kimi müdafiə olunanda rəsmi opponent professor M.C.Paşayev geniş rəyində yazırdı: «K.Talıbzadə dövrün kəskin, mürəkkəb ictimai-siyasi və inqilabi hadisələrini, zəngin, əlvan mətbuat və ədəbiyyat materiallarını ilk mənbələrdən öyrənmiş, təhlil edib ümumiləşdirmiş, yeni nəticələr çıxarmış və elmi hökmlər vermişdir. Bu əsəri ilə dissertant əsrimizin əvvəllərində ədəbi həyatın müstə- qil bir sahəsinə çevrilən ədəbi tənqidin ilk tarixini yarat-mışdır.»[1] Kitab haqqında ilk fikri ona yazdığı «Tənqi-dimizin tarixi» adlı müqəddimədə söyləyən görkəmli tən-qidçi prof. Y.Qarayev qeyd edirdi: «…Əslində bu kitabda qısaca toxunulan və elmi bir problem kimi qaldırılaraq irəli

[1] K.Talıbzadənin şəxsi arxivi, M.C.Paşayevin opponent rəyi, 1965.

sürülən bir çox məsələlərin hərəsi haqqında ayrıca monoqrafiya yazmaq olar.»[1]

Əsərin istər 1966-cı il, istərsə də 1984-cü il təkmil-ləşdirilmiş nəşrindən sonra onun haqqında mötəbər mət-buat səhifələrində Ə.Şərif, G.Əlibəyova, Y.Qarayev və N.Məmmədov kimi görkəmli alimlərin məqalələri dərc olundu. Monoqrafiya respublikamızın hüdudlarından kə-narda, Türkiyə, Tacikistan, Qazaxıstan, Özbəkistan, Türk-mənistan, Dağıstan, Litva, Tatarıstan, Gürcüstan ədəbiy-yatşünasları tərəfindən də layiqincə qiymətləndirildi. K.Ta-lıbzadə Azərbaycan EA-nın müxbir üzvü və həqiqi üzv-lüyünə seçilərkən onun bu vəzifəyə namizədliyini müdafiə edən alimlərin rəylərində də milli ədəbi tənqidimizin tari-xinə dair monoqrafiya haqqında yüksək fikirlər öz əksini tapmışdır. Həmin rəylərdən birində gürcü alimi akademik Q.Ş.Sisişvili K.Talıbzadənin əsərini «Şərq xalqlarının estetik fikrinin tarixinə fundamental bir töhfə» kimi dəyərləndirir, onun Azərbaycan filologiyasında milli tənqid tarixinin öyrənilməsi sahəsində müstəqil məktəb yaratdığını vur-ğulayırdı.[2]

Eyni qiymətləndirmə meyarı tacik alimi M.Ş.Şükü-rov, türkmən alimi P.A.Əzimov, qazax ədəbiyyatşünasları R.Berdıbayev, U.A.Coldasbəyov, T.Kəkişev, Dağıstan ali-mi H.Həmzətov, özbək alimləri Y.S.Sultanov, A.H.Hayt-metov, M.Yunusov və başqalarının rəylərində də özünü büruzə verir. Tacikistan EA-nın Ədəbiyyat və Dil Insti-tutunun əməkdaşı

---

[1] Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi, Bakı, Maraif, 1984, s.5.

[2] K.Talıbzadənin şəxsi arxivi, Q.S.Sisişvilinin rəyi, 1989.

prof. M.Ş.Şükürov monoqrafiya haq-qında rəyində göstərirdi ki, K.Talıbzadənin dərin nəzəri ümumiləşdirmələrinin Sovet Şərq xalqları ədəbiyyatlarının, o cümlədən tacik ədəbiyyatının bir sıra aktual prob-lemlərinin həllinə kömək edir.[1] Bu kimi yüksək fikirlərlə zəngin olan rəylərdən biri də Qazaxıstan Respublika-sının əməkdar elm xadimi Tursunbek Kəkişevə məxsus idi. 1989-cu ildə yazılan bu rəydə qeyd edilirdi: «Mən K.A.Ta-lıbzadəni Azərbaycan ədəbi tənqidini ilk dəfə köklü, əsaslı şəkildə tədqiq edən, bu sahədə təqdir və təsdiq olunan mütəxəssis alim kimi qiymətləndirirəm. Onun tənqid ta-rixinə dair tədqiqatları türk xalqlarının ədəbiyyatında ilk təşəbbüsdür, bir başlanğıcdır və bunun üçün də xeyli davamçıları yaranmışdır. Elə mən özüm onun tələbəsi və silahdaşıyam.»[2] Görkəmli özbək ədəbiyyatşünası Ə.Hayt-metovun da rəyi bu baxımdan diqqətəlayiqdir. O, yazır-dı: «Mən öz təcrübəmdən bilirəm ki, tənqid tarixindən belə bir əsəri yazmaq necə çətin və mürəkkəbdir. Mənim fikrimcə belə bir əsəri yaratmaq üçün Kamal Talıbzadə öz üzərinə böyük bir şöbənin zəhmətini götürmüş və bu vəzifənin öhdəsindən şərəflə gəlmişdir… Onu da deyim ki, Kamal Talıbzadənin əsəri Sovet Ittifaqında tənqid tarixinə dair yazılan işlərdən daha məqsədyönlü və bitkin, mükəmməl təsir bağışlayır.»[3] Tacik alimi R.Müsülman-qulovun da rəyində K.Talıbzadənin ədəbi tənqid tarixi-nin öyrənilməsi sahəsində xidmətləri yüksək dəyərlən-dirilir. O,

---

[1] Yenə orada, M.S.Şükürovün rəyi, 1989.
[2] K.Talıbzadənin şəxsi arxivi, T.Kəkişevin rəyi, 1989.
[3] K.Talıbzadənin şəxsi arxivi, Ə.Haytmetovun rəyi, 1989.

yazır: «Tacik-fars xalqlarının orta əsr ədəbi fikir tarixinin – məsələn, məxəzlərin təsnifində, materialların sistemləşdirilməsində, istiqamətlərin müəyyənləşdirilməsin-də, mənşəyinin üzə çıxarılmasında, terminlərin sabitləş-dirilməsində və sairənin gələcəkdə araşdırılması işində prof. K.A.Talıbzadənin bu başlanğıcı dayaq ola bilər.[1]»

Azərbaycan tənqidinin milli ədəbiyyatşünaslığımızın nailiyyəti kimi qiymətləndirdiyi «Azərbaycan ədəbi tənqi-dinin tarixi» monoqrafiyası 1986-cı ildə Dövlət Mükafatına təqdim olunanda ümumsovet tənqidi onu bütün sovet ədəbiyyatşünaslığının ciddi yeniliyi, böyük müvəffəqiyyəti kimi təqdir edirdi.

Monoqrafiyanın belə böyük uğur qazanması K.Ta-lıbzadənin yeni tədqiqatlarına vüsət verdi. O, tənqid tari-xinə dair bu fundamental tədqiqatın davamı olaraq «Inqi-labi-demokratik ədəbi fikrin tribunası» (1986), «Əhməd Ağaoğlu və onun «Rus ədəbiyyatının ümumi səciyyələri» əsəri» (1988) məqalələrini yazır. K.Talıbzadə bu yeni tədqiqatlarında XX əsrin əvvəllərində yaranan ədəbi tənqidin meylləri, onun problematikası, dövrün görkəmli tənqidçilərinin görüşləri, elmin inkişafında xidmətləri və digər mühüm məsələlərdən söz açırdı.

K.Talıbzadəyə tənqidşünaslığımızın banisi səlahiyyə-tini qazandıran və tədqiqat məktəbi yaratmaq imkanı verən monoqrafiyanın öz yaradıcılığında yerini tədqiqatçı 1985-ci ildə müsahibələrindən birində belə səciyyələndirirdi: «Bu

---

[1] Yenə orada, R.Musulmanqulovun rəyi, 1989.

kitab mənə təkcə ona görə əziz deyil ki, doktorluq dissertasiyamla əlaqədardır. Bir də ona görə mənim üçün doğma və qiymətlidir ki, o, hələ tələbəlik dövründən baş-ladığım, tənqidi fikir sahəsində 25 ilə yaxın apardığım tədqiqatlara bir növ yekun vurdu, təsdiq etdi ki, mən öz axtarışlarımda və ədəbiyyatşünaslığımızda tutduğum yeni istiqamətdə yanılmamışam. Bu elə bir elmi sahədir ki, onu gələcəkdə də davam etdirmək mümkündür. Elə belə də oldu. Bundan sonrakı yazılarımın, kitablarımın əksəriyyəti bu mövzuya həsr olunmuşdur.»[1] Həqiqətən də K.Talıbzadə-nin sonrakı kitablarında bu mövzu alimin tədqiqatlarının əsas istiqamətini təşkil etmiş, təhlillərinin başlıca predmeti olmuşdur. 1966-cı ildə monoqrafiyanın ilk nəşrinin doğur-duğu təəssürat tədqiqatçıya yeni yaradıcılıq imkanları ve-rərək bir sıra problemləri işıqlandırmasına geniş meydan açdı. Alimin «Tənqidimiz haqqında qeydlər» (1967), «Ədəbi irs və varislər» (1974), «Sənətkarın şəxsiyyəti» (1978), «Tənqid və tənqidçilər» (1989) kitabları, ikicildlik «Seçilmiş əsərləri» (1991;1994) bu səmərəli elmi fəaliyyətin nəticəsi kimi meydana çıxdı. Bu kitablarda toplanmış tədqiqat əsərlərinin, məqalələrin hər birinin ideya qayəsində, məzmun mündəricəsində K.Talıbzadənin milli ədəbi estetik fikrimizin tarixinə həsr olunmuş fundamental tədqiqatının davamını görürük.

Müasir tənqidin ədəbi proseslə əlaqəsinin aydınlaşdırılması, ədəbi tənqidin başlıca meyl və axtarışlarının elmi

---

[1] Talıbzadə K. Tənqid və tənqidçilər, Bakı, Yazıçı, 1989, s.147-148.

cəhətdən ümumiləşdirilməsi baxımından müəllifin «Tənqidimiz haqqında qeydlər» kitabı (1967) əhəmiyyətli elmi məxəz hesab olunur. Burada müəllifin 1954-1966-cı illərdə dövrü mətbuatda dərc olunmuş ədəbi tənqid haqqında məqalələri, icmalları və resenziyaları toplanmışdır. Bu məqalələr tədqiqatçının milli ədəbi tənqidin tarixini öyrənmə prosesində yazdığı «Ədəbi tənqidə diqqəti artıraq» (1954), «Tənqidçi və ədəbiyyatşünaslarımızın yeni nəsli» (1955), «Mübariz tənqidin gözəl nümunələri» (1959), «Tənqidimiz haqqında qeydlər» (1963), «Ədəbi tənqidin hazırkı vəziyyəti bizi təmin edirmi?» (1965), «Səməd Vurğunun ədəbi-tənqidi irsi» (1966) kimi dəyərli nümunələr idi. Həmin məqalələrdə K.Talıbzadə müasir dövrün ədəbi tənqidinin konkret mənzərəsini yaradır, onun problematikasını, yaradıcılıq prinsiplərini müəyyənləşdirir, tənqidin müasir ədəbi proseslə vəhdətdə qarşıda duran vəzifələrini aydınlaşdırırdı.

Tənqidə ehtiyatla yanaşılan bir dövrün məhsulu olan həmin tədqiqatlarda müasir ədəbi tənqid, onun məşğul olduğu problemlər prinsipial tədqiqatçı mövqeyindən araşdırılırdı. Bu məqalələr tənqidin tənqidi idi və məhdud janr imkanları daxilində belə müasir tənqidin tenden-siyalarını əhatə edə bilmişdi. Burada 60-cı illərdə tənqidin ədəbiyyatımızın zəif bir sahəsi kimi fəaliyyət göstərməsi, çap olunan ədəbi tənqidi məqalələrin çoxunun elmi-nəzəri səviyyəsinin aşağı olması tədqiqatçının təəssüflə qeyd et- diyi faktlar idi. Müəllif ədəbi tənqidin geriliyini, onun ən mühüm qüsurlarını ilk növbədə nəzəri səviyyənin zəifli-yində görür, müharibədən sonrakı illərdə bəzi tənqidçilərin ədəbiyyatın bir çox mühüm

problematik məsələlərini həll etməyə cəhd göstərmədiklərinin səbəbini də bu nəzəri zəifliyin nəticəsi kimi izah edirdi.

60-cı illər ədəbi tənqidinin mənzərəsini nəzərdən keçirdikdə yazılan məqalələrin böyük əksəriyyətinin resenziyalardan ibarət olduğunu müşahidə edirik. Bu isə bir-tərəfli inkişafa xidmət edib tənqidi məhdudlaşdırır, onun ədəbi prosesi əhatə dairəsini kiçildir. K.Talıbzadə «Ədəbi tənqidə diqqəti artıraq» məqaləsində bu cəhətə xüsusi nəzər yetirərək yazırdı: «Ədəbi tənqidi resenziya ilə məh-dudlaşdırmaq, ədəbiyyatın nəzəri məsələlərini bir yana bu-raxıb ancaq tənqid və biblioqrafiya ilə məşğul olmaq doğru yol deyildir. Ədəbiyyatımızın indiki inkişaf mərhələsində ədəbi tənqidin qarşısında duran mühüm vəzifələri resen-ziyalar ilə həll etmək qeyri-mümkündür… Ədəbi tənqidi bu məhdudluqdan xilas edib ədəbi prosesin qanunauyğun-luqlarını, sovet ədəbiyyatının təcrübələrini ümumiləşdirə bilən samballı dərin nəzəri məqalələr yazmaq qarşıda duran mühüm vəzifələrdəndir.»[1] Tədqiqatçı burada dərin nəzəri təhlillər, ümumiləşdirmələr əsasında məqalələrin yazılma-sını ədəbi tənqidin keyfiyyəti uğrunda mübarizə üsulu kimi qiymətləndirir. Lakin həmin dövrün mətbuatında dərc olunan məqalələrin bir çoxu ya bədii əsərlərin məzmu- nunu danışır, ya da oxucu təəssüratı xarakteri daşıyırdı. K.Talıbzadə tənqiddən bədii əsərə, hər şeydən əvvəl, bədii təfəkkürün məhsulu kimi qiymət verməsini, sənətin spesifik xüsusiyyətlərini, onun emosional təsir gücünü göstərməsini, bədii əsərdən məzmun və formanın

---

[1] Talıbzadə K.Tənqidimiz haqqında qeydlər, Bakı, Gənclik, 1967, s.6.

üzvi bir vəhdəti kimi  bəhs etməsini tələb edirdi. Bu mühüm keyfiyyətləri özündə  birləşdirməyən tənqid, tədqiqatçının qənaətinə görə, həqiqi tənqid deyildir və o ədəbiyyatın inkişafı üçün yazıçıya heç  bir  istiqamət  göstərə  bilməz.

Tədqiqatçı ədəbi tənqidin 60-cı illərdə xoşagəlməz vəziyyətə düşməsinin bir səbəbini əli qələm tutan, lakin istedadı olmayan şəxslərin tənqid yazmasında görürdüsə,  digər səbəbini M.Arif, M.C.Cəfərov, M.Məmmədov kimi  təcrübəli peşəkar tənqidçilərin az yazmasında görürdü. Öz mühakimələrində tənqidin bu neqativ tərəflərinə diqqət  yetirən müəllif onun keyfiyyətinin yüksəlməsi üçün konkret inkişaf istiqamətlərini göstərirdi. Müəllifin «Elmi-nəzəri problemlərin həllinə doğru» məqaləsində tənqidin əsas inki-şaf yolları daha dəqiq müəyyənləşdirilirdi.

Monoqrafiyada diqqəti cəlb edən başlıca cəhət tədqi-qatçının öz təhlillərində marksizm-leninizm ehkamçılı-ğından müəyyən qədər yayına bilməsidir. Əlbəttə, buradakı  təhlil tərzində, nəzəri ümumiləşdirmələrdə sosioloji me-yarların təsirini də müşahidə edirik ki, bu cəhət dövrün hakim ideologiyası ilə bağlı olub onun vulqar marksist görüşlərindən, yanaşma prinsiplərindən irəli gəlirdi.

«Tənqidimiz haqqında qeydlər» kitabında toplanan məqalələr intellektual tənqidin ilk nümunələri idi. Bu məqa-lələrdə gənc tədqiqatçı K.Talıbzadə 60-cı illərin təsvirçi xarakter daşıyan tənqidinin güclü və zəif tərəflərini üzə çıxarır, analitik tədqiqata əsaslanan nəzəri ümumiləş-dirmələr  aparırdı. O, 20-30-cu illər tənqidinin görkəmli nümayəndəsi Əli Nazimin vulqar sosioloji mövqedən çıxış edərək söylədiyi

«Bizdə ədəbi tənqid yoxdur» fikrinə zidd olan «Tənqidimiz ədəbiyyatın inkişafına kömək edə bilmək qüdrətinə malikdir» tendensiyasını irəli sürürdü.[1]

Kitabdakı məqalələrində ədəbi tənqidin bir sıra nöqsanlarını üzə çıxarmaqla ədəbi zövqün, fikrin inkişafına yeni bir yol göstərən K.Talıbzadə qeyd edirdi ki, tənqid ədəbiyyatın yalnız müvəffəqiyyətlərinə diqqət yetirməməli, onun qüsurlarını da görməlidir. O, tənqidi tərifə çevirmək meylinə qarşı çıxaraq özünün də «Günəşin sorağında» və «Azərbaycan sovet şeiri sülh və demokratiya uğrunda mübarizədə» məqalələrində təhlil olunan əsərlərin birtərəfli qiymətləndirildiyini vurğulayırdı. Ədəbiyyatşünaslığın bu sahəsinə ciddi təfəkkür hadisəsi kimi baxan tədqiqatçı yazırdı: «Tənqid – əsər haqqında təəssürat deyildir, oxucu və yazıçı rəyi də deyildir. Tənqid elmi şəkildə müasir ədəbiyyatın qanunauyğunluqlarını kəşf etməlidir. Həyatın aparıcı tendensiyasını tuta bilməli və bunu ədəbiyyatda necə əks etdirməyin yollarını göstərməlidir.»[1] Ədəbi tən-qiddən canlı dil, bədiilik tələb edən K.Talıbzadə göstərir ki, bu xüsusiyyətlər tənqidin özünə daha çox diqqət tə-ləb etməsi, onun təsir qüvvəsini artırmaq üçün mühüm şərtlərdəndir.

Burada müasir milli tənqidin vəziyyətindən, onun qarşısında duran məsələlərdən bəhs edən məqalələrlə ya-naşı, ayrı-ayrı sənətkarların, daha dəqiq desək, M.Qorkinin və S.Vurğunun elmi-nəzəri görüşlərindən bəhs edən iki məqalə, eləcə də resenziya xarakterli yazılar toplanmışdır. Müəllifin

---

[1] Talıbzadə K.Tənqidimiz haqqında qeydlər, Bakı, Gənclik, 1967, s.4.

«Tənqidimiz haqqında qeydlər» kitabında topla-nan məqalələrinin demək olar ki, hamısı müasir tənqidin ədəbi proseslə əlaqəsinin öyrənilməsi, ədəbi tənqidin başlıca meyllərinin və axtarışlarının elmi cəhətdən ümumiləşdi-rilməsi baxımından əhəmiyyət kəsb edən qiymətli tədqi-qatlardan hesab olunur.

K. Talıbzadənin sonrakı kitablarında da ədəbi tən-qidin problemləri ilə əlaqədar yazılan məqalələr əksəriyyəti təşkil edir. Tədqiqatçının belə kitablarından biri də «Ədəbi irs və varislər»dir. «Ədəbi irs və varislər» (1974) kitabında K. Talıbzadə öz yaradıcılıq ənənələrinə sadiq qalaraq ədəbi tənqidi ədəbiyyatşünaslıqla vəhdətdə təqdim edir. Buradakı məqalələrin böyük bir qismi milli ədəbi tənqidin tarixinə və müasir problemlərinə həsr olunmuşdur. Qeyd etmək lazımdır ki, 70-ci illərdə ədəbiyyatşünaslığın bu mühüm sahəsinə dövlət səviyyəsində diqqət göstərilirdi. Hətta 1972-ci ildə ədəbi tənqidin vəzifələrini müəyyənləşdirən «Ədəbi-bədii tənqid haqqında» rəsmi sənəd də tərtib edilmişdi. K.Talıbzadənin «Ədəbi irs və varislər» kitabı ədəbi tənqidin özünüdərki kimi səciyyələndirilən belə bir mərhələnin məh-sulu idi. Tədqiqatçı burada «Tənqidimizin yeni mərhələsi» (1971) adlı məqaləsində bu dövrün ədəbi tənqidinin əvvəlki dövr və illərə nisbətən daha mürəkkəb şəkil aldığını, daha çətin və məsuliyyətli vəzifələri icra etdiyini göstərirdi. O, yazırdı: «Bu günkü bədii tənqid ədəbi prosesə güclü ideya-estetik təsir göstərir, əldə edilən nailiyyətləri möhkəmlət-məyin, inkişaf etdirməyin elmi-nəzəri

---

[1] Yenə orada, s.128.

əsaslarını yaradır… Ədəbiyyatın hərhansı janrı kimi bədii tənqid əsərində də müəllifin həyata münasibəti öz ifadəsini tapır, onun möv-qeyi, dünyagörüşü, ictimai-siyasi baxışları təbliğ edilir, nəyə rəğbət bəslədiyi, nəyə nifrət etdiyi ifadə olunur.»[1]

Milli ədəbi tənqidin tarixi və nəzəri məsələlərinin həllində yaxından iştirak edən K.Taıbzadənin rəhbərliyi ilə 80-ci illərdə nəşrə hazırlanan «Ədəbi tənqid» kitabı (1984) da ədəbiyyatşünaslığımıza əvəzsiz töhfə olmuşdur. Tədqiqatçının burada «Ədəbi tənqid: yekunlar, mülahi-zələr» məqaləsi işıq üzü görmüşdür. Müəllif bu məqaləsində ədəbi tənqid haqqında nəzəriyyəni daha da dərinləşdirir, tənqidin spesifikası barədə yeni mühakimələrə yol açırdı. O, burada tənqidçi şəxsiyyəti məsələsinə diqqəti yönəldir, ədəbi tənqidin yaradıcılıq aktına çevrilməsi amilinin tənqidçinin şəxsiyyətindən asılı olduğunu göstərir və əsaslandırırdı. Miqyaslı ədəbiyyatın yaranması üçün miqyaslı tənqidçi şəxsiyyətinə ehtiyacın artdığını vurğulayan tədqiqatçı belə bir düzgün qənaətə gəlirdi ki, «böyük tənqid Səməd Vurğun yanğısı və miqyası, Mehdi Hüseyn ehtirası, Məmməd Arif prinsipiallığı və dəqiqliyi, Mirzə Ibrahimov ictimai fəallığı, Cəfər Cəfərov erudisiyası tələb edir.»[1]

K.Talıbzadənin milli ədəbi tənqidin problematikasına, tarixi-nəzəri məsələlərinə diqqəti «Sənətkarın şəxsiyyəti» kitabında (1978) da aydın şəkildə nəzərə çarpır. Kitabda «Klassik ədəbiyyat», «Sovet ədəbiyyatı», «Tənqid: dünən və bu gün» ümumi başlıqları altında birləşdirilən məqalə- lərin

---

[1] Talıbzadə K. Ədəbi irs və varislər, Bakı, Azərnəşr, 1974, s.9.

böyük əksəriyyəti Azərbaycan tənqidinin tarixinə və müasir dövrünə həsr olunmuşdur. «Tənqid: dünən və bu gün» adı altında toplanan məqalələrdə milli tənqidin tarixi inkişaf qanunauyğunluqları, onun dünənki və bu günkü nailiyyətləri F.Köçərli, A.Sur, S.Hüseyn, M.Arif, B.Nəbiyev kimi görkəmli tənqidçilərin görüşləri əsasında təhlil edilirdi.

«Tənqid və tənqidçilər» kitabında (1989) da tədqiqatın bu istiqaməti davam etdirilir, daha dərin və əhatəli təhlillərlə səciyyələndirilir. Burada «Tənqid etüdləri» adı altında toplanan məqalələrdən başqa bütün digər yazılar milli ədəbi tənqidin problemlərinə həsr olunmuşdur. Qeyd olunmalıdır ki, kitabın mövzusu yalnız ədəbi tənqiddir; milli tənqidin tarixi və müasir mərhələsinin müxtəlif problemləri, tənqidin həyatla, ictimai proseslə, ədəbiyyatla əlaqəsi bu mövzunun əsas məndəricəsini təşkil edir. Müəllif milli ədəbi-estetik fikrimizin qaynaqlarını və əsas istiqa-mətlərini müəyyənləşdirir, eyni zamanda, görkəmli tənqid-çilər barəsində qeydlərində, tənqid icmalları və resen-ziyalarda bütünlükdə ədəbi tənqidin inkişaf prosesini aydınlaşdırırdı. K.Talıbzadə bu tədqiqatlarında müasir ədəbi tənqidimizin mövcud vəziyyətini daha diqqətlə araşdırır, onun nailiyyətlərinə nəzəri cəlb edir, eyni za-manda, bir sıra nöqsan və çatışmazlıqlarını göstərirdi. O, çağdaş tənqidin əsas çətinliklərini yazıçı və müasir həyat problemlərinin həllindəki mürəkkəbliklə əlaqələndirir, cəmiyyətdə baş verən ictiamai-siyasi hadisələrin, xalq taleyinin bir çox vacib məsələlərinin, yeni insanın mənəvi aləmindəki təbəddülatların geniş miqyasda

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, c.2, s.204.

bədii ədəbiyyata gətirilməsi yolları haqqında tənqidin az düşünməsini onun bütünlükdə həyatın özünə müdaxiləsinin zəifliyi kimi sə-ciyyələndirir. Kitabda «Tənqidçilər» başlığı altında bir-ləşdirilən məqalələrdə isə K.Talıbzadə realist ədəbi tən-qidimizin banisi M.F.Axundovdan başlayaraq böyük bir tənqidçi nəslinin görkəmli simalarından söz açır, onların ədəbi-estetik fikir tarixində səmərəli xidmətlərini və möv-qelərini qiymətləndirirdi. Milli ədəbi tənqidimizin təşəkkü-lündə, formalaşmasında əvəzsiz rolu olan həmin şəxsiy-yətlərin – M.F.Axundov, Ə.Ağaoğlu, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, S.Hüseyn, B.Çobanzadə, A.Musaxanlı, S.Vurğun, M.Hüseyn, M.Arif, M.Rəfili, M.Ibrahimov, M.Cəfər və başqalarının estetik görüşlərinə həsr olunmuş oçerklərdə, məqalələrdə tənqid və ədəbiyyatşünaslıq tariximizin yara-dılması prosesi diqqətlə izlənirdi. Çağdaş və klassik ədəbi tənqidimizin nəzəri-estetik problemlərini hərtərəfli işıq-landıran «Tənqid və tənqidçilər» kitabı tədqiqatçının 80-ci illər axtarışlarının nəticəsi kimi meydana çıxmışdı.

K.Talıbzadənin «Seçilmiş əsərləri»ndə (1991;1994) toplanmış tədqiqatlarında da ədəbi tənqid, onun müasir dövrdə inkişafı ilə bağlı fikir və mülahizələr, dərin nəzəri ümumiləşdirmələr, orijinal elmi qənaətlər öz əksini tap-mışdır. Tədqiqatçı bu dövrdə bədii əsərlərin mövcud nə- zəri prinsiplər əsasında, müasir estetik tələblər səviyyəsində təhlili baxımından tənqidin vəziyyətini qənaətbəxş hesab edir, bu münasibətlə yazırdı: «Bədii təhlilin tələbləri ilə ayaqlaşan tənqidçilərimiz var. Əgər belə tənqidçilərimiz varsa, onun gələcəyinə də ümidlə baxmaq lazımdır. Tənqidə ümid verən

gənclər gəlir, onların varlığı gələcəyə ümidlə baxmağa əsas verir.»[1]

Beləliklə, K.Talıbzadənin bütün yaradıcılığında tənqid tarixi mövzusu tədqiqatlarının əbədi predmeti olmuşdur. Onun elmi, ədəbiyyatşünaslıq fəaliyyətinin ən güclü tərəfi də milli ədəbi tənqid tarixi və nəzəriyyəsi sahəsində xidmətləridir. Məhz bu yönümdə apardığı dəyərli təd-qiqatları K.Talıbzadəni tənqidşünaslığımızın banisi kimi tanıtmış, ona möhkəm elmi-nəzəri, tarixi əsaslar üzərində yüksələn bir məktəb – tənqidşünaslıq məktəbi yaratmaq imkanı vermişdir.

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki clddə, c.2, s.216.

### *3.2. Yeni dövr Azərbaycan ədəbiyyatı*

Kamal Talıbzadə çoxcəhətli yaradıcılığında çağdaş ədəbiyyatşünaslığın ən mühüm məsələlərini işıqlandırmış, həmişə ədəbi-nəzəri fikrin əsas istiqamətində tədqiqatlar aparmışdır. Onun yeni dövr Azərbaycan ədəbiyyatının bir sıra vacib problemlərinə həsr etdiyi məqalələri, tədqiqatları bu cəhətdən xüsusilə diqqətəlayiqdir. Həmin məqalələrində ədəbiyyat nəzəriyyəsinin, tənqidin ən aktual məsələlərinə toxunan, dövrün görkəmli yazıçı və ədəbiyyatçılarının yaradıcılığına münasibət bildirən tədqiqatçı müasir ədə-biyyat, ədəbi proses haqqında konkret, aydın təsəvvür yaratmağa müvəffəq ola bilmişdir. Yeni dövr ədəbiyyatının tədqiqi istiqamətində K.Talıbzadənin 60-80-ci illərdə ədə-biyyat nəzəriyyəsinin ən mühüm məsələlərindən olan realizm problemi ətrafında mülahizələri xüsusi maraq doğurur. Tədqiqatçı hələ 1969-cu ildə respublikamızda Azərbaycan ədəbiyyatında realizm probleminə həsr edilmiş ilk elmi müşavirənin təşəbbüskarlarından və təşkilatçı-larından biri olmuş, burada «XX əsr Azərbaycan tənqi-dində realizm» mövzusunda məruzə etmişdir. Tədqiqatçı müşavirənin yekunları haqqında «Realizm problemləri həll olunur» (1969), bir qədər sonra isə «Realizmin həyati qüdrəti» adlı məqalələrini yazmışdır. Sovet Şərqi xalqlarının ədəbiyyatlarında realizm probleminə həsr olunan Bakı müşavirəsində (1972) isə K.Talıbzadə «Azərbaycan ədəbiy-yatşünaslığında Şərq realizmi problemləri» mövzusunda məruzə etmişdir. Bu ümumittifaq müşavirənin səmərəli nəticəsi olaraq tədqiqatçının

milli ədəbiyyatımızda məsə-lənin tədqiqi haqqında «Realizmi necə öyrənirik?» və «Realizm problemləri» adlı məqalələri işıq üzü görmüşdür. Milli estetik fikrimizin tarixinə həsr olunmuş monoq-rafiyasında K.Talıbzadə realizm problemini daha geniş izah etmiş, «realizmin bayraqdarı» M.F.Axundovun tənqidi görüşlərini bu aspektdə nəzərdən keçirərək dərin və hərtərəfli təhlil aparmışdır. Qeyd etmək lazımdır ki, 60-cı illər ədəbiyyatşünaslığında realizm probleminə ümumittifaq miqyasda xüsusi diqqət yetirilir, onun ədəbiyyatda inkişaf qanunauyğunluqlarının, milli spesifikasının, tarixi mərhələ-lərinin, tipologiyasının və bir sıra mühüm xüsusiyyətlərinin öyrənilməsi bir növ tələb səviyyəsində irəli sürülürdü. Bu tələb Azərbaycan ədəbiyyatşünaslığının qarşısında da bir sıra vəzifələr qoyur, realizmi elmin başlıca tədqiqat yönümü kimi müəyyənləşdirirdi. Həmin dövrün tədqiqatlarında realizm nəzəriyyəsində iki müxtəlif konsepsiya diqqəti cəlb edir. Burada realizmin hüdudlarını çox geniş gö-türən, onun tarixi köklərini lap qədim dövrlərə aparıb çıxaran birinci konsepsiyanın tərəfdarları realizmin ədəbi inkişafın bütün mərhələlərinə məxsus bir yaradıcılıq me-todu olduğunu göstərir və əsaslandırırdılar. M.Ibrahimov, M.H.Təhmasib, M.Məmmədov kimi tədqiqatçılar öz əsər-lərində hələ XI əsrdə «Kitabi-Dədə-Qorqud» dastanlarında, XII əsrdə Nizami Gəncəvi yaradıcılığında və bir sıra orta əsr ədəbi mənbələrində realistik ünsürlərin olması mülahizəsini irəli sürürdülər. Bu müəlliflərin qənaətinə görə realizm bir metod kimi qədim tarixə malik olmuş, sonralar təşəkkül edərək yeni

bir mərhələyə – bilavasitə M.F.Axundovun xidmətləri ilə bağlı olan tənqidi realizm mərhələsinə yüksəlmişdir.

Azərbaycan realizm nəzəriyyəsində ikinci konsep-siyanın tərəfdarları realizmin yaranmasını bəzən M.P.Vaqi-fin, bəzən də M.F.Axundovun adı ilə bağlayırdılar. Qeyd etmək lazımdır ki, milli ədəbiyyatda realizmin ilk nəzə-riyyəçilərindən olan M.F.Axundovun özü də realizmin M.P.Vaqifdən başlanması fikrinin tərəfdarı olmuşdur. F.Köçərli, S.Hüseyn də realizmin doğuluşunu M.P.Vaqif yaradıcılığında görürdülər. F.Köçərli milli ədəbiyyatda realizmin sonrakı inkişafını Q.Zakir və M.F.Axundovun adları ilə bağlayır, onların hər ikisini «yeni ədəbi cərə-yana» mənsub yazıçılar hesab edirdi. Onun realizm nəzəriyyəsində M.F.Axundov realizminin təhlili xüsusilə geniş yer tutur. Y.V.Çəmənzəminli də realizmin Vaqifdən başlandığını, Zakir yaradıcılığında inkişaf etdirildiyini, Axundov əsərlərində yüksək təşəkkül tapdığını göstərirdi. K.Talıbzadə əsərlərində milli realizmin tədqiqinin əsas istiqamətlərini göstərir, irəli sürülən müxtəlif konsepsiyalara münasibətini bildirirdi. Realizm ədəbi metodu ətrafında gedən mübahisələr, bir-birinə zidd konsepsiyalar haqqında tədqiqatçının fikirləri, onun realizmin əhatə etdiyi prob-lemlərin bəsitləşdirilməsi və təhlilində subyektivizmə, iba-rəçiliyə, süni effektlərə yol verilməsi hallarını ciddi tən-qid etdiyi məqamlar xüsusilə diqqətəlayiqdir. Tədqiqatçı ədəbi təcrübədə realizmi həyat hadisələrinin surətini çı-xarmaqdan ibarət hesab edən, bəzən də onu «sadəcə həyatın əks-sədası» kimi izah edən müəlliflərə etirazını bildirir, realizm

anlayışı haqqında yanlış təfərrüatlara qarşı tutarlı dəlillərlə çıxış edirdi.

Realizmin milli ədəbiyyat tariximizdə mövqeyi məsələsinə gəldikdə isə tədqiqatçı realizmin bir yaradıcılıq metodu kimi təşəkkülünü müəyyən tarixi dövrün məhsulu hesab edən, onu konkret ideya-estetik komponentlərə malik bədii yaradıcılıq üsulu kimi qiymətləndirən konsepsiyanı elmi cəhətdən daha dürüst sayır. K.Talıbzadə təhlilində nəzəri fikrin realizmə geniş marağını insanın getdikcə mürəkkəbləşən həyatı dərk etmək cəhdi ilə əlaqələndirir, «realizmin inkişafı insan təfəkkürünün inkişafı ilə bağlıdır» mülahizəsini irəli sürürdü.[1] Müəllif yeni dövr Azərbaycan ədəbiyyatının ən böyük nailiyyətlərinin realistik meyli bədii ədəbiyyatda möhkəmlədən M.P.Vaqif, realizmi ədəbi mək-təb səviyyəsinə yüksəldən M.F.Axundov, onu öz üsyankar satirası ilə ən uca zirvəyə qaldıran M.Ə.Sabir kimi klassik sənətkarların adı ilə, bilavasitə xidmətləri ilə bağlı olduğunu nəzərə çatdırırdı. Bununla da, realizmi bədii təfəkkürün xüsusi hadisəsi səviyyəsində dəyərəndirir, onu bir növ bəsitləşdirən, realizmin mahiyyətini izah edərkən yanlış təfərrüatlara yol verən müəlliflərə etirazını bildirirdi. Təd-qiqatçının fikrincə, bu ədəbi cərəyanı, onun imkanla-rının əhəmiyyətini düzgün dərk etmək üçün insan təfək-küründə yaranan və inkişaf edən prosesləri diqqətlə öyrənmək zəruridir. K.Talıbzadə göstərir ki, dünya ədəbiyyatında olduğu kimi milli ədəbiyyatımızda da bu ədəbi metod öz sözünü demiş, qüdrətini əsrlərlə nümayiş etdirmişdir.

---

[1] Talıbzadə K. Ədəbi irs və varislər, Bakı, Azərnəşr, 1974, s.19.

Müəllif xüsusilə XVIII-XIX və XX əsrlərdə Azərbaycan ədəbiyyatında realizmin son dərəcə qüvvət-lənərək genişləndiyini və şaxələndiyini, böyük sənət nümu-nələri meydana qoyan əsas xəttə, ana xəttə çevrildiyini vurğulayır. Tədqiqatçı realizm problemini tarixilik nöqteyi-nəzərindən şərh edərək Azərbaycan ədəbiyyatında yeni bir mərhələ olan çağdaş realizmin özünəqədərki sənətin qabaqcıl keyfiyyətlərini mənimsəməklə inkişaf etdiyini, zəngin tarixi təcrübə üzərində yüksəldiyini əsaslandırır. K.Talıbzadə belə hesab edir ki, çağdaş realizm köhnə ilə yeninin sintezindən yaranan bir metod olub müasir cəmiyyətin ziddiyyətlərini, onun inkişaf qanunauyğunluq-larını daha dərindən qavramaq, müasir insanı hərtərəfli, bütün mürəkkəbliyi ilə təsvir etmək kimi geniş yaradıcılıq imkanlarına malikdir. Müəllifin fikrincə, milli ədəbiyyatda realizmin M.F.Axundovdan başladığını zənn etmək, «ona qədərki realist meylləri qiymətləndirməmək milli realizmin mərhələlərini kasıblaşdırır, tarixi inkişafın, ədəbi həyatın həqiqi mənzərəsini yaratmağa imkan vermir.» [1]

Tədqiqatçı realizmin XIX-XX əsrlər Azərbaycan ədəbiyyatında zamanın tələblərinə daha çevik yanaşan, ölkənin ictimai-siyasi, iqtisadi həyatındakı yenilikləri, dövrün mürəkkəbliyini, ziddiyyətlərini, aparıcı məfkurəvi meyllərini daha tez və daha dərindən qavramağa qadir bir metod kimi özünü doğrulda bildiyini göstərir. O, son dövr realizmini özünəqədərki realizmin, eləcə də klassik sənətin mütərəqqi keyfiyyətlərini mənimsəyib inkişaf etdi-rən bir

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, c.2, 1994, s.161.

yaradıcılıq metodu kimi, realizmin daha yüksək bir mərhələsi kimi səciyyələndirir. K.Talıbzadə təhlilində belə bir qənaətə gəlir ki, «milli ədəbiyyatımızda realizm cəmiy-yətimizi əks etdirən bir metod kimi təşəkkül tapır, yeni insan konsepsiyasını irəli sürür, realizmin ideya-estetik imkanlarını genişləndirir, yeni bədii formaların əmələ gəlməsi zərurəti yaradır.»[1] Tənqidi realizm ənənələrinin daha da inkişaf etdirilməsi uğrunda mübarizə aparmağı ədəbiyyatşünaslığın ən mühüm, ümdə vəzifəsi hesab edən tədqiqatçı elmi metodologiyaya əsaslanaraq ədəbiyyatı yük-sək təşəkkül tapmış insan konsepsiyasına xidmət üçün səfərbər etməyin vacibliyini nəzərə çatdırır.

K.Talıbzadə bir tənqidçi kimi də müasir ədəbi prosesə ardıcıl olaraq müraciət etmiş, bir sıra məqalələrində çağdaş ədəbiyyatımızın mənzərəsini dolğun şəkildə işıqlandıra bil-mişdir. Müasir ədəbiyyata dair bu icmal məqalələrində tədqiqatçı çox geniş məsələlərə toxunur, araşdırdığı prob-lemin, yaxud mövzunun işlənməsi sahəsində ədəbiyya-tımızın ənənəsini, qazandığı nailiyyətləri müəyyənləşdirir, onların işığında son illərin ədəbi təcrübəsinə nəzər salır, müvəffəqiyyətləri və çatışmazlıqları göstərir. Onun S.Rəhi-movun «Mehman» povesti, M.Hüseynin «Səhər», I.Əfən-diyevin «Sarıköynəklə Valehin nağılı» romanları, M.S.Or-dubadinin «Bədbəxt milyonçu» povesti, Anarın «Sizi deyib gəlmişəm» pyesi, I.Ismayılzadənin «1937» poeması kimi qiymətli bədii nümunələrin təhlilinə həsr etdiyi məqalələri bu

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, c.2, 1994, s.154.

cəhətdən xüsusilə diqqətəlayiqdir. Bu məqalələrində tədqiqatçı bədii əsərin mövzu və ideyasını, quruluşunu, obrazlar aləmini təhlil etməklə kifayətlənmir, həmçinin onun spesifikasını, müasir ədəbiyyat üçün əhəmiyyətini, çağdaş ədəbi prosesdə tutduğu yeri və əsərdə ədəbi təsirin rolunu da göstərir. I.Əfəndiyevin «Sarıköynəklə Valehin nağılı» əsəri haqqında K.Talıbzadənin «Yazıçı ideyası və təhkiyə» adlı məqaləsi[1] bu cəhətdən xüsusi maraq doğu-rur. Burada müəllif yazıçının özünəməxsusluğunu, əsərində təhkiyənin hansı formasına müraciət etməsini, romanın ide-yası ilə üslubu arasındakı əlaqənin nədən ibarət olduğunu, nəhayət, əsərin nəsrimizə nə kimi yeniliklər gətirdiyini, onu hansı ideya sənətkarlıq keyfiyyətləri ilə zənginləşdirdiyini izah etməyə çalışır, beləliklə də, müasir nəsrimizin inkişaf yollarında bu romanın mövqeyini müəyyənləşdirir. Romanı lirik-romantik üslubun ideya-estetik tələbləri baxımından təhlil edən tədqiqatçı onu XX əsr Azərbaycan nəsrinin orijinal struktura, zəngin obrazlar aləminə malik gözəl nümunələrindən biri kimi yüksək dəyərləndirir. K.Talıb-zadə təhlilində belə bir nəticəyə gəlir ki, həmişə əsərləri ilə ədəbi maraq oyatmağa müvəffəq olan I.Əfəndiyevin «Sarıköynəklə Valehin nağılı» romanı da öz problematikası, quruluşu, konfliktin xarakteri, üslubu, rəngarəng obrazlar aləmi və təhkiyənin manerası baxımından tənqidi fikrə yeni söz deməyə, müasir nəsrin ideya-sənətkarlıq xüsusiyyətlə-rindən söhbət açmağa geniş imkanlar yaradır. Bu məziy-yətlərinə görə də tədqiqatçı romanı nəsrimizin üslub

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1, 1991,

müx-təlifliyini təmin etmək, onun inkişafı üçün hər cür yararlı yaradıcılıq zəmini hazırlamaq cəhətdən səmərəli və faydalı bir bədii nümunə hesab edir.

Çağdaş nəsrimizin müxtəlif meyllərini diqqətlə izləyən K.Talıbzadə bir sıra məqalələrində problemin şərhinə daha geniş yer vermişdir. Tənqidçinin Azərbaycan sovet ədəbiy-yatının başlıca mövzularından birinə həsr etdiyi «Müasir kənd və nəsrimiz» məqaləsi bu cəhətdən xüsusilə diq-qətəlayiqdir. Bu məqalədə K.Talıbzadə öz tədqiqatını bir neçə əsərin təhlili ilə məhdudlaşdırmayıb, Azərbaycan nəsrində yeni kənd mövzusunda yazılmış sanballı bədii əsərlərin demək olar ki, hamısını nəzərdən keçirmişdir. Müəllif müasir kənd mövzusunu yaradıcılıqlarında dolğun şəkildə əks etdirən M.Hüseyn, M.Ibrahimov, S.Rəhimov, Əbülhəsən, Mir Cəlal, Ə.Vəliyev, S.Rəhman, I.Əfəndiyev kimi görkəmli yazıçıların bu sahədə qazandıqları nailiy-yətlər fonunda nəsrimizin orta və yeni nəsli nümayən-dələrinin yaradıcılığını diqqətlə təhlil etmişdir. Xüsusilə Isa Hüseynovun əsərlərinin müasir nəsrimizi bir sıra ideya-estetik keyfiyyətlərlə zənginləşdirdiyini qeyd edən K.Talıb-zadə yazıçının konkret əsərlərinin təhlili əsasında nəzəri ümumiləşdirmələr aparır, elmi nəticəyə gəlir.

Ə.Yusifoğlu, Əfqan və G.Fəzlinin müasir kənd möv-zusunda yazılmış bir sıra əsərlərinin təhlili də eyni məntiq- lə davam etdirilir. Tənqidçi yazır: «Bu əsərlərdə konkret həyat materialı – kənd mövzusu ümumiləşdirmənin qüvvəsi və genişliyi sayəsində, xarakterlərin təbiiliyi və mürək-kəbliyi

---

s.46-55.

sayəsində, realizmin gücü nəticəsində əxlaqi, fəlsəfi bir problemə, həyatın, cəmiyyətin ümumi istiqamətini, inkişaf perspektivini, etik keyfiyyətlərini ifadə edən bir problemə çevrilir.»[1] Müəllif B.Bayramov, S.Əhmədov, S.Rəhman və başqalarının əsərlərini də bu aspektdə nəzərdən keçirir, 1966-1970-ci illərdə kənd zəhmətkeşlə-rinin həyatına dair yazılan və nəşr olunan bu roman, povest və hekayələrin, o cümlədən oçerklərin nəsrimizə yeni ideya-estetik xüsusiyyətlər, üslubi çalarlar bəxş etdiyini göstərir. Lakin burada zənnimizcə, məqalənin ümumi ruhu üçün, bütünlükdə K.Talıbzadə yaradıcılığı üçün səciyyəvi olma-yan cəhətlər də vardır. Müasir kənd mövzusunda yazılmış nəsr əsərlərinin sayca azlıq təşkil etməsinə iradını bildirən müəllif yazır: «1966-1970-ci illərdə «Azərbaycan», «Ulduz» jurnallarında 85-ə qədər roman və povest nəşr olun- muşdur. Bunlardan ancaq 15-i müasir kənd mövzusuna həsr olunmuşdur ki, bu da mövzular arasında tənasübün pozulduğunu göstərən ciddi xəbərdarlıqdır. Bu təəssüf doğuran rəqəm yazıçılarımızı düşündürməlidir.»[2] Burada səksən beş əsərin on beşinin müasir kəndə, qalanlarının ictimai-sosial həyatın digər mövzularına həsr edilməsi bizcə, təəssüf doğurmamalıdır. Çünki, məsələ kəmiyyətdə deyil, ideya-bədii keyfiyyətdədir, başqa sözlə, bu on beş əsərdə müasir kəndin, onun zəhmət adamlarının, onların arzularının,

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1, 1991, s.67.

[2] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1, 1991, s.71.

əməllərinin, zəruri ehtiyaclarının, müvəffəqiy-yət və nöqsanlarının necə sənətkarlıqla əks olunmasın-dadır.

Konkret bir əsərin təhlili ilə bütövlükdə yazıçının yaradıcılıq xüsusiyyətini, yaradıcılıq tendensiyasını müəy-yənləşdimək və izah etmək baxımından K.Talıbzadənin «Tənqid etüdləri» adı altında ədəbi ictimaiyyətə təqdim etdiyi məqalələri xüsusilə diqqətəlayiqdir. Əsasən resenzi-yalardan ibarət olan bu məqalələrdə müəllif çağdaş ədəbi prosesin fakt və materiallarının icmalını verməklə kifa-yətlənmir, onun mahiyyət ifadə edən meyllərini müəy-yənləşdirir, düşündürücü ümumiləşdirmələri ilə ədəbiyyatın inkişafını istiqamətləndirə bilir. Bu cəhətdən Anarın «Sizi deyib gəlmişəm» pyesinin təhlili nəzəri cəlb edir. Müəllif bu kiçik həcmli, yığcam məqalədə pyesin həm ideyasını, həm də poetikasını ətraflı izah edir, konkret bir əsərin timsalında müasir dramaturgiyanın inkişaf meyllərini izləyir və meydana çıxarırdı. Tənqidçi Mirzə Cəlilin dövrünü, yaradıcılıq mübarizəsini dolğun surətdə əks etdirməyin çətin və mürəkkəb bir iş olduğuna baxmayaraq Anarın bu vəzifənin öhdəsindən uğurla gəldiyini, böyük yazıçının fikir və iztirab dünyasını açıb göstərə bildiyini qeyd edir. K.Talıbzadə təhlilində doğru olaraq dramaturqun bu nai-liyyətini onun ənənəvi yol ilə getməyib, Mirzə Cəlilin təsvir etdiyi aləmə bir növ onun gözləriylə baxması və nəticədə dolğun, kamil bir surət yaratması ilə əlaqələn- dirir.

K. Talıbzadənin müasir ədəbi prosesə həsr etdiyi məqalələri içərisində «Azərbaycan» jurnalı haqqında ic-malını xüsusi qeyd etmək lazımdır. Burada 1981-ci ildə jurnalın səhifələrində işıq üzü görən bütün poeziya və nəsr

əsərləri, tənqid materialları ayrı-ayrılıqda təhlil edil-miş, çağdaş ədəbiyyatın əsas mahiyyətini təşkil edən isti-qamət və meyllər müəyyənləşdirilmişdir. Müəllif jurnalın illik məhsulunu nəzərdən keçirərkən onun ilin ədəbi hadisələrinə necə müdaxilə etməsini, hansı uğurları ilə oxu-cularını razı saldığını, burada dərc edilən əsərlərin milli-mənəvi inkişafımızda nə kimi rolu olduğunu da araşdırırdı. Jurnalda poeziyaya daha geniş yer verildiyini qeyd edən tənqidçi ilin şeirini lirik şeir kimi səciyyələndirir, bu poe-ziya əsərlərinin böyük əksəriyyətinin təbiət və məhəbbət mövzularına həsr olunduğunu göstərirdi. K.Talıbzadə məhəbbət mövzusuna üstünlük verən şairlərə haqq qa-zandıraraq yazırdı: «Məhəbbət ali hissdir, fəlsəfi, həyati məzmun daşıyır, o həmişə – hər dövrün öz fikri-mənəvi tərəfləri səviyyəsində tərənnüm olunmuş, hər dövrün hissləri və düşüncələri mövqeyindən mənalandırılmışdır.»[1] Lakin tənqidçi məhəbbətə dair yazılan yeni şeirlərin böyük əksə-riyyətində orijinallıq olmadığını, təkrar fikirlərin, düşün-cələrin, eyni hiss və ifadələrin baş alıb getdiyini, bu şeir- lərin müasir poetik tələblərə cavab vermədiyini təəssüf hissilə qeyd edirdi.

Onun şair V.Cəbrayılzadənin jurnaldakı şeirlərinə münasibəti də xüsusi maraq doğurur. Burada tənqidçini şairin lirik qəhrəmanının daha çox öz mənəvi dünyası, daxili aləmi ilə həddən artıq məşğul olması narahat edirdi. K.Talıbzadə belə bir qənaətə gəlirdi ki, şairin lirik qəhrə-manı «içərisini xarici dünya ilə əlaqələndirməkdə hələ çətinlik

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1, 1991,

çəkir, elə bil bu əlaqədən qorxur, gizli, daxili hisslərinin, ehtiraslarının ifadəsinə verilən üstünlük lirik qəhrəmanın real planda anlaşılmasına, real həyatla əla-qələnməsinə mane olur.»[1] Bu lirik qəhrəmanın kədər və qüssə içərisində çırpınmasının, ziddiyyətli ruhi hallar keçirməsinin, tez-tez kədərlənib qüssələnməsinin, ictimai zəifliyinin əsas səbəbləri də bununla əlaqələndirilir. Təd-qiqatçı burada şairin çətinliyini əsasən öz daxili aləmin- dən ayrıla bilməməsi ilə izah edir, buna iradını bildirir. Zənnimizcə, V.Cəbrayılzadənin öz mənəvi dünyasına, daxili aləminə bu sonsuz aludəçiliyi onun poeziyasının özünə-məxsusluğunu, spesifikliyini şərtləndirən, orijinallığını tə-min edən cəhətlərdən biri kimi də dəyərləndirilə bilərdi.

B.Azəroğlunun poeziyasındakı narahatçılıq və kə-dərin səbəbini izah edərkən tənqidçi bu kədərin vətənin taleyilə bağlı nigarançılıq duyğuları ilə birləşdiyindən bö-yük ictimai məna kəsb etdiyini, ümumxalq kədərinə çevril-diyini göstərir, buna görə də bu kədəri «insanı narahat edən, oyadan, ayıldan kədər» kimi səciyyələndirir. K.Ta-lıbzadəyə görə poeziyanı yaradan məhz belə kədərdir, poeziyanın ümdə məziyyəti isə onun milləti ayıltmasıdır, milli oyanışa təsir etməsidir.

Jurnalda dərc olunan nəsr əsərlərini təhlil edərkən tənqidçi bunların böyük bir qisminin ailə-məişət, əxlaq problemlərinə, müasirlərimizin həyatına, daxili aləminə, düşüncələrinə həsr olunduğunu göstərir. Lakin o, gənc

---

s.78.

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1., 1991, s.81.

nasirlərin milli nəsrin ədəbi təcrübəsindən düzgün nəticə çıxarmadığını, onların nəşr olunan əsərlərinin bir çoxunun mövzu və məzmunu, obrazları, hətta ölçüsü, ahəngi ilə də bir-birinin təkrarı olduğunu müşahidə edir. Bununla yanaşı Elçinin, S.Azərinin jurnalda nəşr olunan əsərləri nəsrimizin uğurları kimi dəyərləndirilir. Bu əsərlərdə yazıçı müşahidəsinin seyrçi yox, yaradıcı səciyyə daşıdığı, sadə insanların mənəviyyatlarında ictimai-sosial mühitin ya-ratdığı yeni keyfiyyətlərin düzgün əks edildiyi göstərilir və əsaslandırılır.

K.Talıbzadə buradakı tənqid materiallarını təhlil edərkən jurnalın ədəbi tənqid məsələlərinə müdaxiləsinin zəif olduğunu, ədəbiyyatşünaslıq problemlərinə daha geniş yer verdiyini göstərir. Tənqidçi jurnalın tənqid bölməsinin problematika cəhətdən «kasıb və əhatəsiz» olduğunu yal- nız qeyd etməklə qalmır, bunun səbəblərini araşdırıb üzə çıxarmağa, izah etməyə çalışırdı. O, təhlilində belə bir düzgün nəticəyə gəlirdi: «Tənqid çox zaman həyatın ədəbi proses qarşısında irəli sürdüyü aktual problemlərdən sərf-nəzər edərək ancaq bədii ədəbiyyatın özünün mövzuları ilə məşğul olur, bu isə onun bədii yaradıcılığın çətinliklərini vaxtında üzə çıxarmaq imkanlarını xeyli məhdudlaşdırır.»[1]

K.Talıbzadənin müasir ədəbi prosesə münasibəti onun bir çox görkəmli yazıçı və ədəbiyyatçılar haqqında yazdığı məqalələrində də dolğun şəkildə öz əksini tapmışdır. O, hələ yaradıcılığının ilk illərindən başlayaraq XX əsr ədəbiyyatının klassiklərindən S.Vurğun, S.Rüstəm, M.S.Or-dubadi,

M.Hüseyn, S.Rəhimov, M.Ibrahimov, M.Rahim, R.Rza, M.Müşfiq kimi böyük sənətkarların ədəbi fəa-liyyətini yaxından izləmiş, onların toxunduqları problem-lərin müxtəlifliyi və mürəkkəbliyini şərh etmişdir. Tənqidçi ayrı-ayrı yazıçılara, ədəbiyyatçılara həsr etdiyi belə məqa-lələrində ədəbi inkişafı birtərəfli proses kimi izah etmir, əksinə, onu bütün rəngarəngliyi ilə öyrənməyə və təhlil etməyə çalışır. O, həmçinin görkəmli sənətkarların həya-tını və yaradıcılığını ədəbi-ictimai inkişaf kontekstində nəzərdən keçirərək çağdaş Azərbaycan ədəbiyyatının nə-zəri-estetik keyfiyyət və özünəməxsusluğunu, ədəbi prob-lem və sənətkarlıq məsələlərini də aydınlaşdırır. Təhlilin dərinliyi və konkretliyi, ideya meyarlarının dəqiqliyi, sə-nətkar mövqeyinin düzgün dəyərləndirilməsi baxımından tənqidçinin XX əsrin böyük şairi S.Vurğun haqqında məqalələri xüsusi olaraq qeyd edilməlidir. K.Talıbzadə görkəmli şairə həsr etdiyi «Sovet poeziyasının fəxri», «Sə-məd Vurğunun ədəbi tənqidi irsi», «Sənətkarın şəxsiyyəti», «Böyük poeziyanın üfüqləri», «Səməd Vurğun və Azər-baycan sovet ədəbiyyatının problemləri», «Sənətkarın ömür yolu» və digər məqalələrində S.Vurğun yaradıcılığını hər-tərəfli işıqlandırmış, onun poeziyasını, ədəbi-tənqidi görüş-lərini dərindən təhlil edərək dəyərləndirmişdir. S.Vurğun şəxsiyyətinə yaxından bələdlik müəllifə bu məqalələrində böyük şairin sənətkar simasını açmağa imkan vermişdir.

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, 1991, c.1, s.94.

K.Talıbzadə burada görkəmli şairin yaradıcılığının inkişaf meyllərindən, onun zəngin poeziyasının ən xarakterik xüsusiyyətlərindən, fəlsəfi dərinliyindən söhbət açır. Tədqiqatçı S.Vurğun şəxsiyyətinin ümumi, xüsusi və fərdi cəhətlərindən bəhs edərkən şairin sənətkar şəxsiyyətinin onun bədii yaradıcılığında əhəmiyyətli rolunu göstərir. Hüdudsuzluğuna, ölməzliyinə, müasirliyinə heyrət etdiyi S.Vurğun poeziyasını şərtləndirən amillərdən bəhs edərkən müəllif xüsusilə xəlqilik amilindən geniş söhbət açır, məhz bu amilin ehtiva etdiyi məzmun və mündəricənin gör-kəmli şairi xalqın doğması, sevimlisi etdiyini qeyd edir-di. Insana, əqidəyə, ideala nikbin inamı, ideal uğrunda mübarizəni bu poeziyanın ümumi məfkurə pafosu kimi səciyyələndirən, onun ideya mənbələrinin «müasir həya-tın mərhələ-mərhələ təbii dərki» ilə əlaqədar olduğunu vurğulayan tədqidatçı S.Vurğun şeiriyyətinin bu kimi sənətkarlıq xüsusiyyətlərini aydınlaşdırarkən şairin ro-mantikası, yaradıcılıq metodu, üslubu haqqında da ge-niş və hərtərəfli təsəvvür yaradırdı. K.Talıbzadə şairin lirikasını təhlil edərək göstərirdi ki, «S.Vurğun lirikasının yalnız mövzu dairəsi, həyat hadisələrini əhatə miqyası geniş deyildi, burada mühüm cəhət fikir dairəsinin, ideya-fəlsəfi və siyasi baxış dairəsinin genişliyi idi, dün-yanı estetik mənimsəmənin dərinliyi idi.»[1] Tənqidçi şairin lirikasının məhz bu xüsusiyyətlərinin adi, ənənəvi çərçi-vəyə sığmadığını, özünə yeni ritm, yeni poetika prinsipləri tələb etdiyini göstərir, eyni

---

[1] Talıbzadə K. Sənətkarın şəxsiyyəti, Bakı, Yazıçı, 1978, s.76.

zamanda S.Vurğunun öz lirikasının bu mənəvi tələbinə qarşı həssas münasibətinə də diqqəti cəlb edirdi. K.Talıbzadə şairin cəsarətini bu yaradıcılıq tələbinə laqeyd qalmamasında, yeni ideya-məzmun axtarışı ilə yanaşı yeni poetika, yeni ifadə vasi-tələri axtarışını da eyni qızğınlıq və ciddiyyətlə apar-masında görürdü. Tədqiqatçı şairin lirik qəhrəmanının ən səciyyəvi xüsusiyyətlərinin S.Vurğunun özünün şəx-siyyətinə, təbiətinə məxsus sifətlər olduğunu müşahidə edir, bu lirik qəhrəmanın onun məhəbbəti və nifrəti ilə silahlandığını göstərir. K.Talıbzadə tədqiqatlarında S.Vur-ğunu yeni, böyük bir poetik məktəbin banisi kimi yüksək dəyərləndirir, onun ecazkar şeiriyyəti ilə gələcək nəsillərin bədii təfəkkürünə güclü təsir göstərdiyini, ədəbi mühiti uzun zaman öz nüfuz təsirində saxladığını vurğulayır. Tənqidçi bu yüksəlişi, bu böyüklüyü həm də şairin aydın şəxsi keyfiyyətləri ilə izah edir: «Şair Səməd Vur-ğun həmişə öz müasirlərinin nəzərində Şəxsiyyət Səməd Vurğunla qoşa dayanmışdır. Bu iki amil: böyük Şairlə böyük Şəxsiyyət, birlikdə böyük Səməd Vurğunu yarat-mışdır.»[1] Buna görə də müəllif görkəmli sənətkarın poe-ziyasının daxili dünyasına yol tapmaq, onun bədii xüsusiyyətlərini hərtərəfli, bütünlükdə öyrənmək üçün şairin şəxsiyyətinin tədqiqini mühüm və zəruri hesab edir.

K.Talıbzadə şairin nəzəriyyəçilik və tənqidçilik fəa-liyyətindən bəhs edən məqalələrində isə S.Vurğunun es- tetik görüşləri haqqında konkret təsəvvür yaratmışdır. Həmin məqalələrində tədqiqatçı şairin bu yaradıcılıq sa-hələri ilə

---

[1] Yenə orada, s.91.

müntəzəm məşğul olduğunu, onun bədii təfək-kürünün elmi-nəzəri görüşləri ilə vəhdətdə inkişaf etdiyini göstərir. Tədqiqatçının fikrincə, şairin ədəbiyyat tarixi-mizdəki mövqeyi onun milli ədəbi-estetik fikrin inki- şafında da mühüm rol oynamasını şərtləndirmişdir. Şai-rin ədəbi-tənqidi irsində xüsusilə bədii tənqid məsə-lələrinin geniş yer tutduğunu qeyd edən müəllif S.Vur-ğunun bütün fəaliyyəti boyu ədəbi tənqidə dair obyek- tiv mövqedən çıxış etdiyini göstərir. Böyük sənətkarın tənqid və tənqidçilərə böyük ehtiramla yanaşması, milli bədii nailiyyətlərimizi düzgün qiymətləndirməyi bacaran və milli ədəbi zəmin üzərində dayaq tapıb yüksələn əsl tənqidi müdafiə etməsi, onun qayğısına qalması şairin ədəbi tənqidə sonsuz diqqətinin nəticəsi kimi səciyyələn-dirilir. K.Talıbzadə S.Vurğunun estetik görüşlərində tən-qidçi mədəniyyəti və erudisiyası, ədəbi proses və tənqid, ədəbiyyatın səviyyəsi və tənqid, tənqidçi və yazıçı mına-sibəti, tənqidçi şəxsiyyəti, tənqid və ədəbi irs kimi məsə-lələrin mühüm yer tutduğunu qeyd edir, dəqiqlik, elmi-lik, yazıçı və bədii əsər haqqında mümkün qədər ehti-yatlı, obyektiv fikir söyləmək kimi keyfiyyətlərin onun tənqidi mülahizələrinin əsas məğzini, mahiyyətini ehtiva etdiyini göstərir. Tədqiqatçı hələ 30-cu illərdə «tənqi-dimiz necə olmalıdır?» sualının ən real, düzgün cavabını verən S.Vurğunun tənqid haqqındakı fikirlərinin milli ədəbi tənqidimizi düzgün istiqamətləndirməkdə, onu ədəbi həyat üçün faydalı bir vasitəyə çevirməkdə xüsusi rolu olduğunu və öz aktuallığını, ədəbi mənasını itirməyən həmin fikirlərin bu gün də müasir səsləndiyini qeyd edirdi. Burada

şairin tənqidçilik sənətinə son dərəcə həssas müna-sibəti aydınlaşdırılır, onun sənətkar tənqidçi ilə peşəkar tənqidçi arasında fərq qoymağa çağırışı, böyük tənqidçi şəxsiyyəti uğrunda mübarizəsi S.Vurğunun bütünlükdə böyük ədəbiyyat uğrunda mübarizəsi kimi dəyərləndirilirdi. Görkəmli sənətkarın ədəbi tənqidə bu cür həssas mü-nasibətindən bəhs edərkən K.Talıbzadə düzgün olaraq şairin öz bədii əsərləri haqqında yazdığı tənqidi məqa-lələrə də müraciət edir, onların təhlili əsasında belə bir nəticəyə gəlirdi ki, S.Vurğunun öz bədii əsərləri barədə mülahizələrinin, qənaətlərinin ümdə məziyyəti burada dürüst və elmi cəhətdən əsaslandırılmış tənqidi fikirləri təsdiq etmək ruhunun çox güclü olmasındadır. Tədqi-qatçı bu cəhəti Vurğun təbiətinə məxsus böyüklük, həqi-qətpərəstlik kimi ali keyfiyyətlərlə əlaqələndirir. Şairin ədəbi tənqidi irsini diqqətlə araşdıran K.Talıbzadə sonda bu qənaətə gəlir: «Tənqid və onun ədəbi prosesdə mövqeyi haqqında şairin gəldiyi nəticələr yalnız öz bədii yaradıcılıq təcrübəsinin yekunu deyildi, həm də özünün tənqidçilik təcrübəsinin bu sahədə əldə etdiyi nailiyyətlərin yekunu idi.»[1]

K.Talıbzadə müasir ədəbiyyat haqqında bir sıra məqa-lələrini bədii və ədəbi-nəzəri yaradıcılıqlarını yanaşı, bir-birinə qovuşmuş şəkildə davam etdirən görkəmli yazı-çıların sənət görüşlərinə həsr etmişdir. Bu məqalələrin tədqiqat obyekti milli ədəbi tənqiddə özünəməxsus möv-qeyi olan Mehdi Hüseyn, ədəbi irsi düzgün qiymətlən-dirməyi, onun

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1, 1991,

tarixi-müasir əhəmiyyətini müəyyənləşdir-məyi öz estetik konsepsiyasının başlıca prinsipləri hesab edən Mirzə Ibrahimov, daim tənqidi fikrin qayğıları ilə yaşayan Abdulla Şaiq kimi böyük ədəbi şəxsiyyətlərin yaradıcılıq yoludur. Həmin məqalələrə diqqətlə nəzər yetirdikdə tədqiqatçının Abdulla Şaiq ailəsinin yaxın dostu, görkəmli yazıçı və tənqidçi M.Hüseyn yaradıcılığına daha həssas münasibətinin şahidi oluruq. Böyük yazıçı və tənqidçinin ədəbi fəaliyyətinə həsr etdiyi «Yazıçı-mütə-fəkkir», «Ədib-vətəndaş», «Mübariz tənqidin gözəl nü-munələri», «Mehdinin yeri görsənir…» və digər məqa-lələrində K.Talıbzadə M.Hüseyn yaradıcılığını onun şəx-siyyəti ilə vəhdətdə təhlil edir, yazıçının ədəbiyyat və sənətə sonsuz məhəbbətindən söz açarkən «Ədəbiyyata Mehdi Hüseyn məhəbbəti tənqidçi Mehdi Hüseyni yarat-mışdır» tezisinə əsaslanırdı. Tədqiqatçı göstərir ki, tənqid – tənqidsiz keçinə bilməyən M.Hüseynin nitqində, danışıq tərzində daha canlı və ifadəli səslənir, ədəbi hadisələrə münasibətdə həmişə dəqiq və prinsipial mövqe tutan ədəbiyyatçının alovlu tənqidçi kimi tanınmasında, sevil-məsində bu cəhət də az rol oynamırdı.[1]

K. Talıbzadənin XX əsr Azərbaycan ədəbiyyatının böyük ədəbi simaları haqqında əsərləri içərisində atası Abdulla Şaiqə həsr etdiyi məqalələri xüsusilə diqqətəla-yiqdir. Görkəmli milli ədib A.Şaiqin ocağında dünyaya göz açan, qızğın ədəbi müzakirələrdən, elmi söhbətlərdən bəh-rələnərək böyüyən,

---

s.166.

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki cilddə, Bakı, Azərnəşr, c.1, 1991, s.168.

istedadı «Cavidlərin, Vurğun və Mehdi Hüseynlərin nəfəsilə qızınan mühitdə qol-budaq atan» K.Talıbzadə atası haqqında ən kiçik yazını belə qələmə alanda böyük məsuliyyət hissi keşirdiyini etiraf edir. Məhz buna görə onun A.Şaiqlə bağlı məqalələrində, xatirələrində dərin səmimiyyətlə yanaşı ciddi tədqiqatçı münasibəti də aydın sezilir. A.Şaiq onun nəzərində yalnız ata doğmlığı ilə deyil, həm də həyatı öyrədən bir müəllim, onu sə-nətə istiqamətləndirən, ənqidə, ədəbiyyatşünaslığa sövq edən şəxsiyyət kimi də əvəzsiz və unudulmazdır. Həqiqətən də A.Şaiq tənqidə, ədəbiyyatşünaslığa xüsusi maraq gös-tərən, ədəbi fikir yeniliklərini müntəzəm olaraq izləyən, müasiri olduğu tənqidçi və ədəbiyyatşünaslarla sıx əlaqə saxlayan, məşhur dünya tənqidçilərinin fəaliyyətlərindən də xəbər tutan ziyalılarımızdan olmuşdur. KTalıbzadə bu haqda yazır: «Atamın elmi fəaliyyətinin müəyyən illəri mənim gözlərim qarşısında keçmişdir. Ara-sıra yazdığı məqalələr və çıxışlarla yanaşı o, tənqidi fikrin qayğıları ilə yaşayar, yeni fəaliyyətə başlayan tənqidçilərlə maraqlanar, tez-tez keçmişi – tanıdığı, bildiyi şəxsiyyətləri xatırlayar, yeri düşəndə isə özünəməxsus ehtirasla onların həyatından, əsərlərindən söhbət açardı. Belinskiyə, Köçərliyə, A.Sura, məşhur polyak yazıçısı və tənqidçisi S.Pşibışevskiyə, Bran-desə, müasir tənqidçilərimizdən R.Axundova, M.Quliyevə, M.Arifə xüsusi rəğbət bəsləyərdi. Pşibışevskinin 1910-cu ildə Moskvada çap olunmuş «Kpitika» əsərindən, Bran-desin Avropa romantizminə dair kitabından nümunələr oxuyardı və bütün bu adları çəkilən əsərlər bizim kitab rəflərimizdə

idi, yeri düşəndə onlara müraciət də edirdim. Bu mikromühit, görünür, məndə ədəbi tənqid, ədəbiyyat-şünaslıq sahəsinə meyl oyadan əsas ilk amillərdən biri olmuşdur.»[1] K.Talıbzadə A.Şaiqin sənət görüşlərini təhlil edərkən belə bir düzgün qənaətə gəlir ki, şairin mütərəqqi dünyagörüşünün əsas mahiyyəti, məğzi xalqına, onun həyatına, milli varlığına bağlı olduğu üçün ədibin bədii yaradıcılığı kimi ədəbi-tənqidi əsərlərinin də ideya istiqa-mətini müəyyənləşdirmişdir.

Tədqiqatçının öz müəllimləri, müasirləri və yetirmə-ləri olan tənqidçi və ədəbiyyatşünaslar haqqında məqalə- ləri onun müasir ədəbiyyata dair fikir və mülahizələrinin əsas məğzini təşkil edir. Azərbaycan ədəbi tənqidinin görkəmli nümayəndələrinə həsr olunmuş bu məqalələrdə milli ədəbi-nəzəri fikrimizin çağdaş mərhələsi diqqətlə araş-dırılıb tədqiq edilmiş, öz dolğun şərhini tapmışdır. K.Talıb-zadənin M.Arif, M.Rəfili, H.Araslı, M.Cəlal, M.Cəfər, Ə.Mirəhmədov, B.Nəbiyev, Y.Qarayev kimi tanınmış alim-lər haqqında qələmə aldığı məqalələr bu cəhətdən böyük əhəmiyyət və dəyərə malikdir. Həmin əsərlər içərisində tədqiqatçının öz müəllimi, həmişə ustad tənqidçi kimi tə-rənnüm etdiyi M.Arifə həsr olunmuş «Tənqidçinin sənət-karlığı», «Tənqidçi vətəndaş olanda», «Görkəmli alim, tən-qidçi və ictimai xadim», «Tənqidçinin nüfuzu və şöhrəti», «M.Arifin elmi, elmi təşkilatçılıq ənənələri» məqalələri elmi təhlilin dəqiqliyi və yığcamlığı baxımından xüsusilə diqqətəlayiqdir.

---

[1] Talıbzadə K. Seçilmiş əsərləri, iki clddə, Bakı, Azərnəşr, c.1, 1991, s. 21-22.

Qeyd olunmalıdır ki, müəllifin tədqiq etdiyi mövzu böyük tənqidçinin sənətkarlığından bəhs edən məqalədə daha düzgün və hərtərəfli izahını tapa bilmişdir. Burada M.Arifin milli ədəbi tənqidin təşəkkülü və inkişafı prosesində rolu, onun həm ideya, həm də sənətkarlıq cəhətdən yüksəlişində əvəzsiz xidmətləri araşdırılır, tənqidçinin sənətkarlıq xüsusiyyətləri, əsərlərinin yaradıcı səciyyəsi şərh edilir. Tədqiqatçı yazıçılar kimi tənqidçilərin də ədəbiyyata öz mövzusu, üslubu, öz sənətkarlıq xüsusiyyətləri ilə gəldiyini göstərir, tənqidçi dünyasının özünəməxsusluğun-dan söz açır. K.Talıbzadə yazıçılar kimi tənqidçilərin də bir-birinə bənzəmədiklərini, onların hər birinin ədəbi pro-sesdə fərqli mövqe tutduqlarını, öz yazı maneraları, dəst- xəttləri, yaradıcılıq özünəməxsusluqları ilə seçildiklərini müşahidə edir. Tədqiqatçı bu fərqli cəhətləri göründüyü kimi, yalnız mövzu fərqi ilə, tənqidçinin xüsusi mövzulara göstərdiyi həvəslə məhdudlaşdırmır, hər bir tənqidçinin fərdi yaradıcılıq xüsusiyyətləri olduğunu və bu xüsusiy-yətlərin onun şəxsiyyəti ilə, ədəbi prosesə müdaxilə edə bilmək bacarığı, istedadı ilə, ədəbi tənqidi bir sənət sa-həsi kimi necə dərk etməsi ilə əlaqələndiyini göstərir və əsaslandırır. K.Talıbzadə bu sənətkarlıq xüsusiyyətlərinin dəqiq elmi izahı və şərhi üçün M.Arıfın bütün yaradıcı-lığını, onun əlli ilə yaxın bir dövrü əhatə edən ədəbi-tənqidi fəaliyyətinin məhsulunu nəzərdən keçirir, tənqidçinin sə-nətkarlığını onun əsas əsərləri olan C.Cabbarlı və S.Vurğun haqqında monoqrafiyaları, həmçinin onlarla məqaləsi əsa-sında təhlil edirdi. O, təhlilində M.Arifin qərəzli tənqiddən uzaq olduğunu,

onun əsərlərində tənqid kimi tərifin də müəyyən ölçüyə sığışdığını, bir tənqidçi kimi ədəbi ha-disə və yaxud əsəri qiymətləndirərkən aydın mövqe tutdu-ğunu müşahidə edir, məhz bu xüsusiyyətlərin tənqidçiyə ədəbi mühitdə böyük nüfuz qazandırdığını əsaslandırırdı.

Hələ sağlığında «Tənqidimizin atası», «Tənqidimizin ustadı», «Tənqidimizin vicdanı» deyə anılan görkəmli tənqidçi haqqında K.Talıbzadə belə bir düzgün nəticəyə gəlirdi ki, müasir tənqidi sənətkarlıq cəhətdən təkmil-ləşdirmək üçün M.Arif yaradıcılığı zəngin material verir, buna görə də tənqidçinin əsərlərinin sənətkarlıq xüsusiy-yətləri daha geniş və hərtərəfli tədqiq edilməlidir. K.Ta-lıbzadənin tədqiqatlarında M.Arif milli mədəniyyətimizin təşəkkülünü və yüksəliş tarixini öz səmərəli işi ilə yara-dan və təmsil edən görkəmli şəxsiyyətlərdən biri kimi təqdir olunur, böyük tənqidçi və ədəbiyyatşünasın, yazıçı və mütərcimin, müəllim və ictimai xadimin keçdiyi zən-gin yaradıcılıq yolunun mühüm hadisə və məqamları araşdırılır. M.Arifin üçcildlik «Seçilmiş əsərləri»nə yazdığı geniş müqəddimədə də[1] K.Talıbzadə ədəbiyyatımızın və ədəbi-nəzəri fikrimizin müasir nailiyyətlərini, bir sıra mü-hüm və əlamətdar hadisələrini alimin adı ilə bağlayır, onun qırx beş illik zəngin yaradıcılığının milli ədəbiyyatın əsas inkişaf istiqamətlərini müəyyənləşdirməkdə əhəmiyyətli ro-lunu aydınlaşdırırdı.

---

[1] Arif M. Seçilmiş əsərləri (üç cilddə), c.1, Bakı, Azərb. SSR EA nəşriyyatı 1967, s.519.

Tədqiqatçı M.Cəfər tənqidinə də böyük sənət mövqeyindən yanaşır, «Həyat və sənət eşqi» adlı məqalə-sində[1] böyük tənqidçinin həyat yolundan, sənət dünya- sının spesifikasından söz açırdı. Tədqiqatçı hələ gənc yaşlarında dünya ədəbi-estetik fikrinin qabaqcıl meyllə- rini, öyrənmək, mənimsəmək məqsədini izləyən M.Cəfə-rin geniş və çoxsahəli, zəngin ədəbi fəaliyyətini, onun «kuryerlikdən akademikliyə, çörəkçi şagirdliyindən filosof tənqidçiliyə qədər keçib gələn» çox gərgin, mürəkkəb yaradıcılıq yolunu sistemli şəkildə araşdırır. Burada Azər-baycanda qızğın ədəbi mübarizələrin getdiyi, yeni bir tən-qidi cərəyan olan marksist tənqidin formalaşdığı və milli tənqidin öz inkişaf yolunda qarşıda duran maneələrlə çar-pışdığı bir vaxtda böyük ədəbi fikir dünyasına yol alan tənqidçinin yaradıcılığının ən mühüm məqamları diqqət- lə nəzərdən keçirilir. K.Talıbzadə görkəmli tənqidçinin Azərbaycan ədəbi fikrinin yüksəlişinə təkan verən, hər dövrün öz ədəbi-nəzəri səviyyəsini, nailiyyətlərini əks et-dirən əsələri haqqında bəhs edir, onların ədəbi fikrimizin inkişafında rolunu müəyyənləşdirir. Müəllif onu da qeyd edir ki, bu elmi, tənqidi əsərləri oxuduqda sətirlər arxa-sında böyük tənqidçinin parlaq şəxsiyyətini, idealını, həqiqi vətəndaş simasını da aydın görmək mümkündür.[1]

M.Cəfər yaradıcılığının əsas xüsusiyyətlərini araşdı-ran tədqiqatçı tənqidçinin ədəbi hadisələri qiymətləndi-rərkən ideya komponentinə xüsusilə böyük əhəmiyyət verdiyini, təhlil

---

[1] Bax: Talıbzadə K. Tənqid və tənqidçilər, Bakı, Yazıçı, 1989, s.347-354.

obyektinin ideya mövqeyinə əsaslanaraq estetik mərhələnin xüsusiyyətini də dövrün ədəbiyyatının ideyaları, ictimai məzmun əhatəsi, müasirlik dərəcəsi ilə ölçdüyünü aşkara çıxarır. Tədqiqatçı məhz böyük bəşəri ideallarin tənqidçinin görüşlərində ədəbi hərəkatı qiymət-ləndirmək üçün əsas meyar olduğunu qeyd edir və əsas-landırır. K.Talıbzadə göstərir ki, M.Cəfər «ədəbi prosesin gedişini kor-koranə izləmir, ona tabe olmur, tənqidçi üçün əsas meyar həyatdır, ictimai inkişafın mütərəqqi, qabaqcıl istiqaməti və meylləridir. O, məhz bu amillərə söykənərək ədəbi hadisələrə yanaşır, onları qiymətləndirir və mənalan-dırır.»[1] Müəllif bu cəhətə görə tənqidçinin əsərlərində bədii təhlillə yanaşı sosioloji təhlilin də güclü təsir yaratdığını qeyd edirdi. Məqalədə M.Gəfər əsərlərinin ideya odu və işığı ilə oxucularının qəlbini alovlandıran, işıqlandıran, ideyalı tənqidin təsir gücünü, qüdrətini əyani şəkildə nümayiş etdirən tənqidçi kimi təqdir olunur, onun milli ədəbiyyatımızın inkişafında xidmətləri yüksək dəyərlən-dirilirdi. Tənqidçinin müvəffəqiyyətinin səbəblərini araş-dıran K.Talıbzadə onun ildən-ilə, mərhələdən-mərhələyə sənət yüksəlişinin, sənət yolunda irəliləməsinin, qüdrətli bir alimə, sözükeçər bir tənqidçiyə, nəhayət, alim-vətəndaşa çevrilməsinin əsl kökünü isə bunda görür: «Əsl tənqidçi o zaman nüfuz qazana, ədəbi prosesə, yazıçıya təsir göstərə bilir ki, o, xalqının həyatını, tarixini, fəlsəfəsini, ədəbiyyatını, eləcə də müasir ictimai gerçəkliyi, cəmiyyəti dərs vermək istədiyi yazıçıdan, eləcə də

[1] Talıbzadə K. Tənqid və tənqidçilər, Bakı, Yazıçı, 1989, s.351.

oxucusundan artıq bilə, ümumi bilik səviyyəsi, istedad dərəcəsi ondan üstün ola, ümum-bəşəri ideallar səviyyəsinə yüksəlmək üçün milli ideallara dərindən vaqif ola!»[1] Tədqiqatçı M.Cəfəri məhz belə hərtərəfli mənəvi keyfiyyətlərə malik təbii istedad sahibi kimi təqdir edir, sonda bu nəticəyə gəlirdi ki, əsərlərinin dərinliyi, qiymətlərinin dəqiqliyi və elmi obyektivliyi ilə yalnız M.Ariflə müqayisə edilə bilən tənqidçinin olduqca səmərəli yaradıcılığı Azərbaycan ədə-biyyatını öyrənmək üçün ən mötəbər mənbələrdən biri sayılır.

K.Talıbzadə tənqidə və ədəbiyyatşünaslığa, eləcə də onun görkəmli nümayəndələrinə həsr etdiyi məqalələrində ustad müəllimləri M.Arif, M.Cəfər, F.Qasımzadə, M.Cəlal, Ə.Sultanlı, M.Rəfili, C.Xəndan və başqalarının adlarını dönə-dönə xatırlayır, onların elmi və elmi təşkilatçılıq fəaliyyətindən, aydın şəxsi keyfiyyətlərindən yeri gəldikcə, əsərlərində söhbət açır. Tədqiqatçı «Əsrlərə müasir nə-zər» məqaləsində belə məşhur, hər zaman nəsillərə ör-nək ola biləcək hörmətli müəllimlərindən biri ədəbiy-yatşünas Həmid Araslıdan bəhs edir. K.Talıbzadə üçün H.Araslı «heç kəsə bənzəməyən, özünəməxsus yaradıcılıq yolu, tədqiq üsulu, mövzuları, xasiyyəti və təbiəti olan», həm çox məğrur, həm də çox mülayim, qayğıkeş müəl-limdir, alim-vətəndaşdır. Ədəbi-nəzəri fikir tariximizdə əhəmiyyətli rolu olan ədəbiyyatşünas alimin çoxcəhətli yaradıcılıq yolunu nəzərdən keçirərkən müəllif göstərir ki, elmi problematika genişliyinə

---

[1] Yenə orada, s.350-351.

görə şöhrəti çox-çox uzaq-lara yayılan H.Araslı dünya ədəbiyyatşünaslığında ən çox tanınan görkəmli alimlərimizdəndir. Burada xarici ölkələrin ədəbiyyatşünas alimlərinin də Azərbaycan ədəbiyyatının müxtəlif məsələlərinə həsr olunmuş tədqiqatlarında onun əsərlərindən çox tez-tez, ən mötəbər mənbə və məxəz- lərdən biri kimi istifadə olunduğu, ona istinad edildiyi göstərilir. Tədqiqatçı klassik ədəbiyyatımızın öyrənilməsi və təbliği, eləcə də başqa xalqların ədəbiyyatları ilə, eyni zamanda Yaxın Şərq ədəbiyyatları ilə yaradıcılıq əlaqə-lərinin araşdırılması, bu ədəbiyyatlar arasındakı tipolo-giyanın, ümumi və xüsusi keyfiyyətlərin müəyyənləşdiril-məsi cəhətdən də H.Araslı yaradıcılığını əhəmiyyətli hesab edir, yüksək səviyyədə dəyərləndirir. Müəllif təhlilində belə qənaətə gəlir ki, H.Araslı uzaq keçmişə, ötən əsrlərə bu günün gözü ilə baxan, ensiklopedik biliyə malik, ədəbi-nəzəri irsi, ənənələri daim yaşayacaq ədəbiyyatşünas, folk-lorçu, mətnşünas və pedaqoq kimi milli ədəbiyyatımızın inkişafı yolunda mühüm işlər görmüşdür.

K.Talıbzadənin «öz doğma ədəbiyyatını ən qədim dövrlərdən başlayaraq bu gününə qədər öyrənmiş, bu ədəbi prosesi tam şəkildə əhatə etməyə çalışmış», milli ədəbiyyatımızın tarixinin tədqiqi yönümündə çox səmərəli fəaliyyəti olmuş M.Rəfili haqqında məqaləsi də maraq doğurur. Burada elmi-bədii yaradıcılığı ilə ədəbiyyat elmi-mizin inkişafına təkan verən alimin çoxcəhətli yaradıcılığı araşdırılır,

---

[1] Talıbzadə K. Tənqid və tənqidçilər, Bakı, Yazıçı, 1989, s.347-348.

onun mövzu dairəsi, məşğul olduğu ədəbi-nəzəri problemlər müəyyənləşdirilir və sistemli şəkildə təhlil edilir. Müəllif M.Rəfili yaradıcılığının əsas məziyyətlərindən bəhs edərkən göstərir ki, o, «ədəbi hadisələri mücərrəd şəkildə təhlil etmir, onları həyatla, ədəbi mühitlə, xalqın azadlıq hərəkatı ilə əlaqələndirə bilirdi.»[1]

Tədqiqatçı «Alim, müəllim, şair» məqaləsində[1] isə milli ədəbiyyatşünaslıq tarixinin gərgin axtarışlar dövrün- də – 30-cu illərin axırı, 40-cı və 50-ci illərdə fəaliyyət göstərən, monoqrafiyaları və tədqiqatları ilə həmin ədəbi mərhələnin bir çox problemlərinin həllində yaxından işti-rak edən görkəmli alim Cəfər Xəndanın yaradıcılığından bəhs edir. K.Talıbzadə burada alimin çoxcəhətli fəa-liyyətindən – şeir yaradıcılığından, tərcüməciliyindən, tən-qid və ədəbiyyatşünaslıq elmində xidmətlərindən söz açır, onun konkret əsərləri – Sabir haqqında yazdığı iki monoq-rafiyası, klassik ədəbiyyata dair tədqiqatları, müasir ədə-biyyat, onun müxtəlif məsələlərinə və görkəmli nüma-yəndələrinə həsr etdiyi məqalələri barədə dolğun təsəvvür yaradır. Müəllif yeni müəllim və ədəbiyyatşünaslar nəslinin yetişməsində mühüm xidmətləri olan alimin, qayğıkeş və xeyirxah ziyalının ədəbiyyat elmimizin tərəqqisində əvəzsiz rolu olduğunu vurğulayır.

K.Talıbzadənin müasir ədəbiyyata, ədəbi şəxsiyyətlərə həsr etdiyi tədqiqatları içərisində görkəmli ədəbiyyatşünas Əziz Mirəhmədov haqqında məqaləsi xüsusilə diqqətə-layiqdir.

---

[1] Talıbzadə K. Tənqid və tənqidçilər, Bakı, Yazıçı, 1989, s.358.

Tədqiqatçı bu məqaləni sonsuz səmimiyyətlə qələmə almış, həyatda yaxından tanıdığı alimin şəxsiyyətinə hörmət və ehtiramını burada ifadə etmişdir. Müəllif ədə-biyyat dünyasına daxili, mənəvi bir ehtiyacın tələbilə gələn Ə.Mirəhmədovu ədəbiyyatşünaslığın çoxşaxəli istiqamət-lərində fəaliyyət göstərən fitri istedada malik alim, mətn-şünaslıq, kitabşünaslıq və mətbuatşünaslığın elm sahələri kimi yaranıb inkişaf etməsində əvəzsiz xidmətləri olan böyük ədəbiyyatşünas kimi dəyərləndirir. O, yaradıcılığında daha çox monoqrafik tədqiqatlara geniş yer verən alimin əsərlərinin ancaq fakt zənginliyi ilə yox, həm də mövzu rəngarəngliyi, problematikası, analitik təhlilləri, dərin nəzəri ümumiləşdirmələri, yeni mülahizələri, maraqlı və orijinal elmi nəticələri ilə diqqəti cəlb etdiyini yazır. K.Talıbzadə- nin elmi qənaətinə görə Ə.Mirəhmədov «ədəbi faktı elmə çevirməyi bacaran, faktdan elmə gələn yolun səciyyəsini dərk edən alimdir», və bu cəhət onun tədqiqatlarının müvəffəqiyyətini təmin edən əsas məziyyətlərdən biri he-sab olunur.[1]

60-cı illərdən başlayaraq tənqidi müstəqim yaradıcı- lıq sahəsinə çevirən B.Nəbiyev, Y.Qarayev, Ş.Salmanov, A.Səfiyev, A.Hüseynov, N.Şəmsizadə, V.Osmanlı, V.Quli-yev, R.Əhmədov, V.Nəbiyev kimi tanınmış ədəbiyyatşünas alimlərin ədəbi uğurlarına K.Talıbzadə xüsusi qayğı və həssaslıqla yanaşmış, tədqiqatlarında müntəzəm olaraq on-ların fəaliyyətlərindən söz açmış, yeni tənqidçilər nəslinin məqsəd və vəzifələrini müəyyənləşdirmişdir. Tədqiqatçı nəzəri-estetik

---

[1] Bax: Talıbzadə K. Tənqid və tənqidçilər, Bakı, Yazıçı, 1989, s.359-363.

axtarışlarının hələ ilk dövründə bu cavan tənqidçilərin elmi yaradıcılığını diqqətlə izləyir, yüksək tələbkarlıqla onları sənətin bədii qanunauyğunluqlarına mükəmməl yiyələnməyə səsləyirdi. O, yazırdı: «Müasir tən-qidçi elmi dünyagörüşü ilə silahlanan ideya döyüşçüsü-dür. O, elə elmi-nəzəri savada, elə zövqə malik olmalıdır ki, ədəbi inkişafı qabaqlaya bilsin. Cəmiyyətdə, ədəbiy-yatda müəyyən nüfuz qazana bilsin, sənətə böyük tələb-lərlə yanaşsın, öz tənqidçilik idealına sadiq olsun.»[1] Müəl-lif düzgün olaraq göstərir ki, tənqidin qüdrəti, nüfuzu onun ədəbi prosesə təsir qüvvəsi ilə, ədəbi inkişafla sıx əlaqə yaratması və ədəbi həyatın fəal bir sahəsinə çevril-məsi ilə müəyyənləşir. K.Talıbzadə tənqidçiləri məhz belə bir tənqid yaratmağa, onu inkişaf etdirməyə səsləyirdi. Bu cəhətdən müasir ədəbi prosesi araşdıran tədqiqatçı 70-ci illərdə tənqidlə bədii ədəbiyyat arasındakı intensiv əlaqənin daha da möhkəmləndiyini, dərinləşdiyini, tənqiddə yeni keyfiyyətlər yarandığını müşahidə edirdi. O, milli tənqiddə aydın nəzərə çarpan bu keyfiyyət yeniliklərini aşkara çıxar-maq üçün görkəmli tənqidçi Bəkir Nəbiyevin yaradıcılığına diqqət yetirməyi daha məqsədəuyğun hesab edərək onun «Tənqid və ədəbi proses» kitabında toplanan məqalələrin təhlili əsasında ümumiləşdirmələr aparır, yeni dövr tən-qidinin inkişaf meyllərini izləyir və meydana çıxarırdı. Müəllif göstərirdi ki, həmin məqalələr bütövlükdə 70-ci illər Azərbaycan ədəbi tənqidinin ümumi mənzərəsi ilə, onun mövzuları, ədəbi aləmə müdaxilə prinsipləri, tən-qidçilik manerası və sənətkarlığı

---

[1] Talıbzadə K. Tənqid və tənqidçilər, Bakı, Yazıçı, 1989, s.366.

məsələləri ilə tanışlıq üçün əhəmiyyətli mənbə və məxəzlərdir. Tədqiqatçı bu məqa-lələrin yazıldığı dövrdə ədəbi tənqidin səmərəlilik dərəcəsi, fəallığı, elmiliyi, professionallığı, ədəbi problemləri əhatə dairəsi, kəsəri və digər keyfiyyətlərini müəyyənləşdirmək üçün olduqca zəngin material verdiyini göstərir və əsas-landırırdı. K.Talıbzadə ədəbi proses və tənqidçinin ona mü-nasibəti mövzusunu əhatə edən həmin tədqiqatların tən-qidçi tərəfindən daxili bir tələblə yazıldığını, ədəbi inki-şafın ehtiyacları ilə bağlı qələmə alındığını, burada B.Nəbi-yev tənqidinin əsas, ümdə məziyyətlərinin öz əksini tap-dığını qeyd edirdi. Tədqiqatçının fikrincə, mövzu aktual-lığı, yazıçının ideya mövqeyi, estetik idealı, sənətkarlığı və yaradıcılıq qüdrəti – bütün bunlar vəhdət halında tən-qidçinin hərhansı bədii əsəri, ədəbi hadisəni qiymətlən-dirməsində əsas meyardır. Müəllif belə bir düzgün nəti- cəyə gəlirdi: «B.Nəbiyevin məqalələrində tənqid pafosu güclüdür. Bu ruh – bədii fikrin nöqsanlarına həssas mü-nasibət tənqidçinin yaradıcılıq xüsusiyyətlərindən birinə çevrilmişdir. Bəzi qələm yoldaşları kimi, o, tənqidi müla-hizəni min bir dona geyindirib demir, nöqsanı göstərmək üçün aşkar oluna bilməyən yollar axtarmır, sözü, meyda- na çıxardığı nöqsanları birbaşa söyləyir. Bu keyfiyyət B.Nəbiyevin məqalələrinə kəskinlik gətirir, oxucuda həqiqi tənqidin xüsusiyyətləri haqqında düzgün təsəvvür oya-dır.»[1] Buna görə də B.Nəbiyevin məqalələri ədəbi inkişa- fa müəyyən dərəcədə müsbət təsir göstərir, onlarla bir külliyyat

---

[1] Talıbzadə K.Ədəbi irs və varislər, Bakı, Azərnəşr, 1974, s.30.

halında tanışlıq uzun-müddətli ədəbi təcrübəni ümumiləşdirib, yeni elmi-nəzəri nəticələrə gəlmək imkan-larını genişləndirir.

Beləliklə, K.Talıbzadənin bütövlükdə yeni dövr Azərbaycan ədəbiyyatı, onun görkəmli nümayəndələri haqqın-da fikir və mülahizələri, konkret ədəbi hadisə və ya əsəri təhlil edərkən gəldiyi nəticələr, dərin nəzəri ümumiləş-dirmələr milli ədəbiyyatımızın ən aktual problemlərinin həllinə kömək etmiş, onun düzgün inkişaf istiqamətlərini müəyyənləşdirmişdir.

## NƏTICƏ

Ədəbiyyat sahəsində böyük nüfuz qazanan görkəmli tənqidçi və ədəbiyyatşünas alim, gözəl pedaqoq və iste- dadlı publisist, maarifpərvər ziyalı akademik Kamal Ta-lıbzadə mənalı ömrünün əlli beş ildən çoxunu milli ədə-biyyatımızın, ədəbi tənqidi və nəzəri-estetik fikrimizin təd-qiqinə həsr etmişdir. Əsərlərində ədəbiyyat elminin müx-təlif sahələrini işıqlandıran alim milli ədəbiyyatımızın ən aktual problemlərinin öyrənilməsində, ədəbiyyatşünaslığın və ədəbi tənqidin miqyaslı vəzifələrinin həllində yaxın- dan iştirak etmiş, həmişə böyük ədəbiyyat, böyük sənət məsələlərini özünün təhlil və tədqiqat obyektinə çevirmiş- dir. Onun zəngin,

---

[1] Talıbzadə K. Sənətkarın şəxsiyyəti, Bakı, Yazıçı, 1978, s.373.

çoxsahəli məhsuldar yaradıcılıq yolu milli ədəbiyyatşünaslığın inkişafında mühüm bir mərhələni təşkil edir.

Həmişə elmin başlıca istiqamətində tədqiqatlar apa-ran K.Talıbzadə elmi yaradıcılığa Azərbaycan romantiz-mi mövzusu ilə başlamış, bu ilk tədqiqatı ona böyük uğurlar qazandırmışdır. Romantizmin ikinci dərəcəli bir ədəbi metod və cərəyan kimi anıldığı, romantizm möv-zusuna yaxınlaşmağın ədəbiyyatşünas və tədqiqatçıdan cəsarət tələb etdiyi bir zamanda K.Talıbzadə ilk böyük əsərini XX əsr romantizminin görkəmli nümayəndəsi Ab-bas Səhhətə həsr etmişdir.

Bu fundamental monoqrafiya həm XX əsr Azər-baycan ədəbiyyatı tarixinin müəyyən bir mərhələsinin – əsrin əvvəllərində yaranan ədəbiyyatın tədqiqi, həm gör-kəmli romantik şairin həyat və yaradıcılığının ilk dəfə monoqrafik planda araşdırılması, eləcə də K.Talıbzadənin ilk qələm təcrübəsi kimi onun gələcək tədqiqatlarına möhkəm zəmin yaratdığı üçün əhəmiyyətlidir. «Abbas Səhhət» əsəri milli romantizmşünaslığın ilk nümunələrin-dən biri kimi ədəbi həyata vəsiqə alıb bu sahədə gələcək tədqiqatlara yol açmışdır.

Azərbaycan-rus ədəbi əlaqələrinin tədqiqi də K.Ta-lıbzadə yaradıcılığında əsas yerlərdən birini tutur. Ali-min «Qorki və Azərbaycan» monoqrafiyası ədəbi əlaqələr sahəsində uğurlu tədqiqat nümunələrindən hesab olunur. Qeyd etmək lazımdır ki, ədəbiyyatşünaslığın bütün sahə-lərində

metodoloji sapıntıların baş alıb getdiyi 50-ci illər- də dövrün hakim ideologiyasına, zamanın diqtəsinə uyğun olaraq ədəbi əlaqələr də birtərəfli izah edilir, əsasən rus ədəbiyyatının milli ədəbiyyatlara təsiri zəminində araş-dırılırdı. K.Talıbzadə isə öz monoqrafiyasında ədəbi tə-sir prosesində milli ədəbiyyatların bir-birilə qarşılıqlı tə-masda, bir-birindən faydalanaraq inkişaf etdiyini göstərir, bununla da Azərbaycan ədəbiyyatının milli və bədii mə-nafeyini qoruyurdu. Bu əsas, ümdə elmi məziyyətinə görə «Qorki və Azərbaycan» monoqrafiyası ictimai quruluşun dəyişdiyi, elmin yeni məzmun və mahiyyət kəsb etdiyi bir vaxtda belə öz əhəmiyyətini olduğu kimi saxla-mışdır.

K.Talıbzadənin həyata keçirdiyi çoxcəhətli tədqiqat vəzifələri sırasında onun milli ədəbi tənqidin tarixini yaratmaq sahəsində xidmətlərini, elmin bu istiqamətində apardığı uzun illik tədqiqatlarını xüsusi qeyd etmək la-zımdır. O, müasir ədəbiyyatşünaslıqda milli tənqidin sis-temli tarixini yazan, bu mövzuda fundamental tədqiqat əsərini nəşr etdirən ilk tədqiqatçıdır. «Azərbaycan ədəbi tənqidinin tarixi» monoqrafiyası ilə K.Talıbzadə ədəbiy- yat elminin mühüm və miqyaslı vəzifələrindən birinin həllində əvəzsiz rol oynamış, bu böyük nailiyyətə görə təkcə respublikamızda deyil, bütün Şərq-türk filologiyasında ədəbi məktəb yaradıcısı, tənqidşünaslığın banisi kimi ta-nınmışdır.

K.Talıbzadənin çoxcəhətli yaradıcılığında çağdaş ədə-biyyatın müxtəlif problemlərinin tədqiqi öz əksini tap-mışdır.

Onun yeni dövr Azərbaycan ədəbiyyatının bir sıra vacib problemlərinə həsr etdiyi məqalələri, tədqiqatları xüsusi maraq doğurur. Həmin məqalələrində tədqiqatçı ədəbiyyat nəzəriyyəsinin, tənqidin ən aktual məsələlərinə toxunmuş, dövrün görkəmli yazıçı və ədəbiyyatçılarının yaradıcılığına münasibət bildirmiş, bununla da müasir ədəbiyyat, çağdaş ədəbi proses haqqında konkret, aydın təsəvvür yaratmağa müvəffəq olmuşdur.

Tədqiqatçının qüdrətli milli sənətkarlar – A.Şaiq, S.Vurğun, M.Hüseyn, M.S.Ordubadi, M.Ibrahimov, S.Rəhimov, O.Sarıvəlli, I.Əfəndiyev, N.Xəzri və b., böyük Azərbaycan tənqidçiləri və ədəbiyyatşünasları – M.Arif, M.Cəfər, M.Rəfili, M.Cəlal, C.Xəndan, H.Araslı, Y.Qa-rayev, B.Nəbiyev və b. haqqında elmi-nəzəri məqalələri bu qəbildəndir.

Ədəbiyat tarixçiliyi və mətnşünaslıq da alimin fəaliyyətinin mühüm bir hissəsini təşkil edir. K.Talıbzadə Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat Institutunda işlədiyi əlli beş il ərzində burada hazırlanan rus və Azərbaycan dillərində bütün çoxcildli ədəbiyyat tərixləri-nin təşkilatçısı, müəllifi və redaktorlarından biri olmuşdur. Onun üççildlik Azərbaycan ədəbiyyatı tarixinin hazır-lanması və nəşrində xidmətləri isə xüsusi qeyd edilmə-lidir. Tədqiqatçı mətnşünaslıq elmimizin qiymətli bir tarixi mərhələsinin yaradıcısı kimi məhsuldar fəaliyyət göstər-mişdir. O, A.Səhhətin bircildlik və ikicildlik, F.Köçərlinin bircildlik,

S.S.Axundovun bircildlik, A.Şaiqin beşcildlik, S.Vurğunun altıcildlik, M.Arifin üççildlik seçilmiş əsərlə-rini tərtib və redaktə etmiş, onlara geniş müqəddimələr, izahlar və şərhlər yazmış, onların nəşrində bilavasitə iştirak etmişdir.

K.Talıbzadə həm də görkəmli elm təşkilatçısıdır. Milli ədəbiyyatşünaslığın, milli filologiya məktəbinin mərkəzi sayılan Nizami adına Ədəbiyyat Institutunda kiçik elmi işçi vəzifəsindən akademikliyə qədər zəngin bir yaradıcı- lıq yolu keçən alimin fəal iştirakı ilə ədəbiyyatımızın çoxcildlik tarixləri yazılmış, ədəbi tənqidin nəzəri məsə-lələrinin həllinə doğru yönəlmiş bir çox respublika və ittifaq miqyaslı tədbirlər, o cümlədən realizm, romantizm müşavirələri hazırlanıb keçirilmişdir.

K.Talıbzadənin bir sıra mötəbər elmi yığıncaqların, konfrans, müşavirə və simpoziumların keçirilməsi ilə bağlı xidmətləri də əvəzsiz olmuşdur. O, respublikada ədəbi-nəzəri araşdırmaları əlaqələndirən «Müasir dünya ədə-biyyatının inkişaf qanunauyğunlqları» Əlaqələndirmə Şu-rasının yaradılmasında fəal iştirak etmiş, həmçinin nami-zədlik və doktorluq dissertasiyalarının müdafiəsi üçün ixti-saslaşdırılmış şuralarda fasiləsiz olaraq çalışmışdır.

Alimin «Kitabi-Dədə-Qorqud» Dövlət Yubileyi Komissiyasının və Füzuli adına Beynəlxalq Mükafatlar Komis-siyasının işində fəal iştirakı, çoxcildlik «Azərbaycan ədə-biyyatı tarixi»nin IV cildinin məsul redaktoru kimi ça-lışması, ikicildlik ədəbi tənqid və ədəbiyyatşünaslıq mün-təxabatı

hazırlayan qrupa rəhbərliyi, elmi yığıncaqlarda sanballı məruzələrlə çıxış etməsi, Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsinin üzvü, AAK-nın vaxtaşırı ixtisaslaşdırılmış şuralarının sədri kimi fəaliyyəti təqdirəlayiqdir.

Milli ədəbiyyatşünaslığımızın, ədəbi-nəzəri fikrimizin inkişafında, elmi-pedaqoji kadr hazırlığında, kütləvi elmi tədbirlərin həyata keçirilməsində müstəsna xidmətləri olan alimin fəaliyyəti dünya xalqlarının ədəbi-elmi ictimaiy-yətinin diqqətini cəlb etmiş, öz layiqli qiymətini almış-dır. Onun bütün Şərq-türk ədəbiyyatının inkişafına kömək edən əsərləri Türkiyə, Qazaxıstan, Tatarıstan, Özbəkistan, Türkmənistan və digər türk xalqlarının, həmçinin Taci-kistanın nəzəri-estetik fikrinin tədqiqinə möhkəm zəmin yaratmışdır. Çünki, milli ədəbiyyatın, mədəniyyətin dolğun şəkildə təzahürü olan K.Talıbzadə yaradıcılığında yalnız ədəbiyyatımız və onun mühüm yaradıcılıq problemləri deyil, bütünlükdə böyük türk mənəviyyatımız, milli şüu-rumuz, təfəkkürümüz öz əksini tapmışdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Abdullayev K. Abbas Səhhətin həyat və yaradıcılığına həsr edilmiş elmi əsər, Azərbaycan dili və ədəbiyyatı tədrisi (Metodik məqalələr məcmuəsi), Bakı, 1-ci buraxılış, 1956, s.89-93.
2. Ağazamanqızı G. 50 il ədəbi mübarizədə, «Zaman» qəz., Bakı, 1998, 25 noyabr.
3. Ахмедов Т. Азербайджанская литературная критика XX века, Литературный Азербайджан, 1967, № 1, с.130-132.
4. Akpinar Yavuz. Azeri edebiyyatı araşdırmaları, Istan-bul, 1994, 512 s.
5. Алибекова Г. М.Горький и Азербайджан, Вопросы литературы, 1962, № 2, с.226-228.
6. Alışanov Ş. Tənqidi fikrimizin tarixi, «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1985, 31 may.
7. Arif M. Seçilmiş əsərləri (üç cilddə), I c., Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1967, 620 s.
8. Arif M. Sənətkar qocalmır, Bakı, Yazıçı, 1980, 368 s.
9. Асадуллаев С. М.Горький и Азербайджан. Литературный Азербайджан, 1961, № 2, с.148-154.
10. Babayev N. Sadəlik işığı, Azərbaycan, 1983, № 8, s.161-163.
11. Babayev N. Sənətkarın şəxsiyyəti və ədəbi proses, «Bakı» qəz., 1979, 12 oktyabr.
12. Bayramoğlu A. Görkəmli ədəbiyyatşünas alimin yubi-leyi, «Respublika» qəz.,1998, 6 noyabr.

13. Bayramov Ə. Ot kökü üstə bitər, «Xalq qəzeti», 1999, 5 iyun.
14. Байрамов К. История азербайджанской критической мысли, газ. «Баку», 1986, 23 августа.
15. Bayramov Q., Əliyev K. Şəxsiyyət və yaradıcılıq, «Ədə-biyyat və incəsənət» qəz., 1979, 20 aprel.
16. Бердибаев Р. В редакцию пришло письмо (Дорогой Камал Талыбзаде), газ. «Элм», 1992, 10 мая.
17. Bəyverdiqızı S. Gərgin axtarışda keçən ömür, «Gömrük xəbərləri» qəz., 1998, 9 dekabr.
18. Cəfər M. Ədəbi tənqidimizin tarixi yaranır, «Ədəbiy-yat və incəsənət» qəz., 1965, 15 may.
19. Cəfəroğlu Ə. XX əsr Azərbaycan ədəbi tənqidi (1905-1917), Türkiyyat məcmuəsi, Istanbul, 1972, XVII c., s.277-281.
20. Cəfəroğlu Ə. Sovetlər birliyi türkolojisi araşdırmala-rındakı rus kültür üstünlüyü davası, Sovetlər Birliyini Öyrənmə Institutunun Dərgisi, Münhen, 1971, № 66, s.210-215.
21. Джафаров Д. Заметки о литературной критике, Лите-ратурный Азербайджан, 1966, № 6, с. 120.
22. Ədəbiyyatımızın bayramı (K. Talıbzadə – 75), «Bor-çalı», 1998, 14 noyabr.
23. Ədəbi irs və varislər, Azərbaycan SSR EA Xəbərləri, Ədəbiyyat, Dil və Incəsənət seriyası, 1975, № 2, s.124-126.
24. Əfəndiyev A. Ədəbiyyat və bədii tənqid, «Ədəbiyyat və incəsənət» qəz., 1972, 19 fevral.

25. Əfəndiyev H. Qorki realizm və romantizm haqqında, «Ədəbiyyat qəzeti», 1948, 25 iyun.
26. Əfəndiyev H. Sosialist realizminin böyük klassiki, «Ədəbiyyat qəzeti», 1938, 30 mart.
27. Əfəndiyev Ə. Görkəmli tənqidçi və ədəbiyyatşünas alim, «Respublika» qəz., 1999, 7 fevral.
28. Əfəndiyev S., Xəlilov Q. Azərbaycan ədəbiyyatı tari-xinə dair qiymətli əsər, «Kommunist» qəz., 1962, 13 fevral.
29. Əhmədov T. XX əsr Azərbaycan ədəbi tənqidi, «Sovet Ermənistanı» qəz., 1967, 25 mart.
30. Əhmədov T. Görkəmli ədəbiyyatşünas alim, «Respublika» qəz., 1998, 4 noyabr.
31. Əhmədov T. Vətəndaş elm xadimi, «Vətən həsrəti» qəz., 1993, 24 sentyabr.
32. Əliqızı X. KQB-dən «keçməyib» (K. Talıbzadə – 75), «Hər gün» qəz., 1998, 1 dekabr.
33. Əliyev K. Təmkinli elmi yaradıcılıq, «Azərbaycan müəllimi» qəz., 1983, 21 sentyabr.
34. Əliyev K. Tənqidimizin ilk elmi tarixi kitabı, «Azərbaycan müəllimi» qəz., 1985, 9 avqust.
35. Əsədullayev S., Qurbanov Ş. Qorki və Azərbaycan ədəbiyyatı, «Ədəbiyyat və incəsənət» qəz., 1971, 20 fevral.
36. Əyyubov V. Abbas Səhhət, Kitablar aləmində, 1987, № 2, s.29-30.
37. Hacızadə A. Sən müqəddəs bir ocağın nəfəsindən yarandın, «Sosial rifah» qəz., 1998, 12-15 avqust.
38. Həsənova G. Elm fədaisi, «Şəhriyar» qəz., 1999, 11 fevral.

39. Hüseynzadə Ə.B. Qırmızı qaranlıqlar içində yaşıl işıq-lar, Seçilmiş məqalələr, Bakı, Azərnəşr, 1996, s.253.
40. Ибрагимов Х. Неутомимый исследователь, газ. «Бакинский рабочий», 1983, 14 август.
41. Ибрагимов И. Капитальный труд по азербайджанской литературе, газ. «Бакинский рабочий», 1983, 14 августа.
42. Imanov M. Ədəbi tənqid özünü təsdiq yollarında, Azərbaycan SSR EA Xəbərləri, Ədəbiyyat, Dil və Incəsənət seriyası, 1985, № 4, s.127-129.
43. Ismayılova X. Köhnə kişilərdən biri, «Günaydın» qəz., 1998, 10-11 noyabr.
44. Ismayılov Q. Abbas Səhhət haqqında kitab, «Ədəbiy-yat və incəsənət» qəz., 1956, 1 aprel.
45. Ismayılov Y. Ədəbi irs və varislər, Azərbaycan EA Xəbərləri, Ədəbiyyat, Dil və Incəsənət seriyası, 1975, № 2, s. 124-126.
46. Israfilov H. Sənətkarın şəxsiyyəti. Azərbaycan, 1980, № 3, s.195-199
47. Kamal R. Kamal Talıbzadə və mən (esse), Ulduz, 1992, № 11-12, s.59-61.
48. Касумзаде И. Талант, эрудиция, принципиальност, Литературный Азербайджан, 1983, № 8, с.104-105.
49. Knyaz A. Ağsaqqallar ocağında, «Borçalı» qəz., 1988, 9 oktyabr.
50. Гаджиев А. Горький в Азербайджане. Литературный Азербайджан,1971, № 5, с.131-134.

51. Qarayev T., Məmmədov A, Ömrün təsəlli yaşı, Ulduz, 1983, № 8, s.26-29.
52. Qarayev Y. Ədəbi təsir və əlaqə problemlərinə həsr edilmiş yeni əsər, Azərbaycan, 1960, № 2, s.205-210.
53. Qarayev Y. Tənqid, problemlər, portretlər, Bakı, Azərnəşr, 1976, s.912.
54. Qarayev Y. Görkəmli alim (K.Talıbzadənin anadan olmasının 60 illiyi münasibətilə), «Kommunist» qəz., 1983, 14 avqust.
55. Qasımzadə I. Müasir tənqid haqqında qeydlər, Ulduz, 1969, № 4, s.59-61.
56. Гулизаде М. Азербайджанское советское литературоведение, Советская тюркология, 1970, № 5, с.18.
57. Qurbanov Ş. XX əsr tənqidimiz, «Ədəbiyyat və incəsənət» qəz., 1966, 25 iyun.
58. Лукьянова С. Горький и Азербайджан, газ. «Молодежь Азербайджана», 1970, 17 декабря.
59. Məmmədoğlu Ş. Qəlbin və fikrin işığı, «Xalq qəzeti», 1993, 20 avqust.
60. Мамедов М. Горький в Азербайджане, газ. «Баку», 1971, 11 февраля
61. Мамедов С. И труд и песня – тебе земля…, Литературный Азербайджан, 1971, № 3, с.5.
62. Мамедзаде С. Ампутированная правда, Юрд, 1993, №6, с.42-44.
63. Меликова С. Интересно для всех, газ. «Бакинский рабочий», 1971, 24 июля.

64. Məlikov F. Qorki və Azərbaycan, «Ədəbiyyat və incəsənət» qəz., 1959, 26 dekabr.
65. Məmmədov A. Iki qütbün vəhdəti, Azərbaycan SSR EA Xəbərləri, Ədəbiyyat, Dil və Incəsənət seriyası, 1982, № 2, s.133-134.
66. Məmmədov A. Gəncliyə bağlı ömür, «Azərbaycan gəncləri» qəz., 1983, 1 oktyabr.
67. Məmmədov A. N.V. Qoqol Azərbaycan ədəbiyyatşünaslığında, «Ədəbiyyat və incəsənət» qəz., 1984, 6 aprel.
68. Məmmədov A. Tənqidi fikrin inkişaf yolları, Ulduz, 1986, № 5, s.38-41.
69. Məmmədov Ə. Maksim Qorki məcmuəsi, «Ədəbiyyat və incəsənət» qəz., 1968, 7 sentyabr.
70. Məmmədov M. Görkəmli alim, «Sovet Gürcüstanı» qəz., 1973, 3 iyul.
71. Məmmədov N. Ədəbi tənqid haqqında monoqrafiya, Azərbaycan, 1967, № 8, s.200-203.
72. Mirəhmədov Ə. Ədəbi irs və varislər, «Kommunist» qəz., 1974, 21 noyabr.
73. Mirzəyev Ə. Ədəbi irs və varislər, «Azərbaycan müəllimi» qəz., 1975, 5 fevral.
74. Mirzəyev Q. Alim ömrü, «Ədəbiyyat» qəz., 1999, 22 yanvar.
75. Mirzəyev R. Böyük nəslin böyük nümayəndəsi, «Cümhuriyyət» qəz., 1993, 25 sentyabr.
76. Mirzəyev R. Tənqidin həqiqəti, Azərbaycan, 1991, №11-12, s.172-175.

77. Мусаев А. Чествование ученого, газ. «Бакинский рабочий», 1995, 12 октября. 78. Mustafayev M. Keçmişə xor baxanın gələcəyi olmaz, «Ədəbiyyat» qəz., 1997, 9 dekabr.
79. Müasir milli-ədəbi prosesin tədqiqatçısı, «Ad günü» qəz., 1998, avqust, № 4-5.
80. Набиев Б. Неутомимый исследователь, газ. «Бакинский рабочий», 1983, 14 августа.
81. Набиев Б Ценное наследие азербайджанского критика, Дружба народов, 1964, № 10, с.257-259.
82. Nazim Ə. Seçilmiş əsərləri, məqalələr, Bakı, Yazıçı, 1979, s.376.
83. Nəbiyev B. 60 il xalqın xidmətində, Azərbaycan, 1979, № 12, s.117-127.
84. Nəbiyev B. Ədəbi fakt və ümumiləşdirmə, Azərbaycan, 1985, № 10, s.167-168.
85. Nəbiyev B., Salmanov Ş. Ədəbi tənqidimizin ilk tarixi, «Bakı» qəz., 6 may.
86. Nəbiyev B., Salmanov Ş. Oktyabr və Azərbaycan sovet ədəbi tənqidinin inkişaf yolları, Azərbaycan EA Xəbərləri, Ədəbiyyat Dil və Incəsənət seriyası, 1987, № 4, s.10-27.
87. Nəbiyev B. Tənqid və ədəbi proses, məqalələr məc-muəsi, Bakı, Azərnəşr, 1976, s.185.
88. Nəbiyev B. Yaxşıların yaxşısı, Ədəbiyyat qəzeti, 2006, 27 yanvar.
89. Novruzov T. Görkəmli tənqidçi, ədəbiyyatşünas və elm xadimi, «Xalq qəzeti», 1998, 15 avqust.

90. Османлы С., Аскерли З. Прослеживая истоки, «Литературный Азербайджан», 1985, № 11. с.125-127.
91. Османлы С. Путь научных исканий, газ. «Баку», 1983, 30 сентября.
92. Osmanlı V. Ədəbiyyatşünaslığın aktual problemləri, Azərbaycan EA Xəbərləri, Ədəbiyyat Dil və Incəsənət seriyası, 1976, № 3.
93. Osmanlı V. Sənətkarın şəxsiyyəti, «Kommunist» qəz., 1979, 3 fevral.
94. Османов В. История азербайджанской литературной критики, Советская тюркология, 1986, № 1, с.106-108.
95. Пирадов Б. М.Горький в Азербайджане, Литературная Грузия, 1973, № 1, с.95-96.
96. Rəhimli T. Abbas Səhhət yaradıcılığı K.Talıbzadənin tədqiqində, Professor-müəllim heyətinin 61-ci elmi konfransının materialları, 11 buraxılış, ADPU, 2001, s. 50-51.
97 Rəhimli T. Azərbaycan ədəbi tənqidinin təşəkkü- ündə Kamal Talıbzadənin rolu, Pedaqoji universitet xəbərləri (humanitar elmlər seriyası), № 1, Bakı, ADPU, 1998, s.186-188.
98. Rəhimli T. Azərbaycan-rus ədəbi əlaqələri K.Talıbzadənin tədqiqində, Aspirantların və gənc tədqiqatçıların V1 respublika elmi konfransının materialları, 2 c., Bakı, Az.TU, 2000, s.174-175.
99. Rəhimli T. Azərbaycan ədəbi tənqidi Kamal Talıbzadə yapradıcılığında, Aspirantların və gənc tədqiqatçıların

respublika elmi konfransının materialları, 2 c., Bakı, ADPU, 1998, s.15-16.

100. Rəhimli T. Böyük nəslin layiqli yadigarı, monoqra-fiya, Bakı, ADPU, 2002, s.115.

101. Rəhimli T. Çağdaş Azərbaycan ədəbiyyatı K.Talıbza-dənin tədqiqində, Aspirantların və gənc tədqiqatçıların V11 respublika elmi konfransının materialları, Bakı, ADIU, 2001, s.291-292.

102. Rəhimli T. Kamal Talıbzadə yaradıcılığında Azərbay-can romantizmi, Aspirantların və gənc tədqiqatçıların respublika elmi konfransının materialları, 2 c., Bakı, Az.IMU, 1999, s. 41.

103. Rəhimli T. K.Talıbzadənin elmi və elmi təşkilatçılıq fəaliyyətinin əsas inkişaf istiqamətləri, Pedaqoji uni-versitet xəbərləri (Humanitar, pedaqoji, psixoloji elmlər seriyası), Bakı, ADPU, 2001, № 4, s. 194-199.

104. Rəhimli T. K.Talıbzadə yaradıcılığında ədəbi əlaqələr problemi, Aspirantların və gənc tədqiqatçıların elmi konfransının tezisləri, 11 hissə, BDU-80, Bakı, BDU, 2000, s.138-139.

105. Rəhimli T. Kamal Talıbzadənin «Seçilmiş əsərləri», «Azad Azərbaycan» qəz., № 208, 1996, 5 iyun.

106. Rəhimli T. Kamal Talıbzadə yaradıcılığında çağdaş milli ədəbiyyatın öyrənilməsi, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (ali məktəblərarası tematik məcmuə), 1 buraxılış, Bakı, Mütərcim, 2002, s. 80-83.

107. Rəhimli T. Kamal Talıbzadə yaradıcılığında milli romantizmin tədqiqi, Pedaqoji universitet xəbərləri (Humanitar, pedaqoji, psixoloji elmlər seriyası), № 1, Bakı, ADPU, 2002, s. 20-23.
108. Rəhimli T. Qorki və Azərbaycan mövzusu K.Talıbzadənin tədqiqində, Humanitar elmlərin öyrənilmə-sinin aktual problemləri (ali məktəblərarası tematik məcmuə), 1 buraxılış, Bakı, Mütərcim, 2002, s. 76-80.
109. Rəhimli T. Milli ədəbi tənqid tarixinin yazılmasında K.Talıbzadənin xidmətləri, Pedaqoji universitet xəbər-ləri (Humanitar, pedaqoji, psixoloji elmləır seriyası), № 1, Bakı, ADPU, 2002, s. 23-26.
110. Rəhimli T. Milli romantizmin tədqiqi tarixindən. Filo-loji araşdırmalar, XX kitab, Bakı, Azərnəşr. 2004, s. 216-219.
111. Rəhimli T. Ölümsüzlük zirvəsinin fatehi, Kamal Talıbzadə – Kübarlıq məktəbi (məqalələr toplusu), Bakı, Xəzər Universitəsi Nəşriyyatı, 2007, s. 256-260.
112. Salmanov Ş. Akademik Kamal Talıbzadə, Bakı, Ozan, 1998, s.106.
113. Salmanov Ş. Azərbaycan ədəbi tənqid tarixinin tədqi-qi, Azərbaycan EA Xəbərləri, Ədəbiyyat Dil və In-cəsənət seriyası, 1986, № 2, s.133-137.
114. Salmanov Ş. Böyük tədqiqatlar yolu, «Ədəbiyyat qəzeti», 1998, 21 avqust.
115. Salmanov Ş. Ədəbiyyatşünaslığın yüksək vəzifəsinə sədaqət, «Ədəbiyyat və incəsənət» qəz., 1983, 12 avqust.

116. Salmanov Ş. Tədqiqat fikrinin genişliyi, «Ədəbiyyat qəzeti», 1993, 13 avqust.
117. Salmanov Ş. Tənqidi fikrin tarixi, «Elm» qəz., 1986, 9 may.
118. Salmanov Ş. Tənqidimizin cəfakeşi, Azərbaycan, 1998, № 9, s.159-163
119. Salmanov Ş. Tənqidin və tədqiqatın birliyi, «Azərbaycan» qəz., 1995, 16 avqust.
120 Salmanov Ş. Tənqid və tənqidçilər, «Elm» qəz., 1989. 25 noyabr.
121. Saraclı Ə. Ədəbiyyat elmimizin ağsaqqalı, «Azərbaycan» qəz., 1993, 13 avqust.
122. Saraclı Ə. Müdrikliyin zirvəsi. «Sabah» qəz., 1998, 21-28 avqust.
123. Sarvan M. Kamal Talıbzadə, Ulu Borçalı, 1998, s.309-314.
124. Səfiyev A. Müasirlik mövqeyindən, «Ədəbiyyat və incəsənət» qəz., 1969, 8 fevral.
125. Şamil M. Qəlbin və fikrin işığı, «Xalq qəzeti», 1993, 20 avqust.
126. Шарифли Т. Горький в Азербайджане, Azərbaycan SSR EA Xəbərləri, Ədəbiyyat, Dil və İncəsənət seriyası, 1973, № 1, s.139-141.
127. Шариф А.. Ценный литературный труд, газ. «Баку», 1966, 27 октября.
128. Шариф А. Веское слово об азербайджанской критике, Вопросы литературы, 1966, № 11, с.208-211.

129. Şəmsizadə N. Qiymətli tədqiqat, «Ədəbiyyat və incəsənət» qəz., 1986, 4 aprel.
130. Şəmsizadə N. Türk təfəkkürü məcrasında, Bakı, Təh-sil, 1998, s.82.
131 Şəmsizadə N. Patriarxın ölümü, «Ədəbiyyat qəzeti», 2006, 27 yanvar.
132. Şərif Ə. Ədəbi tənqid haqqında əsər, «Kommunist» qəz., 1986, 17 dekabr.
133. Şıxəliyeva R. Ədəbi-bədii tənqid və vəzifələr, «Jurnalist» qəz., 1984, 17 iyul.
134. Talıbzadə K. Abbas Səhhət, Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1955, s.194.
135. Talıbzadə K. Azərbaycanın elm və mədəniyyət xadimləri, biblioqrafiya, Bakı, Elm, 2000, s.208.
136 . Talıbzadə Kamal Abdulla Şaiq oğlu, Azərbaycan Sovet Ensiklopediyası, Bakı, 1986, IX c., s.133.
137. Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi (1800-1920-ci illər), Bakı, Maarif, 1984, s.340.
138. Talıbzadə K. Ədəbi irs və varislər, Bakı, Azərnəşr, 1974, s.318.
139 Talıbzadə K. Qorki və Azərbaycan, Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1959, s.215.
140 Talıbzadə K. Seçilmiş əsərləri, iki clddə, Bakı, Azərnəşr, I c., 1991, s.393; II c., 1994, s.432.
141. Talıbzadə K. Sənətkarın şəxsiyyəti, Bakı, Yazıçı, 1978, s.319.
142. Talıbzadə K. Tənqidimiz haqqında qeydlər, Bakı, Gənclik, 1967, s.166.

143. Talıbzadə K. Tənqid və tənqidçilər, Bakı, Yazıçı, 1989, s.490.
144. Talıbzadə K. XX əsr Azərbaycan tənqidi (1905-1917-ci illər), Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1966, s.540.
145. Tarıverdiyeva K. Məslək dostları, Bakı, Azərnəşr, 1992, s.49-69.
146. Vəliyev H. Görkəmli alim, mehriban insan, «Sovet Gürcüstanı» qəz., 1983, 10 sentyabr.
147. Vəliyev Ş. Tənqidimizin tarixi və müasirlik, Kitablar aləmində, 1986, № 2, s.24-26.
148. Vəliyev Ş., Vəliyeva A. Məsləkim tərcümeyi-halımdır, «Bakı» qəz., 1986, 20 avqust.
149. Yazıçı, alim, vətəndaş, «Ədəbiyyat və incəsənət» qəz., 1987, 27 noyabr.
150. Yusifli V. Fikir karvanlarının izi ilə, Azərbaycan, 1985, № 12, s.177-180.
151. Yusifli V. Həmişə yadımda olan tənqidçi, Azərbaycan, 1993, № 910, s.128-131.
152. Yusifli V. Ustad tənqidçi, «Panorama» qəz., 1998, 1 sentyabr.
153. Заманов А., Османлы С. Право на приоритет, газ. «Бакинский рабочий», 1986, 10 апреля.

# M Ü N D Ə R I C A T

**Ön söz**…………………………………………...…………...3
**Müəllifdən**……………………………………………………7
**GIRIŞ**…...…………………………………………………….16

**I FƏSIL: KAMAL TALIBZADƏ YARADICILIĞINDA ƏDƏBI ŞƏXSIYYƏTLƏR VƏ PROBLEMLƏR**……………………………..28
*1.1. Akademik K. Talıbzadənin həyatının və elmi fəaliyyətinin əsas inkişaf mərhələləri* ……………………..............28
*1.2. «Abbas Səhhət» monoqrafiyası*…………….............……48

**II FƏSIL: ƏDƏBI ƏLAQƏLƏRIN YENI IDEYA-ESTETIK KONSEPSIYA ZƏMININDƏ ÖYRƏNILMƏSI**…………………………..96
*2.1. Problemin qoyuluşu, nəzəri əsasları*……………..........96
*2.2. «Qorki və Azərbaycan» monoqrafiyası, onun milli ədəbiyyatşünaslığın tarixində yeri*…….…..............….106

**III FƏSIL: ƏDƏBI TƏNQIDIN TARIXININ VƏ NƏZƏRIYYƏSININ TƏDQIQI**…………......133
*3.1. Azərbaycan ədəbi tənqidinin tarixi konsepsiyası; onun inkişaf istiqamətləri*………………………………....136
*3.2. Yeni dövr Azərbaycan ədəbiyyatı……………….............196*

NƏTICƏ………………………………………………....233
ƏDƏBIYYAT …………………………………………...246

**Təranə Yusif qızı Rəhimli**

**Ədəbiyyat və tənqidin yaradıcılıq problemləri**

**(Akademik Kamal Talıbzadənin elmi-nəzəri irsi əsasında)**
Bakı, «Avropa», 2009

**Kompüter tərtibçisi və texniki redaktoru:**
***Zaur Rəhimli***

**Korrektoru:**
***Aygün Hacıyeva***

**Kompüterdə yığdı:**
***Ilhamə Hüseynova***